IFJ FIP

JuHİ



# HƏQİQƏTİ ÇATDIRMAQ

## ETİK JURNALİSTİKA TƏŞƏBBÜSLƏRİ

## AZƏRBAYCAN MEDİASINDA ETİK STANDARTLAR

Bakı - 2012

Azərbaycan Jurnalistlərinin Həmkarlar İttifaqı
www.juhi.az

Beynəlxalq Jurnalistlər Federasiyası
www.ifj.org

# AZƏRBAYCAN MEDİASINDA ETİK STANDARTLAR

**Müəllif:**
*Müşfiq Ələsgərli, Azərbaycan Jurnalistləri Həmkarlar İttifaqının (JuHİ) sədri*

**Layihənin direktoru:**
*Oliver Money Kyrle, BJF baş katibinin müavini*

**Redaktor:**
*Əhməd Əlili, JuHİ Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri*

**Tərcümə işlərinə məsul:**
*Tohfə Ağayeva, JuHİ Beynəlxalq Əlaqələr Departamentinin əməkdaşı*

**Materialların yığılmasına məsul:**
*Seymur Verdizadə*

**Dizayn:**
*Üzeyir Rəhimov*

**Nəşr edilmişdir:**
*Fiziki şəxs Səfiyev İlqar Məhərrəm oğlu (VÖEN: 2901096192)*

Kitabın hazırlanmasında göstərdikləri yardıma görə Əflatun Amaşova (Azərbaycan Mətbuat Şurasının sədri), Cahangir Məmmədliyə (Bakı Dövlət Universitetinin professoru), Vüsalə Mahirqızına (APA İnformasiya Agentliyinin baş direktoru), Gülnarə Axundovaya (İMS-Beynəlxalq Media Dəstəyi-nin Azərbaycan təmsilçisi), Arif Əliyevə (“Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri), Ələsgər Məmmədliyə (Hüquqşünas, media araşdırıcısı) təşəkkürümüzü bildiririk.

Kitab Beynəlxalq Jurnalistlər Federasiyası tərəfindən Baş Katib Aydan Vaytın müəllifliyi ilə 2008-ci ildə nəşr edilmiş “HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri” kitabı əsasında hazırlanmış və redaktə edilmişdir.

Kitab “Etik Jurnalistika Təşəbbüsləri-Azərbaycan” layihəsi çərçivəsində hazırlanıb. Layihənin müəllifi Beynəlxalq Jurnalistlər Federasiyası, Azərbaycan üzrə icraçı Azərbaycan Jurnalistlərinin Həmkarlar İttifaqıdır. Layihə Avropa Komissiyasının Azərbaycan nümayəndəliyi tərəfindən maliyyələşdirilib və 2010-2012-ci illərdə icra olunub.

Bu nəşrin məzmunu üzrə tam məsuliyyəti JuHİ və Beynəlxalq Jurnalistlər Federasiyası daşıyırlar, nəşr heç bir halda Avropa İttifaqının baxışlarını əks etdirmir.

# İçindəkilər

Ön söz ........ 4

**Fəsil 1: PEŞƏ ETİKASI NƏYİ ÖYRƏDİR?**

Etik prinsiplərin formalaşmasına doğru ........ 5
Etika nə üçün lazımdır? ........ 8
Peşə etikasının nəzəri əsasları ........ 10
Peşə etikasının praktik istiqamətləri ........ 15

**Fəsil 2: ETİK PRİNSİPLƏR VƏ MEDİANIN ÖZÜNÜTƏNZİMLƏMƏSİ**

Etik mühakimə modelləri ........ 25
Medianın özünütənzimləməsi mexanizmləri və mətbuat şuraları ........ 27
Dürüst və vicdanlı: jurnalist etikası və mətbuatın özünütənzimləməsi ........ 29

**Fəsil 3: AZƏRBAYCAN MEDİASINDA ETİK DURUM**

Azərbaycan mediasında etik prinsiplərə necə əməl olunur? ........ 32
Azərbaycan mediasında etik prinsiplərin pozulmasını şərtləndirən amillər ........ 36
Etik media mühiti üçün əlverişli ortamın şərtləri ........ 38
Etik media mühiti anlayışı beynəlxalq təcrübədə ........ 39

**Fəsil 4: YENİ MEDİA VƏ ETİK STANDARTLAR**

Etik prinsiplərə münasibətdə ənənəvi media ilə yeni medianın fərqi ........ 41
Yeni media anlayışı nəyi ehtiva edir? ........ 41
Sosial media və sosial şəbəkələr ........ 41
Yeni mediada etik standartlar varmı? ........ 43
Rəqəmsal mediada etik dilemmalar ........ 44
Vətəndaş jurnalistikası-keyfiyyət problemi ........ 46

**Fəsil 5: PEŞƏ ETİKASI - MEDİA HÜQUQU**

Jurnalist mənbələrinin qorunmasnın etik və hüquqi prinsipləri ........ 50
Məlumat azadlığı, sui-istifadənin yolverilməzliyi ........ 53
Məxfilik və jurnalistlərin hüquqları ........ 56
Böhtanın yolverilməzliyi ........ 58
Jurnalistika irqçilik və dözümsüzlüyə qarşı: din və media ........ 60
Mediada terrorizm hadisələrinin işıqlandırılmasının hüquqi və etik aspektləri ........ 61
Mediada müharibə təsviri: jurnalistin davranış qaydaları ........ 63
Uşaqlarla müsahibə götürmək üçün 10 əsas şərt ........ 64

**ETİK KODEKSLƏRƏ DAİR NÜMUNƏLƏR ........ 65-69**

Biblioqrafiya ........ 70

# Söz önü

## Etika alovunu daim yanar saxlamalı

**Cim Bumela (Jim Boumelha)**
*Beynəlxalq Jurnalistlər Federasiyasının Prezidenti*

Jurnalistikanı köklü dəyişikliklərə aparan bir böhran Avropa və Amerikadakı medianı cənginə almışdır. Yeni sahibkarlar nəsli büdcə xərclərini kəsib-doğrayır, xəbər redaksiyalarını darmadağın edir, xarici büroları bağlayır, redaksiya işçilərinin sayı ilə yanaşı bölmə və şöbələri də azaldırlar. Onların çoxu belə hesab edir ki, etik jurnalistika və yüksək standartlar uzun illər ərzində maliyyə və kommersiya maraqlarını üstələmiş köhnə dəbli ideyalardır.

Siyasi oyunçuların və iri biznes sahiblərinin istəklərindən yaranan təzyiqə qarşı durmaq üçün jurnalistlərin köməyə, dəstəyə ehtiyacları vardır. Çox mühüm olan budur ki, hər bir ölkədə, hər bir sistem altında minlərlə jurnalist etik kodeksə müvafiq formada işləməyə cəhd edir. Onlarda belə bir hiss var ki, əlində güc olan şəxslərə nəzarət etmək, vətəndaşları məlumatlandırmaq, ictimai maraq naminə davranmaq lazımdır.

Xəbər redaksiyalarının və media təşkilatlarının uğuru peşəkarların öz aralarında vahid komanda formasında işləmələrindən asılıdır. Həmkarları ilə arasında həmrəylik olmadan jurnalistin “etik davranması” çox çətindir. Siyasi doqmaların, media sahiblərinin, şəklini dəyişmiş başqa maraqların ruporu olmaq istəməyən jurnalistlərin həmkarları tərəfindən dəstəyə ehtiyacları var. Xüsusən, onların jurnalistlərin həmkarlar ittifaqları tərəfindən təmin edilən köməyə ehtiyacları vardır.

Bu kitabda göstərilmiş Etik Jurnalistika Təşəbbüsləri öz peşələrində etika alovunu daim yanar saxlamağa çalışan jurnalistlərə köməyi təmin etmək üçündür. Kitabda təhlükələr barədə xəbərdarlıqlar, həmçinin, ənənəvi və yeni medianın qarşıdurması əsrində jurnalistikanın arxasında durmaq istəyən şəxslər üçün həvəsləndirmələr də var. Bu qarşıdurmalarda jurnalistika ictimai faydalı iş kimi etik dəyərlərə söykənməsə, heç bir formada xilas ola bilməyəcəkdir.

## Aktual sual

***Müşfiq Ələsgərli,***
*JuHİ sədri*



Media texnoloji baxımdan sürətlə dəyişir. Proses o qədər sürətlə baş verir ki, onun mahiyyətini təhlil edib qiymətləndirmək, bəzən problemə çevrilir. Nəzəriyyə artıq inkişafı, dəyişikliyi proqnozlaşdırmır, stimullaşdırmır, onun arxasınca qaçır və nə baş verdiyini aydınlaşdırmağa çalışır. Texnoloji inkişaf ənənəvi media standartlarını, hətta media terminologiyasını dəyişir, “yeni media” ifadəsi ilə yeni prinsipləri, yeni davranış qaydalarını da gündəmə gətirir.

“Yeni media” əsrinin müzakirəsini aktuallaşdırdığı mövzulardan biri də etik standartlarla necə davranılmasına aiddir. “Etik prinsiplər” dəyişdirilib “yeni media” dövrünün standartlarına uyğunlaşdırılmalıdırmı, yoxsa əksinə, “yeni media”nın etik standartlara boyun əyməsi üçün hansısa çərçivələr tətbiq edilməlidir? Günümüzün bu aktual sualı ətrafında kifayət qədər fikir dartışması olub və müəyyən nəticələr də əldə edilib. Media nəzəriyyəçilərinin mövzu ətrafında müzakirələrinin sonucu olaraq ortaya çıxan nəticələr barədə Azərbaycan jurnalistlərinin bilgi almaq marağına əsaslanaraq, bu vəsaiti hazırladıq.

Hazırladığımız kitabda jurnalistika, peşə etikası, onun nəzəri və praktiki istiqamətləri müxtəlif kontekstlərdə qiymətləndirilib. Azərbaycan jurnalistikasının müasir inkişaf sürəti qlobal media dəyişiklikləri kontekstində təhlil edilib və mövzu ətrafında mövcud nəzəriyyələrdən nümunələr verilib.

Hər şey inkişafda olduğu kimi peşə ektikası da zaman keçdikcə öz standartlarını təkmilləşdirir. Bu baxımdan hazırladığımız kitab da etik standartlar mövzusuna həsr edilmiş ilk və son vəsait deyil. Mətbuatımız, bütövlükdə media sistemimiz bu təkmilləşməni daim diqqət mərkəzində saxlamalı və təsdiqlənmiş yeniliklərə uyğunlaşmalıdır.

# Fəsil 1: PEŞƏ ETİKASI NƏYİ ÖYRƏDİR?

## ETİK PRİNSİPLƏRİN FORMALAŞMASINA DOĞRU

**2008-ci ildə BJF tərəfindən nəşr edilmiş "HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri" kitabından**

**Müasir qlobal media sistemi Avropa və Şimali Amerikada baş verən sənaye inqilablarından başlayan 300 illik inkişafın nəticəsidir. Savadsızlığın aradan qaldırılması dövrü Amerikada və Avropada köhnə rejimi, feodal quruluşu, dini doqmaları inqilablarla devirərək azad fikir və azad ifadə anlayışlarını gündəmə gətirdi.**

Bu prosesin önündə gedənlər isə naşir jurnalistlər idilər. Britaniya əleyhinə qalxmış Amerika inqilabı ilə yanaşı Fransa inqilabını da müdafiə etmiş, milliyyətcə ingilis olan Tomas Peyn (Thomas Paine) kimi radikal həcvçilər (pamfletçilər), siyasi təbliğatçılar açıq və azad cəmiyyətlərin yaradılması yolunda maneə olan quldarlıq, qeyri-insanilik, etinasızlığa qarşı mübarizə aparmışlar. Peyn kimi jurnalistlər inkişafın təkanverici qüvvələri idilər.

Həmin pionerlərin ədalətsizliyə qarşı nifrəti, insanlıq eşqi bu gün öz hüdudsuz analitik bacarığı ilə ictimai maraqlara işləyən jurnalistlərin işlərində görünür. ABŞ-da fəaliyyət göstərən Plutizer Priz təşkilatı cəmiyyətin müdafiəçisi kimi aktiv fəaliyyət göstərmiş jurnalistlərin siyahısını tərtib etmişdir. ABŞ-da Seymur Herş (Seymour Hersh), Rusiyada Anna Politkovskaya, Orta Şərqdə Amira Hass və yüzlərlə belə şəxs bizə jurnalistikanın ictimai marağı necə qoruya biləcəyini praktiki şəkildə göstərmişlər.

Peyn Britaniya hökumətinə qarşı qiyamda iştirak eləmədiyi halda bu işdə günahkar bilindi və cəzalandırıldı. Beynəlxalq jurnalistikanın tarixi XVI əsrin sonlarında ilk gizlin çap mətbəələrindən başlamış bu günə qədər sadəcə vicdanla iş gördükləri üçün öldürülən və ya izlənilən jurnalistlərin mərdanə mübarizələri ilə doludur.

Baxmayaraq ki, söz azadlığı və müstəqil jurnalistika terminləri bizə Qərb mədəniyyətindən gəlib, onu da qəbul etməliyik ki, jurnalistikanın əsas təkanverici qüvvəsi universal və çox qədimdir.

Tarixən dünyanın hər bir yerində dəqiq informasiyaya ehtiyac duyulub: hansı ordu hücum edir, döyüşdə kim qalib gəldi, kim məğlub oldu, hamını öldürən bu yeni xəstəlik nədir və onunla necə mübarizə aparmaq lazımdır, yeni kəşfləri və qida mənbəyini haradan tapa bilərik və s. Tacirlər yeni informasiyaların əsas daşıyıcıları idilər. Dəqiq informasiya daşıyıcıları kimi tacirlərin arasında yalan və şayiə yayanları da var idi.

Sezar tarixi mənbənin əhəmiyyətliliyini dəyərləndirərək, öz müharibələrinin və onların nəticələrinin qeydiyyatını apartdırardı.

Fidippid (Pheidippides) özü Marafondan Afinaya qaçaraq qələbə xəbərini gətirməklə "fleş xəbərin " qəhrəmanına çevrilmişdir (bəlkə də onun məqsədi farsların davam edən hücum xəbərini gətirmək imiş).

Böyük imperiyalar ticarət dövriyyəsinə təkan verməkdən əlavə, həm də informasiya axınını da asanlaşdırırdılar. İnsanların xarici ölkələr barəsində anlayışı tacirlərin informasiyası və ya dezinformasiyası əsasında formalaşırdı. Qədim hind əfsanələrində adları çəkilən tacirlər, hindu səyyahları, Aralıq dənizində misirlilər, yunanlar və romalılar, XV əsrin əvvəllərində Sakit və Hind okeanlarını üzüb keçən Çin səyyahı Jen Hi, Avropa dənizlərində hökmran qüvvələrin Şərqə yeni yolların açılması istiqamətindəki rəqabətinin Amerikanın kəşfinə səbəb olması-bütün bunların hamısı qiymətli daş-qaş mübadiləsindən əlavə həm də informasiya mübadiləsi funksiyasını yerinə yetirirdi. Bu baxımdan

### BJF 1930-cu illərdə etika məsələlərini necə tətbiq edirdi?

BJF 1930-cu illərdə heç bir mənfəət gözləmədən qeyri-etik jurnalistikanın qarşısını almaq üçün Jurnalistlərin Beynəlxalq Şərəf Tribunalını təsis etdi. Bu tribunalın ideyası BJF-nın 1928-ci ildə Fransanın Djon şəhərindəki konqresində qəbul olunmuşdu. Detalları 1930-cu ildə Berlin konqresində dəqiqləşdirilmişdir. Tribunal əvvəlcə Haaqada, Beynəlxalq Ədalət Məhkəməsinin keçmiş, məşhur prezidentinin səlahiyyətləri altında təsis olunmuşdu. Tribunalın əsas məqsədi jurnalistlərin etik qaydalarını pozmasını, müharibə təbliğatının nifrətə səbəb olma hallarını araşdırmalı idi. Baxmayaraq ki, o dövrdə Avropada baş verən hadisələr bu tribunala öz işini görməyə imkan vermədi və bu hadisələr Avropanın özü ilə birlikdə mətbuatını da yeni qlobal konfliktlərə sürüklədi, amma hər halda BJF ittifaqları etik məsələlərlə bağlı prosesə dəstək vermək üçün dəvət olundular. Böyük Britaniya və İrlandiya Milli Jurnalistlər İttifaqı 1932-ci ildə öz qayda-qanunlarını dəyişdirərək milli suverenitet məsələlərində tribunala güzəştə getdilər: Belə razılıq əldə olundu ki, " İstənilən bir üzvün Beynəlxalq tribunal tərəfindən jurnalistliyə layiq olmaması barəsində qərar çıxarılarsa, onun ittifaqa üzv olması hüquqları əlindən alınmalıdır".

ABŞ dini azadlıq, söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı prinsiplərinin əks olunduğu "hüquqlar haqqında" qanun layihəsini qəbul etdi.

## Suallar:

* Qanunlar medianı kənar müdaxilələrdən, senzuranın bütün növlərindən qoruyurmu?

*Jurnalistikaya qarşı hüquqi maneələri müəyyənləşdirmək üçün milli səviyyədə hərtərəfli araşdırma olmuşdurmu?

*Qanunlar məlumat mənbəyinin konfidensiallığını saxlamaq üçün jurnalistlərin hüquqlarını qoruyurmu?

*Böhtan və təhqir hallarında məsuliyyəti müəyyən edən qanunlar cinayət məcəlləsindən çıxarılıbmı?

*İnformasiya azadlığı qanunu varmı?

*Terrorizmə qarşı mübarizə və təhlükəsizliklə bağlı qanunlar jurnalistlərin işlərinə həddən artıq təsir göstərirmi və ifadə azadlığını pozurmu?

*Şəxsi həyatın gizliliyi qanunları jurnalistlərin hüquqları ilə balanslaşdırılmışdırmı?

biz xəritələrə müasir medianın metaforası kimi baxa bilərik.

Bu səyyahlar da müasir media maqnatları kimi öz ağalarının torpaq, pul və var-dövlətə qarşı olan istəyini özlərinin hər şeyi bilmək arzuları ilə birləşdirirdilər. Dəqiq informasiyanın əldə olunması uğrunda edilən cəhdlər bütün cəmiyyətlərin, o cümlədən Çin və Hindistan, Misir və Yunan, VIII əsrdə Bağdadda vaxt, yer və istiqaməti təyin eləmək üçün astronomik laboratoriyaya malik İslam mədəniyyətlərinin əsas təkanverici qüvvələri idi.

Bir dəqiqə ayaq saxlayın: Dünya düz deyil, kürəvidir. Ən son xəbər: Yer Günəş ətrafında fırlanır. Bu informasiyalar insanları çaşdıran yeni məlumatlar idi. Reallığı bilmək üçün kütləvi şəkildə axtarışın başlanılması- dini və siyasi baryerlərə qarşı mübarizənin başlanmasının əsasını qoydu. Bu həmən dini baryerlər idi ki, Qalileo Qalileyi öz fikrini danmağa məcbur etmişdi, İncilin tərcüməsinə və insanlar başa düşə bilməsin deyə oxumasına qadağa qoymuşdu.

## Etik mühitə doğru: Hüquq və siyasət

Jurnalistikanın etik və keyfiyyətli olmasına təkid edən hansısa daimi orqan olmaya bilər, bir şərtlə ki, medianın azadlığı prinsipi dövlət tərəfindən qorunmuş olsun. Konstitusion hüquqlar demokratiyanı bəzəmək üçün vasitədən daha artıq bir şeydir. Bu qanunlar işləməlidirlər.

Bu hüquqlar uğrunda kampaniyaların keçirilməsi (belə bir kampaniya Yaxın Şərq və Şimali Afrika boyunca jurnalist ittifaqları tərəfindən “Zəncirlərin qırılması” adı ilə keçirilmişdir), milli və regional səviyyələrdə antidemokratik qanunlardan istifadə edilməsinin ciddi monitorinqini tələb edir. Bu cür qanunlara yenidən baxılması və dəyişdirilməsi, söz azadlığının inkişafına təkan verəcək qanunların qəbul edilməsi üçün hamının birgə səy göstərməsi lazımdır. Aşağıdakı sualların əksəriyyəti bu hüquqların müəyyən olunması üçün yollar təklif edir.

Onların bəzilərinə cavab vermək üçün debatlara ehtiyac olacaqdır. Misal üçün, böhtan və təhqir haqqında qanunlar bələlərindəndir. Digərləri isə təcili və təxirəsalınmaz fəaliyyət tələb edəcəklər. Misal üçün, jurnalistlərə edilən zorakılıqlarla bağlı cəzasızlığa son qoymaq, antiterror tədbirləri adı altında insan haqlarının məhdudlaşdırılmasına yönələn qanunlarla mübarizə və sair.

## Etika və jurnalist

Etik kodeksə münasibət kimin jurnalist olub, kimin olmadığını təyin etməyin ən mühüm üsullarından biridir. Başqa tərif, jurnalist o adamdır ki, öz yaşayış məvacibini və ya onun əsas hissəsini jurnalistikaya aid işdən əldə edir. Həm də o adamdır ki, tanınmış jurnalist qurumlarından- ittifaq, assosiasi-

## Görülməli işlər:

*Bu sahədə fəaliyyətlər milli səviyyədə sözü eşidilən, güclü və möhkəm bazası olan təşkilatlar tərəfindən yerinə yetirilməlidir. Bunun üçün jurnalist ittifaqları ən münasib təşkilatlardırlar. Ancaq hər bir imkan açıq cəmiyyət ideyasını müdafiə edən vətəndaş cəmiyyəti qruluşları ilə birlikdə istifadə edilməlidir.

*Əgər qanunun ictimai müzakirəsi qısa zaman əvvəl keçirilməmişdirsə, bunu təşkil edin. Daha ziyanlı qaydaları və qanunları müəyyənləşdirin, alternativlər hazırlayın. Bu, açıq və qeyri-müəyyən olmayan hüquqi dil tələb edir ki, hüquqları konkretləşdirsin və media ilə vətəndaşların müdafiəsini təmin etmək üçün rəsmilərin öhdəliklərini müəyyənləşdirsin.

*İşçi qrupların yaradılması, müxtəlif partnyorların işə cəlb edilməsi - hüquq və vətəndaş cəmiyyətlərilə yanaşı media təşkilatlarından - ARTICLE 19, IFEX daxil olmaqla, milli və beynəlxalq media dəstək qruplarından istifadə edilməklə münasib materialların toplanılması.

*Rəsmilər- hökumət, polis və ordu ilə əlaqələrin yaxşılaşdırılması, siyasi dairələrin daxilində hər iki tərəflə (iqtidar və müxalifət) simpatik əlaqələrin formalaşdırılması. Hökumət rəsmiləri və parlamentarilərlə, işəgötürənlərlə birlikdə ittifaqların görüşlərini təşkil edin. Bəzi ittifaqlar parlamentlərdə dəyişikliklərə lobbiçilik etmək üçün keçmiş media təmsilçiləri və jurnalistlərdən ibarət milli müdafiə qrupları yaratmışlar.

*Jurnalistlər və vətəndaş cəmiyyəti orqanları (insan hüquqları təşkilatları, yerli kampaniyaçılar, həmkarlar ittifaqları, qadın təşkilatları və azlıqların təmsilçiləri) ilə bağlantılar yaradın. Bu, hüquqi şəraitin yaxşılaşdırılması üçün geniş dəstək yaradacaqdır. Həmrəylik fəaliyyətinin effektivliyi üçün müxtəlif jurnalist birlikləri arasında rəqiblik hisslərinin baş qaldırmasına imkan verməyin.

*Beynəlxalq Söz Azadlığı Günü kimi beynəlxalq və ya milli tədbirlər üçün materiallar (posterlər, broşurlar, vebsayt və sosial şəbəkələr) hazırlayın.

Beynəlxalq şəbəkələrdə fəaliyyətlə bağlı informasiyanı yayın.

ya və yaxud da başqa formalı media institutundan akkreditasiyası vardır.

Bu göstəricilər məlumat ötürmə qabiliyyəti ilə jurnalist vəzifəsini səhv salanlara, “internet hər kəsi jurnalistə çevirib” deyənlərə cavab vermək üçün çox əhəmiyyətlidir. İnternetdə təbiətinə görə əvvəlcədən razılaşdırılmış dəqiqlik standartları, etika balansı yoxdur, lakin jurnalistikada vardır. Qanunvericilik keyfiyyət kriteriyası və təcrübədən çıxmış bələdçi kimi çox əhəmiyyətlidir .

Lakin qanun sadəcə başlanğıcdır. Hətta detallı yazılmış təlimat vəsaitlərində belə etik kodeks dəyərlərinin hansı şəraitlərdə işlədiyini müəyyənləşdirmək üçün ehtiyac var.

Belə soraq kitabçaları rəsmi olaraq redaksiya heyəti ilə razılaşdırılmalıdır. Rəhbərlik və təşkilatlar hüquqları aydın müəyyən edən redaksiya nizamnaməsi hazırlaya bilərlər. Misal üçün, bir çox Avropa ölkələrində jurnalistlərin vicdanına uyğun şəkildə fəaliyyət göstərə bilməsi hüquqi sənəd olan kollektiv razılaşmanın bir hissəsidir. Fransada, əlavə olaraq, jurnalist media rəhbərliyi dəyişərkən işi tərk edə və münasib kompensasiya tələb edə bilər.

Mədəniyyətdaxili məsələlərə-irq, sığınacaq, miqrasiya, din-toxunan yazılar xüsusi diqqət tələb edir. Bir çox media şirkətləri yanlış terminologiyadan yayınmaq üçün artıq daxili soraq kitabçalarını və ya “öz stilləri”ni tərtib etmişdir. Təlim zamanı və müzakirələrdə bu soraq kitabçalarının jurnalistin iş vərdişlərinin qəbul olunmuş bir hissəsinə çevrilməsini təmin etmək üçün ehtiyac var.

Stereotiplər yaxşı məlumatlandırılmanın düşmənləridirlər; xüsusilə həssas məsələlər haqqında məlumat verərkən zərərvericidirlər. Jurnalistlər və redaksiyalar həmin stereotiplərin lazımlılığını dəqiqləşdirmək məqsədi ilə müxtəlif mənbələrlə möhkəm əlaqələr qurmalıdırlar.

## Suallar:

*Jurnalistlər tərəfindən tanınmış Etik Davranış Kodeksi və redaksiyalarda tətbiq edilən etik prinsiplər toplusu varmı?

*Qanunvericiliyin tətbiqi barədə detallı məlumat kitabçası varmı və jurnalistlər mütəmadi olaraq həmin məlumat kitabçalarına göz gəzdirərək müzakirə edirlərmi?

*Praktikada jurnalistlərin öz vicdanlarına uyğun olaraq davranmaq hüquqları vardırmı?

*Jurnalistlər öz redaktorlarını seçə bilərlərmi və redaksiya siyasətinin dəyişilməsinə hüquqları varmı?

*Uşaqlar, qüsurlu insanlar, azlıqlar, təcrid olunmuş sosial qrupların və cəmiyyətdə digər həssas qrupların işıqlandırılması üçün xüsusi yanaşma nəzərdə tutulmuşdurmu?

*Fikir müxtəlifliyini təmin etmək üçün mənbə müxtəlifliyi kifayət qədərdirmi?

*Stereotiplərdən, xüsusilə cinsi və etnik azlıqlar, dini məsələlər üzrə stereotiplərdən yayınmaq məsələlərinə diqqət ayrılırmı?

## Görülməli işlər:

* Əgər təsdiq olunmuş qanunvericilik və daxili nizamnamə yoxdursa, o zaman belə birini tapın və onu sizin işinizə necə tətbiq etmək olar mövzusunda müzakirələrə başlayın. BJF təlimatları başlanğıc üçün faydalı ola bilər, lakin nümunəni yüzlərlə qanunların arasından seçməli olacaqsınız. BJF şəbəkəsindən istifadə edərək başqa bir yerin təcrübəsi haqda məlumat əldə edin. Daxili müzakirələr təşkil edin.

* Praktiki iş qaydaları, daxili qayda-qanunlar işin vacibliyi barədə istiqamət verir. Onlar sizin istəyinizdən asılı olaraq qısa və ya uzun ola bilərlər (BBC və Nyu-York Tayms-sın daxili qaydaları haqqında bilgilər internetdə vardır).

* Redaksiya menecerləri və jurnalistlərin işləmə qaydalarını müəyyənləşdirmək üçün birgə müzakirə etməyə, milli şəraitlərdə sosial və professional reallıqları nəzərə almağa ehtiyac vardır.

*Əziyyət çəkən azlıqlar və qruplara qarşı diqqəti artıqmaq. Vaxtaşırı redaksiya daxilində keçirilən görüşlər yararlı mənbələrin müəyyənləşdirilməsinin əsasını qoyacaq. Misal üçün, Belçika jurnalistlər ittifaqı bir neçə il əvvəl, jurnalistlər üçün milli mənbələr kitabı hazırladı. Oxşar siyahılar, vaxtaşırı yenilənərək xəbərvermənin düzgünlüyünü artıra bilər.

*Tez-tez istifadə edilən terminlərin lüğətini hazırlamaq. Bu cür təlimatlar bəzi suallara da cavab verə bilər. Misal üçün, bir insanın fiziki görünüşünü təsəvvür etmək nə dərəcədə münasibdir. Bütün bunlar tərəflilik və səhv mühakimə etməni aradan qaldırmanın vacib yollarıdırlar.



**Cahangir Məmmədli,**
*BDU, Filologiya elmləri doktoru, professor*

# ETİKA NƏ ÜÇÜN LAZIMDIR?

Hər bir insanın cəmiyyət qarşısında əxlaqi normaları olduğu kimi, hər bir peşənin, hər bir fəaliyyət sahəsinin də əxlaq normaları mövcuddur. Bu normalar peşənin inkişaf tarixi ilə formalaşır, yetkinləşir və sahənin bütün adamları üçün qaçılmaz atributlara çevrilir. Həmçinin, hüquq işçisinin, biznesmenin, müəllimin  yuridik qanunlara ciddi əməl etməsilə bərabər, bu sahələrdə tarixi inkişaf mərhələlərinin formalaşdırdığı əxlaq normalarına da diqqətlə yanaşmaları göz qabağındadır. Cəmiyyətin indiki inkişaf çağında əxlaq normalarına etinasızlıq göstərən peşə adamlarının tezliklə nüfuzdan düşmələri, peşə və sənət dünyasında gedən gərgin və kəskin rəqabətdə tez uduzmaları da göz qabağındadır. Jurnalistika bu sırada özünün əxlaq normalarına diqqət yetirən, yaxud, yetirməli olan vacib fəaliyyət sahəsidir. Onun da əxlaq normaları, əxlaq prinsipləri uzun zaman çərçivəsində formalaşmışdır. Bu sahənin peşəkarları həmin normalara, prinsiplərə əməl etməklə əməkdaşı olduqları media orqanlarının nüfuzunu qaldırmağa səbəb olurlar.

Jurnalistikanın əxlaq normaları bu sahədə təcrübə artdıqca formalaşıb. Jurnalistin peşə əxlaqı ilə onun peşə borcu bir-birinə çox yaxındır. Peşə əxlaqı kontekstində borc mühüm keyfiyyət kimi qəbul edilir. “Borc jurnalistin cəmiyyət qarşısında - oxucu, dinləyici, tamaşaçı qarşısında düzgün, obyektiv informasiya-ya görə məsuliyyətini tənzimləyir”.

Bu şəraitdə insanların taleyinə təsiri ilə bağlı olaraq jurnalist sosial məsuliyyət hiss edir. Jurnalist təkcə cəmiyyət qarşısında deyil, onun əsərlərinin əsl hakimi olan oxucu, tamaşaçı auditoriyası qarşısında da böyük məsuliyyət daşıyır.

Jurnalistin əxlaqı onun şəxsi davranışı və şəxsi həyatının faktlarından daha çox hazırladığı materialların mahiyyətində özünü göstərir.

Jurnalist dərk etməlidir ki, o, tirajlanan sözün sahibidir. Tirajlanan sözün məsuliyyəti isə çox böyükdür. Tirajlanan sözün inkaredilməz bir mahiyyəti də jurnalistin dediyi sözə görə daşıdığı əxlaq məsuliyyətidir.

Oxucu, tamaşaçı, dinləyici jurnalistdən onu aldatmamaq, ona yalan informasiya təqdim etməmək, hadisələri quraşdırmamaq kimi əxlaq normalarına zidd hərəkətlərdən çəkinməyi tələb edir.

İnformasiya mənbəyi onun jurnalistə tirajlanmaq üçün təqdim etdiyi informasiyanı təhrif etməmək tələbini qoymağa haqlıdır. Jurnalist əldə etdiyi informasiyaya özünün interpretasiyalarında heç bir şəxsi, qrup maraqlarına söy-kənə bilməz. Alınan informasiyanın işlənməsi və təqdimi məqamları professionallıqdan əlavə, xüsusi əxlaq məqamlarına əməl etməyin də vacibliyini şərtləndirir.

Jurnalistin əxlaq normaları bu sahənin peşəkarları tərəfindən tarixi inkişaf prosesində formalaşıb. “Norma - davranışın ictimaiyyət tərəfindən qəbul edilən tipik variantlarını müəyyənləşdirir”. Tarixən tipikləşən bu normalar jurnalisti məsuliyyətə və ciddiliyə dəvət edir.

Jurnalistin ən ciddi peşə normalarından biri onun altruist xarakteridir. Bu xarakter jurnalisti ictimai marağı öz marağından üstün tutmağa çağırır. Jurnalist hər hansı bir şəxsi marağı üçün material hazırlamaq, yaxud şəxsi maraqdan doğan motivlərlə informasiyanı izləmək kimi hərəkətləri ilə özünü gözdən salır. Belə jurnalist tezliklə informasiya mənbəyinin gözündən düşür və o, hər hansı informasiya mənbəyinə müraciət zamanı haqlı etinasızlıq, etimadsızlıq faktları ilə üzləşməli olur.

Jurnalist peşəsinin bütün məqamlarında etik normaları gözləməyi bacar-malıdır.

Oxucu, tamaşaçı məktublarına, auditoriyanın rəyinə etinasızlıq jurnalistin təkcə özünü deyil, bütöv redaksiya kollektivini gözdən sala bilər. Oxucu məktublarının dərcə hazırlanması zamanı ona jurnalistin öz istəyini ifadə edən əlavələri, ciddi dəyişiklik, üsluba hiss olunacaq müdaxilə məktub müəllifi tərəfindən ona hörmətsizlik kimi qəbul edilir.

İri müəssisələrin xəbərlər xidmətinin kifayət qədər aydın informasiya təqdimindən sonra, jurnalistin mütləq müəssisənin rəhbəri ilə, nazirlə görüşmək tələbi müxbirə qarşı əsaslı şübhələr yarada bilər. İctimai yerdə, bazarda yaxalanan oğrunun milliyətini qabartmaq jurnalistin xüsusi məqsəd güdməsi kimi başa düşülə bilər.

## Peşə etikası bizə bunu deyir

Jurnalist peşəsinin sahibləri bu sahənin iş metodlarında qanunlarla yanaşı, yazılmamış mənəvi normalara da söykənməyin vacibliyini dərk etmişlər. Ona görə də zaman keçdikcə hüquqi, qanuni aspektlərin təsbit etmədiyi məqamları, yazılmamış qanunları kodekslər və prinsiplər şəklində formalaşdıraraq jurnalistlər özlərinin fəaliyyət mexanizmini yaratmışlar. Bütün bu prinsip və kodekslər jurnalisti ya-

zılarında mənəvi-əxlaqi sağlamlığa, cəmiyyət qarşısında əxlaqi borcunu dərk etməyə çağırır. "Əxlaqi hisslər deyəndə isə biz insanın həyat həqiqətlərini dərk etmə anında cəmiyyətdə formalaşmış normalardan çıxış etməsini nəzərdə tuturuq".

Peşəkar jurnalistin etik normaları bir tərəfdən cəmiyyət-media münasibətlərinə təsir edir, digər tərəfdən jurnalist yaradıcılığının sənətkarlıq səviyyəsinə yüksəlməsini təmin edir. Bu baxımdan, beynəlxalq jurnalist təş-kilatları peşə etikasını təmin etmək və onu daha da yüksəltmək, tələbləri getdikcə artırmaq üçün müxtəlif prinsiplərin deklarasiyasını, etik normalar kodekslərini, etika qaydalarını və s. sənədləri qəbul edir, bu sənədlərə əməl olunması ətrafında seminarlar, treninqlər, konfranslar, müzakirələr aparırlar. Məsələn, Beynəlxalq Jurnalistlər Federasiyasının qəbul etdiyi Jurnalistlərin davranış prinsipləri barədə bəyanatı peşəkar jurnalistlər qarşısında ciddi vəzifələr qoyur (Bax: səh. 65) Peşəkar jurnalistlərin etik normalarına dair digər sənədlərin hamısında bu və ya digər dərəcəli fərqlərlə məhz belə tələblər qoyulur.

Jurnalistin əxlaqi hissləri və əxlaq çərçivəsində fəaliyyəti dedikdə isə onun öz peşə borcuna, həmkarları arasında illərlə formalaşmış peşə borcuna, özünün iş yoldaşları əhatəsində nüfuzuna münasibəti nəzərdə tutulur. Bu münasibətin dərinliyində jurnalistin yaradıcılıq üslubu da öz əksini tapır. Jurnalistin peşə ləyaqətinin formalaşma prosesi bu məqamlarda baş verir. Peşə ləyaqəti jurnalistin nüfuzunu, həmkarları içərisində yerini müəyyən etməklə onun fərdi üslubunun da yetkinləşməsinə xüsusi şərait yaradır.

Başqalarını hiss etmək, yeri gələndə dərdə şərik olmağı bacarmaq jurnalistin obyektiv ifadəsinə - həm də maraqlı ifadəsinə mütləq təsir göstərir. Bu mənada beynəlxalq jurnalistikada son vaxtlar "empatiya" kimi bir anlayış həm leksik vahid kimi, həm də peşənin bir məqamının ifadəsi kimi dəbə minməkdədir. Yunan dilində olan "patho" (dərdə şərik olmaq) sözündən və özünə istiqamətləndirmək perifeksi kimi anlaşılan "et" şəkilçisindən ibarət olan "empatiya" yaranışının ilk çağlarında etika və estetikanın predmeti kimi qəbul olunmuşdur. İstər estetikada, istərsə də jurnalistin peşə keyfiyyətində "empa-tiya" insanın özgə dərdini özününküləşdirmək, başqasının dərdini, yaxud sevincini özününkü kimi qəbul etmək şəklində izah edilir. Peşə fəaliyyətinin çox böyük vaxt çərçivəsini cəmiyyət üzvləri arasında keçirən və əsasən insanı obyekt seçən jurnalistin empatiya keyfiyyəti onun əxlaq normasında mühüm əlamət kimi qəbul oluna bilər.

Bu gün jurnalistin əxlaq normalarına münasibəti və bununla bağlı peşə etikasına diqqəti xüsusi vurğu ilə üzə çıxır. Dünya təcrübəsində və eləcə də Azərbaycan jurnalstikasında qanuni əsaslardan bir az da öndə izlənilən etik normalar, peşə etikasının bəzi məqamları üzərində geniş dayanmalı olacağıq.

Yuxarıda da qeyd etmişdik ki, peşə etikası tarixən "yazılmamış qanunlar" şəklində ortaya çıxır. İnsan hər hansı fəaliyyət sahəsində vicdanın səsinə,

**Azərbaycanda məşhur qəzetlərdən birinin redaktoru şəxsən özü bir nazirdən iki səhifəlik müsahibə alıb. Dövlət məmuru çox ciddi bir sahənin naziridir və redaktor-jurnalist bunu yaxşı bilir. Bilir ki, nazirin hər sözü ictimai maraq kəsb edəcək. Yazıdan hiss olunur ki, jurnalist nazirin şəxsən ona etibar edəcəyi bəzi fikirləri müsahibəyə salmamalıdır. Lakin jurnalist nazirin - müsahibə verən dövlət məmurunun qəzet üçün deyil, məsələyə bir az da aydınlıq gətirmək, jurnalisti daha artıq məlumatlandırmaq üçün şəxsən ona etibar etdiyi fikirlərin hamısını yazıya çıxarmışdı. Əlbəttə, müsahibin yazıya daxil edilən həmin fikirləri itimai maraq kəsb edirdi. Ancaq məsələ burasındadır ki, jurnalist müsahiblə arasında olan "müqaviləni" pozub. Jurnalist ya gərək müsahibə belə vədlər verməyə, ya da verdiyi vədə əməl edə. Bu mənada Almaniya jurnalistlərinin təcrübəsi maraqlı ola bilər. Almaniyada təxminən qırx ilə yaxındır ki, müxtəlif nazirlər, yaxud onların nümayəndələri ayda bir-iki dəfə jurnalistlərlə mətbuat konfransı təşkil edirlər. Almaniyada dövlət orqanlarının öz fəaliyyətini mətbuata ötürmək maraqlarından doğan belə konfranslarda məmurlar jurnalistlərə üç mərhələyə bölünən informasiya təqdim edirlər. Birinci mərhələ: təqdim olunan informasiyalar qeyd-şərtsiz mətbuata çıxarıla bilər, onları sitat kimi, yaxud interpretasiyalarla cəmiyyətə çatdırmaq olar. İkinci mərhələ: təqdim olunan informasiyalar jurnalistin təhlilləri üçün yararlıdır və bu informasiyalar yenə də mətbuat üçündür. Üçüncü mərhələ: dövlət məmurları jurnalistlərə baş verəcəyi ehtimal olunan, lakin hələlik mətbuat üçün nəzərdə tutulmayan, jurnalistin üzərində düşünməsi üçün təqdim olunan informasiyaları çatdırırlar. Əslində, üçüncü mərhələnin informasiyaları daha çox sensasiya doğura bilər, oxucunu daha çox cəlb edə bilər. Lakin bu informasiyalar hələ baş verəcəyi ehtimal olunan hadisələrlə bağlıdır və alman jurnalistləri belə informasiya mənbələri ilə onu cəmiyyətə ötürməmək barədə yazılmamış "müqavilələrini" bu qırx ildə bir dəfə də olsun pozmamışlar. İnformasiya mənbəyi ilə belə etik münasibətlər jurnalistə etibarı gücləndirir və onun cari informasiyalara əlinin daha tez çatmasına imkan yaradır.**

**2001-ci il avqustun 13-də Azərbaycan prezidentinin milli-mənəvi dəyərlərlə bağlı xüsusi bəyanatı Azərbaycan mediasının ayrıca mövzusuna çevrildi. Bu, özlüyündə çox yaxşı keyfiyyət idi. Lakin bu bəyanatla bağlı fəaliyyətində bəzi informasiya vasitələri ciddi narazılığa səbəb olan nöqsanlara yol verdi. Telekanallardan biri əxlaqsızlıq faktı ilə əlaqədar aparılan polis əməliyyatı zamanı polis əməkdaşlarının döydüyü və sonra güc tətbiq edərək açdığı qapının arxasındakı kişi və qadını açıq şəkildə tamaşaçıya təqdim etməklə qəbahətə yol vermişdir**

**Əlbəttə, meşədə yerləşən kababxananın əxlaqsızlıq yuvasına çevrildiyi bu otaqlardan polisin güclə çıxardığı kişi və qadının kim olması tamaşaçı üçün maraqlıdır. Bunları açıq göstərməklə telesüjet ekran qarşısına daha çox tamaşaçı toplaya bilər. Lakin həmin adamların açıq şəkildə efirdə nümayişi neçə-neçə ailənin dağılmasına, neçə-neçə yeni cinayətə yol aça bilər.**

**Jurnalistikada "empatiya" anlayışı, müsahibin hisslərinə reportyorun şərik olması, onun hissləri ilə yaşaması keyfiyyətindən bəhs olunan bir yazıda müəllif telejurnalist Mir Şahinin Nəsibə Zeynalova ilə "Təmiz söhbət"ini xatırlayır: "Bir az xəstə, bir az kövrək, bir az incik, bir az unudulmuş Nəsibə xanım uzun söhbətin sonunda haqsız laqeydliyin acı anlarını ifadə edən bir məqam yaşayır: Özünün uzun səhnə ömrünün bütün anlarında ancaq güldürən, yalnız gülən bir aktrisanın unudulmaq faciəsi. Hələ "Təmiz söhbət"in sonuna bir az var. Amma tamaşaçı çox qəribə və gözlənilməz, qəfil bir sonluqla qarşılaşır: Aparıcı Mir Şahin unudulmuş sənətkarın öyrəşdiyimiz ampluasından çox uzaq faciəvi anında özü də kövrəlir və "bəsdir, uşaqlar, qurtardıq" deyə söhbəti başa vurur. Və əslində öyrəşdiyimiz stereotiplə yanaşsaq, montajda mütləq çıxarılmalı olan bu məqam - jurnalistin "uşaqlara" həmin müraciəti proqramda qalır, em-patiyanın jurnalistika dərsliklərinə salınacaq ideal variantı alınır". Belə məqamlar, əlbəttə, jurnalistdən insanlıq keyfiyyətindən əlavə, bir az da "aktyorluq" bacarığı tələb edir.**

əda-lətə, cəmiyyətdə müsbət qəbul olunan qaydalara söykənməklə iki başlıca məqsəd izlə-mişdir: 1. Peşənin, eləcə də bu peşənin ifaçısının lazımlılıq, yararlılıq səviy-yəsini qaldırmaq; 2. Cəmiyyət, insan qarşısında məsuliyyətini dərk etmək.

İnsan fəaliyyətinin mühüm sahələrindən olan tibb işinin, yaxud vətən-daşların hüquqlarını müdafiə edən, qanunların icrasını nəzarətdə saxlayan ədalət məhkəməsinin öz qanunlarından başqa peşə etikası da vardır. Həkimin Hippokrat andı onun öz xəstələrinin arzusu əleyhinə olaraq xəstəliyin elan olunması, yaralı, xəstə adamın, hətta düşmən olarsa belə, müalicə olunmaq hüququna ədalətlə yanaşma-ğı tələb edir. Eləcə də jurnalistika ictimai bir institut olaraq insanlara, cəmiyyə-tə xidmət göstərdiyinə, insanla ilişgili olduğuna görə hər gün öz fəaliyyətində müxtəlif problemlərlə üzləşə bilər. Bu problemlərdən biri etik prinsiplərdir.

Hər bir xalqın, hər bir millətin öz fərqli mentaliteti, zövqü və abırı mövcuddur. Məsələn, Azərbaycan xalqında böhtan atmaq, yalan danışmaq, başqasının əleyhinə fakt yığmaq tarixən nakişilik kimi qiymətləndirilib. Sonralar bu key-fiyyətlərin bir çoxuna qanunla cəza işi tətbiq olunsa da, çox zaman "yazılmamış qa-nunlar" daha kəsərli olmuşdur. Bizim xalqın tarixində ən ağır qətl cinayətinin də günahın etirafı və üzr istəməklə bağışlandığı məqamlar az olmayıb. Jurnalistlə-rin peşə etikası kodekslərində səhv informasiyaya, təhqirə görə üzr istəməyin bir üsulu kimi tətbiq olunan təkzib forması günahın səmimi etirafına görə ölüm fak-tını belə bağışlayan xalq adətinə çox bənzəyir.

Yaxud, "Qurani-Kərim"dən gələn və xalqın min illərdən bəri sınaqdan keçir-diyi düz danışmaq, düz məlumat vermək tələbini götürək. Yalan məlumatın hüquqi cə-zası bir yana, xalq arasında yalanın "müəllifinə" heç vaxt hörmət olmayıb. Yalan-çı adam heç vaxt ağsaqqal statusuna yüksəlməyib. Qəzet də, bütövlükdə KİV də belədir. Müntəzəm yalan informasiya verən mətbuat orqanı heç vaxt oxucu hörməti qazana bil-məz. Ona görə də reytinqə, yüksək tiraj ehtiyacına məhkum olan qəzet ancaq doğru söz deməli, dediyi sözə görə cəmiyyət qarşısında məsuliyyət daşımalıdır.



**Könül NİFTƏLİYEVA,**
*BDU, Filologiya üzrə*
*Fəlsəfə doktoru*

# PEŞƏ ETİKASININ NƏZƏRİ ƏSASLARI

Jurnalistlərin peşə etikasının nəzəri əsasları xeyli vaxtdır ki, öyrənilməyə başlanmışdır. Nəzəri fikirlərdə belə bir həqiqət ifadə olunur ki, peşə etikası jurnalisti qanunlardan da artıq məhdud çərçivəyə salır, lakin bu çərçivə peşəkarın istəyə biləcəyindən daha çox cəmiyyətin tələbindən doğduğuna və məhz cəmiyyətə xidmət etdiyinə görə məqbuldur.

Jurnalistin peşə etikası ilə bağlı maraqlı əsərləri ilə Qərbdə məşhur olan Valter Xaheman mətbuata xas əsas keyfiyyətlər içərisində qərəzsiz, hərtərəfli informasiyanı, heç bir şəxsi nöqteyi-nəzərdən asılı olmayan şərhi, xalqa yaxın, kütləvilik prinsipi ilə fəaliyyət göstərən mətbuat orqanının nəşrini, nəşrin cəmiyyət qarşısında məsuliyyətini, jurnalistin həqiqəti cəsarətlə müdafiə edə bilən mənəvi müstəqilliyini, mətbuatın dövlət və partiya maraqlarından xilas olmasını, naşirlərin yüksək işgüzarlığını və jurnalistlərin mənəvi müstəqilliyinə hörmətini xüsusi qeyd edir.

Məhz bu müstəvidən çıxış edərək dünyanın müasir jurnalistika nəzəriyyəçiləri mətbuat azadlığı

və "dördüncü hakimiyyətin" fəaliyyət mexanizmini araşdıran xeyli əsər ortaya qoymuşlar.

Məlumdur ki, KİV-in əsas məqsədi informasiya vermək, həqiqəti axtarmaqda və tapmaqda oxucuya, tamaşaçıya kömək olmaq, habelə hakimiyyətin fəaliyyətinə nəzarət etməkdir. Bu nəzəriyyəni şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Media dövlətin məlum üç hakimiyyət orqanından sonra ictimai nəzarət kimi dördüncü sırada dayanır. Onun vəziyyəti belə bir faktla bir az da maraqlıdır ki, burada hər bir vətəndaş söz, fikir deyə bilir, tənqid edir, bəyənmir və s.

2. Medianın sosial məsuliyyət nəzəriyyəsində qeyd edilir ki, hər kəs qəzetdə, radio və televiziyada öz fikrini azad ifadə edə bilər. Mətbuatın sosial məsuliyyəti, hər şeydən əvvəl, ictimai rəy qarşısındakı məsuliyyətdir.

3. Jurnalistika "sosial inteqrasiyanın" da vasitəsidir. Nəzəriyyəçilərin istifadə etdikləri "kütləvi kommunikasiya", "kütləvi təmas", "kütləvi informasiya", "xalqla ilişgilər" kimi terminlər də nahaqdan ortaya çıxmayıb.

4."Azad informasiya axını" konsepsiyası dövlətlər arasında da etibarlılıq ovqatı yaradır.

Bu nəzəri müddəaları jurnalistin praktik yaradıcılıq müstəvisinə keçirməklə onların hansı nəticələrə gətirib çıxardığına diqqət edək. Məsələn, mətbuat azadlığını götürək: mətbuat azadlığı jurnalistin qanun və vicdanı qarşısında məsuliyyətini nəzərdə tutur. Çünki burada azadlıq qanun deməkdir ki, onun da hüdudlarını müəyyənləşdirmək xeyli dərəcədə jurnalistin vicdan işidir. Qanun hələ hər şey demək deyil. Jurnalist hər bir situasiyada qanuna necə əməl edəcəyini həm də bu situasiyaya uyğun olaraq müəyyənləşdirir.

Məsələn, qanun məmuru informasiya verməyə borclu edir. Qanuna görə jurnalist informasiya verməkdən boyun qaçıran məmuru dərhal məhkəməyə də verə bilər. Lakin etik normalar situasiyadan çıxış etməyə də çağırır. Çünki informasiya vermək istəməyən məmurun məhz bu situasiyada öz motivasiyası - həm də etik, insani baxımdan başa düşüləcək motivasiyası ola bilər. Bunu nəzərə almadan baş verən çoxsaylı "intiqamların" nəticəsidir ki, "nazirlə milçəyin fərqi nədir?" əyləncəli suala belə bir cavab məşhurlaşmışdır: "Nazirlə milçəyin heç bir fərqi yoxdur, çünki onların hər ikisini qəzetlə öldürmək mümkündür".

Hakimiyyət adamlarına da, hakimiyyətə can atanlara da eyni nəzakət, eyni vicdanlı münasibət tələb edən peşə etikası habelə, gərgin iş adamının vəziyyətini, vaxtını, macalını da nəzərə almağa çağırır. Hətta məmurun bu vəziyyətinin xeyli dərəcədə nəzərə alınmağındandır ki, jurnalistikada informasiya mənbəyi olan hakimiyyət adamına axırıncı şans kimi və axırıncı jurnalist tədbiri kimi tətbiq olunan "yorma" üsulu - respondentlə əvvəlcədən razılaşdırılmamış "yaxalama" üsulu tətbiq edilməkdə və özünü doğrultmaqdadır. Deməli, qanunun verdiyi hüququ etik norma lap sonuncu tədbir kimi istifadə etməyi məsləhət görür.

Nəzəri ədəbiyyatda jurnalistin mətbuatdan özünün və tanışlarının şəxsi məqsədləri üçün istifadəsi peşə etikasına sığmayan ciddi əxlaq pozuntusu kimi qiymətləndirilir. Qəzeti və efiri şəxsi intiqam vasitəsinə, ayrı-ayrı adamların, müəlliflərin ambisiya xidmətinə çevirməyi peşə etikası qadağan edir.

Dünya təcrübəsində bu hallar tez-tez müşahidə olunduğundandır ki, peşə etikasının nəzəri əsaslarında onlara xüsusi aydınlaşmalar həsr edilir. Xüsusilə, 90-cı illərin əvvəllərində SSRİ-nin süqutu və yuxarıdakı qaydalara etinasızlıqla fəaliyyət göstərmiş kommunist mətbuatının sosial məsuliyyət modeli ilə əvəz olunmağa başlaması prosesində keçmiş postsovet məkanında bu nəzəri araşdırmalar populyar oldu. Keçmiş sovet respublikalarında demokratiyanın inkişafında marağı olan Qərb dövlətləri habelə bu demokratik şəraitə öyrəşməmiş jurnalistlər üçün peşə etikasının nəzəri və praktik əsaslarına dair kitabların nəşri üçün xüsusi maliyyə xərcləri qoydu. Xüsusilə Rusiya jurnalistikasının nəzəri və praktik istiqamətləri ilə məşğul olan Moskva Dövlət Universitetinin jurnalistika fakültəsi, Rusiya Federasiyasının qeyri-formal jurnalist təşkilatları bu sahədə maraqlı kitabların işlənməsinə və çap edilməsinə nail oldular.

Jurnalistin peşə diqqətinin obyekti olan insanlara hörmətlə yanaşması, onunla nəzakətlə davranması vacib faktorlardan biri kimi xüsusi tədqiqatların predmetinə çevrilmişdir. Kiyevdə Azad Mətbuat Mərkəzinin Nəşriyyatında çap edilmiş "Sovremennaya jurnalistika" (1999) bu sahədə maraqlı nəticələr üzərində dayanır. Bütün bu tipli nəzəri və praktik ədəbiyyatın hamısında insanların şəxsi həyatına müdaxilə etmək problemi etik normaların kobud pozulması kimi qəbul olunur.

Ümumi nəzəri ədəbiyyatda jurnalistin bəşəri dəyərlərə hörmətlə yanaşması xüsusi qeyd olunur. Humanizm, sülh, demokratiya, sosial inkişaf, insan hüquqları kimi bəşəri dəyərlər jurnalisti onlara münasibətdə məsuliyyətli olmağı tələb edir. Jurnalist müharibəni, milli, irqi ayrıseçkiliyi, silahlanmanı, totalitarizmi, zülmü təbliğ etməməlidir. Jurnalistin hər bir millətin mədəni irsinə, mentalitetinə, millətlərin hüququna, dilinə, dininə hörmətlə yanaşmağının forma və metodlarını işləyib hazırlayan elmi ədəbiyyat da az deyildir.

Demokratiya və aşkarlıq, senzura əleyhinə mübarizə jurnalistin etik borcu sırasındadır. 1985-ci ildən SSRİ-də başlayan demokratiya və aşkarlıq uğrunda mübarizədə KİV-in rolunu xüsusi qeyd etmək olar. Azərbaycanda da jurnalistlərin bu prosesə fəal qoşulmaları Respublikanın müstəqilliyini təmin edən faktlar sırasında ilkin yer tutdu.

Habelə jurnalistin peşə həmrəyliyi də etik prinsiplərdəndir. Azad söz, azad fikir, demokratik ideallar, aşkarlıq, hakimiyyət strukturlarının işinə nəzarət və s. kimi ictimai maraqlara xidmət edən onlarca missiyanı yerinə yetirən jurnalistikaya və jurnalistə həmişə təzyiqlər olur. Bu təzyiqlərə mə-

**Qərb KİV-ində insanların şəxsi həyat hüququ çox ciddi şəkildə nəzərə alınır. "Financial Times" qəzetinin foto müxbiri Kral ailəsindən nüfuzlu bir xanımın - habelə ictimai xadimin gecə vaxtı, öz bağında, gözdən uzaq bir guşədə məşuqəsi ilə öpüşməsini gizli şəkildə fotoya alıb qəzetdə dərc etdirir. Bu fakta görə məhkəmə qəzeti 60 min funt sterlinq cərimələmişdir. Fotoda təsvir olunan məqam başqa zamanda, özgə yerdə, ictimai mühitdə baş versəydi bu fakt ciddi ictimai maraq obyekti olardı və hüquqi cəhətdən özünə bəraət qazanardı.**

ruz qalan qəzeti, telekanalı, jurnalisti müdafiə etmək, ədaləti müdafiə etməkdir.

Nəzəri ədəbiyyatlarda düzgün olaraq qeyd edilir ki, "peşə etikasının qəsdən pozulması azadlıq prinsiplərinin pozulması kimi qiymətləndirilməlidir". Və bu kitabda belə tipli pozuntuların xarakterik faktları göstərilir:

1.Vətəndaşların informasiya almaq hüququnu məhdudlaşdıran əməllər:

- Jurnalist məqsədindən asılı olmayaraq dəqiq yoxlanılmamış səhv informasiyanı təqdim edirsə;
- Jurnalist ictimai maraq kəsb edən informasiyanı şəxsi maraqlarına görə gizləyirsə;
- Jurnalist informasiyanı saxtalaşdırırsa, gətirdiyi sitatı qəsdən təhrif edirsə;
- Jurnalist hər hansı bir ictimai maraq kəsb edən faktla bağlı qəsdən susursa;
- Jurnalist etibarlı mənbə pərdəsi altında şayiələrə, dedi-qodulara söykənən informasiyanı ictimaiyyətə ötürürsə.

2. Vətəndaşların öz fikirlərini azad ifadə etmək hüququnu məhdudlaşdıran əməllər;

- Jurnalist öz mənəm-mənəmliyi ilə, yaxud qrup maraqlarına görə plüralizm prinsiplərini pozaraq diskussiyaya qəsdən imkan yaratmırsa;
- Jurnalist dərc olunmuş materiallarla bağlı tənqidi qeydlərin ifadəsinə mane olursa;
- Təkzib verilməsinə əsassız əngəl törədirsə;
- Jurnalist konfidensiallıq prinsiplərinə əməl etmirsə;
- Materialını KİV-ə çıxardığı, yaxud müsahibə aldığı adamla sonuncu variantı müzakirə etməkdən yayınırsa;

3. Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə əməllər;

- Jurnalist şəxsiyyətin şərəf və ləyaqətinə toxunan - hətta dəqiq informasiya olsa belə - materialı verirsə;
- Yalan və təhqiredici materialı, qəzetə, efirə çıxarırsa;
- Jurnalist insanı təhqir etmək məqsədilə onun fiziki çatışmazlığını, adını və soyadını məsxərəyə qoyursa;
-Jurnalist məhkəmənin qərarına qədər müttəhimi cinayətkar, terrorist adlandırırsa.

4. Jurnalistin peşə şərəfinin pozulması:

- Jurnalist öz vəzifəsindən şəxsi məqsədlər üçün istifadə edirsə;
- Jurnalist maraqlı tərəfdən hədiyyə qəbul edirsə;
-İnformasiya almaq üçün məqbul sayılmayan şantaj, yalan, xof və hədələrə əl atırsa;
- Jurnalist danışıqlar çərçivəsində şəxsin dərcə layiq bilmədiyi, ancaq ona etibar etdiyi informasiyanı yayırsa;
- Jurnalist plagiatçılıq edirsə;
-Əsassız olaraq gizli şəkildə eyni materialı iki və daha çox redaksiyaya təqdim edirsə;
- Jurnalist informasiya vasitəsi olmayan orqanlara informasiya toplayırsa.

5. Xidməti etikanın pozulması.

- Jurnalist öz həmkarının materialında etdiyi redaktələri ona bildirmədən dərc edirsə;
- Jurnalist öz vəzifəsindən sui-istifadə ilə əməkdaşları onun istəyinə uyğun redaktəyə məcbur edirsə;
- Jurnalist öz karyerası, yaxud başqa məqsədlərdən həmkarını qəsdən gözdən salan əməllərə yol verirsə;
- Jurnalist öz vəzifəsindən istifadə edərək əməkdaşının müstəqilliyinə mane olursa.

Bütün bunlarla jurnalist təkcə qanun qarşısında hüquqi məsuliyyəti deyil, habelə peşə etikası prinsiplərinin dünya təcrübəsi qarşısında da mənəvi məsuliyyət daşıyır. Nəzəri ədəbiyyat və praktika bizi belə öyrədir.

Jurnalistin peşə etikası ona görə yaradıcılığın ciddi atributu hesab edilir ki, dünyanın KİV haqqında qanunlarının əsasında da bu etik normaların mahiyyəti dayanır. Bir çox beynəlxalq ictimai təşkilatların hazırladığı və səlahiyyətlilərin imzaladığı kodekslər, xartiyalar, bəyanatlar bizi bu öhdəliklərə diqqətli olmağa çağırır.

İndi dünyanın yeni istiqamətdə dərk olunmağa başladığı bir çağda Azərbaycan jurnalistikası da dünya jurnalistikasına inteqrasiya prosesi keçirir. Təsadüfi deyil ki, "yeni jurnalistika" anlayışı dilimizin lüğət tərkibində özünə xüsusi yer qazanıb.

Əlbəttə, "yeni jurnalistika", ilk növbədə, kommersiya KİV-ini nəzərdə tutur. Amma açıq deyək ki, sovet jurnalistikası şinelindən çıxıb kommersiya jurnalistikası anlayışını qəbul etmək, yaxud dərk etmək o qədər də asan deyil. Azərbaycan jurnalistikasının klassik kökündə ən böyük cərəyan, məktəb rolunu oynayan maarifçilik ənənəsi kontekstində kommersiya modeli doğrudan da, çətin qəbul və dərk edilir. Lakin dərindən diqqət etdikdə kommersiya modelinin jurnalistləri daha namuslu olmağa çağırışını anlamaq çətin olmazdı. Qısa ifadə etsək, biznes dəqiqlik və vicdanlılıq tələb edir. Əks halda uduzmaq ehtimalı çox tez gerçəkləşə bilər.

Beləliklə, özəl sektor ictimai marağın bütün tərəflərini, bütün istəklərini nəzərə almağa məhkumdur. İctimai maraq isə bizi düz, dəqiq, vicdanlı, tərəfsiz, qərəzsiz olmağa məcbur edir. KİV-in məhz bu parametrlərdən fəaliyyətini qanunlardan çox etik normalara xüsusi diqqət tənzimləyir. Jurnalistin peşə etikası onun fəaliyyət mexanizminin tərkib hissəsidir. Məsələn, qərəzsizlik, vicdanlılıq və də-

qiqlik kimi etik normalar, bəlkə də, qanunlardan əvvəl müəyyənləşmiş və formalaşmışdır. Bir misal üzərində dayanaq: ABŞ-da qərəzsizlik jurnalistika peşəsinin doktrinası səviyyəsinə yüksəldilmişdir. 1930-cu illərdən etik norma kimi qəbul edilən qərəzsizlik 1949-cu ildə doktrina səviyyəsində KİV-in fəaliyyət mexanizmi kimi rəsmiləşdirilmişdir.

Qeyd edək ki, peşə etikasının qərəzsizlik kimi doktrinası müəyyən mənada jurnalistin ziyanına işləyir. Bir az dəqiq desək, qərəzsizlik normasına görə jurnalistin informasiya materialında öz mövqeyi olmur, digər tərəfdən ünvanına irad deyilən tərəfin də cavab şansına şərait yaradılır. Bu keyfiyyətlər, əslində, materialı dişsiz edir, onun təsir qüvvəsini azaldır. Lakin biz "uduzmağı" da bacarmalıyıq. Mövqelərin balans prinsipi ilə əks etdirilməsi vicdanlılıq prinsipini təmin edən ciddi keyfiyyətdir.

Beynəlxalq Jurnalistlər Federasiyasının hələ 1954-cü il aprelin 25-28-də qəbul etdiyi "Jurnalistlərin davranış prinsipləri haqqında bəyannamə" adlı sənəddə jurnalistin həqiqətə söykənməsi, mənbəyi məlum olmayan informasiyadan imtina etməsi, sənədləri saxtalaşdırmaması, informasiyanı vicdanlı üsulla əldə etməsi, düzgün olmayan informasiyaya görə təkzib vermək mədəniyyəti, konfidensial informasiya mənbəyini gizli saxlamağı bacarması, cinsinə, dininə, seksual yönümünə, dilinə, milliyyətinə görə insanlar arasında ayrı seçkilik qoyulmaması, plagiatlıq, faktların qəsdən təhrif edilməsinə, təhqirə və böhtana yol verilməməsi, materiala görə rüşvət almamaq və s. məsələləri peşə etikasının xüsusi maddələri kimi qəbul etmişdir. Dünya praktikası bu gün sərt qanunlarla bərabər bu əxlaq normalarını da ciddi şəkildə nəzərə alır.

ABŞ peşəkar jurnalistlər cəmiyyətinin 1993-cü ildə qəbul etdiyi "Etika kodeksləri" məhz bu keyfiyyətlərə söykənir. Bu kodekslərdə birinci növbədə qeyd edilir ki, jurnalist həqiqətə söykənməlidir. Jurnalist cəmiyyətin, insanın həqiqəti bilmək hüququnu təmin etməlidir. Jurnalist faktın, hadisənin dəqiq və vicdanlı təqdiminə nail olmalıdır.

ABŞ jurnalistikasında informasiya üstünlük təşkil edir. Ona görə də burada artıq informasiyalı cəmiyyət mövcuddur. İnformasiyalı cəmiyyət isə demokratik cəmiyyətin sinonimi kimi qəbul edilə bilər.

ABŞ jurnalistlərinin etik kodeksində dəqiqlik və obyektivlik, məsuliyyət, peşəyə məhəbbət kimi məqamlar izah edilir. Bu və ya digər etik normaların əksəriyyəti Qərb jurnalistlərinin əxlaq kodeksində öz əksini tapmış və onların peşə fəaliyyətinin əsasını təşkil etməkdədir. Məsələn, bu gün Almaniya mediası bazar münasibətlərinin doğurduğu gerçəklikləri hər cür adət və ənənədən, mənəvi dəyərlərdən üstun tutur. Reytinq və tiraj uğrunda mübarizə çox güclənmişdir. Belə şəraitdə jurnalist etik normalara qanunların özü qədər əməl etmək məcburiyyətində qalır. Bütün bunları tənzimləmək üçün Almaniya Mətbuat Şurası yaradılmışdır. Bu quruma hərəsindən beş nəfər olmaqla qəzet və jurnal nəşriyyatlarından, jurnalistlərin həmkarlar ittifaqlarından, Almaniya jurnalistlər ittifaqından nümayəndələr daxildir. Bu qurumun öhdəsinə mətbuat azadlığına nəzarət və əxlaq kodeksinin tətbiqi ilə bağlı vəzifələr daxildir.

Almaniya Mətbuat Şurasının özü də kodekslərlə işləyir (Bax: səh. 65). Bu əxlaq normalarını pozan qəzet, telekanal, yaxud jurnalist barədə mətbuatda, televiziyada tənqidi material kifayət edir ki, pozuntuya yol vermiş adam öz cəzasını almış olsun. Şuranın tənqid etdiyi qəzet, telekanal, jurnalist haqqında materialı Almaniyada qəzet və jurnallar könüllü olaraq dərc etməyi öhdələrinə götürmüşlər. Şuranın cərimə etməyə, yaxud kimisə işdən çıxarmağa yuridik hüququ yoxdur. Şura yalnız tənqidi tipli yazının mənəvi təsirinə arxayın olur və bu da, həqiqətən, çox böyük təsir göstərir.

Mətbuat azadlığı bəzən digər hüquqların, məsələn, insanın şəxsi həyat hüququnun xeyrinə məhdudlaşır. Demokratik cəmiyyətdə başqa cür ola bilməz. Almaniya Mətbuat Şurası bu hüquqlara məsuliyyətlə yanaşmağı tələb edir. Əlbəttə, onun da qərarları bəzən mübahisəli olur. Belə hallarda bu qərarların müzakirəsi TV tok-şoularının mövzusuna çevrilir və ölkədə demokratiyanın inkişafına xidmət edir.

1997-ci il avqustun 31-də təşkil olunan belə bir diskussiya şahzadə Dinanı izləyən "paparatsi"lərlə bağlı baş verib. Onları Dinanın ölümündə günahlandırırdılar. Məhkəmə prosesinin başa çatmasından əvvəl nəticəni dərc edən jurnalistlərin konstitusiya məhkəməsinə cəlb edilmələri zamanı Mətbuat Şurası onları müdafiə etmişdir. Bu faktlar göstərir ki, Mətbuat Şurası kimi bir qurum çox lazımdır və jurnalistikaya sərfəlidir.

Bu gün təşkilati və yaradıcılıq prosesində xeyli dərəcədə Qərb təcrübəsinə söykənən Azərbaycan jurnalistləri də 2003-cü ildə ölkədə Mətbuat Şurası yaratdılar. Dünya təcrübəsindən bəhrələnən Azərbaycan Mətbuat Şurası bu gün cəmiyyət - mətbuat, jurnalist və peşə etikası istiqamətində xeyli əməli iş görür. Bu şuranın qurultayda qəbul edilən etik kodeksləri mövcuddur.

Dünyanın nüfuzlu qəzetlərinin və telekanallarının avtoritetini, tirajını və reytinqini qaldıran amillər sırasında onların hər birinin özünəməxsus, lakin dünya praktikasına söykənən etik normalarının mövcudluğu xüsusi yer tutur. Bu mənada "Washington post" qəzetinin etik normaları, "New York Times"ın peşə etikası ilə bağlı konsepsiyası, "Business Week" jurnalının peşə etikası və s. xüsusi kodekslərin təcrübəsinə diqqətlə yanaşmaq olar. Məsələn, " Washington post "qəzeti özünün etik normalarını ifadə edən sənədində göstərir ki, bu qəzet həqiqətin təsdiqinə çox ciddi, fəal məsuliyyət hissi və qərəzsiz yanaşmaq metodunu üstün tutur. " Washington post " hər cür baxışları əks etdirməkdən çəkinmir, heç kimə, heç nəyə üstünlük vermir. Qəzetin reportyorları və redaktorları hər bir tapşırığa vicdanla və məqsəd güdmədən yanaşmalıdırlar.

Əks nöqteyi-nəzər həmişə nəzərə alınır. Hər hansı bir şəkildə " Washington post"un səhifəsində mənafeyinə toxunulan, ünvanına irad deyilən hər kəsə cavab şansı verilir. Qəzetə öz nöqteyi-nəzərini təqdim etmək istəyən adamların bu arzusunun motivləri öyrənilməlidir: onlar xeyirxah olduğu kimi, pis niyyət də güdə bilərlər.

Biz azad dünyanın böyük nüfuz qazanmış əsas səhər qəzetinin üzərimizə qoyduğu aşağıdakı öhdəlikləri nəzərə almalıyıq:

- "Söz deməyən çoxluğun" fikrinə diqqət etməliyik;
- Hər cür ədəbazlıqdan qaçmalıyıq;
- İctimaiyyətə hörmət etməli, ona həqiqəti deməliyik.

Daha sonra həmin sənəddə maraqlar toqquşması, ümummilli və yerli maraqlar, zövq məsələsi, qəzetin əsas prinsipləri öz əksini tapmışdır.

Qeyd edək ki, "Washington post" 1933-cü ildən Yucin Meyer ailəsinə məxsusdur. Yucin Meyer hələ o vaxtı - qəzeti əldə edən kimi onun səhifələrində aşağıdakı prinsipləri dərc etmişdir:

Qəzetin başlıca missiyası Amerikada və dünyada baş verən düzgün informasiyanı oxucuya çatdırmaqdır.

Yeniliklər haqqında məlumat verərkən qəzet vicdanlı cəmiyyətdə qəbul edilən ədəb qaydalarını gözləməlidir.

Qəzetdə dərc olunan materiallar həm cavanları, həm də yaşlıları nəzərə alır.

Qəzet sahibinə deyil, oxucularına və cəmiyyətə xidmət etməlidir.

Həqiqəti demək naminə qəzet uduzmağı da bacarmalıdır. O, heç kimin ayrıca maraqlarını müdafiə etməməli, ictimai həyatın və cəmiyyət üzvlərinin maraqlarının işıqlandırılmasında ədalətli olmalıdır.

Yuxarıda haqqında bəhs etdiyimiz peşə kodekslərinin hər bir maddəsi özlüyündə jurnalistin üzərinə, nəşrin fəaliyyətinə çox böyük öhdəliklər qoyur. Bu öhdəliklər bəzi hallarda qanunun nəzərdə tutduğu maddələrdən də güclü olur. Yucin Meyerin "Washington post" qəzetində yaratdığı prinsiplərin hamısı vicdanlı, ədalətlidir. Xüsusilə onun "Qəzet sahibinə deyil, oxucularına və cəmiyyətə xidmət etməlidir" prinsipi çox maraqlıdır. Bu, o deməkdirmi ki, qəzet sahibi onun bəhrələrindən imtina edir? Qətiyyən yox. Meyer təcrübədən hiss etmişdi ki, əgər qəzet öz sahibinin diqtəsi ilə fəaliyyət göstərsə, ictimai maraq faktı nəzərə alınmayacaq və beləliklə " Washington post " oxucusunu itirəcəkdir. Meyer kommersiya və cəmiyyət qarşısında məsuliyyət mexanizmindən çıxış edərək gözəl bir ənənənin başlanğıcını qoymuşdur. "Sahibinə deyil, oxucularına və cəmiyyətə xidmət edən" bu qəzet təkcə reklamdan ildə milyardlarla dollar pul qazanır. Minlərlə personalın çalışdığı bu qəzet öz reytinqini həqiqətə sədaqət, cəmiyyətə, ictimai maraqlara xidmət prinsipi ilə saxlayır və inkişaf etdirir.

Sual oluna bilər: jurnalistikanın səmərəliliyində etik normaların nə dərəcədə rolu var? Və dərhal da belə cavab vermək olar: əgər dünya təcrübəsi jurnalistlərin peşə etikası probleminə bu qədər ciddi əhəmiyyət verirsə, deməli, effekt şübhəsizdir. Çox təəssüf ki, jurnalistlərin peşə etikasının onların fəaliyyətinə təsiri məsələsi bizdə indiyə kimi az öyrənilmişdir.

Ümumiyyətlə, yuxarıda qeyd etdiyimiz kimi, jurnalistlər bu əxlaq normalarını öz üzərlərinə, əlbəttə, götürmək istəməzdilər. Çünki, kodekslərdə qoyulan hər bir etik norma jurnalistdən əlavə güc və səy tələb edir. Lakin bu əlavə güc və səydən imtina da ona bənzəyərdi ki, heç bir qanuna əməl etməyəsən. Çünki qanun da jurnalistin fəaliyyətinə hüquqi əsaslar verməklə bərabər, onu məsuliyyətə də çağırır. İlk baxışda kodekslər, prinsiplər, qaydalar, normalar və s. kimi qeyri-yuridik anlayışlarla ifadə olunan peşə etikası, əslində jurnalistin, nəşrin, telekanalın məhkəmədən uzaq olmasına, oxucunun və ictimaiyyətin nəzərində yüksək qiymətləndirilməsinə şərait yaradır.

Jurnalistlərin interpretasiyasında mətbuat azadlığının "məsuliyyət daşımamaq hüququ" kimi anlaşıldığı məqamlar da olur. Bəlkə elə bu səbəbdən də 1947-ci ildə ABŞ-da yaradılan və Xatçinsin adı ilə tarixə düşən "Azad və məsuliyyətli mətbuat" komissiyası bu problemə diqqətlə yanaşaraq azadlıq və məsuliyyətin hüdudlarını müəyyən etdi. Komissiyanın nəticələri ABŞ jurnalistlərini öz məsuliyyətlərini dərk etməyə çağırdı. Komissiyanın jurnalistlərin məsuliyyətini təmin edən mexanizmləri içəri-

**Bu təsirə dair misallar çəkmək olar: Almaniyada yerli qəzetlərdən biri öz səhifəsində belə bir material vermişdir ki, guya burqomistr yer sahəsi paylamaq prosesində öz xeyrinə qanunsuz torpaq payı ayırmışdır. Bu faktı bütöv bir təhqiqat komissiyası təsdiq edə bilməmişdir. Almaniya Mətbuat Şurası həmin yerli qəzet haqqında qətnamə qəbul etmişdir: kodeksin birinci maddəsi (həqiqətə hörmət) pozulmuşdur!**

**Kodeksin 4-cü maddəsindəki məqbul sayılmayan metodlarla informasiya toplamağın etik normaya uyğun gəlməməsi prinsipinə dair bir misal: Məşhur "Ştern" jurnalının reportyoru Cenevrədə oteldə intihar etmiş bir professorun otağına soxulmuş və onun şəklini çəkmişdir. Jurnalist təkcə kodeksin deyil, məhkəmənin də qarşısında cavab verməli olmuş və həbs cəzası almışdır.**

**8-ci maddədə mətbuatın şəxsi həyat hüququna hörməti ifadə olunub. Almaniyada, eləcə də bir çox ölkələrdə mətbuat bəzən buna məhəl qoymur. Almaniyada bu tipli "Bild Zeitung" qəzeti intihar etmiş bir professor haqqında yazıda onun adını, soyadını, yaşını, ünvanını və iki uşağının adını qeyd edir. Mərhumun anası Almaniya Mətbuat Şurasına şikayət edir ki, qəzetin bu materialından sonra onun qohumlarını sorğu-suala tutmaqla mənəvi zərbə almışdır. Habelə şəxsi həyat hüququnu pozmaqla qəzet mərhumun uşaqlarını da zərbə altında qoymuşdur: qəzet bu barədə yazmasaydı uşaqlar atalarının ölüm səbəbini bilməyəcəkdilər. Nəticə: "Bild Zeitung" tənqidə məruz qalmışdır.**

sində kodekslər mühüm yer tutur. 1973-cü ildə peşəkar jurnalistlər cəmiyyətinin qəbul etdiyi kodekslərdən sonra bütün ölkə qəzetlərinin əksəriyyətində hazırlanan prinsiplər meydana çıxdı. Aparılan ictimai rəy sorğularından belə məlum olmuşdur ki, oxucuların əksəriyyəti yeri gələndə müraciət etmək üçün yazılı şəkildə formalaşmış kodekslərin tərəfdarıdır.

Etik kodekslər bir çox vəzifəni yerinə yetirə bilər. Lakin onun əsas vəzifəsi cəmiyyət qarşısında jurnalistin məsuliyyətini artırmaqdan ibarətdir.

Təəssüf ki, məsələnin az öyrənilməsi gerçək həyatda etik problemlərlə üzləşən jurnalistin öz davranışını müəyyənləşdirməsinə mane olur. Tədqiqatların nəticələri kodekslərin jurnalist davranışına təsirinin maraqlı faktlarını üzə çıxarır. Rəyi soruşulan redaktorların, naşirlərin əksəriyyəti jurnalistin peşə kodekslərinin onların işinin istiqamətləndirilməsinə ciddi təsir etdiyini təsdiqləmişdir. Hətta onların bir çoxu etik normaları pozan əməkdaşların işdən uzaqlaşdırılması təcrübəsinin getdikcə genişləndiyini bildirmişdir.

Jurnalistin peşə etikasının bütün aspektlərinə ciddi yanaşan redaksiyalarda bu kodekslərin praktik nəticələri səmərəli olur. ABŞ-da nəşr olunan “İndianapolis star” qəzetinin redaksiyası etik məsələlərdə əməkdaşlarına çox etibar edir. Burada etik normalara riayət etmək yazılmamış qanun səviyyəsində özünü göstərir. Qəzetin jurnalistləri deyirlər: “Biz öz aramızda etik normaları müzakirə etmirik.” Müzakirə edilmir, ancaq həmişə yadda olur, həmişə qaydalara əməl edilir. Məsələn, bu qəzetin iki müxbirinin - S.Hedden və C.Hollinenonun düzgün diaqnoz qoymadığına və səmərəli müalicə aparmadığına görə tez-tez məhkəməyə düşən İndiananın bir neçə həkimi barədə reportajları ona görə xüsusi mükafata layiq görülmüşdü ki, onlar öz təhqiqatlarında etik mülahizələrdən çıxış edərək xəstələrin adlarını heç yerdə çəkməmişdilər. Buna jurnalistləri heç kim məcbur etməmiş, bu qərara onlar özləri gəlmişlər.

Müqayisə üçün deyək ki, Azərbaycan qəzetlərinin birində fahişələr haqqında bir materialda çəkilən dəqiq adlar, soyadlar nəticəsində fahişə qadınlarla qohumluq münasibəti olan iki günahsız ailə dağılmışdır.

Ümumiyyətlə, yaxşı praktika jurnalistin özünün məsuliyyətindən başlayır. Əməkdaş özünə redaktordan daha yaxşı nəzarət edir. Lakin burada nəzərə almaq lazımdır ki, jurnalist bir fərd kimi özünə nəzarətdə ardıcıl ola bilməz. Ona görə də kodekslərin yazılı formatı bütün məqamlarda daha yaxşı köməyə çatır.

Əlbəttə, postsovet ölkələrindən çox-çox əvvəl öz etik normalarını formalaşdırmış Qərb jurnalistikasından öyrənmək, təcrübə qazanmaq vacibdir. Lakin bəzən təcrübəsindən bəhrələndiyimiz bu regionun da böyük etik əxlaqsızlıqları olur.

Lakin etik təcrübəsinə diqqət yetirməli qəzetlər də az deyil. ABŞ qəzet praktikasından buna misal çoxdur. ABŞ-ın “Messenger-inquire” qəzeti yazılı kodeks praktikasına o qədər ardıcıl diqqət yetirib ki, XX əsrin 70-80-ci illərindən etik normalara tam riayət edən bir qəzet imici qazanıb. Bu redaksiyada “yazılı normaların redaktor üçün deyil, qəzet üçün” vacib olduğu qənaəti hamıya məlumdur. Qəzetin redaksiyasında onun prinsiplərini əks etdirən yazılar xüsusi lövhələrə vurulmuşdur. 157 səhifədən ibarət “İnformasiya şöbəsi üçün sorğu” kitabı əməkdaşlara informasiyanı təqdim etmək qaydalarını öyrədir. Azərbaycan qəzetçiləri də redaksiyanın kodekslərini, iş prinsiplərini hazırlamağa və onu öz fəaliyyətlərində əsas tutmağa başlamışlar. Ölkədə ictimai rəyə təsir edən qəzetlər sırasında öz yerini getdikcə möhkəmləndirən “Ayna” qəzetinin kollektivi qəzetin oxucularına çoxdan elan etdiyi prinsipləri ciddi şəkildə qorumağa çalışır. Bu prinsiplərdə etik normalar əsas yer tutur.

Təcrübə göstərir ki, ümumi etik qaydalara söykənən hər bir media nümunəsi həm də redaksiyanın, nəşrin spesifikasından çıxış edərək öz kodekslərini yaradır. Bu kodekslərə diqqətlə yanaşan KİV özünün cəmiyyət qarşısında məsuliyyətini necə dərk etdiyini göstərir. Belə mətbuat orqanı həm ictimai fikirdə, həm oxucuda, həm də reklam bazarında özünün sabit yerini müəyyənləşdirmiş olur.

## PEŞƏ ETİKASININ PRAKTİKİ İSTİQAMƏTLƏRİ

***Cahangir MƏMMƏDLİ,***
***Könül NİFTƏLİYEVA,***

Jurnalistikanın bir sıra elə məqamları var ki, onlar artıq beynəlxalq aləmdə birmənalı şəkildə qəbul edilmiş, postulatlara, kanonlara çevrilmişdir. Onları belə ümumiləşdirmək olar:

1. Informasiyanın mənbəyini göstərmək
2. Prioritet mövzunu obyektiv müəyyənləşdirmək
3. Jurnalistin sosial məsuliyyəti
4. Şərə qarşı mübarizə
5. Qərəzsizlik
6. Vicdanlılıq
7. Dəqiqlik

Jurnalistikanın bu qaydaları barədə, yeri gəldikcə, yuxarıda danışmışdıq. Lakin indiki halda bütün dünya jurnalistikası üçün xarakterik keyfiyyətlər kimi onların üzərində yenidən dayanaq. Belə bir faktı xüsusi qeyd etməyi lazım bildik ki, bu keyfiyyətlərin bəziləri müxtəlif ölkələrdə, sözün müstəqim mənasında doktrinaya çevrilmiş, bəziləri isə, müşahidələrə görə, belə bir status səviyyəsi qazanmaqdadır.

Hər şeydən əvvəl görək doktrina nədir? Bu söz latın mənşəli olub təlim mənasını ifadə edir. Geniş mənada konsepsiya, prinsiplər məcmusu kimi anlaşılır.

Bu izahda bizi daha çox “prinsiplər məcmusu”

ifadəsi maraqlandırmalıdır. Doktrinaya çevrilmiş və çevrilməkdə olan bu prinsiplər dünya jurnalistikasının qeyd-şərtsiz qəbul etdiyi faktlardır, yaradıcılıq və fəaliyyət mexanizmini müəyyənləşdirən bəşəri dəyərlərdir.

İnformasiyanın mənbəyini göstərmək - bu barədə İngiltərə qanunvericiliyində xüsusi hüquqi tələb vardır. Hələ 1920-ci illərdə qüvvəyə minən bu qanun getdikcə inkişaf etmiş, təkmilləşmiş və bir çox Qərb ölkələrinin moduluna çevrilmişdir. BBC dünya informasiya xidməti mənbəyi mütləq göstərməyi öz fəaliyyətində doktrina kimi qəbul etmişdir.

İlk baxışda sadə görünən bu problemin həmişə müsbət həlli o qədər də asan məsələ deyil. Professor Şirməmməd Hüseynov elmi-tekstoloji, tematik və fəaliyyət mexanizmi baxımından belə bir nəticəyə gəlmişdir ki, ilk Azərbaycan milli mətbuat nümunəsi olan "Əkinçi" qəzeti beynəlxalq jurnalistika təcrübəsinə söykənərək, azad mətbuat nəzəriyyəsi tələblərindən çıxış etmiş və heç vaxt mənbəyi naməlum olan informasiyanı oxucuya təqdim etməmişdir. Azərbaycan mətbuatı qərəzli bolşevik mətbuatına qədər belə fəaliyyət göstərmiş, kommunist rejimi dövründə isə fakt mənbəyinə çox etinasız olmuşdur. Azərbaycan jurnalistikasının sovet jurnalistika ənənələrindən ayrılma prosesini uzadan amillərdən biri kimi fakt mənbəyinə etinasızlığı misal gətirmək olar. Hətta bəzi müasir qəzetlərin və jurnalistlərin mənbəsiz fakta sovet dövründə öyrəşmiş oxucunun xarakterindən yararlanma keyfiyyəti də göz qabağındadır. "Adının çəkilməsini istəməyən mənbə", "bəzi mənbələr", "bizə məlum olmayan mənbələr", "məlumatlı mənbələr" və s. ifadələrlə müxtəlif yalan, yaxud yoxlanılmamış informasiyalar çoxdur. Lakin artıq beynəlxalq jurnalistika belə ifadələri qəbul etmir. BBC dünya xəbərlər xidmətinin, CNN-in və bir çox digər məlumat vasitələrinin leksikonunda belə ifadələr rəsmi qadağan edilmişdir. Önəmli Qərb informasiya vasitələri konfidensial mənbələrə - yəni öz nyusmeykerlərinin (hər hansı bir xəbəri jurnalistə gizli ötürən) mənbələrinə heç vaxt istinad etmir. Konfidensial mənbə leqallaşmayınca xəbəri qəzetə, efirə çıxarmırlar. Mənbəyi leqallaşmamış xəbər Qərb dünyasında qəbul edilmir. Bütün dediklərimizə müsbət misal kimi Azərbaycan informasiya ötürmə məkanında hələlik bir neçə qəzetin adını çəkmək olar. "Ayna", "525-ci qəzet", "Exo", "Ekspress", "Şərq" və s. qəzetlər informasiyanın mənbəyini dəqiq göstərməyi vacib sayırlar.

İnformasiya mənbəyinin göstərilməsi oxucuya, tamaşaçıya həqiqətin təqdim olunmasının sübut faktıdır. Oxucu, yaxud tamaşaçı inamını qazanmağın yollarından biri də budur.

Jurnalistin məsuliyyəti. Beynəlxalq jurnalistikada informasiya və jurnalistin digər materialları təkcə xəbərləndirmək, məlumatlandırmaq deyil, habelə insanı, cəmiyyəti bu informasiya ilə istiqamətləndirmək, ictimai rəy yaratmaq rolunda da çıxış edir. Jurnalist obyektiv ictimai rəy formalaşdırmağa nail olmaq üçün məsuliyyət daşıyır. Xüsusilə sosial problemlərin yayımında diqqətli olmaq vacibdir. Jurnalist verdiyi informasiyaya görə təkcə naşirin qarşısında deyil, habelə cəmiyyət qarşısında da məsuliyyət daşıyır. Məsələn, 2000-ci ilin may ayında Ermənistan jurnalistləri erməni alimlərinin guya Spidin müalicəsilə bağlı dərman əldə etdiyi kimi sensasiyalı bir xəbəri dünya mediasına ötürdülər. Heç bir şübhə yeri qoymadan dünya ictimaiyyətinin maraq dairəsində olan bir problemin həlli barədə yalan informasiya rus mətbuatında və telekanallarında sensasiya təbirilə yayımlandı. Lakin az bir müddətdə ABŞ alimləri bu informasiyanın blef - yalan, hay-küy olduğunu aşkar etdilər. Həmin informasiyanı qeyd-şərtsiz, mütləq həqiqət kimi mediaya ötürən jurnalistlər dünya ictimaiyyəti qarşısında daha çox məsuliyyət daşıyırlar.

Hadisənin qeyri-adiliyini bildirən sensasiya sözünün jurnalistikada mənfi çalar kimi qəbul edilməsinin əsas kökü jurnalist məsuliyyətsizliyinin və nəşrin qəsdən diqqəti özünə yönəltmək cəhdinin gerçəkləşməsi ilə bağlıdır. Jurnalistin bilə-bilə, qəsdən sensasiya xatirinə quraşdırdığı informasiya təkcə onu yox, həm də onun fəaliyyət göstərdi-

**Böyük Britaniyanın ən çox tiraja malik "News of the World" qəzetinin 2011-ci il iyulun əvvəlində meydana çıxan qeyri-etik və həm də qeyri-qanuni fəaliyyət faktı buna yaxşı illüstrasiya ola bilər: Dünya demokratiyasının ən qədim məskəni sayılan İngiltərənin qəzet tarixində görünməmiş hadisə üzə çıxdı. "Dünyanın ən böyük media maqnatı-media nəhəngi sayılan Rupert Merdokun imperiyasına daxil olan bu qəzetin baş redaktorunu polis dindirib həbs etmiş və milyonlarla britaniyalı onların şəxsi həyatı barədə gizli informasiya toplayan bu nəşrin qeyri-etik hərəkətindən dəhşətə gəlmişlər". Nəşri tarixi 1843-cü ildən başlayan və "Bizim şüarımız həqiqətdir. Bizim işimiz həqiqəti cəsarətlə müdafiə etməkdir" sloqanına ömürboyu əməl edən bu qəzetin tirajı bəzi vaxtlarda 9 milyon nüsxəni ötmüşdür. Qəzet zaman-zaman parlamentarilərdən tutmuş baş nazirə qədər, kral ailəsindən tutmuş məşhur futbolçuya qədər şəxsiyyətlərdən elə tükürpədici faktlar üzə çıxarmışdır ki, onun həqiqətin müdafiəçisi olmasına cəmiyyətdə qətiyyən şübhə yeri qalmamışdır. Dünyanın yeni media dönəmində narahatlıq hiss edən "News of the World" (azərbaycanca - "Dünya xəbərləri") gizli telefon dinləmələrini (halbuki Britaniya qanunlarına görə cinayət hesab olunur), satın aldığı polis məlumatlarını, özəl dedektivlərin köməyilə ələ keçirdikləri elektron poçt yazışmalarını və s. dərc etməklə həm cinayət işi görmüş, həm də peşənin etik normalarını kobud şəkildə pozmuşdur. Məlum olmuşdur ki, qəzet redaksiyası xəbəri özününküləşdirmək və sensasiyalaşdırmaq üçün son vaxtlar hər cür qeyri-etik yollara əl atmışdır. "Qəzetin jurnalistləri London metrosunda həlak olmuş adamların, Əfqanıstanda ölən hərbçilərin qohumlarının və s. yüzlərlə adamın telefon danışıqlarına qulaq asmışlar. Bütövlükdə 40 minə yaxın adamın telefonu qəzetin informasiya mənbəyi olmuşdur".**

yi informasiya vasitəsini gözdən salır. Azərbaycanın qədim qaynaqlarından gələn "yalançının evi yandı, heç kim inanmadı" məsəli bu prosesin izahında yaxşı illüstrasiya rolu oynaya bilər.

Lakin bütün bunlarla belə, "sensasiya" sözünü hər bir məqamda mənfi çalarla qəbul etmək də qeyri-elmidir. Cəmiyyətin gözləmədiyi qeyri-adi, geniş ictimai rezonans doğura biləcək xəbəri düzgün, yoxlanılmış faktla, xüsusi formalarda təqdim etməklə yaradılan sensasiya qəzetə daha çox oxucu cəlb edir və bunda heç bir mənfi çalar yoxdur.

Şərə qarşı mübarizə - bu keyfiyyət ətrafında mübahisəni son 50 ilin məhsulu hesab etmək olar. Bütün sənət növü kimi jurnalistika da meydana çıxdığı vaxtdan kamilliyə, bütövlüyə, cəmiyyətin ideallarına xidmət etmişdir. İnformasiyanın tirajlanma imkanının yarandığı çağdan üzü bəri uzun müddət jurnalistikanın əsas məqsədlərindən biri də şərin şər olduğunu göstərmək və hətta müxtəlif publisist yazıları ilə onu ifşa edib aradan qaldırmağa kömək etmək olub. Dünya jurnalistika təcrübəsində estetik ideallar carçısı olan yazıçıların jurnalistikaya müraciət etməsi məhz bununla da şərtlənir. Təkcə Azərbaycan mətbuatı tarixində H.Zərdabi, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə və s. kimi onlarca klassik jurnalist şəxsiyyətini xatırlamaq kifayətdir ki, bu peşə sahəsinin cəmiyyətin pis praktikadan təmizlənməsindəki rolu aydın olsun.

Şərə qarşı mübarizədə jurnalistikanın yeri barədə mübahisələrin son dövrün faktı olması informasiyanın tərəfsizlik, qərəzsizlik kimi doktrinalarının nəzəri, praktiki inkişafından irəli gəlir. Xüsusilə praktiklər ancaq göstərmək, ancaq aşkarlamaq vəzifəsini jurnalistin əsas işi hesab edərək hadisələrə mövqe bildirməkdən çəkinməyi üstün tuturlar. Bu təcrübənin populyarlaşması prosesi getdikcə artmaqda, möhkəmlənməkdə olsa da, bizcə cəmiyyət şərə qarşı mübarizə ənənələrinin bütün çalarları ilə dirçəlməsini yenidən tələb edəcəkdir. Çünki bu tendensiya ABŞ, Britaniya, Kanada, Rusiya və eləcə də Azərbaycan jurnalistikasında öz yerini möhkəmlətməkdədir.

Müasir dövrdə jurnalist müharibələrin, milli münaqişələrin, dini ayrıseçkiliyin qızışdırılması əleyhinə fəaliyyətilə təkcə bir regionun deyil, dünyanın gedişinə təsir göstərə bilir. Lakin bəzən tərsinə olur. 1980-ci illərin sonlarında, SSRİ-nin dağılması prosesinin başlanğıcında erməni publisisti, Rusiyanın "Literaturnaya qazeta" kimi nüfuzlu bir mətbuat orqanının xüsusi müxbiri, milliyyətcə erməni Zori Balayan təkcə özünün kitabları ilə deyil, həm də həmin qəzetdəki fəaliyyəti ilə Ermənistan-Azərbaycan münaqişəsinin əsasını qoydu. Münaqişənin qızışmasında Rusiyanın imperiya maraqlarını həyata keçirən "Moskovskiye novosti", yeni yaranan "Nezavisimaya qazeta" və s. mətbuat orqanları xüsusi rol oynadı. İstər Ermənistanda, istərsə də Azərbaycanda minlərlə insanın ölümünə, evəşiyinin dağılmasına, doğma torpaqlardan didərgin düşməsinə gətirib çıxaran bu münaqişənin daha da dərinləşməsi üçün İqor Belyayev, Lidiya Qrafova, Aleksandr Nuykin kimi jurnalistlər əllərindən gələni etdilər və indi də etməkdədirlər. Eləcə də yaxın keçmişdəki Balkan münaqişəsində rus jurnalistikasının bir çox nümayəndəsi konflikti məhz milli, etnik zəmində qızışdırmağa çalışırdılar.

Əgər dünya praktikasında belə nümunələr hələ də yaşayırsa, onda beynəlxalq jurnalistikanın peşədən və peşəkardan şərə qarşı mübarizə aparmağı özünün mənəvi hüququ hesab etməsi tələbi çox aktual olaraq bəyənilməlidir.

Prioritet mövzu - bu ifadə beynəlxalq jurnalistikada latın dilində olduğu kimi işlənir. Mənası - birincilik, üstünlük deməkdir. Jurnalistikada əsas mövzu, başlıca maraq kəsb edən mövzu kimi qəbul olunur.

Bu keyfiyyət barədə də uzun müddət mübahisələr getmişdir. Məsələn, qəzet, yaxud televiziya xəbərlərində nəyə üstünlük verməlidir? Yerli prioritetə, yoxsa, beynəlxalq prioritetə?

Bu sahədə xeyli müddət iki fikir ayrılığı olmuşdur. Bir qism nəzəriyyəçi KİV-in fəaliyyət göstərdiyi ölkənin prioritet xəbərini səviyyəsindən asılı olmayaraq başlığa, birinci səhifəyə, anonsa çıxarmağı məsləhət görür. Digər qism dünyada baş verən ən önəmli xəbəri KİV-in harda, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq yuxarı çıxarmağı təkid edir. Qeyd edək ki, uzun müddət birinci qism daha haqlı olmuşdur. Dünya xəbərlərinin primitiv üsulla ləng ötürüldüyü çağlarda, habelə dünya inteqrasiyasının çox zəif olduğu vaxtlarda beynəlxalq prioritet xəbər yerli oxucu üçün maraqlı olmaya bilərdi. Bugünkü dəyişən dünyada isə vəziyyət başqadır. İnformasiya ötürücü vasitələrin sürət əmsalı anlarla ölçüldüyü, dünya informasiya məkanının lokallaşdığı, iqtisadi, siyasi əlaqələrin inteqrasiya çağında dünya prioriteti hamı üçün maraqlıdır. Ona görə də son 50 ildə beynəlxalq jurnalistika, onun örnək məktəbləri mütləq şəkildə dünya prioritetinə üstünlük verir.

Məsələn, Qəndəhardan terroristlərin Londona qaçırdığı təyyarə ilə bağlı informasiyanı yerli prioritet naminə hansısa mətbuat konfransından sonraya salmaq gülünc olardı.

Yaxud, Yaponiyada son iki əsrdə ən ağır zəlzələnin baş verməsini prioritet xəbər kimi təqdim etməməklə uduzan yalnız qəzet, yalnız TV kanalı olardı və s.

Dünya informasiya məkanı getdikcə sıxlaşmağa başlayır. Məsələn, CNN TV kanalının əməkdaşlarına "xarici", "xaricdə" sözlərini işlətmək qadağan edilmişdir.

Dünya prioritetinin beynəlxalq jurnalistikada qəbul edilmiş bu qaydaları Azərbaycan mediasında da özünü göstərməyə başlamışdır.

Belə bir incə məqamı xüsusi qeyd etmək istərdik ki, əsl prioritet xəbəri nəzərə almamaq, onun yerinə, məsələn, hakimiyyət maraqlarını əks etdirən və o qədər də ciddi ictimai maraq kəsb etmə-

yən xəbəri önə çəkmək ideoloji akt hesab oluna bilər.

Qərəzsizlik doktrinası - jurnalistin və nəşrin reytinqini yüksəldən, cəmiyyətin bütün təbəqələri tərəfindən qəbul olunmasına şərait yaradan faktor kimi çox qiymətlidir. Jurnalistikada istər naşirin, istərsə də müxbirin qərəzsiz görünməsi çox çətindir. Çünki ən obyektiv fikir məqamı da kiminsə mənafeyinə zidd olur və belələri ən obyektiv fikri də özlərinə qarşı qərəz kimi qəbul edirlər. Qeyd edək ki, qərəz təkcə tənqidi fikirdə deyil, habelə təqdirdə, tərifdə də üzə çıxa bilər. Məsələn, seçkilər dövründə hər hansı bir partiyanın ünvanına, seçkidən çox uzaq bir fakt ətrafında olsa belə, deyilən tərif, təqdir fikri haqqında heç bir söz getməyən partiya üçün qıcıqlandırıcı, qısqanc materiala çevrilə bilər. Yaxud, şəxsi baxışlarını ifadə edən respondentin fikirlərini hansısa tərəf qərəz kimi qəbul edir və s. Bundan əlavə, qərəzsiz fəaliyyət həm də onu tələb edir ki, jurnalist hər hansı fakta öz münasibətini bildirməsin. Əslində bu üsul qərəzsizliyin başlıca qarantiyası hesab olunur. Ancaq dünya jurnalistikasının demək olar ki, bütün jurnalist və habelə naşirləri mövqe bildirməməkdən əziyyət çəkir. Çünki mövqeyin ifadə edilməməsi, adətən, materialın, proqramın təsir gücünü azaldır. Bütövlükdə ədalətli jurnalistika bu tipli uduzmaları bacarmalıdır. Uduzmağı bacarmadan, güzəştə getmədən bəzən nəsə əldə etmək çətin olur. Amma öz mövqeyini heç vaxt bildirməyib də oxucunun, tamaşaçının inamını qazanmaq mümkündür. ABŞ TV kanallarında tamaşaçıların böyük hərflə GOD - Allah adlandırdıqları Heraldo River, Opra Uinfri, Fil Donahyu, Sami Rafael, Con Karson, Arsenio Holl, Kronkayt kimi teleaparıcılar heç vaxt efirdən öz mövqelərini bildirmirlər. "İzvestiya"nın köşə yazarı, teletənqidçi İ.Petrovskaya Kronkayt haqqında bir məqaləsini belə adlandırıb: "Hamının inandığı adam". Bu məqalədə göstərilir ki, tamaşaçıların Allah adlandırdığı Kronkayt otuz illik təcrübəsində yalnız bircə dəfə telekompaniyanın müdiriyyətindən öz şəxsi mövqeyini bildirməyə icazə verməsini xahiş edir. Və Vyetnam müharibəsinin qızğın çağında Kronkayt Amerika tamaşaçılarına bu müharibə barədə öz mövqeyini ifadə edərək ABŞ adminstrasiyasının bu işğalçılıq siyasəti ilə dünya ictimaiyyətinin gözündən düşəcəyi proqnozunu verir. Həmin axşam ABŞ prezidenti müşavirədə deyir: "Əgər biz Kronkaytı itiririksə, deməli, orta amerikalını itiririk" və bu sözlər ABŞ-ın Vyetnamdan çəkilməsinə işarə də hesab oluna bilərdi.

Bu misal uzun olsa da, ondan belə bir sual çıxır: öz mövqeyini heç vaxt bildirməyən jurnalistə adamların, hətta prezident institutunun bu qədər inamı hardan yaranır? Əlbəttə, "aparıcının öz proqramlarında verdiyi informasiyanın həmişə doğruluğundan, sual qoya bilmək bacarığından, diqqətlə, təəccüblə dinləməyindən" və s.

Yenə də CNN-in məşhur jurnalisti Larri Kinqi yada salaq. L.Kinq heç vaxt respondentə "hücum" etmir, onu müstəntiq sorğu-sualına deyil, tamaşaçını maraqlandıran suallara cavab verməyə sövq edir.

Rusiyada "Kursk" atom sualtı gəmisinin Barens dənizində batması ilə bağlı prezident V.Putinə verdiyi "Gəmiyə nə olmuşdur?" kimi ilk sualda tənqidçilər müəyyən qədər qərəz görmüşdülər. Çünki batan bu gəmi əhvalatı haqqında dünya ictimaiyyəti xeyli informasiyaya malik idi və belə halda Rusiya prezidentinin dərdinə şərik olmaq - empatiya imici yaratmaq əvəzinə L.Kinqin "Gəmiyə nə olmuşdur?" sualında açıq ironiya çaları hiss olunurdu. Elə ona görə də hazırcavab V.Putin müsahibədə aparıcının ironiyasına ironiya ilə cavab verir: "Gəmi batmışdır!" Vəssalam. L.Kinq sualındakı qərəzi dərhal anlayır və özünün peşəkar taktikasına keçir. L.Kinq 12 il sonra V.Putindən yenidən müsahibə alarkən efirdə özünün xarakterinə uyğun təmkinlə işləmişdi və təsadüfi deyildi ki, V.Putin müsahibənin sonunda jurnalistin 2006-cı ildəki söhbət zamanı qərəzli mövqeyni nəzərdə tutaraq: "Bu dəfə çox ədalətli oldunuz" - deyə ironik replika ilə təşəkkür etmişdi. Bu prizmadan baxsaq, Azərbaycanın bəzi qəzetlərində qərəzsizlik prinsiplərinə əməl edən jurnalistin hələ bundan sonra formalaşacağı görünməkdədir. Əslində bu fakta keçidin ləngiməsi jurnalisti və naşiri narahat etməlidir. Çünki, məsələn, qərəzsizlik rəsmi doktrina kimi hələ 1934-cü ildə ABŞ-da rabitə haqqında qanuna salınmış, 1949-cu ildən KİV-ə şamil edilmişdir. Jurnalistin qərəzsizliklə bağlı öz mövqeyini bildirməməsinin yaratdığı təsirsizliyə görə ABŞ Jurnalistlər Assosiasiyası, hətta 1974-cü ildə qərəzsizlik doktrinasının KİV qanunvericiliyindən çıxarılması təklifi ilə senata müraciəti ABŞ prezidetindən xahiş etmişdir. Prezident bu müraciətə müsbət cavab versə də, senat onun təklifini rədd etmiş, bu barədə məsələni heç gündəliyə də salmamışdır.

Dünya praktikasında jurnalistin qərəzsizliklə bağlı aşağıdakı öhdəlikləri mövcuddur: KİV müxtəlif zövq, fikir və təkliflərə cavab və səs verməklə yalnız bütöv auditoriyaya xidmət edir.

Jurnalistikanın vicdanlılıq doktrinası - hər kəsin peşə fəaliyyətinə vicdanla yanaşmasını tələb edir. Peşənin bu cəhətinin bir çox aspektdən izah edilməsi və beynəlxalq jurnalistikada ləyaqətinə hörmət edən hər kəsin və hər bir nəşrin qəbul etməsi onu çox önəmli keyfiyyət kimi xarakterizə edir. Bu doktrina hər hansı bir obyekt, şəxsiyyət və təşkilatın ünvanına deyilmiş tənqidi fikrə görə həmin obyektlərə cavab şansı verməyi, respondentə haqqında söhbət gedəcək məsələ ətrafında ideyanın ağıllı, aydın izahını, redaktə işində, yaxud montaj prosesində fikrin təhrif olunmasının yolverilməzliyini nəzərdə tutur, müsahibin bir cümləsini konteksdən çıxarıb başqa məqamda istifadəni, digər təşkilatlara kompramat toplamağı, nəşrin, yaxud yayımın imkanlarından istifadə edib müdafiəsiz adamları təhqir etməyi və s. halları rədd edir.

Dünya praktikasında jurnalistikanın bu doktrina-

sı müsahibədən imtina edən, yaxud informasiya verməkdən boyun qaçıran məmurlara qarşı dərhal qanunun diqtəsi ilə danışmağı tövsiyə etmir. Əlbəttə, KİV haqqında dünyanın əksər ölkələrinin qanununda jurnalistin məlumat toplamaq və yaymaq hüququ olduğu kimi, məmurun da informasiya vermək borcu təsbit olunmuşdur. Ancaq bu heç də o demək deyildir ki, biz informasiya verməkdən boyun qaçıran şəxsi dərhal məhkəməyə verək. Jurnalist belə məqamda bütün vasitələri işə salmalı, bütün digər imkanlarını həmin şəxsdən informasiya almağa yönəltməlidir. O imkanlar və o formalar çox müxtəlifdir. Müasir dünya bədii ədəbiyyatında da reportyorun inadkarlıq obrazı məhz onun belə məqamlarda respondenti sorğu-suala tutması ilə də yaradılır. Biz jurnalistləri adətən ən qaynar nöqtə və məqamlarda, respondenti aeroportda səfərə çıxdığı zaman, iş yerinə gələrkən, yaxud işdən çıxarkən qapı ağzında, avtomobilə oturub aralanmaq məqamında və bir çox buna bənzər anlarda yaxaladığını çox görmüşük. Vicdanlılıq tələb edir ki, belə "yaxalanma" zamanı audio, videolentə alınan fikirlərə ehtiyatla yanaşaq. Çünki bu müsahibə qeyri-adi şəraitdə keçib və orada respondenti pis vəziyyətdə qoyan, kontekstə dəxli olmayan məqamların mümkünlüyü var.

Vicdanlılıq qəzet, radio və ya televiziya ekranının belə bir vasitəyə sahib olmayan müdafiəsiz adama daimi, müntəzəm hücumlarını bəyənmir. Azərbaycan jurnalistikasının 1990-cı illər tarixində qəzetdən kiməsə qarşı şər və böhtan atmaq, təhqir etmək, qorxutmaq vasitəsi kimi çox istifadə edilmişdir. Geniş oxucuya o qədər də məlum olmayan belə qəzetlərin nəşri xüsusi məqsəd güdmüş, ancaq onların ömrü çox olmamışdır. Hələ 1859-cu ildə Dobbrolyubovun Rusiyada "küçə vərəqələri" adlandırdığı belə qəzetlər adətən çox yaşamır. Ümumiyyətlə, qərəzlilik auditoriyanı hiddətləndirən və informasiya vasitəsindən uzaqlaşdıran əlamətdir.

Vicdanlılıq təkcə jurnalistin yazılı nitqində deyil, şifahi sorğularında, teleproqramlarda da özünü göstərməlidir. Məsələn, oyun şoularına, müsabiqələrə, tok-şoualara dəvət olunmuş adamlar özlərini diskomfort vəziyyətdə, təhqir olunmuş hiss etməməlidirlər. Tok-şoularda emosiyaların coşması proqramın reytinqinin qalxmasına təsir edə bilər. Lakin bu emosiyanın jurnalistdən qalxması yolverilməzdir.

Oyun şoularında zarafat, əyləncə elementləri xüsusi ehtiyat tələb edir. İştirakçılar efirdən sonra özlərini təhqir olunmuş hesab etməməlidirlər. Onlara əvvəlcədən zarafatın, əyləncənin xarakteri və mütləq olacağı barədə xəbər verilməlidir.

Gizli kamera, səs yazıcı vasitələrdən istifadə nə qədər qadağan olsa da, hələ ki, jurnalistlər bunsuz da keçinə bilmirlər.

Lakin informasiya toplamaq naminə bu üsullara əl atan jurnalist normativ sənədlərdən başqa, vicdanının səsini də dinləməyi bacarmalıdır.

Jurnalistikanın beynəlxalq doktrinaları sırasında dəqiqlik xüsusi vurğulanır. Biz bu doktrina üzərində dayanmağı artıq hesab edirik. Çünki onun əlifbasını bilməyən KİV-in fəaliyyəti uzun sürmür.

Beynəlxalq jurnalistikanın daha bir sıra önəmli doktrinaları var ki, onlar ciddi etik normalardır və elmi-nəzəri fikrin tədqiqat obyektinə indi-indi çevrilməyə başlayır. Simvolik katarsis doktrinası bu sıradadır. Xüsusilə televiziyada tamaşaçını stresə sala biləcək reportajların xarakterini nəzərdə tutur. Katharsis - yunan sözü olub təmizlənmə-intellektual təsir vasitəsilə ruhun təmizlənməsi anlamını ifadə edir. Antik fəlsəfədə işlədilən bu terminlə müəyyən bir stresə səbəb olacağı ehtimal edilən hadisənin televiziyada - xüsusilə xəbərlər proqramında ifadəsilə tamaşaçı təsəvvüründə yaranan proseslər məcmusunu ifadə edir: təqdim olunan stress xarakterli reportaj - məsələn, qətl hadisəsinin təsviri - tamaşaçıda əvvəlcə özünütətbiqlə bağlı xof bir azdan hadisəyə təəssüf hissilə əvəz olunur. Təəssüf hissi belə hadisələrdən uzaq olmaq, pis əməllərə qatılmamaq fikriini formalaşdırır.

Bu tipli xəbərlərin televiziyada tənzimi də mübahisə obyektidir. Lakin nəzərə almaq lazımdar ki, auditoriyanın, xüsusən televiziya tamaşaçısının bəd xəbərlərə marağı böyük olur. Qəzalar, zəlzələlər, yanğın və sel daşqınları, müharibə, üsyan, kütləvi aksiyalar barədə informasiyalar tamaşaçıda təkcə dərdə şərik çıxmaq deyil, "yaxşı ki, bu hadisənin içindəki mən deyiləm" kimi eqoist bir fikir də oyadır. Və bir halda ki, tamaşaçının bu tipli hadisələrə müxtəlif rakurslardan marağı var və bir halda ki, telejurnalistlər bu marağı hiss edirlər, deməli, bazarın diqtəsi öz rolunu oynayacaq. Əlac problemin öyrənilməsinə və bu tipli hadisələrin təqdimində ehtiyatlılığın, vicdanlılığın tətbiqinə nail olmağa qalır.

Ədalətlilik doktrinası. Jurnalistikanın beynəlxalq standartları sırasında ədalətlilik prinsipi də mühüm yer tutur. ABŞ-da bunu "bərabər imkanlar doktrinası" kimi də ifadə edirlər. Bu doktrina KİV-də müxtəlif mübahisəli, hətta əks qütblü problemlər barədə tamamilə fərqli tərəflərin eyni imkanlar daxilində öz fikrini bildirməsini nəzərdə tutur. Həqiqətən də insanın, vətəndaşın hər hansı bir problem barədə özünün əks fikrini ifadə etməsinə KİV-də şəraitin yaradılması çox böyük demokratik keyfiyyət kimi qəbul edilir. Xüsusilə adamların, qrupların ünvanına deyilən tənqidə, iradlara cavab üçün yaradılan imkan çox ədalətli görünür. Əks qütblərdə dayanan adamların öz fikirlərini bildirmək, ünvanına irad deyilmiş şəxsin cavab hüququ həm də əvvəl danışmış adamın danışıq müddətini nəzərə alaraq - balans sözü ilə ifadə olunan bir keyfiyyətlə həyata keçirilir. "Balans - ədalətlilik prinsipinə uyğun obyektiv jurnalizmin şərtlərindən biri olaraq KİV-in fəaliyyətində xüsusi məqsəd güdməməyin qarantıdır. Belə güman olunur ki, konfliktli situasiyalar barədə informasiya verərkən bu prinsipin qorunması hadisəyə müxtəlif münasibətlərin bildirilməsini zəruri edir".

Yalnız belə məqamda tərəflər KİV-in qərəzsiz olduğunu, vicdanlı olduğunu, ədalət prinsipi ilə fəaliyyət göstərdiyini təsdiqləyir.

Doktrina səviyyəsinə yüksəlmiş bütün bu standartların sayı və keyfiyyəti getdikcə artmaqda, dünya media sistemində özünü daha yaradıcı şəkildə göstərməkdədir.

## Peşəkarlığın etik prinsipləri

Dünya təcrübəsində jurnalistikanın fəaliyyət mexanizminin əsas qollarından birini təşkil edən prinsiplər artıq çoxdan formalaşmışdır. Lakin postsovet məkanındakı jurnalistika, o cümlədən Azərbaycan kütləvi informasiya vasitələri uzun müddət bu prinsiplərdən uzaq düşmüşdü. "Sovet jurnalistikasının" özünəməxsus prinsipləri mövcud idi. Bu mətbuatın adı və bu adın daşıdığı mahiyyət də beynəlxalq jurnalistika normalarından çox fərqli idi. "Partiya-sovet mətbuatı", "partiya-sovet jurnalistikası" anlayışları ilə ifadə olunan bu KİV sistemi özünəməxsus prinsiplərə söykənirdi. Bu barədə elmi məqalələrdən birində oxuyuruq: "Partiya-sovet mətbuatı yeni tipli mətbuatdır. Sovet mətbuatı burjua mətbuatından əsaslı surətdə fərqlənir. Bu fərq, hər şeydən əvvəl, sinfi fərqdir". Öz yaranışının ilk çağlarında "bolşevik mətbuatı" adı ilə sivil mətbuatdan fərqlənən bu "mətbuat kütləri inqilabi səfərbərliyə almaqda, proletar inqilabının siyasi ordusunu yaratmaqda, hərəkata ideya və təşkilatca rəhbərlik etməkdə Kommunist Partiyasına xidmət göstərdi. Sosialist inqilabının qələbəsi ilə bolşevik mətbuatı özünün kollektiv təbliğatçılıq, kollektiv təşviqatçılıq vəzifələrini yerinə yetirdi". Məsələ belə qoyulurdu ki, "proletar partiyasından, ümumproletar işindən, ideya və təşkilat cəhətdən asılı olmayan həqiqi fəhlə mətbuatı, kommunist mətbuatı mövcud ola bilməz". Bu prinsiplərin əsasında V.İ.Leninin "İskra" qəzetini yaradarkən elan etdiyi bəyanat dayanırdı: "Biz öz orqanımızı sadəcə olaraq müxtəlif görüşlər anbarına çevirmək fikrində deyilik. Əksinə, biz onu qəti müəyyən bir məslək ruhunda nəşr edəcəyik. Bu məslək bir kəlmə ilə: marksizm sözü ilə ifadə edilə bilər".

Partiya-sovet jurnalistikası, deklorativ şəkildə mətbuatın dünya təcrübəsinə dair kütləvilik, obyektivlik, operativlik, dəqiqlik prinsiplərini qəbul edirdi. Lakin bütün bunları həmin jurnalistikanın əsas şüarına çevrilmiş "partiyalılıq" prinsipi inkar edirdi. Beləliklə, postsovet jurnalistikası 70 ildən çox bir müddətdə plüralizmdən, çoxsəslilikdən uzaq düşərək mətbuatın partiyalılıq prinsipi ilə fəaliyyət göstərmişdir.

Jurnalistikanın dünya təcrübəsi ilk növbədə mətbuatın hansısa partiya, qrup mənafelərinə xidmətini inkar edir. Dünya jurnalistikası KİV-in dəqiqlik, qərəzsizlik, obyektivlik, operativlik, balanslılıq, prioritetlik, plüralizm prinsiplərini əsas götürür. Bu prinsiplərə hansı mətbuat orqanı, hansı teleradio təşkilatı necə əməl edir - bu da xüsusi öyrənilməyə layiq problemdir.

KİV-in prinsipləri bəzən onun kodeksləri kimi də anlaşılır. Bu problemə dair dünya təcrübəsi ayrı-ayrı qəzet və teleradio kanallarının təcrübəsi məcmusu kimi qəbul edilir. Dünyanın bir çox önəmli qəzet və telekanalları öz prinsiplərini işləyib hazırlamışlar. Bu prinsiplər hər bir jurnalistin, hər bir jurnalist kollektivinin əlində onun fəaliyyət sənədidir.

Normal fəaliyyət prinsiplərini hazırlamış bir çox qəzet, televiziya, radio kollektivi jurnalisti işə qəbul edərkən öz prinsipləri ilə onu tanış edir. Əməkdaş bu prinsiplərlə tanış olur və onlara əməl etmək öhdəliyi götürür. "Washington post" qəzetinin prinsipləri bu mənada məktəb rolunu oynaya bilər. Qəzetin prinsiplərində həqiqətə, qərəzsizliyə, məsuliyyətə çağırış birmənalı şəkildə elan edilir. Heç kimə üstünlük vermədən bütün baxışları təqdim etməyi üstün tutur. Qəzet kollektivi əks tərəfin fikrini də ifadə etməyi öz boynuna götürür. Ünvanına irad tutulmuş hər kəs bu iradlara "Washington post"un səhifəsində cavab vermək hüququna malikdir.

Bu prinsiplər qəzetin nüfuzunun qalxması üçün olub, onun kollektivinin tirajlanan sözə sosial məsuliyyətindən doğur.

Qeyd edək ki, dünyanın bir çox nüfuzlu mətbuat orqanları və telekanalları öz prinsipləri ilə fəaliyyət göstərir.

Son vaxtlar Azərbaycan jurnalistikasında da Qərb standartlarını özündə əks etdirən prinsiplər formalaşmaqdadır.

Müasir dünya jurnalistikasında qəzetçilikdə və teleradioda öz prinsiplərini formalaşdırmaq və bu prinsiplərə söykənmək təcrübəsi daha çox genişlənməkdədir. Azərbaycanın müasir qəzetçilik məktəbində bir çox redaksiyanın öz prinsipləri işlənib hazırlanmışdır. Bu prinsiplər xeyli dərəcədə ümumi olsa da, hər bir qəzetin informasiya siyasətini də ehtiva edir; yəni bu prinsiplərin əsas istiqaməti qəzetin, telekanalın informasiya siyasətindən doğur. Məsələn, "Yeni Azərbaycan" qəzeti Yeni Azərbaycan Partiyasının orqanı olaraq partiya ideologiyasına uyğun prinsiplərlə fəaliyyət göstərir. Azərbaycan Respublikası Milli Məclisinin orqanı "Azərbaycan" "rəsmi dövlət qəzeti" kimi fəaliyyət göstərir və onun informasiya siyasətində dövlətçilik aparıcı mövqe tutur. "Xalq qəzeti" özünü "gündəlik ictimaisiyasi qəzet" kimi təqdim edir və onun informasiya siyasəti ictimaisiyasi müstəvidədir. "Yeni Müsavat" gündəlik qəzetdir və onun başlığında müasir qəzetlərin bir çoxunun konsepsiyanı müəyyən edən şüarı yoxdur. "Azadlıq", "Bizim Yol" qəzetləri də bu tipdədir. Lakin bu qəzetlər də gündəlik siyasi prosesləri izləyir, bir çox halda siyasi məzmun daşıyır və əməkdaşlarının böyük əksəriyyətinin siyasi baxışları hiss olunur. "525-ci qəzet", "Ayna", "Şərq" kimi qəzetlərin konsepsiya ifadə edən şüarları olmasa da, onlarda siyasətə plüralist baxış, müstəqil mövqe, qərəzsiz, tərəfsiz informasiya siyasəti vardır. Ölkədə qəzetçilik jurnalistikasının əsas istiqaməti müstəqilliyə daha çox meyl göstərməsi ilə müşahi-

də olunur.

Jurnalistin peşəkarlığını müəyyənləşdirən əsas prinsiplər sırasında etik normalar xüsusi yer tutur. Peşəkarlıq jurnalistin habelə sənətkarlıq keyfiyyətini özündə birləşdirir. Peşəkarlıq ictimai marağı nəzərə almaq, informasiyanı duymaq, prioritet mövzunu dərhal müəyyən etmək, maraqlı müsahib tapmaq və onu söhbətə cəlb etməyi bacarmaq, respondentin informasiyadan imtina cəhdini aradan qaldırmaq və s. onlarca problemin ustadcasına həllini tələb edir. Bu mənada peşəkarlığın bəzi məqamlarına diqqət edək:

Səriştəlilik, erudisiya  jurnalistin vacib xarakter xüsusiyyətlərinə daxildir. Erudisiya istedadın tərkib hissəsi olduğu halda səriştəlilik təcrübədə qazanılan keyfiyyətdir. Erudisiya jurnalistikada informasiya duyumu ilə bağlıdır. Səriştəlilik bu informasiyanı almaq və təqdim etmək qabiliyyətidir. Əslində, səriştəlilik sözü ilə təcrübəlilik anlayışı arasında bərabərlik işarəsi də qoymaq mümkündür. Bəzən səriştəli jurnalist təzə başlayan jurnalistin müəllimi rolunu da oynaya bilir.

Məlumatlılıqjurnalist xarakterinin vacib komponentidir. Təcrübədə və təhsildə, mütaliədə məlumat toplayan jurnalist, habelə məlumatı dəqiqləşdirməyin mənbələrini də bilməlidir. Hər tipli ensiklopediya, lüğət və məlumat kitabları jurnalistin peşə aləti qədər vacib vəsait hesab olunmalıdır. Heç kim hər şeyi bilmədiyi kimi, ən məlumatlı jurnalistin də elmi mənbələrdən əlavə məlumata ehtiyacı var. Bunun üçün çağdaş jurnalistin əlində internet kimi dərhal əlavə məlumat almağın texniki imkanı da mövcuddur. Məsələn, deyək ki, 2011-ci ilin martında ərəb ölkələrində birbirinin ardınca hakim rejimə qarşı xalq üsyanları, inqilabi çevrilişlər baş verdi. İşıqlandırmaq üçün hətta düşünməyə də vaxt verməyən bu hadisələr haqqında informasiyalarda həmin hadisənin baş verdiyi ölkənin idarə sistemi, rejimi, əhalisi, milli xarakteri, ordu gücü, xarici siyasəti, əhalinin iqtisadi vəziyyəti və s. onlarca məsələnin ən yeni faktlarını, əlbəttə, ancaq internetdən almaq mümkündür. Bu məlumatlar informasiyanı dolğun və aydın çatdırmağa xidmət edə bilər.

Ədəbi qabiliyyət  bunsuz jurnalistin özünüifadəsi mümkün deyil. Ədəbi qabiliyyət fikrin aydın dildə, aydın üslubda, məntiqi ardıcıllıqla ifadəsi deməkdir. Lakin, məsələn, aydın dil və aydın üslub heç də hamıya müyəssər olmur. Telekanalların birində xəbərlər proqramının efirdən sonrakı müntəzəm seminar müzakirələrində jurnalistlər birbirinə belə bir sualı teztez verirlər: Sən bu süjetdə nə demək istəyirdin? Sualın ünvanlandığı jurnalist ciddcəhdlə nə demək istədiyini aydınlaşdırmağa çalışır. Və bu zaman qalan müxbirlərin üzündə haqlı bir ironiyatəbəssüm yaranır: yəni ki, fikrini reportajda dediyin kimi bax beləcə niyə aydın ifadə etməmisən?

Ədəbi qabiliyyət daha çox nitqlə bağlıdır. Jurnalistin leksikası zəngin olmalıdır. O, dilin lüğət tərkibini, cümlə tiplərini, bu tiplərin üslubi imkanlarını yaxşı bilməlidir. Qəza nəticəsində suya qərq olmuş gəminin kapitanına "qatil" demək olmaz. Sözü yerində və məqamında işlətmək vacibdir.

Süjet və kompozisiya kimi ciddi elmi anlayışları qavramaq da ədəbi qabiliyyətə daxildir. Hər hansı bir hadisənin çatdırılmasında onun nəql etmə arxitektonikasına bələd olmadan oxucu və tamaşaçıya ancaq söz yığını təqdim etmiş olarıq.

Azərbaycanın ali məktəblərinin bəzi ixtisaslara məsələn, aktyorluq, müğənnilik, rəssamlıq, rejissorluq   kimi peşə sahələrinə qəbul zamanı abituriyentə tətbiq edilən qabiliyyət imtahanını jurnaistikaya qəbulda da tətbiq etmək olar. Çünki jurnalistika sahəsinə gələn hər kəsin ədəbi qabiliyyətə malik olub  olmaması üzə çıxarılmalıdır. Əks halda sözün işığı, peşənin cazibədarlığı abituriyent üçün vacib olan bir seçimdə insanı aldada bilər.

Müşahidə qabiliyyəti  bu, yaradıcı adamların hamısına məxsusdur. Müşahidə qabiliyyəti olmayan adam yaradıcılıqla məşğul deyil. Xulio Kortasar öz romanlarının süjetini metro qatarında qururdu. Onun üçün metro qatarındakı insanlar xarakteri, psixologiyanı öyrənmək mənbəyi olub. Bir az qəribə görünə bilər. Amma nəzərə alın ki, hər birimizin müşahidə mənbələrimiz var. Yazan adam mütləq müşahidənin gücü ilə yazır. Anarın "Mən, sən, o və telefon" hekayəsindən bir misal: "Bəzən mən qara telefonun dəstəyini elə qaldırırdım, elə bil royalın qapağını qaldırıram. Bəzən bu qara dəstəyi elə qoyurdum, elə bil tabutun qapağını örtürəm". Əlbəttə, bu gün həyatımıza daxil olan mobil telefonların inkişaf perspektivində doğulmuş oxucu üçün yəqin ki, telefon dəstəyinin royalın, yaxud tabutun qapağına bənzədilməsi qəribə görünəcək. Ancaq müasir oxucu bu bənzətmədə Anarın müşahidəsini yaxşı dərk edir.

Jurnalistin müşahidəsi bir az fərqlidir. O, aktual hadisələri, siyasi aləmi, siyasət adamlarını, iqtisadi tənəzzülü və inkişafı, dünya informasiya məkanını, informasiya dinamikasını, ictimai hadisələri  müşa-

**2011-ci il martın əvvəllərində beş yaşlı uşağın valideynləri tərəfindən döyülərək öldürülməsinin geniş və prioritet xəbər kimi bir TV kanalında təqdimi bir tərəfdən geniş rezonans doğurdusa, digər tərəfdən bu hadisə ilə bağlı uşağın doğma anasının çılğınlığından, efirdə dəqiqələrlə davam edən göz yaşlarından, hönkürtü və iztirablarından suiistifadə də tamaşaçıda stress yaratmaq halına gətirib çıxarmışdır.**

**Telereportajlardan birində Bakının mərkəzində - R. Behbudov küçəsində gündüz vaxtı avtomobilin bir atı vurub öldürməsi xəbəri yer alır. Özlüyündə maraqlı hadisədir: şəhərin mərkəzi, at, avtomobil, qəza. Əsl telesüjet materialıdır. İlk baxışda hər şey yerindədir. Lakin reportajda həm də belə bir məqam saxlanıb: Avtomobilin vurub yerə sərdiyi və can verməkdə olan atı yoğun bir məftilə bağlayıb yük avtomobilinin arxasına qoşaraq sürüyürlər. Asfalt qana boyanıb, at can verə-verə sürüdülür. Tamaşaçı üçün ağır səhnədir, reportyorun yaratdığı narahatlıq uzun müddət tamaşaçını stresə salır.**

hidə etməklə öz yaradıcılığında bunların lazım olacağını şüurlu şəkildə dərk edir. Məsələn, adi mətbuat konfransında ən vacib məqamı tutmaq müşahidə qabiliyyəti ilə bağlıdır.

Mövzu, adətən müşahidə qabiliyyətindən doğur. Yalnız müşahidə edə bilən jurnalistin öz mövzuları olur və yalnız bu tipli jurnalistə peşəkar demək olar.

Jurnalistin müşahidələrində qərəz, sensasiya yaratmaq duyğusu özünü göstərməməlidir. Ən uyğun müşahidə hadisələrə soyuqqanlı münasibətdir.

Müstəqillik və prinsipiallıq jurnalistin vacib atributlarıdır. Müstəqillik, adətən, xarakterlə bağlıdır. İnsan hər yerdə müstəqil olsa yaxşıdır, lakin jurnalistikada müstəqillik peşəkarın xarakterini, şəxsiyyətini müəyyənləşdirən keyfiyyətə, etik normaya çevrilir.

Azərbaycan jurnalistikası 70 il kommunist rejimində fəaliyyət göstərmişdir və demək olar ki, bu dövrdə müstəqil mətbuat orqanı barədə heç nəzəri söhbət də gedə bilməzdi. Həmin 70 ildə mətbuat yalnız dövlət və kommunist partiyasına məxsus olduğu üçün onun müstəqillik anlayışı heç müzakirə obyekti də olmayıb. Lakin nə qədər təəccüblü görünsə də, elə o dövrün özündə də, nisbi də olsa, müstəqil jurnalist şəxsiyyəti vardı. Belə jurnalistlər az idi, amma sifariş yazılarına razılıq vermirdilər. Bundan belə bir nəticə çıxır ki, hətta bütövlükdə müstəqil olmayan mətbuat nümunəsində jurnalistin bir fərd kimi müstəqilliyi mümkündür.

İndi Azərbaycanda bütöv bir KİV sistemi yaranmışdır və artıq bu sistem formalaşmış demokratiya institutudur. Bu institutun müstəqil qanadının formalaşmasında əsas ağırlıq liberal medianın özündən çox KİV-in bütün tiplərində özünü göstərən müstəqil jurnalist şəxsiyyətinin üzərinə düşür. Əlbəttə, bütün sahələrdə ağırlıq müstəqil fikirli, cəsarətli adamların üzərinə düşür. Jurnalistika cəmiyyətə açıq pəncərə olduğu üçün onun evində kimin kim olduğunu hamıya göstərir. ABŞ-ın, İngiltərənin 1930-cu illərdəki dünya iqtisadi böhranından çıxmasında belə jurnalistlərin zəhməti böyük olub. Azərbaycana bu gün hadisələrə, cəmiyyətə, inkişafa öz baxış bucağı, öz təhlilləri olan jurnalistlər çox lazımdır. Qeyd etdik ki, müstəqillik şəxsiyyətin xarakteridir. Xarakterdə azadlıq olmasa, müstəqillik mümkün deyil.

Hamı kimi jurnalistin də yaşamaq üçün maliyyə ehtiyacı var və bu ehtiyac onun müstəqilliyinə zərbə də vurur. Müstəqillik şəxsiyyətin maddi, iqtisadi mənafe, qazanc iddialarını yalnız müstəqillik şərti ilə qəbul edir. Yalnız obyektivliyə, yalnız fakta, yalnız qərəzsizliyə söykənməklə müstəqil olmaq mümkündür.

Doğruluq, əxlaqlılıq və təmizlik kimi keyfiyyətlər bütövlükdə şəxsiyyəti müəyyənləşdirdiyi kimi, jurnalistin də xarakterini aydınlaşdırır. Peşəkar jurnalist inanmadığı faktı, şübhə etdiyi faktı dönədönə yoxlayır. O yaxşı bilir ki, hətta dünənki qəzet sətirləri bu gün doğru görünməyə bilər. Yalan və kompramat jurnalistin şəxsiyyətinə xələl gətirən, onu gözdən salan fakta çevrilir. Peşəkar jurnalist birinci əldən aldığı xəbərlə ikinci əldən aldığı xəbəri fərqləndirməyi bacarmalıdır. Peşəkar jurnalist "adının çəkilməsini istəməyən mənbənin verdiyi məlumata görə" və s. tipli qeyridəqiq, mücərrəd mənbələrə söykənmir. Peşəkar jurnalist məhkəmənin hökmü ilə müəyyənləşməyənə qədər heç kimə "terrorist", "cinayətkar", "oğru", "qatil" leksik vahidlərini tətbiq etmir. Bu keyfiyyət onun əxlaqından, jurnalistikaının beynəlxalq normalarına, beynəlxalq praktikasına sadəcə əməl etməkdən yaranır.

Qanun və etik normalar tələb edir ki, cinayətdə suçlandırılan adama yalnız məhkəmənin hökmündən sonra "cinayətkar" deyək. Bu gün Azərbaycan jurnalistikasında bir çoxları bu qızıl qanuna əməl edə bilmir. Qəzet səhifələrində əsaslandırılmamış yüzlərlə belə epitetlərə rast gəlirik.

Belə bir misal maraqlı olardı: 1979-cu ildən Əfqanıstana müdaxilə etmiş sovet qoşunlarına qarşı döyüşən yerli silahlıları rus jurnalistikası "duşmanı" adı ilə ifadə edirdi. Rusiya Əfqanıstandan əl çəkəndən sonra, 1989-cu ildən rus jurnalistləri həmin əfqan silahlılarını "mücahid" azadlıq fədailəri adlandırmağa başladı.

Jurnalistin təmizliyi kimi etik və həm də yuridik anlayış daha çox onun öz fəaliyyəti ilə bağlı rüşvət alıbalmamasını əks etdirir. ABŞ qəzet redaktorlarının bəyənatında jurnalistin, hətta bəxşiş alması da məsləhət görülmür. Azərbaycan jurnalistlərinin peşə xarakteri ilə əlaqədar olaraq 1990cı illərdə "reket jurnalist" anlayışı leksikona daxil oldu. Reketjurnalist hər hansı bir cinayət barədə informasiyanı yayımlamaq hədəsi ilə cinayətkarlardan "pul qoparmaq" kimi başa düşülməlidir. Bu illərdə dövlət məmurunun özbaşınalıq, rüşvətxorluq, məsuliyyətsizlik faktının tipik hala keçməsi "reket jurnalistin" əlqolunu açmışdı. Bu tipli hadisələrin ictimai maraq dairəsini nəzərə almamaq, onu mətbuata, efirə çıxarmaq əvəzinə, nöqsanları aşkarlamaq əvəzinə rüşvət hesabına örtbasdır etmək peşəyə xəyanət kimi qəbul edilməlidir. Hadisələrin qaynar nöqtələrində olan jurnalistin təmizliyi və bunun nəticəsində yalnız sənətə, peşəyə qulluq etməsi cəmiyyətin normallaşmasına çox kömək edir.

2005-ci ildən təşkil olunan Azərbaycan Mətbuat Şurası "reketjurnalist"lərə qarşı xüsusi mübarizəsi ilə daha çox hörmət qazanır.

Münasibət bacarığı bu keyfiyyət hamıya lazımdır və etik normaların əsasında dayanır. Ancaq etiraf edək ki, jurnalist gün ərzində tanış və qeyritanış adamlarla daha çox təmasda olur. Habelə nəzərə alaq ki, jurnalistin təmasda olduğu, müraciət etdiyi adamların çoxu informasiya mənbələridir. İnformasiya mənbəyi olan adamlarsa, xüsusilə dövlət məmurları informasiya verməyə heç də həmişə həvəs göstərmir. Bu narahatlığı çox vaxt etik normalara əməl etməməklə də bağlamaq olar. Əlbəttə, KİV haqqında qanunda jurnalistin informasiya almaq hüququ, dövlət məmurunun jurnalistə informasiya vermək borcu dəqiq təsbit edilmişdir. Lakin məmu-

run informasiya verməkdən çox jurnalistdən qaçmaq istəyi heç kimə gizli deyil. Belə halda jurnalist informasiya mənbəyinə yanaşmağı, respondenti müsahibəyə cəlb etməyi, hətta ən yüksək vəzifəli məmurdan belə istədiyi informasiyanı almağı bacarmalıdır. Bunun üçün yuxarıda saydığımız və bundan sonra sadalayacağımız keyfiyyətlərdən başqa jurnalistin qılığı, həmsöhbət olmaq bacarığı, münasibət yaratmaq taktikası da vacibdir. İnformasiya vermək borcunun qanunda təsbit olunduğunu dövlət məmuruna elə ilk imtina zamanı xatırlatmaq taktiki cəhətdən səhv olardı. İlk imtina cəhdlərindən sonra onunla yeni şəraitdə yeni görüş təşəbbüsündə olmaq olar. Bir neçə cəhddən sonra onu hətta kabinetinin qapısı ağzında, aereportda, müşavirə salonunun girəcəyində  və s. yerlərdə "yaxalamaq" da mümkündür.

Hakimiyyət adamlarına da, hakimiyyətə can atanlara da eyni nəzakət qaydasında müraciət etmək vacibdir. Xüsusilə polis işçiləri ilə yaxşı münasibət tələb olunur. Onlar informasiya mənbəyi olmaqla yanaşı, həm də jurnalistə, xüsusilə telejurnalistə işi təşkil etməkdə yardımçı ola bilərlər.

Müsahibi dinləmək mədəniyyəti də etik prinsiplərə daxildir. Aydındır ki, müsahibə jurnalistikanın çağdaş dünyamızda ən dəbdə olan janrları sırasındadır. Bu dəbdə olmaq heç də dəb xatirinə deyil, müsahibə informasiyanı birbaşa onun mənbəyindən almaq deməkdir və ona görə də ciddi ictimai maraq doğurur. Biz gələcəkdə müsahibəni bir janr olaraq izah etməyə çalışacayıq. İndiki halda bizi müsahibə almaq texnologiyasının vacib komponentlərindən biri kimi respondenti dinləmək mədəniyyəti maraqlandırır. Rus televiziya tənqidçiləri Georgi Bovt və Yuri Boqmolovun CNN-in məşhur aparıcısı Larri Kinqin Rusiya prezidenti V.Putinlə apardığı müsahibə haqqında məqaləsi belə başlayır: "O, özünün çəhrayı köynəyi və bu köynəyin üstündən bağladığı aşırması ilə stolun üstünə dayanıb diqqətlə müsahibini dinləyir. Arabir gözlərində təəccüb və maraq ifadəsi var. Həm də özünü inadkar bir skeptik kimi göstərir. Arabir üzünün ifadəsini dəyişir və müsahibinə onun cavabından bu dəqiqə yaranmış sualla müraciət etmək istədiyini bildirir.  Onun bütün proqram boyu müsahibinə hücumu yalnız bu taktikalardan ibarətdir." Göründüyü kimi, bəyənilən odur ki, gərək müsahibi yaxşı dinləməyi bacarasan.

Qəzet üçün müsahibəni diktafona yazan jurnalist də, canlı yayımla müsahibi efirə çıxaran telejurnalist də, eyni dinləmə mədəniyyətinə sahib olmalıdır. Qəzet jurnalisti üçün vaxt məhdudiyyəti olmadığı üçün o, bəzən sualın müxtəlif variantlarını verə bilər. Yeni sualın mütləq dinlənilən cavabdan doğan sual olduğunu hiss etdirməklə aydınlaşmanın zəruriliyini nəzakətlə başa salmaq olar. Mədəni münasibət tələb edir ki, asan sualdan başlayıb mürəkkəbə doğru gedəsən. İstər diktafona yazılan, istərsə də teleefirdə canlı gedən müsahibədə respondenti düşünmə məqamlarından məhrum etmək olmaz. Hə-

**2005-ci ildə Danimarkanın "Jyllands-Posten" qəzetində Məhəmməd Peyğəmbərə şər atan karikaturaların dərcindən sonra dünyanın vicdanlı adamları jurnalistin bu əxlaqsızlığına qarşı ayağa qalxdı. Bu aksiyaları işıqlandırmaq istəyən KİV nümayəndələri belə bir sual qarşısında qaldılar: Həmin karikaturalar əleyhinə aksiyalar haqqında informasiyalarda narazılığın səbəbi kimi karikaturaları yenidən dərc etmək olarmı? Çox incə bir məqamdır, jurnalistdən təmiz vicdan və əxlaq tələb edir. Əlbəttə, bu gün bir çoxumuzun hətta tələbə auditoriyasında söykənəcək yeri kimi istinad etdiyimiz Qərbin - xüsusilə Fransanın, Hollandiyanın, Norveçin bir sıra mətbuat orqanları həmin karikaturaları etiraz hadisələrinə illüstrasiya kimi yenidən dərc etdi. Hətta, Hollandiya İctimai televiziyasının baş direktoru özlərinin "biz nədən danışırıqsa, onu mütləq göstəririk" tezisindən çıxış edərək karikaturaları yenidən efirdə göstərmələrinə bu kitabın müəllifinin də iştirak etdiyi və Amsterdamda keçirilən nüfuzlu bir konfransda bəraət qazandırmaq cəhdi etmişdi. (Lakin bu konfransda "Hollandiyada çox inkişaf etmiş pedofillik barədə informasiyalarda prosesi göstərirsinizmi?" sualı qarşısında baş direktor çıxılmaz vəziyyətdə qalmışdı.) Elə həmin konfransda İngiltərənin "The Guardian" qəzetinin təmsilçisi bildirdi ki, bu qəzetin redaksiyası karikaturaları yenidən dərc etməyi əxlaqsızlıq sayaraq buna heç vaxt yol verməmişdir. Bu, jurnalistin əxlaq nümunəsidir.**

belə telejurnalist teztez vaxtın tükəndiyini xatırlatmaqla da respondentə mədəniyyətsizlik göstərə bilər. Televiziyada ən yaxşı müsahibə vaxtın bitməsi ilə mövzunun yekunlaşmasının üstüstə düşməsindən yaranır.

Sual vermək mədəniyyəti. Sual verə bilmək mövzunu, redaktor niyyətini yaxşı bilmək deməkdir. Müsahibdən sənə lazım olan informasiyanı almaq, birmənalı şəkildə, sual vermək bacarığından asılıdır. Platonun məşhur bir fikri qədimdən bu günə nahaqdan gəlib çıxmayıb: "Sokrat, sən çox maraqlı suallar verirsən, həm də çox gözəl soruşa bilirsən. Yaxşı soruşanlara cavab vermək isə mənə xoşdur". Platonun bu fikrini şərhə ehtiyac yoxdur.

İnformasiya toplayan jurnalistin günü suallarla keçir. Biz telefon vasitəsilə, birbaşa görüşlərlə, küçədə, hadisə yerində adamlarla münasibətdə olur, onlara sual verib cavab almaqla informasiya hazırlayırıq. Lakin sualların əsas məqamı və ən ciddi anları bu gün dünya jurnalistikasında çox dəbdə olan müsahibə janrı ilə daha möhkəm bağlıdır.

Müsahibə xüsusi hazırlıq tələb edir. Hətta müsahibə götürməyi mövzuya ümumiyyətlə bələd olan jurnalistə tapşırırlar. Bütün mövzularda müsahibə götürmək bacarığı hər jurnalistə nəsib olmur. Sırf filoloji, humanitar təhsilli jurnalistin tibbin yeni kəşfləri ilə bağlı hansısa alimhəkimdən müsahibəyə girişməsi ağlasığmaz olduğu kimi, fundamental təbiət elmləri üzrə təhsil almış jurnalistin də yazıçının sənət dünyası ilə bağlı onunla müsahibəsi təəccüb doğura bilər.

**Telekanalların birində axşam saatlarında efirə çıxacaq analitik söhbətə məşhur bir yazıçını dəvət etmək qərara alınır. Proqramın efirə çıxmasına cəmi bir neçə saat qalıb. Analitik söhbətin aparıcısı tanışına mobil telefonla zəng edib həmin yazıçı haqqında ona bilgilər verməsini xahiş edir. Tanışı hiss edir ki, aparıcı həmin yazıçının yaradıcılığına, ümumiyyətlə söhbətin əsas mövzusu ola biləcək müasir ədəbi prosesə bələd deyil. Ona görə də, tanışı jurnalisti bu müsahibədən çəkindirməyə cəhd edir. Ancaq iş-işdən keçib: Yazıçı artıq xəbərdar edilib, proqramın isə başqa aparıcısı yoxdur. Tanışı əlacsız qalıb həmin yazıçının əsərləri barədə, müasir ədəbi prosesin bəzi məqamları barədə mobil telefonla jurnalistə bəzi bilgilər verir. Axşam isə çox narahat halda onun yazıçı ilə söhbətinə baxır.**

**Qəribə mənzərə yaranır: Jurnalistin bir çox suallarında məsələyə səriştəsizlik, yazıçıya bələd olmaması açıqca duyulur. Yazıçı bunu büruzə vermək istəmir, lakin özündən asılı olmayaraq, tez-tez əsəbiləşir, jurnalisti təkzib edir və s. Jurnalistin ədəbi proseslə bağlı diletantlığı verilişin səviyyəsini sıfıra endirir**

**Bu yerdə "525-ci qəzet"in müxbiri Bəsti Əlibəylinin bir vaxtlar siyasətçilərlə, millət vəkilləri ilə, yazıçılarla, rejissorlarla, alimlərlə apardığı onlarca müsahibəsinin hər birində hiss olunan söhbətə böyük hazırlıq məqamını misal göstərə bilərik. "525-ci qəzet"in 2000-2002-ci il nömrələrində müsahibə janrında çox məhsuldar işləmiş bu jurnalistin müxtəlif istiqamətli müsahibələrə hazırlıq səviyyəsi nümunə olacaq dərəcədə maraqlıdır. "525-ci qəzet"in redaktoru Yaşar Əliyev qəzetin 2011-ci il noyabr-dekabr şənbə buraxılışlarında yazıçı Elçinlə apardığı silsilə-serial formalı müsahibələrdə jurnalistin müsahibəyə necə səylə hazırlaşmağına klassik nümunə sayıla bilər.**

Ciddi, əsaslı müsahibəyə ciddi hazırlıq prosesi gərəkdir.

Tutaq ki, yazıçı ilə müasir ədəbiyyatın problemləri barədə söhbət aparmaq lazımdır. Jurnalist bunun üçün Azərbaycan ədəbiyyatının müasir durumunu, onun problemlərini, həmin yazıçının öz əsərlərini, cəmiyyətin bədii sözə münasibətini, ədəbi tənqidin ədəbi prosesə təsirini və s. onlarca məsələni öyrənib onlara xeyli bələd olmalıdır.

Belə bir cəhət çox vacibdir. Jurnalist müsahibədən əvvəl başlıca olaraq nə istədiyini müəyyənləşdirməlidir. Ən əsası isə hansı informasiyaya diqqət yönəlməlidir bunu bilmək lazımdır. Hər şey verilən suallarla həll olunmalıdır. Jurnalist heç vaxt müsahiblə dialoqa girməməlidir. Əvvəla ona görə ki, dialoq tamam başqa janrdır, ikincisi, dialoqa girəndə jurnalist mütləq öz mövqeyini göstərir müsahibədə bu məqam yolverilməzdir.

Müsahibəyə başlamazdan əvvəl respondenti, necə deyərlər, məhrəmləşdirməkdən ötrü suallara dərhal və birbaşa başlamaq lazım deyil. İlk suallar yumşaq və aydın, hiss ediləcək dərəcədə asan olmalıdır. Problemə getdikcə yaxınlaşmaq və onu tədricən dərinləşdirmək yaxşı nəticə verir.

Müsahibə zamanı aydın olmayan mətləbləri təkrar soruşmaq, hadisəylə bağlı adların soyadlarının, rəqəm və faktların dəqiqliyinə əmin olmaq lazımdır.

Əlavə suallar və əlavə material sizə heç vaxt mane olmur. Əksinə, belə materiallar yazı zamanı mütləq köməyə çatır.

Praktikada belə bir məqam çoxlarının başına gəlir: həmsöhbət suala cavab verərkən, jurnalist ona diqqətlə qulaq asmaq əvəzinə özlüyündə növbəti sualı müəyyənləşdirir. Siz növbəti sualın formalaşma prosesindən narahat olmayın: növbəti sual sizə verilən və sizin diqqətlə qulaq asdığınız cavabdan doğacaq. Bu, ən yaxşı sualdır. Suallarda heç vaxt qərəzli görünmək yaramaz. Qərəzlilik təkcə sualın mahiyyətindən deyil, ton və taktikadan (xüsusilə, televiziya və radioda) da doğur.

Heç vaxt müsahibənin tam şəkildə, olduğu kimi dərc olunacağına, söz verməyin. Ümumiyyətlə, bu barədə respondentin özü şərt qoymursa, onu söhbət faktına çevirməyin. Yox, əgər respondent müsahibənin tamam təqdim olunacağı barədə sizdən bir vəd almaq istəyirsə, bu vədi ona verməyin.

Çünki, birincisi, redaksiyada bu məsələyə daha çox cavabdeh olan adamlar rəhbər işçilər var, onlar materialın bəzi yerlərini artıq hesab edə bilərlər. İkincisi, nəzərə almaq lazımdır ki, bəzi respondentlər bizə lazım olan əsas informasiyadan əlavə mütləq "özünə lazım olan", öz mənafeyinin ifadəsinə çevrilən fikirlərə də meylli olurlar. Bəzi respondent, hətta qəsdən sualın əsas mahiyyətini kənara qoyub özünə lazım olan şəkildə danışır. Bütün bunlar materialı işləyərkən mütləq müsahibədən çıxarılmalı olur. Deməli, respondentə onun dediklərinin hamısının oxucu və ya tamaşaçıya təqdim ediləcəyi barədə vədiniz artıq olar və sizi gözdən sala bilər.

Respondentin mütləq "hə" və ya "yox" kimi qısa cavab verməyini tələb edən suallar qoymaq olmaz. Belə cavablarda informasiya olmur.

Hakimiyyət adamlarından informasiya almaq heç də həmişə asan olmur. Onlar çox vaxt telefona cavab verməkdən qaçırlar. Köməkçiləri bir azdan zəng etməyi, yaxud sabah zəngləşməyi məsləhət görürlər. Belə anlarda iradəli olmaq lazımdır. Sizin telefona cavab verən adama problemin vacibliyini anladıb yenidən nə vaxt zəng edə biləcəyiniz vaxtı müəyyənləşdirin. Qiymətli informasiya mənbəyini çox müxtəlif üsullarla mütləq müsahibəyə cəlb etmək vacibdir. Bu işdə informasiya mənbəyinə etik yanaşma tərzi çox mühüm rol oynayır.

Biz jurnalistikada peşə etikasının nəyə xidmət etdiyinin, onun nəzəri əsaslarının, praktik istiqamətlərinin bəzi məqamlarına diqqət yetirdik. Azərbaycan jurnalistikasının müasir inkişaf sürəti peşə etikasının indiyə qədər dəqiqləşmiş qaydalarını tətbiq etmək işində xeyli təcrübə toplamış olsa da, hələ qarşıda çox məsuliyyətli vəzifələr durur. Hər şey inkişafda olduğu kimi peşə ektikası da zaman keçdikcə öz standartlarını təkmilləşdirir. Mətbuatımız, bütövlükdə media sistemimiz bu təkmilləşməni daim diqqət mərkəzində saxlamalıdır.

# Fəsil 2: ETİK PRİNSİPLƏR VƏ MEDİANIN ÖZÜNÜTƏNZİMLƏMƏSİ

## ETİK MÜHAKİMƏ MODELLƏRİ

**2008-ci ildə BJF tərəfindən nəşr edilmiş "HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri" kitabından**

**Etik mühakimənin nə olduğunu izah etmək üçün konkret misallara müraciət edilməsi daha effektiv olur. Jurnalistlər heç də hər gün etik prinsiplərin tətbiq edilməsi yönündə dilemmalarla üzləşmirlər, lakin istənilən jurnalist nə vaxtsa belə problemlə rastlaşır; həftədə bir dəfə, yaxud iki həftədə bir dəfə, fərqi yoxdur. Belə dilemmalar isə adətən iki imperativ prinsip üzərində olur: həqiqətin deyilməsi ilə günahsız insanlara zərər vura bilən məlumatların yayımlanmasının qarşısının alınması. Jurnalistlər həmişə bu suala cavab tapmaq istəmişlər ki, insanlara zərər vura biləcək, amma həqiqətə uyğun olan xəbərlərin işıqlandırılmasının dayandırılmasına haqq qazandırmaq olarmı? Kimin şəxsi həyatını məxfi saxlamaq hüququ var və kim özünün ifşa olunmasını gözləməlidir?**

Bundan əlavə, jurnalistlərin məsul şəxslərlə, rəsmi dairələrlə nə dərəcədə yaxın əməkdaşlıq etmələrinə dair suallar mövcuddur: Qarşılıqlı əlaqələr nə vaxt üzvü münasibətlərə çevrilir? Hansı halda etibarlı mənbə rüşvətə qurşanmış mənbəyə çevrilir? Bu problemlərin əksəri real praktikada artıq abstrakt suallar kimi yox, konkret məsələlər kimi qarşıya çıxır. Xəbər mərkəzlərində çox vaxt kimlərsə işarə edərək "doğmalaşdı" ifadəsini işlədirlər; bu isə o anlama gəlir ki, misal üçün, kriminal hadisələr haqqında yazan jurnalist özünün etibarlı mənbə hesab etdiyi polis işçisi ilə çox isti əlaqələr qurub.

Etik dilemmaların yarana biləcəyi sərt yollardan biri də xəbərlərin üstüörtülü şəkildə yayımdan çıxarılmasıdır. Məsələn, polis bəzən istəyə bilər ki (və ya bəzi ölkələrdə əmr edə bilər ki), adam oğurluğu haqqında xəbər gündəlikdən çıxarılsın, bu yolla polisin oğurlanmış şəxsin tapılması və oğurlayanların tutulması üçün imkanı artsın. Media əksərən belə təkliflərə kollektiv cavab verir. Belə ki, bir xəbər agentliyinin bu xəbəri yaydığı halda, digərinin onu yaymamasının heç bir mənası qalmır. Bütün digər aspektlərdən əlavə, jurnalistlər xəbərin proqramdan çıxarılmasının ziyanlarının nə olacağının, oxucularının bu faktı aşkarlayacaqları təqdirdə redaksiyaya necə münasibət bəsləyəcəyini, və nəhayət, xəbərin internetdə yayımlanması ehtimallarını nəzərə almalıdırlar. Çox təsadüf edilən haldır ki, redaksiyalar belə xəbərlərin yalnız müvəqqəti olaraq gündəmdən çıxarılmasına razılıq verirlər. Başqa hallar da mövcuddur ki, bu zaman hökumət strukturları heç bir əsas gətirmədən xəbərin işıqlandırılmasının müəyyən müddətə dayandırılmasını istəyirlər. Belə hallarda isə jurnalistlər əsaslı bir səbəb gətirilməyənə qədər xəbəri dərc edirlər.

Həqiqətə uyğun xəbərin işıqlandırılması, ifşa edilmə və medianın rəsmilərlə əməkdaşlığına dair aşağıdakı misal Kəlküttə və Dehlidə fəaliyyət göstərən, məqalələrini daha çox hind aspektindən yazan "The Statesman" adlı ingilis dilli qəzetin keçmiş redaktoru Sunanda K.DattaRaya aiddir:

"The Statesman" qəzetinin redaktoru işlədiyim dövrdə Kəlküttə polisinin müraciətinə əsasən şəhərin müsəlman əhalisinin daha çox istismar edilməsi barədə xəbərə görə üzrhaxlıq etdim. Daha sonra polis məmuru mənə gecə zəng edərək bildirdi ki, polisdə olan məlumatlara görə, müsəlman icmasının əsas qəzeti növbəti gün üçün nifrət dolu xəbər hazırlayıbmış. Bu, spontan etiraz aksiyalarına və nəticədə hind tərəfinin cavab verə biləcəyi ciddi qarşıdurmalar üçün siqnal ola bilərdi."

İcmalar arasında problemin yarana bilməsi ehtimalına uyğun olaraq, redaktor üzrxahlıq etdi. O öz məqaləsinin yayılmasında təkid edə bilərdi, lakin bunu etmədi: "Polis məmuru məni heç nəyə məcbur eləmədi. Bunu eləməyə hüququ da yox idi. Mən çox yaxşı bilirəm ki, belə işlər necə olur və hadisələr pis mənada necə nəzarətdən çıxır. Cəmiyyətin harmoniyasında bizim hamımızın eyni dərəcədə rolumuz var". Qəzetin ilk səhifəsində çıxan bu üzrxahlıqdan sonra münaqişə təhlükəsi sovuşduruldu və küçə qarşıdurmalarının qarşısı alındı. Bu məsələdə bir jurnalist kimi "The Statesman" qəzetinin redaktoru dilemma qarşısında idi: həqiqəti məruzə eləmək, yoxsa ictimai harmoniyanı qoruyub saxlamaq? Belə bir şəraitdə və etibar etdiyi polis strukturundan daxil olmuş məlumata əsasən, ictimai harmoniyanı qoruyub saxlamaq bu jurnalist üçün daha önəmli oldu. O, həqiqəti söyləməkdənsə, ictimai harmoniyanı qoruyub saxlamağı daha vacib saydı. Kimlərsə onun bu qərarına qulp qoya bilər, lakin vacib olan budur ki, o, öz seçimin sərbəst edə bilmişdi. Toqquşan dəyərləri qiymətləndirərkən jurnalist özü qərar verməlidir ki, həqiqəti demək həmişə hər şeydən üstün olmalıdır, yoxsa yox.

Bu misal dilemma qarşısında qaldıqda etik qərarların verilməsinin bariz nümunəsidir.

Belə şərtlərdə media etik prinsipləri qorumağın yollarını tapmalıdır, amma cəmiyyətə də xidmət etməlidir. Misal üçün, Şimali İrlandiyada, icmaların müxtəlif siyasi və dini ənənələr uyğun bölündüyü yerdə, jurnalistlər vahid bayraq Jurnalistlərin Milli Birliyinin (NUJ) bayrağı altında qala bilmiş, jurnalist dəyərlərinin qarşılıqlı anlaşılması ilə birbirinə bağlanmışlar. Nəticə kimi lokal medianın gah bir icmanın, gah da başqa icmanın adından danışması müşahidə edilir. Yerli jurnalistlər göstərdilər ki, onlar arasında fundamental fikir ayrılıqlarının olmasına baxmayaraq, birgə mövcud ola bilərlər və sülhün yaranmasında birləşdirici rol oynaya bilərlər. Təqdirəlayiqdir ki, zorakılıqdan əziyyət çəkən media qurbanları hədsiz az olmuşdur.

Başqa bir nümunə: Amerikan qəzet naşiri də oxşar dilemma ilə qarşılaşmışdır. Şəhərdə insanları soyuq silahla qətlə yetirən qatili izlərkən polis qətl alətini şəhər su boruları sistemində gizlədilmiş halda tapır. Onlar redaktordan xahiş etdilər ki, ön səhifədə polisin belə bir açıqlamasını yaysınlar: "Polislər hələ də qətl silahını axtarırlar və hava işıqlanandan sonra sahəni çox diqqətlə axtaracaqlar". Polis redaktora dedi ki, onlar düzgün olmayan bu məlumatı yaymaqla qatili qətl yerinə qaytarmaq və onu silahı axtarmağa həvəsləndirmək istəyirlər.

Naşir polis tədqiqatına kömək etmək üçün yalan məlumatı bilərəkdən nəşr etməli idimi? Bu halda o, saxta məqaləni çap etməyə razılıq verdi. Qatil isə həmin gecə silahın dalınca gəldi və polis tərəfindən ələ keçirildi.

Redaktor razılaşdı ki, məhz həmin şəraitdə o, qatilin tutulması üçün mühafizə məsullarına kömək etməli, həqiqəti deməkdə birinciliyi, yalan deməmək prinsipini kənara qoymalı idi (biz bunu "ictimai təhlükəsizlik və ya harmoniya" adlandıra bilərik). Oxşar bir şəkildə həmin naşir başqa bir oğurlanma halından sonra da digər redaktorların razılığı ilə xəbər sükutu yaratmışdır.

1961ci ildə Kubanın Donuzlar körfəzinə edilmiş, adanın kommunist lideri Fidel Kastronu devirərək Kubada rejimi dəyişmək məqsədi daşıyan hücumdan az öncə NyuYork Tayms (New York Times) qəzetində hücuma hazırlıqla əlaqədar məqalələr yer almağa başlamışdı. Qəzetə prezident Con Kennedi (John Kennedy) tərəfindən zəng edilir və milli təhlükəsizlik naminə məqalələrin nəşr edilməməsi üçün redaktorlar dilə tutulurlar; onlar razılaşırlar. Bir müddət sonra, Amerikan maraqlarının fiaskosunun (həyat itkilərini hələ heç demirik) nəticələrini yaşayan Kennedi keçmişə baxaraq demişdir ki, kaş həmin vaxt Tayms məqaləni çap edəydi. Lakin, çox gec idi.

Bu elə bir haldır ki, məqalənin dərc olunmasına görə göstəriləcəyi ehtimal edlən təzyiq onun dərc edilməməsi nəticəsində dəyən ziyandan çox az idi. Bu misal həm də jurnalistlərin zərər vurmamaq istəkləri, peşə azadlıq imperativi və avtonomluğu arasında münaqişəni göstərir. Jurnalistlər özlərinin ən yaxşı qərarlarını rahat və keçmişə baxaraq verən siyasətçilərdən fərqli olaraq, öz mühakimələrini əllərində olan sübutlara əsasən verməyə məcburdurlar. Çox zaman müdrikcəsinə sadəcə insanlıq prinsiplərindən çıxış edərək zərər verməməyi və ehtiyacı olanlara kömək göstərməyi üstün tutacaqlar.

Ancaq bu şərt unudulmamalıdır: jurnalistlər və media qurumları belə bir hala razılıq vermişlərsə, ən münasib vaxtda bu faktı oxuculara çatdırmalıdırlar.

Etikaya dair əksər vəsaitlərdə bu şərtə rast gəlinə bilər ki, müəyyən şəraitlərdə həqiqəti gizlətmək və ya yalan demək etik ola bilər. Amma belə bir dilemma ilə üzləşmiş istənilən jurnalist ictimai marağın çəkisini və vacibliyini, etibarlılığa vura biləcəyi ciddi zərəri, ən qısa müddətdə hər şeyi oxuculara (izləyicilərə) izah etmək istəyini nəzərə almalıdır. Oxucular (izləyicilər) səhv informasiyaya səbəb ola biləcək hər bir şeyi, bilərəkdən səhv informasiyanın yayılmasına aparan səbəbləri bilməlidirlər.

Bundan başqa, etika aktiv dəstək istəyir. Biz etik davranmalıyıq, etik kodeksi əzbərləməli və tutuquşu kimi təkrarlamamalıyıq. Belə bir kodeksin standartları və qaydaları işəyarayandır, onlar işləyirlər. Amma bəzən ictimai dəyərlərlə və media etikası arasında elə mübahisələr meydana çıxır ki, seçim etmək lazım gəlir. Bu, çətin məsələdir və jurnalistikanın digər problemlərinə oxşayır, təkmilləşməsi üçün təlimlər, vaxt və səy istəyir.

Fərdi jurnalistlər, işə götürənlər, jurnalist ittifaqları və BJF kimi beynəlxalq orqanlar Etik Jurnalistika Təşəbbüsləri vasitəsilə keçirilən təlimləri etik davranmaq üçün istifadə edilən dəstəkləyici mexanizmlərin inteqral hissəsi kimi nəzərdən keçirirlər. Bir neçə model mövcuddur, amma Paul Çedvikin (Paul Chadwick) 1995ci ildə BJFnin Asiya Sakit Okean regional konfrasına göndərdiyi təklifində vurğuladığı iki model diqqətəlayiqdir. Bunlar düşüncəni istiqamətləndirir və əgər sonradan ziddiyyətlər meydana çıxarsa, izah etmək üçün şüurlu şəkildə qərarverməni mümkün edir.

Birinci model - Amerika jurnalistikasında etika sahəsində səlahiyyəti olan Lyu Hoces (Lou Hodges) tərəfindən təqdim edilmiş model təklif edir ki, etik dilemma qarşısında qalmış biri soruşa bilər:

1. Burada zidd məsələlər nədir?
2. Mənim aidiyyəti üzrə faktlarım varmı?
3. Mənim fəaliyyətimin mümkün istiqamətləri nədir?
4. Fəaliyyətimin hər biri üçün mümkün nəticələri nədən ibarətdir?
5. Fəaliyyətimin hansı kursu daha yaxşıdır?

Başqa bir model isə Coan Berdin (Joann Byrd), Vaşinqton Postun ombudsmanının modelidir və təklif edir ki, özümüzdən soruşaq:

1. Biz xəbərvermə zamanı nəyi yaxşı edə bildik?

2. Biz nəyi bilirik və bunu necə bilmişik?

3. Bizim mənbələrimiz kimlərdir və onların burada maraqları nədən ibarətdir?

4. Biz informasiyanı yoxlamışıqmı?

5. Bildiklərimiz əsasında həqiqəti bilməyimiz qərarına gəlmək nə dərəcədə məntiqlidir? Və ya biz bəzi faktlardan başqa nəyisə bilirikmi?

6. Məqalə nəyəsə təsir edə biləcəkmi? Təsir necə olacaq?

Virtual olaraq jurnalistika elə peşələr sırasındadır ki, dilemmalara cavab verə bilməsi üçün vahid razılaşdırılmış prinsipi yoxdur. Həkimlər deyirlər "birinci zərər vurma". Hüquqşünaslar deyə bilərlər ki, hüquqi prosesin özü onların ilkin vəzifəsidir.

Əgər onlar yuxarıdakı suallardan istifadə etsələr belə, jurnalistlərin ilkin vəzifələrinin nə olduğunu müəyyənləşdirməlidirlər: çap etmək və söyülmək, yoxsa ictimai mənfəəti önəmli götürmək?

Qarşıda zidd dəyərlərin seçimi duran zaman, jurnalist həmişə həqiqətə üstünlük verməlidir..

---

# MEDİANIN ÖZÜNÜTƏNZİMLƏMƏSİ MEXANİZMLƏRİ VƏ MƏTBUAT ŞURALARI

**2008-ci ildə BJF tərəfindən nəşr edilmiş "HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri" kitabından**

## Özünütənzimləmə

*Etimad yaxşı görülmüş iş, səhvlərdən nəticə çıxarma və tənqidi qəbul etmə bacarığı ilə qazanılır*

Mediada etik prinsipləri nəzarətdə saxlamanın çoxlu formaları, bu formaların zəif və güclü tərəfləri var. Əksər ölkələrdə xəbər yayım institutları adətən birbaşa dövlət qurumları tərəfindən tələbkar və ciddi yoxlamalara məruz qalır, monitorinq edilirlər. Mətbuat şuraları isə medianın dövlət orqanları tərəfindən tənzimlənməsi təkliflərinin qarşısını almaq məqsədi ilə media təşkilatları tərəfindən yaradılmışdır. Bəziləri digərlərindən daha yaxşıdır, bəziləri digərlərinə nisbətdə zəifdir. Ən yaxşıları jurnalistlər, azlıq və zəif qrupları təmsil edən insanlar da daxil olmaqla sivil cəmiyyətin nümayəndələri ilə çalışan media professionalları tərəfindən yaradılmışdır. Ən pisləri isə missiyalarının ancaq öz adlarını və sahibi olduqları media qruplarının biznes maraqlarını qorumaqdan ibarət olduğunu düşünən rəhbərlər tərəfindən idarə olunanlardır. Amma bütün hallarda Media şurası media arenasında özünütənzimləmənin tipik və uzunmüddətli təsisatıdır.

### Suallar

* Müstəqil müşahidəçilər və media təşkilatları medianın işini effektiv monitorinq edib və hesabatlar yaya bilirlərmi?

* Jurnalistlərin, media və ictimaiyyət təmsilçilərinin daxil olduqları medianın özünütənzimləmə sistemləri, mətbuat və ya media şurası varmı?

* Səhvləri düzəltmək üçün daxili mexanizm, daxili ombudsman varmı ki, şikayətlərlə maraqlansın və nəzarətdə saxlanılması vacib olan məsələlər barədə ictimaiyyəti məlumatlandırsın?

* Jurnalistlərin hüquqları və məsuliyyətləri mövzusunda ictimaiyyətlə dialoqa girmək, media azadlığını müdafiə etmək yönündə qanun qəbul edənlərlər arasında, hökumətdə lobbiçilik etmək üçün strukturlar varmı?

* Media (özəl və ya ictimai) nəzəri və praktiki baxımdan siyasi və kommersiya təsirlərindən kifayət qədər azaddırmı?

* Vətəndaş cəmiyyəti üçün media maarifləndirməsi və təhsil proqramları varmı?

* Polis və ədliyyə işçiləri daxil olmaqla rəsmilər üçün media maarifləndirməsi və təhsil proqramları varmı?

* Medianı, jurnalistləri, vətəndaş cəmiyyətlərini və rəsmiləri əlaqələndirən media qanunlarına baxmaq üçün rəsmi strukturlar mövcuddurmu?

İctimai yayım xidmətləri redaksiyada etik standartları nəzarətdə saxlamaq üçün müxtəlif qurumlara malikdir. Bu, kompleks ola bilər. Misal üçün, BBC, redaktorlara müstəqillik verən qanunverici sistemə malikdir. Qanunvericiliyə əsaslanmağına baxmayaraq, aydındır ki, bu, özünütənzimləməyə istiqamətlənmiş və BBC-ni dövlət nəzarətindən qorumaq üçün təsis edilmişdir.

Qanunvericiliyin bu sahədəki rolu haqqında daimi mübahisələr vardır. Əksər media və jurnalist təşkilatları tərəddüdsüz olaraq inanırlar ki, özünütənzimləmə jurnalistikanı mühakimə edən qanunvericilikdən hər zaman daha üstün tutulmağa layiqdir. Onlar xəbərdarlıq edirlər ki, hətta xoş niyyətli nəzarət belə media azadlığının dağılmasına gedən yolun başlanğıcı ola bilər.

Amma bəzi qanuni məhdudiyyətləri qəbul edənlər də var. Nifrət, qərəz, etniki və dini nifaqa sövq edən materiallar üçün nəzərdə tutulmuş qanuni məhdudiyyətlər bunlara misal ola bilər.

Yaşadığımız dövrdə mətbuat, radio və televiziya yayımı arasındakı demarkasiya xətti onlayn xidmətlər, bloqlar və digərləri tərəfindən pozulmuş hala gəlmişdir. Yeni media formalarının ortaya çıxması mediada ictimai məsuliyyətin tənzimlənməsinə cavabdeh olan mexanizmlərin strukturunun dəyişdirilməsinə də ehtiyac yaratmışdır. Bir nöqtədə cəmləşmiş media mühitində bu, hər hansı bir yeni tənzimləyici mexanizm və ya qanunlar toplusu ola bilər.

Biz prinsiplərin nizamlanmasında ümumi bir nöqtə tapmalıyıq. Amma bu cür məsuliyyətin hüdudlarını, sərhədlərini müəyyənləşdirmək problemdir.

Bu arada, medianın bütün sahələrində ictimaiyyətə xidmət meyaralarında yeniliyin edilməsinə ehtiyac duyulur. İctimai yayım xidmətinə maliyyə dəstəyini gücləndirməyə və onun özəl sektorun fəaliyyəti nəticəsində yaranmış boşluqları doldurmasına, plüralizmi təmin etmək üçün müxtəlif platformalar vasitəsilə media hüdudlarını genişləndirməsinə ehtiyacı var.

## Media və mətbuat şuraları

Mətbuat şurası qəzet dünyasında özünütənzimləmə üçün ənənəvi bünövrə kimi çıxış edə bilmişdir. Bəzi mətbuat şuraları yalnız qanunla mövcud olsalar da, praktiki olaraq mətbuat sənayesi tərəfindən qurulmasına baxmayaraq, çoxu "müstəqildir". Onlar şikayətlərə media tərəfindən razılaşdırılmış kodekslərə uyğun olaraq baxırlar. Şuranın müstəqilliyi üzvlərinin seçilməsi zamanı media sənayesinin maraqları ilə istehlakçıların (və ya oxucuların) maraqlarını təmin edə biləcək üzvlərin balansının saxlanılması ilə təmin edilir. Müstəqillik, həmçinin, maliyyə ilə bağlıdır və bunu dövlət və ya media sənayesi özü heç bir şərt irəli sürmədən, şuranın qərarlarına təsir edə bilmədən təmin etməlidir.

Məsələn, Almaniyada, mətbuat şurasının təlabatları BJF-nın yerli təmsilçiləri- "Deutscher Journalisten Verband" və "Ver.di" tərəfindən, həmçinin, mətbuat işçiləri tərəfindən qarşılanır. Hökumət də maddi baxımdan öz töhfəsini verir, lakin bu töhfələr şuranı siyasi müdaxilədən müdafiə edən qanuni şərtlər daxilində olur.

Tənzimləyici kimi mətbuat şurasının qarşısında duran problem şəffaflığa və aşkarlığa nail olmaqdır. İllik hesabatlar verilməsi, qəbul edilmiş qərarlar haqqında məlumat bazasının internetdə yerləşdirilməsi və oxucular üçün asan əlçatan olması, özünütənzimləmə orqanları haqqında başqa materialların asan əldə edilən olmasına ehtiyac vardır. Müəyyən müddət bu cür aşkarlıq göstərdikdən sonra legitimlik əldə etmək olar. Bu, öz növbəsində, zəif güc tətbiq etmə qüvvələrinə malik olan mətbuat şuralarının çıxardığı qərarlarla digərlərinin razılaşmasına kömək edir. Mətbuat şuraları çoxlu sayda şikayətlər əsasında baxdıqları mövzularla bağlı vəsaitlər, təlimatlar da hazırlayırlar.

Mətbuat Şurasının bütün qərarlarına hörmətlə yanaşılması çox vacibdir, xüsusilə onun mövcudluğunun ilk günlərində. Beynəlxalq təcrübə göstərir ki, əgər belə olmursa, özünütənzimləmə səyi boşa çıxmağa məhkudur. Avstriya mətbuat şurası 2001-ci ildə öz fəaliyyətini dayandırdı, çünki əsas qəzetlər onun qərarlarının dərcindən imtina etməklə, ona güclü zərbə endirdilər. Eyni tale, Amerika Xəbərlər Mətbuat Şurasının da (NNC-America News Press Council) başına gəldi. Bu qurum on illik bir fəaliyyətini mətbuat və ictimaiyyətdən dəstək, həmçinin maliyyə dəstəyi görmədiyi üçün dayandırdı.

### Görülməli işlər:

* İşləmək üçün mövcud və kifayət qədər təkmil bir monitorinq sistemi yoxdursa, birini hazırlamaq haqqında düşünün. Beynəlxalq Soz Azadlığı Mübadiləsi Şəbəkəsinin (IFEX) nümunəsindən istifadə edin.

* Mətbuat şurası yaratmaq məsələsini yoxlayın və belə bir qurumun olmasının dəyərini öyrənin. Dünya üzrə təxminən 65 mətbuat şurası varsa da, gördükləri işlərə və effektivliklərinə görə kəskin dərəcədə fərqlənirlər. Ən yaxşısı, yuxarıda təsvir edildiyi kimi, jurnalistlərin, media peşəkarlarının və vətəndaş cəmiyyəti qruplarının effektiv və etik media öhdəliklərindən istifadə edin və ictimaiyyətə real müdafiə təklif edin.

*Jurnalistikanın şikayətlərlə davranma imkanlarının ekspert qiymətləndirilməsini yoxlayın. Jurnalistikanın daxilində peşəkar monitorinq aparma mədəniyyətinə ruhlandıracaq daxili strukturların yaradılması haqqında görüşlər təşkil edin.

Son hesabatda, çoxu Avropada olmaqla, 60 ölkədə fəaliyyət göstərən mətbuat şurası və buna oxşar orqanlar var idi. Onlardan bəziləri yaxşı qurulmuşlar - İsveç Mətbuat Şurasının tarixi 1916-cı ilə, jurnalistlərin davranış kodeksinin tarixi isə 1923-cü ilə gedib çıxır. Amma Avropa məkanı da daxil olmaqla, bir çox ölkələrdə özünütənzimləmə qurumlarının çoxu bu yaxınlarda yaradılmışlar. Məsələn, İrlandiya Mətbuat Şurası və Mətbuat Ombudsmanı 2008-ci ilin yanvarında işə başlamışlar.

Normal olaraq mətbuat şuraları ictimaiyyət üçün şikayət ünvanlamalı olan xidmət kimi (mediadan şikayətlərə baxan orqan kimi) fəaliyyət göstərirlər. Əgər şikayətlər təmin olunursa, redaksiyalar öz nəşrlərində tapılmış qüsurlar barədə rəyi dərc etməkdə mənəvi olaraq borcludurlar. İsveç və Danimarka kimi bəzi ölkələrdə özünütənzimləmə məcburidir və mətbuat şurasının təkziblərin dərcini tələb etmək, bəzi əlahiddə hallarda cərimələr təyin etmək ixtiyarı var. Lakin əksər hallarda, Britaniya və Almaniyada olduğu kimi, mətbuat şuraları, onların qərarlarına əməl etməyənlərə qarşı heç bir sanksiya tətbiq etmək hüquqları olmadığından, yalnız mənəvi, ictimai qınaq formasında təsir edə bilirlər.

İsveç Mətbuat Şurası 3 mətbuat təşkilatının - Naşirlər Klubunun (Publisher`s Club), İsveç Jurnalistlər İttifaqının (The Swedish Union of Journalist), İsveç Qəzet Naşirləri Assosiasiyasının (The Swedish Newspaper Publisher`s Association) təşəbbüs ilə yaranıb. 1960-cı illərdə İsveç Parlamentinin mətbuatda sensasiya aludəçiliyini cilovlamaq yönündə qanun qəbul etməsinə, media sənayesi ilk Mətbuat Ombudsmanının yaradılması və etika kodeksinin möhkəmləndirilməsi ilə reaksiya verdi.

Əgər hansısa qəzet Mətbuat Şurasının Nizam-

naməsini və ya jurnalistlərin etik kodeksini pozarsa, onda bu ölkədəki mətbuat şurasının həmin qəzet haqqında hətta maddi təzminat qərarı çıxarmaq səlahiyyəti var. Cərimənin məbləği qəzetin tirajından asılıdır: tiraj 10.000 nüsxəyə qədərdirsə, 1.100 avro, nüsxə 10.000-dən yuxarıdırsa, 3.000 avro miqdarında cərimə tətbiq edə bilər. Şura, həmçinin, öz qərarının dərcini də tələb edə bilər.

Əsası 1960-ci illərdə qoyulan Almaniya Mətbuat Şurası, vasitəçi kimi fəaliyyət göstərir, ictimaiyyətdən gələn şikayətlər əsasında çap və yayım mediasında "yaxşı jurnalistika təcrübələri"nə dair fikirlərini ifadə edir. Onun özünə məxsus davranış kodeksi yoxdur, amma Beynəlxalq Jurnalistlər Federasiyasının kodeksinə dəstək verir; buna baxmayaraq, öz qərarlarında ondan sistematik şəkildə istifadə etmir.

Lüksemburq və Danimarkadakı mətbuat şuraları qanunla müəyyən olunmuş formada yaradılmışlar, lakin hökumətlərin təsirindən azad olmaları haqqında qanunla müəyyən edilmiş zəmanətləri vardır.

Bəzi ölkələrdə mətbuat şuralarının media orqanlarına qarşı cəza tətbiq etmək üçün ixtiyarları yoxdur; yalnız bəyanat, rəy yaya bilərlər. Britaniya Mətbuat Şikayətləri Komissiyasından olan Uilliam Qor (William Gore) iddia edir ki, təhqiredici ifadələr işlətmiş mediaya qarşı cərimə və ya kompensasiya tətbiq etmək, "özünütənzimləyən sistem anlayışı ilə ziddiyyət təşkil edir".

Bir çox jurnalistlər bu baxışı, media sahibkarları adından edilmiş xüsusi müraciətin tərkib hissəsi kimi qiymətləndirirlər; yəni, öz qərarlarını yerinə yetirmək üçün məcburedici səlahiyyəti olmayan özünütənzimləmə qurumu tamamilə redaktorların və naşirlərin xoş ovqatından asılı vəziyyətə düşür.

Mətbuat şuralarının qərarlarının qəbul edilməsi prosesində cəmiyyətin çox az təsir imkanlarının olmasına baxmayaraq, cəmiyyət bu prosesdə kənarda maraqsızcasına duran müşahidəçilər demək deyil. Mediaya cəmiyyətin presedentsiz giriş imkanlarının olduğu bir zamanda məsuliyyətsiz və qeyri-professional jurnalistin qaçıb gizlənməsi üçün heç bir yer qalmamışdır. Faktiki olaraq, indi ən yaxşı, aparıcı media orqanları pozitiv və ya neqativliyindən asılı olmayaraq, oxucu və dinləyici rəylərini qəbul etməyə məhkumdurlar. İndi reportyorlarının adlarının yanında onların email ünvanları da qeyd edilir və bu, auditoriyanı vebsayt debatlarında iştirak etməyə həvəsləndirir. Bununla da əvvəllər yalnız bir-birini tanıyan ekspertlərin və müxbirlərin müzakirəsində auditoriya da fikrini ifadə edə bilir.

Özünütənzimləmənin müxtəlif formalarına getdikcə daha çox lüzum duyulur. Qəzetlərin, radio və televiziya şəbəkələrinin sayının artması, xəbər mediası mühitinin dəyişməsi, internetin gündəmə daxil olması bu cür qurumlara ehtiyacı daha da artırır.

İctimaiyyətlə partnyorluğun yaranması üçün, dialoq genişləndirilməli və gücləndirilməlidir. Əgər həqiqətən də inanırıqsa ki, biz həqiqi və açıq kommunikasiyalar əsrində yaşayırıq, yeni yanaşma ortaya qoymağa ehtiyacımız var.

**Təşkilati və yaradıcılıq prosesində xeyli dərəcədə Qərb təcrübəsinə söykənən Azərbaycan jurnalistləri də 2003-cü ildə ölkədə Mətbuat Şurası yaratdılar. Dünya təcrübəsindən bəhrələnən Azərbaycan Mətbuat Şurası bu gün cəmiyyət - mətbuat, media-dövlət qurumları arasında münasibətlərin tənzimlənməsi, jurnalist və peşə etikası istiqamətində xeyli əməli işlər görür. Şuranın ilk qurultayında (Azərbaycan Jurnalistlərinin 1-ci Qurultayında) ölkə jurnalistlərinin etik kodeksi də qəbul edilib.**



**Arif Əliyev**
*"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri*



# DÜRÜST VƏ VICDANLI

## *(JURNALISTLƏRIN PEŞƏ ETIKASI VƏ MƏTBUATIN ÖZÜNÜTƏNZIMLƏMƏSI)*

Azərbaycanda jurnalistlərin həmrəylik əlamətləri ilk dəfə 1992-ci ildə, əvvəlcə yenidənqurma, sonra isə milli azadlıq hərəkatı nəticəsində qeyri-partiya, qeyri-sovet mətbuatının yaranmağa, sürətlə inkişaf etməyə başlamasından 5 il sonra özünü göstərdi. Həmin ilin payızında daxili işlər nazirinin jurnalistlərdən birini döyməsinə cavab olaraq KIV əməkdaşları "Azərbaycan" nəşriyyatında toplaşıb, belə hallarda jurnalistlərin hüquqlarını qorumalı olan həmkarlar təşkilatının yarandığını elan etdilər. Yeni təşkilat «dişli» bir bəyanatla çıxış etdi və... bununla da ömrünü jurnalistlərə bağışladı. Aydınca göründürdü ki, qəzetlərin sayının o zaman yetərincə çox, tirajların yüksək olmasına baxmayaraq, jurnalist qövmü hələ zəif in-

kişaf etmiş və parçalanmış vəziyyətdədir.

Daha bir neçə uğursuz cəhddən sonra, nəhayət, 1994-cü ildə Azərbaycanın ən güclü KIV-nin aparıcı əməkdaşlarının yaratdığı təşkilat jurnalistikada korporativ ruhun tədricən formalaşdığını nümayiş etdirdi. Bu təşkilatı onun təsisçiləri "Yeni Nəsil" adlandırdılar və müstəqil, azad mətbuatın inkişafına yardımçı olmağı, jurnalistlərin hüquqlarını qorumağı, onların həmrəyliklərinin artmasına imkan verəcək mühit yaratmağı qarşıya məqsəd qoydular.

Yeni birliyin işləyib hazırladığı strategiyanı, Azərbaycan jurnalistikasında mövcud olan çoxsaylı obyektiv və subyektiv amilləri nəzərə almaqla praktikada tətbiq edilən iş formalarını başqa təşkilatlar da əxz etdilər. Azərbaycan Jurnalistlər Birliyi ilə yanaşı, hələ 1992-ci ilin sonlarında yaradılmış "RUH" Jurnalistləri Müdafiə Komitəsi, əslində iki il fəaliyyətsiz qalmış Demokratik Jurnalistlər Liqası öz işlərini bərpa etdilər, Azərbaycan jurnalistlərinin Yeni Həmkarlar Ittifaqı (JuHİ) təsis olundu, 1998-ci ilin iyununda Bakı Mətbuat Klubu, 2003-cü ilin martında Mətbuat Şurası yaradıldı. Bu təsisatların məqsədi söz azadlığını qorumaq, informasiya əldə etmək imkanlarını genişləndirmək, mətbuatın özünütənzimləmə mexanizmini işə salmaq və PEŞƏ ETIKASI KODEKSINI hazırlayıb tətbiq etmək, jurnalistlərin peşəkarlıq səviyyəsini yüksəltmək idi.

Iyirmi illik fəaliyyət nəticəsində Azərbaycan jurnalistləri müxtəlif qurumlarda birləşərək, söz və mətbuat azadlığı sahəsində xeyli dəyişikliyə nail ola biliblər. 1998-ci ilin avqustunda ölkədə KIV üzərində siyasi senzura ləğv olunub, kütləvi informasiya vasitələri haqqında, televiziya və radio yayımı haqqında, informasiya əldə etmək haqqında yeni qanunlar qəbul edilib, nəşrlərin qeydiyyatı ilə bağlı maneələr aradan götürülüb. Jurnalistlər qurultay keçirərək peşə etikası kodeksi qəbul ediblər, onun icrasına nəzarət üçün şura yaradılıb, kütləvi informasiya vasitələrinin, peşə fəaliyyəti ilə əlaqədar məhkəməyə cəlb olunan KIV əməkdaşlarının müdafiəsi məqsədi ilə ayrıca qurumlar, o cümlədən xüsusi fond yaradılıb.

Beləliklə, təsdiq etmək olar ki, bu gün Azərbaycan mediası, onun inkişafı yolunda hələ də ciddi maneələrin durmasına baxmayaraq, istər ictimai rəyə, istərsə də hakimiyyətin davranışına təsir göstərə bilən qüvvəyə çevrilib. Bu, iri siyasi kampaniyalar, ölkə qarşısında duran ən mühüm problemlərin müzakirəsi zamanı daha qabarıq nəzərə çarpır. Eyni zamanda peşə etikası standartlarına riayət etməyə cəhd göstərən kütləvi informasiya vasitələri qrupu formalaşıb.

Bununla belə, jurnalist həmrəyliyinin möhkəmləndirilməsi və etibarlı özünütənzimləmə sistemi yaradılması sahəsindəki problemlər uğurları üstələyir. Həmin problemlərin səbəbi isə təkcə KIV-in özündən asılı olmayan siyasi-iqtisadi amillərlə (hökumət -mətbuat münasibətlərinin mürəkkəbliyi, iqtisadi böhran şəraitində inkişaf üçün vəsaitin kəskin şəkildə çatışmaması və s.) ilə məhdudlaşmır. Əlbəttə, bu amillərin də rolu az deyil. Onlar ölkə jurnalistikasını gərgin şəraitdə yaşamağa vadar edir, onun diqqətini əsas vəzifələrin yerinə yetirilməsindən yayındırır. Lakin burada biz diqqətimizi həmin amillərə deyil, məhz jurnalistlərin həmrəyliyi və özünütənzimləməsi sahəsində mövcud olan problemlərin «daxili» (yəni mətbuatımızın bugünkü keyfiyyət səviyyəsindən doğan) səbəblərini araşdırmağa yönəltmək məqsədi qarşıya qoyuruq. Niyə mediamızda ortaq koprorativ maraqlar formalaşmır? Axı korporativ maraqların formalaşmadığı bir mühitdə onların qorunmasına yönəlmiş istənilən nizamnamənin, o cümlədən peşə əxlaqı kodekslərinin daha çox deklarativ xarakter daşıyacağı əvvəlcədən bəllidir.

Istənilən korporasiya azı 3 şərtə cavab verməlidir, yəni orada korporativ özünüeyniləşdirmə (identifikasiya), korporativ həmrəylik və korporativ məsuliyyət olmalıdır. Vəziyyətin təhlili göstərir ki, Azərbaycanda sözün əsl mənasında belə korporasiyadan danışmaq hələ tezdir. Bunun ümumiqtisadi problemlərdən doğan bir sıra obyektiv və müvafiq ənənələrin olmamasından irəli gələn subyektiv səbəbləri var.

## Korporativ özünüeyniləşdirmə (identifikasiya)

Azərbaycan jurnalistləri mass media sahəsində bir-biri ilə qarşılıqlı əlaqəsi olan assosiasiyaların və həmkarlar ittifaqlarının formalaşmasına maraq göstərirlər. Lakin KIV-in iqtisadi asılılıqda olması və siyasi qütbləşməsi bu sahədə ideal nümunənin yaranmasına əngəl törədir. Xalis peşə maraqları ətrafında birləşmiş jurnalistlərin vahid ittifaqı bizim ölkədə hələ ki, yoxdur.

Məsələyə ciddi yanaşsaq, heç cəmiyyətimizin də KIV-ə etimadının və marağının qeyd-şərtsiz olduğunu söyləmək mümkün deyil. Belə vəziyyəti bir neçə amillə izah etmək olar.

Ötən əsrin 90-cı illərinin əvvəllərində təbliğatçı sovet jurnalistlərinin yeni gerçəkliklərə uyğunlaşa bilməyən qismini böyük ümidlər verən gənc jurnalistlər əvəz etdilər. Adama elə gəlirdi ki, bu gənclər işə ürəklə girişərək cəmiyyətə professional üsulla toplanmış faktlar verməyə nail olacaqlar. Onların təqdim etdikləri məhsula daha çox maraq göstərən auditoriyanın mayasını islahatçılar və islahatlara meylli adamlar təşkil edirdilər.

Bu mərhələdə informasiya vasitələri, əsasən, biznes və siyasət liderlərinin təsir dairəsində idilər. KIV-in coşqun inkişafı da xeyli dərəcədə məhz onların spektrinin genşlənməsi ilə bağlı idi. Həmin liderlər peşəkar jurnalistləri işə cəlb etməyə çalışır, cəmiyyətə təsir vasitələri əldə etmək üçün mediaya maliyyə buraxırdılar. Jurnalistlər isə öz növbələrində işlərini yoluna qoymaq niyyəti ilə maliyyə qəyyumları axtarırdılar. O zaman bu, ədalətli bir mübadilə təsiri bağışlasa da, indi məlum olur ki, bir

çox cəhətdən jurnalistikanın məğlubiyyətinə aparırmış.

Nə qədər ağrılı olsa da, etiraf etməliyik ki, bu gün hakimiyyətdə də, muxalifətdə də, əhali arasında da jurnalistlərin öz qəyyumlarından tam asılı vəziyyətə düşmələri barədə rəy formalaşıb.

Belə vəziyyət Azərbaycan jurnalistikasının çəki və nüfuzuna mənfi təsir göstərib və göstərməkdədir. Sovet jurnalistinin təhsil imperativi - "gəldim, gördüm, məndən tələb olunanı yazdım" prinsipi təcrübədə nəinki yaşamaqda davam edir, hətta bir qədər möhkəmlənib. Ona görə də öz vaxtının qədrini bilən və sifarişçisinin (istər fərdi sifarişçi olsun, istər ictimai) arzusunu «gözlərindən oxumağı» bacaran jurnalistlər hesab edirlər ki, fəal, hətta kifayət qədər aqressiv olmasalar, əliboş qalmaq təhlükəsi ilə üzləşərlər. Bu minvalla dünya peşə etikasında yasaq sayılan amillərdən bir çoxu bizdə norma səviyyəsinə yüksəldilib. Və jurnalistlə ünsiyyətə girən insan bunun nə demək olduğunu anlamalıdır: lap istintaqda olduğu kimi - "sizin sözlərinizin hər biri özünüzə qarşı istifadə oluna bilər".

Bütün bu deyilənlər özünü onda göstərir ki, jurnalist korpusunun say artımı fonunda Azərbaycanda media müxtəlif əlamətlərinə görə fərqli növlərə bölünmüş vəziyyətdə qalır: hökumət və müxalifət KIV-i, müstəqil və partiyalı KIV, «əsl jurnalistika» və «reket jurnalistikası» və sair və ilaxır. Kütləvi informasiya vasitələri əməkdaşlarının əksəriyyəti standart meyarlara söykənərək «Məni jurnalist adlandırmaq olarmı?» sualına cavab vermək əvəzinə, «Jurnalistika necə olur?» sualı ətrafında növbəti müzakirə açmağa və həmin meyarları təzədən öz «əyninə» biçməyə meyl göstərir.

Əlbəttə, söylədiklərimiz ölkədə jurnalist həmrəyliyinin ümumiyyətlə olmadığı barədə nəticə çıxarmağa əsas vermir. Indicə sadaladığımız bölgünün mövcudluğuna baxmayaraq, müəyyən məqamlarda prinsipial peşə həmrəyliyi nümayiş etdirən media orqanları və jurnalistlər heç də az deyil. Lakin təəssüf ki, onlar hələlik jurnalistikamızda «kritik kütlə» yarada biləcək sayda deyillər.

## Korporativ həmrəylik

Korporativ jurnalist həmrəyliyi peşə prestijinin qeydinə qalan, jurnalistikanın nüfuzuna xələl gətirən hərəkətlərə yol verməyən jurnalistlərin həmrəyliyidir. Yaradıcılıq yarışında jurnalist heç bir formada həmkarlarının etimadından sui-istifadəni özünə rəva bilməməli, onların peşə vəzifələrini yerinə yetirmələrinə əngəl olmamalıdır. Əlbəttə ki, peşə həmrəyliyi həqiqətə və ədalətə qarşı sui-qəsdə bəraət qazandıra bilməz.

Prinsipcə, korporasiya ruhu peşəkarlıqdan başlanır. Qeyd etdiyimiz kimi, bizim peşəkar KIV-miz də, jurnalistlərimiz də var. Lakin bütövlükdə Azərbaycan jurnalistikasında peşəkarlıqla bağlı ciddi prəblemlərin olduğunu etiraf etsək, görərik ki, həmrəylik problemi aktuallığını saxlamaqdadır. KIV-in maliyyə, siyasi amillərə və başqa cəhətlərə görə qruplara bölündüyü bir durumda peşə həmrəyliyi mexanizminin arzu olunan qədər işlək vəziyyətdə olmasını təsəvvür etmək çətindir.

Bəs peşə həmrəyliyini bilavasitə formalaşdırmaq missiyasını daşıyan jurnalist təşkilatlarımızın özlərinin peşəkarlığı nə səviyyədədir? Dedik ki, Azərbaycanda jurnalist assosiasiyaları çoxdur. Nə qədər qəribə səslənsə də, sayca onlar hazırda ölkədə fəaliyyət göstərən informasiya agentlikləri və jurnalların ümumi sayını az qala üstələyirlər. İndiyədək özünü jurnalist qurumu elan eimiş 60-dək təşkilat var. Di gəl ki, bəzən belə təşkilatlardan 10-nun nüfuzu ayrılıqda götürülmüş bir qəzetin nüfuzu ilə müqayisə edilə bilməz. Nəticədə paradoksal vəziyyət yaranır: jurnalist qurumlarının bir qismi nəinki peşə həmrəyliyinin formalaşmasına xidmət etmir, əksinə, KIV arasındakı parçalanmanı yeni bir müstəviyə keçirərək daha da dərinləşdirir.

## Korporativ məsuliyyət

Jurnalistikanın məsuliyyəti məsələsinə dünya birliyinin müasir yanaşma tərzi belə bir sadə, lakin ciddi formula ilə müəyyənləşir: jurnalistlərin xəbər kimi təqdim etdikləri informasiya dürüst, rəy kimi təqdim etdikləri informasiya isə vicdanlı olmalıdır. Bu formula kiminsə xoşuna gəlib, kimisə kədərləndirə bilər, amma əsl jurnalistikanı başqa şeylərdən, o cümlədən "çirkli" informasiya texnologiyalarından fərqləndirən məhz budur. Elə buna görə də peşə standartları hətta ən "isti" xəbərləri belə oradakı faktları yoxlamadan ictimaiyyətə çatdırmağı mümkünsüz sayır. Bizim mediamızda isə yoxlanılmamış faktlar «ayaq tutub yeriyir». Bu vəziyyəti bir neçə səbəblə izah etmək olar.

Onlardan biri ölkənin həyat tərzi və ənənələri ilə, bu mühitdə mövcud olan stereotiplərlə, ictimai rəy institutunun və peşə birliyinin özünün spesifikası ilə bağlıdır. Bizim peşə birliyimizi "loyal birlik" kimi qiymətləndirmək olar: yəni öz peşə mühitində hətta böyük səhvə yol vermiş jurnalisti də həmkarları açıq-aşkar tənbeh etməkdən çəkinirlər. Öz şərəf və ləyaqətinin, peşə reputasiyasının, oxucu etimadının qeydinə qalan jurnalistlər dairəsində çox güclü təsirə malik "peşəsinə ləkə gətirənlərə əl verməmək", "qahmar çıxmamaq" prinsipi var. Ümumi norma və ənənələr üstündə "köklənməyən" hədsiz loyal birlikdə isə bu prinsip «işləmir».

Önəmi bundan az olmayan ikinci səbəb buradan doğur: hətta yazılı peşə kodeksinin mövcüd olduğu bir şəraitdə də etika normalarını pozanlara qarşı "sanksiyalar" tətbiq etmək son dərəcə mürəkkəb, bəzən qeyri-mümkün vəzifəyə çevrilir.

Jurnalist peşəsinin xüsusiyyəti belədir ki, KIV-in fəaliyyətinin tənzimlənməsində etika ilə hüququn nisbəti çox mühüm, çox aktual əhəmiyyət kəsb edir. Jurnalistikanı yalnız hüquq normaları çərçivəsinə sıxışdırmaq mümkün deyil. Demokratiyanın güclü olduğu ölkələrin çoxunda bəzi fəaliyyət növ-

ləri, o cümlədən jurnalistika - mədəniyyət, ənənə, habelə özünüməhdudlaşdırmalar səviyyəsində tənzimlənir. Bu o demək deyil ki, həmin ölkələrdə belə fəaliyyət növlərinin tənzimlənməsi ilə məşğul olan dövlət təsisatları yoxdur. Amma cəmiyyət özü bir az əvvəl sadalanmış keyfiyyətlərə görə məhz könüllü ictimai təsisatlara üstünlük verərək özünütənzimləmə mexanizmini hərəkətə gətirmiş olur.

Media sahəsində özünütənzimləmə mexanizmləri jurnalistlərin mənəvi məsuliyyətini nəzərdə tutan sadə və dəqiq peşə etikası kodeksləri əsasında işləyir. Lakin «mexanizm» dedikdə yalnız bu kodekslər və onların icrasına nəzarət etməli olan professional birliklər, ictimai şuralar nəzərdə tutulmur. Korporativ özünüeyniləşdirmə, korporativ həmrəylik və korporativ məsuliyyətin formalaşmadığı mühitdə nə kodekslər, nə də şuralar vəziyyəti köklü şəkildə dəyişə bilməzlər. Bunu media tariximiz bizə əyani şəkildə nümayiş etdirir.

Indiyədək Azərbaycan jurnalistlərinin 3 peşə etikası kodeksi olub. Birinci kodeksi 1991-ci ildə Azərbaycan Jurnalistlər Birliyi hazırlayıb. Ikinci kodeksi 1998-ci ildə Bakı Mətbuat Klubunun təsisçiləri olan kütləvi informasiya vasitələri ortaya qoyublar. Üçüncü kodeks 2003-cü ildə Mətbuat Şurasının qurultayında təmtəraqla qəbul edilib. Bu sənədlərin biri o birindən mükəmməl olub. Sonuncusu isə bir il bundan öncə daha da təkmilləşdirilib.

Amma onlardan heç biri medianın «stolüstü kitabına» çevrilməyib.

---

# Fəsil 3: AZƏRBAYCAN MEDİASINDA ETİK DURUM

## AZƏRBAYCAN MEDİASINDA ETİK PRİNSİPLƏRƏ NECƏ ƏMƏL OLUNUR?

### *Mətbuat Şurasına daxil olan şikayətlər, etik prinsipləri pozan media qurumları barədə qərar və rəylərin qəbulu*

**Azərbaycan Mətbuat Şurası 8-ci ildir ki (Şura 2003-cü ilin mart ayında yaradılıb) ölkə jurnalistləri və ictimaiyyəti üçün hazırladığı hesabatlarda Şuranın struktur sahələri üzrə həyata keçirilən fəaliyyətlərilə yanaşı, mətbuatda etik standartların pozulmasına dair Mətbuat Şurasına daxil olan şikayət və müraciətlər, bu müraciətlərin araşdırılması, qərar və rəylərin qəbul edilməsi, «Reket jurnalistika»ya qarşı mübarizə tədbirləri barədə də geniş bilgilər verir. Şura sonuncu hesabatını 2012-ci ilin yanvar ayında açıqlayıb (2011-ci il üzrə hesabat Şuranın İdarə Heyətinin 30 dekabr 2011-ci il tarixli iclasının qərarı ilə təsdiqlənib) və burada Azərbaycan mediasında etik prinsiplərə olan yanaşmanın mənzərəsi öz əksini tapıb.**

Hesabatda qeyd edilir ki, 2011-cu ildə Azərbaycan Mətbuat Şurasına ümumilikdə 651 müraciət daxil olub. Müraciətlərdən 295-i ayrı-ayrı vətəndaşlardandır. Müraciət müəlliflərinin sayına görə ikinci yeri dövlət idarə, müəssisə və təşkilatları tutur - 196. Özəl müəssisələrdən daxil olan müraciətlərin sayı 74-dür. 48 müraciət ictimai qurumlardandır. Yerli özünüidarəetmə orqanlarından 29, siyasi partiyalardan isə 9 müraciət daxil olub.

651 müraciətdən 499-u kütləvi informasiya vasitələrində gedən materiallardan şikayət məzmununda olub. Şura Katibliyi həmin şikayətlərlə bağlı cavabdeh və şikayətçi tərəfləri Şuraya dəvət edib. Bu mərhələdə 301 məsələ Katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 198 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinmədiyindən məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün Şuranın müvafiq komissiyalarına təqdim edilib. Beləliklə, daxil olan şikayətlərin 198-i komissiyalarda araşdırılıb. Bunlardan 128-i Şikayətlər üzrə Komissiyada, 54-ü "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasında, 7-i Mətbuatla dövlət qurumları arasında problemlərin həlli Daimi Komissiyasında, 9-u Sosial Komissiyada araşdırılıb.

*(651 müraciətdən 499-u kütləvi informasiya vasitələrində gedən materiallardan şikayətlər təşkil etdiyi halda, yerdə qalan 152 müraciətdən 89-u Mətbuat Şurasının "qara siyahı"sında olan KİV-lərdəndir. Prosedur qaydalara əsasən belə müraciətlərə Şura Katibliyində baxılıb, cavablandırılıb, yaxud rəy verilib. Həmin müraciətlər Şuranın "apellyasiya qrupu" tərəfindən də araşdırılıb. 63 müraciət Şuranın digər*

*prosedur fəaliyyət istiqamətlərinə aid olub)*

Şikayətlər üzrə Komissiyada baxılan 128 məsələdən 92-i komissiya səviyyəsində həllini tapıb. Bu şikayətlər üzrə yalnız komissiyanın rəylərinin çıxarılması ilə kifayətlənilib. Digər 36 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün Şuranın İdarə Heyətinə təqdim edilib. "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyası tərəfindən araşdırılan 54 şikayətdən 14-ü barədə rəy verilərək yekun qərarın qəbulu üçün Şuranın İdarə Heyətinə təqdim edilib.

Beləliklə Şuranın İdarə Heyətində müzakirə edilən şikayətlərin sayı 50-dir. Bunlardan Şikayətlər üzrə Komissiyanın rəyinə əsaslanılanların sayı 36, "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyası tərəfindən təqdim edilənlərin sayı 14 olub. 2011-cu ildə MŞ İdarə Heyəti müxtəlif KİV-lərdəki şikayət motivlərini əsas götürən 33 qərar və 1 xüsusi rəy çıxarıb ki, bunlardan 24-də Şikayətlər üzrə Komissiyanın, 10-da "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının rəylərinə istinad edilib.

İdarə Heyətinin ayrı-ayrı KİV-lərlə bağlı çıxardığı qərarlar onlardan 9-na xəbərdarlıq edilməsini nəzərdə tutub. 15 qərarda KİV-lərin peşə prinsiplərinə etinasızlığı əksini taparaq media orqanlarına bundan nəticə çıxarmaq tövsiyə olunub. 9 qərar cavabdeh nəşrin adının Mətbuat Şurasının "qara siyahı"sına salınmasını, 1-i isə yenidən siyahıya qaytarılmasını nəzərdə tutub.

*Azərbaycan Mətbuat Şurasına daxil olan müraciətlərin ümumi təsnifatı




* Mətbuat Şurasına daxil olan şikayətlər və onların araşdırılması təsnifatı



*2011-ci ildə Mətbuat Şurasına daxil olan müraciətlərin şəhər və bölgələr üzrə təsnifatı:

| № | Şəhər, bölgə | Say | № | Şəhər, bölgə | Say |
|---|---|---|---|---|---|
| 1 | Bakı | 303 | 20 | Tərtər | 7 |
| 2 | Gəncə | 35 | 21 | Şəmkir | 7 |
| 3 | Lənkəran | 31 | 22 | Gədəbəy | 7 |
| 4 | Mingəçevir | 18 | 23 | İmişli | 7 |
| 5 | Sumqayıt | 15 | 24 | Lerik | 6 |
| 6 | Ağdam | 14 | 25 | Laçın | 6 |
| 7 | Hacıqabul | 14 | 26 | Beyləqan | 6 |
| 8 | Salyan | 13 | 27 | Goranboy | 5 |
| 9 | Ağdaş | 13 | 28 | Göyçay | 5 |
| 10 | Şirvan | 12 | 29 | Xaçmaz | 5 |
| 11 | Göy göl | 12 | 30 | Astara | 5 |
| 12 | Ağcabədi | 12 | 31 | Oğuz | 5 |
| 13 | Şəki | 12 | 32 | Biləsuvar | 4 |
| 14 | Quba | 11 | 33 | Qazax | 4 |
| 15 | Masallı | 11 | 34 | Şabran | 4 |
| 16 | Şamaxı | 9 | 35 | Tovuz | 3 |
| 17 | Neftçala | 9 | 36 | Ucar | 3 |
| 18 | Saatlı | 8 | 37 | Daşkəsən | 2 |
| 19 | Sabirabad | 8 | | Digər 11 bölgədən hər birindən 1 müraciət | |
| | Cəmi – 48 bölgə | | | 651 | |

*2011-ci ildə Mətbuat Şurasında çıxarılan qərar və rəylərdə aşağıdakı qrupların mənafeyi ödənilmişdir




* Mətbuat Şurasına edilən şikayətlərin motivini təşkil edən materiallarda "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın pozulma faizi aşağıdakı kimidir:

| AJPDQ-nın prinsipləri | | Bəndlər | | Pozuntuların sayı (%-lə) |
|---|---|---|---|---|
| I | Həqiqətə xidmət, dəqiqlik və obyektivlik | 1.2 | Jurnalist hazırladığı yazıda tənqid obyektinin mövqeyini öyrənib bildirməlidir. Bu, mümkün olmadıqda, tənqid obyekti tələb edərsə, öz fikirlərini çatdırmağa çox qısa vaxtda ona şərait yaradılmalıdır. Plüralizm prinsipinə əməl edilməlidir | 26,3 |
| | | 1.3 | Yazıda şərhlər elə şəkildə ifadə edilməlidir ki, oxucu onu xəbərdən, faktdan ayıra bilsin, bunun məhz jurnalistin mövqeyi olduğunu anlasın | 4,7 |

| | | | | |
|---|---|---|---|---|
| II | İnformasiya qaynaqlarına sayğılı yanaşma | 2.1 | Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Lakin bilgi verən şəxs adının gizli saxlanması şərtini irəli sürürsə, jurnalist və informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. İnformasiya qaynağının gizliliyi - məlumat cəmiyyəti çaşdırmaq məqsədilə verilməyibsə - qorunmalıdır | 6,9 |
| | | 2.2 | Qeyri-rəsmi mənbələrin məlumatları onların həqiqətə uyğunluğu və informasiya dəyəri yoxlanılmadan yayılmamalıdır. İnformasiya çapa hazırlanarkən onun mənası təhrif olunmamalıdır. Başqa mətndən və ya çıxışdan sitat gətirərkən jurnalist həmin sitatın harada başlandığını və bitdiyini dəqiq bildirməlidir. Foto-simvolların (illüstrasiya, fotomontaj və sair) dərci zamanı şəklin sənədli xarakter daşımadığı qeyd olunmalıdır. Yazıların sərlövhələri onun məzmununa uyğun gəlməlidir | 21,2 |
| III | Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı | 3.1 | Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli, ehtiyac duyulmadıqda, onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır | 0,4 |
| | | 3.2 | Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır | 27 |
| IV | Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması | 4.6 | Plagiat yolverilməz hərəkətdir | 2,9 |
| | | 4.7 | Jurnalist yazılarında vulqar ifadələrin, jurqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır | 10,6 |

## “Reket jurnalİstİka” və ona qarşı mübarİzə

Qrammatik qaydalara uyğun olaraq dırnaq arasında işlənməsi onu göstərir ki, Mətbuat Şurasının tərtib etdiyi “Reket jurnalistika” ifadəsi Cinayət Məcəlləsində tövsif olunanlardan fərqli məna daşıyır. Mətbuat Şurasının ictimaiyyət üçün açıqladığı müraciətlərdə bildirilir: İctimai qınaq mahiyyəti daşıyan “Qara siyahı” və “Reket jurnalistika” siyahılarına o KİV-lərin adları daxil edilir ki, belə KİV-lər «Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları»na məhəl qoymurlar və bu qaydaları dəfələrlə, təkrarən pozurlar, etik prinsiplər və peşə əxlaqı ilə bir araya sığmayan hərəkətlərə yol verirlər, barələrindəki qərar və rəylərdən, tövsiyyə və iradlardan nəticə çıxarmırlar.

Mətbuat Şurası 2011-ci ildə “reket jurnalistika”ya qarşı mübarizəni 2 əsas istiqamətdə aparıb. Bunlardan birincisi “reket nəşr”lərin elan olunması, adlarının ictimaiyyətə çatdırılması, ikincisi onlara qarşı ictimai qınağın fəallaşdırılmasıdır.

Mətbuat Şurası həmçinin özünün əsas missiyalarından birinin mətbu məkanın saflaşdırılması olduğunu rəhbər tutaraq, “qara siyahı”ya saldığı KİV-lərin fəaliyyətlərində düzəliş etmələrinə dair müraciətlərini nəzərə alıb. MŞ İdarə Heyətinin müvafiq qərarları ilə onların bir qisminin üzərindən “reket nəşr” adı götürülərək “qara siyahı”dan çıxarılıblar. 2011-cu ildə belə nəşrlərin sayı 7 olub.

Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti Şuranın Şikayətlər üzrə Komissiyasının və “Reket jurnalistikaya” qarşı mübarizə Komissiyasının təqdimatı əsasında il ərzində 4 dəfə “reket nəşr”lərin adlarını açıqlayıb. 2011-cu ilin yekunlarına əsasən «qara siyahı»da yer alan KİV-lərin ümumi sayı 89-dur. Mətbuatın «qara siyahı»sı tanınmış, ictimai fikrə təsir göstərən kütləvi informasiya vasitələrində dərc edilib.



**Elçin MİRZƏBƏYLİ**
*"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru*

# ETİK PRİNSİPLƏRİN POZULMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Mətbuatda etik prinsiplərin pozulması bu gün təkcə Azərbaycan üçün deyil, demək olar ki, dünyanın bütün media qurumları üçün problem olaraq qalmaqdadır. Ayrı-ayrı ölkələrdə tətbiq olunan liberal, yaxud sərt qanunvericilik aktları, özünütənzimləmə və ya inzibati tənzimləmə mexanizmləri nəzəri baxımdan bu problemin aradan qaldırılması üçün yetərli görünsə də, təcrübədə tamamilə fərqli bir mənzərənin şahidi oluruq. Yaranan hər bir yeni situasiya mətbuatda etik prinsiplərin pozulması ilə bağlı özünün yeni şərtlərini diqtə etməklə mövcud özünütənzimləmə və inzibati tənzimləmə mexanizmlərinin çevikliyini, işləkliyini şübhə altına alır.

Azərbaycan kimi bu sahədə çoxillik təcrübəyə malik olmayan, ictimai-siyasi münasibətlər sistemi oturuşmamış, qanunun aliliyinin qorunması, şəxsiyyətin toxunulmazlığı kimi hüquqi dəyərlərin toplumsal tabu kimi qavranılmadığı cəmiyyətlərdə etik prinsiplərin pozulması problemi özünü daha qabarıq şəkildə büruzə verir. Ölkədə fəaliyyət göstərən çoxsaylı jurnalist təşkilatlarının, o cümlədən bütün nüfuzlu media qurumlarının birləşdiyi Mətbuat Şurasının bu istiqamətdə atdığı addımlara baxmayaraq, kütləvi informasiya vasitələrində etik problemlərin pozulması ilə bağlı nəzəri baxımdan öncədən proqnozlaşdırılması mümkün olmayan yeni faktların meydana gəlməsi problemin daim diqqətdə saxlanılmasını zəruri edir.

Bəs mətbuatda etik prinsiplərin pozulmasını şərtləndirən amillər nədən ibarətdir və onlar necə meydana gəlir? Şübhəsiz ki, bu suala cavab tapmaq üçün etik prinsiplərin pozulmasına zəmin yaradan halları ayrı-ayrılıqda dəyərləndirmək lazımdır.

## İctimai mühit

Daha öncə də qeyd etdiyim kimi, 70 il totalitar Sevet rejiminin basqısı altında olan, demokratik ənənələrin, hüquqi dövlət anlayışının dəyərə çevrilmədiyi bir cəmiyyətdə ictimai-siyasi münasibətlər sisteminin oturuşmaması təbii qəbul olunmalıdır. Dövlət müstəqilliyimizin 21-ci ilini yaşadığımıza rəğmən, hələ də ölkədə fəaliyyət göstərən siyasi partiyaların çoxpartiyalı demokratik sistemin əsas atributunu təşkil edən, müasir texnologiyalarla idarə olunan, modern institutlara çevrilməməsi, siyasi rəqabətin siyasi mücadilə, savaş kimi qavranılması, diskussiya mədəniyyətinin formalaşmaması, cəmiyyəti narahat edən problemlərin tam çılpaqlığı ilə müzakirəyə çıxarılmasına cəmiyyətin özünün hazır olmaması mediada etik normaların pozulmasına yol açan ən əsas amillərdən biri və bəlkə də birincisidir.

Vətəndaş cəmiyyətinin sütunlarını təşkil edən qeyri-hökumət təşkilatlarının sağlam və şəffaf ictimai mühitin formalaşması prosesindən kənarda qalması, həyata keçirilən layihələrin bir çox hallarda görüntü xarakteri daşıması ictimai münasibətlərin saxta və qondarma dəyərlər, gerilikçi ənənələr üzərində deyil, hüquqi prinsiplər müstəvisində qurulmasına ciddi maneə yaradır.

Hüquqi dəyərlərə və mexanizmlərə söykənən etimadlı, şəffaf münasibətlərin təmin olunmasına maneə yaradan süni əngəllərin yer aldığı cəmiyyətlərdə etik normaların pozulmasına yol açan amillərin meydana gəlməsi təbii qəbul olunmalıdır. Etik normaların pozulması və bu pozuntuları ictimailəşdirən kütləvi informasiya vasitələri sadaladığım ictimai-siyasi münasibətlər "zənciri"nin ən sonuncu həlqəsidir. Məhz bu səbəbdən də, etik prinsiplərin pozulması probleminin yalnız media müstəvisində həll edilməsi mümkün deyil. Media bu prosesdə sadəcə icraçıdır və diqtə olunan, sifariş edilən şərtlər çərçivəsində hərəkət etmək məcburiyyətindədir.

## İqtisadi amil

Maddi-texniki bazasının zəif olması, peşəkar kadr, yayım, satış, məhdud reklam bazarı və s. problemlər isə medianı diqtə olunan, sifariş

edilən şərtlər çərçivəsində hərəkət etməyə məcbur edir. İctimai-siyasi münasibətlər sistemində mövcud olan problemlər, qütblər, yaxud tərəflərarası kəskin münasibətlər son nəticədə mətbuat orqanlarının səhifələrinə yol açır. Açıq və şəffaf diskussiyalar, yaxud hüquqi vasitələrlə çözülməyən problemlər mətbuat orqanlarını qarşı-qarşıya dayanan tərəflərdən hər hansı birinin haqlı olduğunu görüntüləmək üçün istifadə edilən vasitəyə çevirir.

Bu hal özünü bütün istiqamətlərdə, o cümlədən ictimai-siyasi, sosial və iqtisadi münasibətlərdə də büruzə verir.

Təbii ki, mətbuatda etik normaların pozulmasına yol açan digər amillər də var. Bu sırada təhdid, qarayaxma, böhtan və digər qanundankənar vasitələrdən yararlanmaqla qazanc əldə etmək üçün yaradılan kütləvi informasiya vasitələrini də nümunə gətirmək olar. Azərbaycanda belə mətbuat orqanlarını "reket jurnalistika" adlandırırlar. Lakin "reket jurnalistika"nın ictimai rəyə təsir etmək imkanları məhdud olduğu üçün bu amili etik prinsiplərin pozulmasını şərtləndirən əsas faktor kimi dəyərləndirmək doğru olmazdı.

## Peşəkarlıq problemi

Mətbuatda etik normaların pozulmasına yol açan daha bir amil isə peşəkarlıqla bağlıdır. Təəssüf ki, Azərbaycanda peşəkar jurnalist, peşəkar media təşkilatçısı anlayışı olduqca məhdud bir çərçivəyə salınıb. Bizim təsəvvürlərimizə görə, öz fikirlərini səlis və kəskin ifadə etməyi bacaran şəxs peşəkar jurnalist, etik prinsiplərin kobud şəkildə pozulması yolu ilə bu və ya digər mətbuat orqanına oxucu cəlb edən şəxs isə peşəkar media təşkilatçısıdır. Bu isə, mənim subyektiv qənaətimə görə, Azərbaycan mətbuatında müstəqil media anlayışıyla bağlı təsəvvürlərin kökündən yanlış olması, bu prosesin son 15-20 il ərzində bir neçə mətbuat orqanı tərəfindən məqsədyönlü şəkildə stimullaşdırılması ilə bağlıdır. Bu isə öz növbəsində cəmiyyətdə də media haqqında natamam və arzu olunmayan təsəvvürlərin, qarşılıqlı inamsızlıq, etimadsızlıq mühitinin formalaşmasına zəmin yaradıb.

Əslində peşəkarlıq "kəskin yazı yazmaqdan" və "yaxşı qəzet satmaqdan" daha yüksəkdə dayanan, təməl sütunları qanunun aliliyinin, ədalət prinsiplərinin qorunmasından, şəxsiyyətin toxunulmazlığından, obyektivlik, qərəzsizlik və tərəfsizlikdən ibarət olan, cəmiyyətin birgəyaşayış qaydalarına meydan oxumayan, əksinə onu daha sivil məcraya yönəldən bir anlayışdır. Bu baxımdan, gec də olsa mövcud təsəvvürlərin dəyişməsi istiqamətində ciddi və praktik addımların atılmasına ehtiyac var.

## Qanunun aliliyi və mental dünyagörüşü

Azərbaycanda qanunun aliliyinin hər bir vətəndaş tərəfindən qorunmasının birgəyaşayışın, ictimai təhlükəsizliyin əsas atributu kimi dərk olunmaması təkcə mövcud ictimai-siyasi münasibətlər sisteminin tam formalaşmamasından qaynaqlanmır. Bu, həm də, çar Rusiyasının və qırmızı Sovet imperiyasının işğalı altında olduğumuz dövrlərdə rejimə etirazın bir forması kimi qavranılan və təəssüf ki, cəmiyyətimizin mental dəyərinə çevrilmiş, bu gün də öz həllini gözləməkdə olan bir problemdir. Qanunun aliliyinin qorunmasında hər bir vətəndaşın öz məsuliyyətini dərk etməməsi isə bir çox problemlərlə yanaşı, etik prinsiplərin pozulmasına da yol açan amillərdən biri kimi qəbul olunmalıdır.

Hüquqi dövlətdə və hüquqa sayğı duyan cəmiyyətdə heç bir peşə toxunulmaz ola bilməz. Toxunulmaz olan yalnız insan şəxsiyyətidir!

## Cəmiyyət və media

Bu gün medianın problemlərini, o cümlədən etik prinsiplərin pozulması ilə müşahidə olunan halları mövcud ictimai-siyasi münasibətlər sisteminin kontekstindən çıxararaq müzakirə etmək, mövcud problemlərin yalnız media müstəvisində həllinə nail olmaq mümkün deyil. Media cəmiyyətin ayrılmaz bir parçasıdır. Bu baxımdan da mövcud problemlərin, o cümlədən etik prinsiplərin pozulmasına yol açan amillərin aradan qaldırılması istiqamətində vahid bir konsepsiya əsasında hərəkət edilməli, bu prosesdə müvafiq dövlət institutları, ictimai qurumlar, siyasi partiyalar birgə fəaliyyət göstərməlidirlər.



**Xalid AĞALİYEV**
*Media Hüququ İnstitutu, proqram rəhbəri,*
*Hüquqşünas*

# ETİK MEDİA ÜÇÜN ƏLVERİŞLİ ORTAMIN ŞƏRTLƏRİ

Media etikası, etik media və yaxud etik jurnalistika mövzusu zaman-zaman qızğın müzakirələrin sevilən predmetlərindən olub. Media dəyişikliklərə, yeniliklərə daha həssasdır, daim özünə yeni elementlər əlavə edir. Odur ki, mövzu heç vaxt diqqətdən kənarda durmayacaq, etika müzakirələri yeni rakurslarda maraq doğurmağa davam edəcək.

Medianın təbiəti durmadan dəyişir. Beynəlxalq ictimai rəydə medianı artıq dördüncü hakimiyyət yox, hakimiyyətlərin, güclərin mediası adlandıranlar da tapılır. Haqsız da deyillər, media sahibləri mediadan kənar sektorlara sərmayə qoymaqla, siyasi və iqtisadi sahələrə maraq göstərməklə başında durduqları media quruluşlarının həmin sektorlara baxışını da dəyişikliyə məruz qoyurlar. Belə durumlarda media etikası mövzusunun daha sıx gündəmə gətirilməsi zərurəti yaranır.

Etik prinsiplərə sadiq media sektorunun mövcudluğu üçün nəhəng bir şərtlər topluluğu təmin olunmalıdır. Bu yazıda həmin şərtlər, elementlər üzərində baxışlarımızı ümumiləşdirməyə çalışacağıq. Ümumiləşdirmələrimizi əsasən 3 aspektdə aparacağıq.

## Etik medianı qoruyan hüquqi mühitin mövcudluğu

Etik prinsiplər bəzən mütləq hüquq və azadlıqlar verən, bəzənsə keçilməsi yasaq sərhədlər çəkən qanunlardan çox fərqlidir. Qanun toplumu, başqalarının haqlarını qorumaq məqsədilə çərçivələri, onları aşmağın yolverilməzliyini elan edir. Etik prinsiplərsə, əgər söhbət mediadan gedirsə, bu sektorda çalışanların performansı, hərəkət və davranışları üçün standartları, qaydaları müəyyən edir. Ancaq bütün bunlara rəğmən bəzi hüquqi zərurətləri təmin etmədən həmin etik prinsiplərin (etik medianın) işləkliyini düşünmək xeyli sadəlövhlük olardı.

Etik prinsiplərə sadiq medianı əldə etmək üçün jurnalistləri, media azadlığını qoruyan hüquqi mühit şərtdir. Qanunlar jurnalistləri senzuradan qorumalı, jurnalist qaynaqlarının gizliliyinə, ümumilikdə medianın effektiv işləməsi üçün əlverişli ortamın yaradılmasına təminat verməlidir. Bu qanunlar sadəcə kağız üzərində qalmamalı, hökumətlər onların işləməsini mütləq şəkildə təmin etməlidir. Jurnalistlərin bilgi əldə etməsinə yaradılan qeyri-legitim maneələrin, fiziki basqıların, təhdidlərin və s. ən qısa zamanda ədalətli araşdırılması və suçluların məhkəmə önünə çıxarılması təmin edilməlidir.

Etik prinsiplərə sadiq media həm də qanunların medianın gözünü qorxudacaq təbiətə malik olmamasını tələb edir: qanunlar ictimai funksiya yerinə yetirən hakimə, polisə münasibətdə olduğu kimi jurnalistlərə də yanılma, səhv etmə haqqı tanımalıdır, difomasiya, böhtan, təhqirlə bağlı qanunvericiliyin islahatı davamlı diqqət mərkəzində olmalıdır.

## Etik prinsiplərlə işləməyə imkan verən media mühiti

Ümumi media mühiti etik prinsiplərlə işləməyə imkan verməlidir. Media azadlığı etik prinsiplərə əməl olunmasının əsas şərtlərindəndir. Geniş baxışda, dördüncü güc kimi qəbul edilən media, özündən öncəki güclərin təsiri altında olmamalıdır. Ancaq bu da yetərli deyil. Eyni zamanda ayrı-ayrı media quruluşlarının içində çalışanların azadlığını dəstəkləyən rejim hakim olmalıdır. Etik prinsipləri qulağına “sırğa edən” jurnalistin çalışdığı media quruluşunda söykənə biləcəyi dayaqları olmalı, o, daxili mühitdən dəstək almalıdır. Çünki etik prinsiplərə sadiqlik yalnız jurnalistlərin məsuliyyəti demək deyil. Bu, bütünlüklə media quruluşunun məsuliyyətidir.

Toplumun inamını qazanmaq üçün media quruluşu ilk addımda öz baxış və missiyasını aydın şəkildə duyurmalıdır. Qanunlar təbii ki, hüquqi şəxsin üzərinə şəffaflıqla bağlı tələblər qoyur. Ancaq etik prinsiplərə söykənən media mühitində şəffaflığın belə indeksləşməsi yetərli deyil. Etik media mühiti həm də media üzərində sahiblik və media quruluşunun maliyyələşmə mənbələrinin toplum üçün tam şəffaflığının təmin olunmasını tələb edir. Bu, etik prinsiplərlə iş mühitinin əsas elementlərindən biridir.

Ancaq bunlarla da bitmir, belə mühitin elementlərinin sırası kifayət qədər genişdir. Mediada çalışanların etik davranış qaydalarının bütün sektorun qatılımı ilə işlənib hazırlanması çox vacibdir. Mediada çalışanların öz redaktorlarını seçə bilmə, redaksiya siyasətini müstəqil müəyyənəşdirmə imkanları olmalıdır. Redaksiyaların ayrı-ayrı icmalar, sosial qruplar, qüsurlular və s. haqda təlimatları yazılı hazırlanmalıdır. Qısaca, jurnalistlərin media qanunvericiliyinə bələdliyindən tutmiş etik prinsiplərə sadiq-

liyin mükafatlandırılmasınadək bütün nüansları etik iş mühitinin elementləri sırasına daxil edə bilərik. Keyfiyyətli, effektiv media üçün əlverişli işə qəbul qaydaları, etik məsələlərlə bağlı qurumdaxili müzakirə mühiti, qaneedici əmək haqlarının olması, ruhlandırıcı iş şəraiti da əsas şərtlərdəndir.

Jurnalist üçün ona ruh verən iş şəraitinin olması üzərində xüsusi dayanılmalı olan elementlərdəndir. Texniki baxımdan komfort bu elementin tərkib hissəsi deyil. Nəhəng, cəlbedici tikili, bahalı texniki vasitələr, jurnalist alətləri etik media strukturu üçün arzuediləndir, ancaq heç bir halda əsas deyil. Əsas peşəkarların olması, daha əsas olanı isə peşəkara, təcrübəyə dəyər verən insani mühitin mövcudluğudur. Bu mühit yoxdursa, onun yerində hakim olan peşəkarlıq cücərtilərini də qısa müddətdə qurudacaq.

Qeyd etdiklərimiz olmadıqca yazılı olmayan etik qaydaların işləməsi mümkünsüzdür...

## Effektiv jurnalist birliklərinin etik media sektorunun formalaşmasına faydası

...Əksər inkişaf etmiş ölkələrdə tibb diplomu cərrahlıq etmək, hüquqçu diplomu vəkilliklə məşğul olmaq üçün yetmir. Onlar həm də peşə birliklərində təmsil olunmalıdırlar, həmin birliklərin etik peşə qaydalarına qoşulmalı və bu qaydalara əməl etmək öhdəliyi götürməlidirlər.

Jurnalistlər də bütün başqa peşə sahibləri kimi "oyun qaydaları"nı dəqiqləşdirməlidirlər. Bu istəkdə olan hər bir jurnalist özünü daha güclü hiss edəcək, etika söhbətini daim qulağına sırğa edəcək, bütün durumlarda səmimi davranacaq, yanlış və doğrularını təkcə həmkarları ilə deyil, bütövlükdə cəmiyyətlə müzakirəyə çıxarmaqdan çəkinməyəcək. Bu işdə mediaya yardımçı ola biləcək vasitə jurnalist birlikləri, onların effektiv işləyişidir. Özünütənzimləmə qurumlarından əlavə jurnalistləri bir araya gətirən birliklər ilk növbədə etik davranış qaydalarını, prinsiplərini müəyyən etməlidir. Bu prinsiplər bütün üzvlər arasında davamlı təbliğ olunmalıdır. Prinsiplərə sadiqlik üzvlüyün şərti də ola bilər. Birliklərin müəyyən etdiyi qaydalar davamlı olaraq yenilənməli, inanılmaz sürətlə dəyişən, yenilənən media atmosferinə uyğunlaşdırılmalıdır. Həm də bu qaydalar yalnız intizam məzmunu daşımamalıdır, qaydalar mediada çalışanların daha daha geniş çevrədə bir araya gəlməsinə, peşə standartlarının yüksəldilməsinə xidmət etməlidir. Birliklər eyni zamanda media sahibkarları ilə effektiv müzakirə mühiti qurmalı, medianın rolunu, media azadlığının qorunmasının vacibliyini ifadə edən kampaniyalar aparmalıdır.

Etik medianın var olması üçün yuxarıda sadaladıqlarımızın varlığı vazkeçilməz şərtlərdir. Ancaq sadalananlar heç də elementlərin hamısı deyil, bu sıranı xeyli uzatmaq da olar. Ancaq istənilən məkanda medianın etik prinsiplərə sadiqliyini ölçmək üçün yalnız haqqında danışdıqlarımızı tərəzinin bir gözünə qoymaq kifayət edir.

---

# ETİK MEDİA MÜHİTİ ANLAYIŞI BEYNƏLXALQ TƏCRÜBƏDƏ

**2008-ci ildə BJF tərəfindən nəşr edilmiş "HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri" kitabından**

Etik davranış təkcə jurnalistlərin məsuliyyəti deyil. Media sənayesində işləyən hər bir işçinin -iclas zalında oturanlardan tutmuş zirzəmilərdə çalışanlara kimi hər kəsin - son məhsulun keyfiyyətli əmələ gəlməsində əməyi (həm mənəvi, həm də iqtisadi) vardır.

Məhz bu baxımdan yaxşı media menecerləri yalnız yaxşı əlaqələrin qurulmasında deyil, həm də qurulmuş əlaqələrin məzmunca daha keyfiyyətli olmasında maraqlıdırlar.

Medianın məqsəd və vəzifələri haqqında bəyannamələr (hüquq, etik standartlar, demokratik dəyərlərə əməl etmək, şəffaf görünüş) ictimai inam yaradacaq və jurnalistlərin işlərinə olan bağlılıqlarını gücləndirəcəkdir.

Belə bir görünüş qısaca bəyan edilə ya da detallaşdırıla bilər. Hər iki halda öz missiyasını bildirmək heç vaxt dəyərsiz deyildir.

Bir çox ölkələrdə, məsələn Kolumbiyada, radio jurnalistləri onlara efir vaxtı verilməmişdən əvvəl öz şəbəkələri üçün reklam əldə etməlidirlər. Digərlərində "reklam məqalələri" (yerli biznes və xüsusi maraqların adı altında birtəhər maskalanan məqalələr) redaksiya işinin tərkib hissəsi kimi qəbul edilir. Elə ölkələr də var ki, siyasətçilər "cari işlər" proqramında çıxış etmək üçün pul ödəyirlər. Beləliklə, jurnalistikaya müdaxilə ediləndə onun müstəqilliyi təhlükə altında qoyulur və etik standartlar korroziyaya məruz qalır.

Əgər media orqanı başqalarının maliyyə və biznes işləri haqqında effektiv məlumat verirsə, bu zaman media kompaniyaları özləri şəffaflığın modeli olmalıdırlar, xüsusilə də jurnalistikada sahibkarlıq fəaliyyətlərinin maliyyələşməsi işində. Onlar öz işlərində düzgünlüyü və bütövlüyü gözləməlidirlər. Bu olmadan, ictimai həyatda haradasa korrupsiya və ya əxlaqsız davranışı ifşa etmək üçün media etimada malik olmur.

Redaksiya rəhbərləri və jurnalist ittifaqları redaktə, təlim işlərini, oxuculardan, tamaşaçılardan, dinləyicilərdən və ictimai inamı saxlamaq üçün vacib olan hamıdan gələn şikayətlərlə məşğul olan daxili sistemi daima nəzarətdə saxlamalıdırlar. Vətəndaşlarla birləşmək, əlaqə vacibdir. Bu, təkcə insanları

media məhsullarını almağa məcbur etmək və ya veb-sayta daxil olmağa, şəbəkəyə köklənməyə meyllənrirmək üçün deyil, həmçinin media və kommunikasiyanı tez-tez ayıran boşluğu aradan götürmək üçündür. Vətəndaşlar artıq passiv tamaşaçı olmaq istəmirlər, media vətəndaş iştirakını həvəsləndirmək üçün yeni və innovativ yollar axtarmalıdır. Əgər səhvlər dərhal düzəldilirsə və əgər xəbər şöbələrinə ictimaiyyətin asan girişi mümkündürsə, insanlar yaxın olduqlarını hiss edəcəklər və jurnalistika bundan fayda götürəcək.

## İş şəraiti

Etik jurnalistika mövzusunda çalışan jurnalist ittifaqları belə bir ümumi rəy ifadə edirlər ki, müasir standartalara uyğun işə qəbul qaydaları və iş şəraiti olmadan mediadan yüksək keyfiyyət gözləmək absurddur. İşəgötürmə prosedurunun şəffaf və ədalətli olmaması, aşağı əmək haqqı xəbər redaksiyalarında etik media mühitini məhv edir, peşəkarlığa inamı laxladır, riskə girmək üçün imkanları azaldır. Bütün bunlar jurnalistikanın qanunsuzluqlara qarşı ayıqlığını laxladır.

Jurnalistikanın daxilində korrupsiyanın aradan qaldırılması, keyfiyyətli jurnalistika qurmaq yolu kimi iş şəraitinin yaxşılaşdırılması məsələsi qanun yazanlar və beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə qəbul edilmişdir. Buna baxmayaraq, ABŞ-da və Avropada sahibi olduqları media qurumunun artıq pul kəsən alət olmadığını görən iş adamları işçi ştatını azaldır, redaksiyalarda keyfiyyəti aşağı salırlar. Hətta satışların artdığı yerlərdə də ümumi tendensiyaya uyğun olaraq media sahibləri etik prinsipləri lazımsız yük kimi bir kənara atmağa başlayıblar.

Dəyişiklik qaçılmazdır, amma jurnalistika prinsiplərinin vacib hissələrinin (faktların yoxlanılması, ictimai marağa uyğun informasiyaların toplanması, sensasiya naminə insanlıq hissinin kənara atılmaması və sair) kəsilməsi ictimaiyyətin gözündə mediaya qarşı inamı azaldır. Bu addımlar uzaqgörən addımlar olmayıb, biznes məsələlərində qeyri-rasional qərarlardır. Əgər ictimaiyyət medianın keyfiyyətinə inamını itirərsə, loyal olmaq üçün heç bir səbəb qalmayacaq. Uzun müddətli məqsədlər baxımından yanaşsaq, xəbər redaksiyalarında keyfiyyətin aşağı salınması həm ticari, həm də peşəkarlıq baxımından özünəqəsddir.

Jurnalistlərin, təlim görmüş ekspertlərin, şərhçilərin işi heç bir təlimi olmayan həvəskarlar tərəfindən əvəz edilə bilməz. Ritorikada "vətəndaş jurnalistikası" adlandırılanların sayının nə qədər artmasından asılı olmayaraq, onlar bu reallığı dəyişə bilməzlər. Ona görə də jurnalist ittifaqları peşəkar medianın gələcəyi üçün peşə dəyərlərinin jurnalistikaya bərkidilmiş qalmasında təkid edirlər. Yeniliklər, əlavələr texnologiyaların jurnalistlərin işini necə dəyişməsindən asılı olmayaraq, həmişə ona aiddir.

### Görülməli işlər:

*** Ayrı-ayrı jurnalist ittifaqları və redaksiya rəhbərlikləri arasında dialoq strukturunun yaradılması məqsədilə görüşlərin təşkili.**

***Razılaşdırılmış gündəlik əsasında treninqlər üçün proqramların yaradılması.**

*** Nəşr işi ilə bağlı aydın və dəqiq ifadə olunmuş prosedurlar sistemini yaratmaq.**

*** İşəgötürmə prosedurlarını və ştatın formalaşdırılması prinsiplərini yenidən nəzərdən keçirtmək. İşçilərə bərabər imkanların yaradılması və ayrı-seçkiliyin olmamasına əmin olmaq.**

*** İctimaiyyətlə olan münasibətləri yoxlayın, vətəndaşlarla olan əlaqələri inkişaf etdirmək barədə düşünün. Jurnalistikada etika və keyfiyyəti dəstəkləmək üçün təbliğat materialları, vərəqələr hazırlayın. Media qanunvericiliyini təkmilləşdirmək, dəyişmək, ədalətsizliyə, cəzasızlığa son qoymaq üçün milli kampaniyalara dəstək vermək məqsədilə fəaliyyət proqramı təşkil edin.**

### Suallar:

*** Ölkənizdəki media icması öz missiyaları barədə aydın və razılaşdırılmış bəyannaməyə malikdirlərmi?**

*** Rəhbərlik də daxil olmaqla bütün media ştatının iş təcrübəsini əhatə edən etik kodeks və davranışlar sistemi varmı?**

*** Redaksiya heyəti və kommersiya departamentlərinin işini ayırmaq üçün daxili strukturlar varmı?**

*** Qanun tərəfindən tələb olunandan savayı, medianın maliyyələşməsi və media sahibkarlığı üzərində tam ictimai nəzarət, şəffaflıq varmı?**

*** Ayrı-ayrı və spesifik mövzularda: miqrasiya, irqçilik, ksenofobiya, seçkilərin və insan hüquqlarının işıqlandırılması ilə bağlı mövzularda jurnalistlər üçün treninqlər vaxtaşırı keçirilirmi?**

*** Maliyyə, siyasi və digər münaqişələrin həlli üçün razılaşdırılmış daxili sistemlər mövcuddurmu?**

*** Nəşr zamanı keyfiyyətin və dəqiqliyin standartlarını saxlamaq üçün redaktənin adekvatlığını və etikliyi nəzarətdə saxlayan proseduralar mövcuddurmu?**

*** Nəşr zamanı redaksiyadaxili yoxlama, həmçinin səhvlərlə və şikayətlərlə davranmaq üçün hər hansı bir mexanizm varmı?**

# Fəsil 4: YENİ MEDİA VƏ ETİK STANDARTLAR



**Vüsalə MAHİRQIZI**
*APA İnformasiya Agentliyinin baş direktoru*

# ETİK PRİNSİPLƏRƏ MÜNASİBƏTDƏ ƏNƏNƏVİ MEDİA İLƏ YENİ MEDİANIN FƏRQİ

## Yeni media anlayışı nəyi ehtiva edir?

Yeni medianın yaranması dünya informasiya məkanında tamamilə fərqli tendensiyanın əsasını qoydu. Yeni medianın yaranışı ilə cəmiyyət xəbərin daha operativ alınması vərdişinə də yiyələndi. Həmçinin, ənənəvi mediadan fərqli olaraq, yeni medianın auditoriyası təkcə proses izləyicisi kimi qalmadı, bu auditoriya həm də medianın yaradıcısı, xəbərin yaranması və hazırlanması prosesinin birbaşa iştirakçısı oldu. Fikrin anlaşılması üçün yeni media anlayışının ifadə etdiyi çalarlara diqqət yetirək.

Yeni media özlüyündə kompüter və internet vasitəsilə yaradılan mediadır. Bu medianı sadaladığımız iki vasitə olmadan təsəvvür etmək mümkün deyil.

Yeni medianın sahəsinə xəbər saytlarından tutmuş, korporativ saytlar, kompüter oyunları, multimedia, elektron poçt, elektron kitabxana, mobil media, bloqlar, sosial şəbəkələr, bir sözlə, internet vasitəsilə tanış ola bildiyimiz, bizi məlumatlandıran, əyləndirən və maarifləndirən bütün vasitələr daxildir.

Yeni media internet və mobil texnologiyalar vasitəsilə asan və daha sürətlə informasiya ala bildiyimiz, eyni zamanda informasiyanı paylaşa və münasibət bildirə bildiyimiz modeldir. Bu medianın əsas üstünlüyü isə xəbəri yaymaq və almaqla bərabər həm də xəbər yaratma prosesində iştirak etməkdir.

İndi dünyada daha çox müzakirə olunan mövzu yeni medianın məhz bu növüdür.

Hazırkı reallıqda xəbər, informasiya peşəkarların, yəni jurnalistlərin iştirakı olmadan belə yayıla bilir. Yeni medianın, xüsusilə informasiya və mobil texnologiyaları imkan verir ki, əslində xəbər alıcısı olan şəxs gördüyü hadisəni sosial şəbəkələrdə, bloqunda, həvəskar saytında paylaşmaqla, həm də xəbər istehsalçısına çevrilə bilsin. Əlbəttə, peşəkarlıq olmadığı üçün bu zaman xəbərin obyektivlik, tərəfsizlik və qərəzsizlik prizumpsiyası pozula bilir. Eyni zamanda, xəbər strukturuna riayət olunmadan hazırlanan məhsul kütləviləşir. Məsələnin maraqlı və diqqətçəkən məqamı da elə məhz bu kütləviləşməklə bağlıdır.

Kütləvi İnformasiya Vasitəsinin bir funksiyası da, adından göründüyü kimi, istənilən məlumatın kütləvi tirajlanmasına nail olmaqdır. Sosial şəbəkələrdə yayılan məlumatları biz strukturuna görə KİV məhsulu hesab etməyə bilərik. Amma digər tərəfdən, bu xəbər sosial şəbəkələrdə minlərlə, bəzən on minlər, yüz minlərlə insan arasında yayılır və ictimai rəyin formalaşmasına təsir edir. Məhz bu funksiya-yəni xəbərin kütləvi tirajlanması və ictimai rəyə təsir etməsi KİV-in danılmaz funksiyasıdır ki, yeni media da bu funksiyaya qadirdir. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin şərtləri də yeni media adlandırdığımız strukturların və onun tərkib hissələrindən olan sosial şəbəkələrin məhz KİV funksiyası daşıdığını göstərir.

Etiraf etməliyik ki, sosial şəbəkələr bu gün ictimai nəzarət funksiyasını tam olmasa da, yerinə yetirə bilir. Həmçinin, online media dünyada, o cümlədən bizim ölkəmizdə etibarlı və etimadlı xəbər qaynağı kimi qəbul edilib. Ənənəvi mediada xəbər alıcısı funksiyasını yerinə yetirən subyektin xəbər istehsalçısına çevrilməsi isə yeni medianın tərkibinə daxil olan sosial mediada müşahidə olunur.

## Sosial media nədir?

Sosial media sosial ünsiyyət və paylaşma vasitəsidir. Sosial media veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirə bilir.

Sosial media - insanlar arasında virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşmaq deməkdir. O, daha əlçatan və veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikro bloqlar, ani ünsiyyət proqramları, forumlar daxildir.

Sosial media nümunələrinə istifadəçilərin oxu-

maqla yanaşı, həm də münasibət bildirə bildikləri, yəni şərh və ya forum bölməsi olan saytlar daxildir.

Sosial səbəkələr (Facebook, Twitter, Google+ və s.) də sosial media hesab olunur. Bu şəbəkələrə bir növ "virtual küçə" deyə bilərik.

Digər ünsiyyət vasitələri, yəni MSN, Skype, Google Talk və s. də sosial medianın elementləridir. Çünki bunlar vasitəsilə biz müxtəlif informasiya alış-verişində iştirak edir, xəbər yayımı ilə məşğul oluruq. Müasir dövrdə bu vasitələr artıq video konfransların keçirilməsi, dünyanın hər bir nöqtəsində baş verən ciddi prosesin məsafədən anba-an izlənilməsi üçün istifadə olunur.

Forum və online diskussiya klubları da sosial media nümunələridir. İnsanların bir-birilə ünsiyyətinə və informasiya mübadiləsinə şərait yaradan sayt və proqramlar sayəsində internet istifadəçiləri axtardıqları və maraqlandıqları məlumatları əldə etmiş olurlar.

Bloqlar da sosial media nümunəsidir. İnternet texnologiyadan istifadə edən hər bir şəxs özünün bloqunu yaradır və onu gundəlik kimi istifadə edir. Sadəcə, bu gündəliyin daha geniş auditoriyada paylaşılması mümkündür. Sosial şəbəkələr bloqların əhəmiyyətini son dövrdə nisbətən zəiflətsə də, xüsusən, ABŞ və Avropa cəmiyyətində sosial şəbəkələrə qədər olan dövrdə bloqlar çox əhəmiyyətli və populyar idi. Həmin populyarlıq indi də əhəmiyyətini saxlamamış deyil. Sadəcə, sosial şəbəkələr hər kəsə öz fikrini online yazmaq və münasibət almaq imkanı yaratdığı, eyni zamanda bu şəbəkələrdə fikirləri daha geniş auditoriyaya daha tez, az vaxt və az zəhmət sərf etməklə çatdırmaq mümükün olduğu üçün bloq yaradıcılığı bir az arxa plana keçib. Eyni mülahizələri forumlarla bağlı da söyləmək mümkündür.

## Etik prinsiplərə münasibətdə ənənəvi media ilə yeni medianın fərqi

Yeni medianın bu qədər sürətlə yayılmaq imkanı və ona peşəkar nəzarətin olmaması bu sahədə etik prinsiplərə əməl olunması ilə bağlı sualı ortaya çıxarır. Yeni media növü olan internet oyunlarından tutmuş sosial mediada əksini tapan şərhlərə, mübahisələrə, müzakirələrə, dioloqa və bütün bu sadalananların baş verdiyi zaman etik qaydaların pozulması hallarına necə nəzarət olunmalıdır? Ümumiyyətlə, belə bir ictimai və ya administrativ nəzarət mümkündürmü?

Əvvəla, məsələnin administrativ nəzarət forması tamamilə müzakirədən kənarda qalır. Çünki internet və mobil texnologiyalarla fəaliyyət göstərən mediaya belə nəzarət çox çətin, bir çox hallarda isə mümkünsüzdür. Bir çox demokratiyadan kənar cəmiyyətlərdə bu nəzarətə ümumiyyətlə, internet texnologiyaların ölkədə tətbiqinə tamamilə qadağa qoymaqla nail olurlar. Əks halda buna nail olmaq mümkün deyil. Əgər internet varsa, o zaman ondan istifadə yolları, sanksiyaları zərərsizləşdirəcək vasitələr ( filtir qırıcılar və s) də var. Avropa Birliyi və Avropa Şurası da hazırda internetin daha az nəzarət olunması, yaxud da internetə nəzarət olunan cəmiyyətlərə bu texnologiyanın ötürülməsinin daha asan yolları barədə sənədlər üzərində çalışırlar.Bu isə o deməkdir ki, yaxın gələcəkdə qolobollaşan dünyanın atributu kimi yaradılmış internetin məhdudlaşdırılması üçün administrativ üsullar daha da tükənəcəkdir.

İkincisi, dəstəklənməli olan vasitə isə yeni media üzərində ictimai nəzarətin olmasıdır. Media özü ictimai nəzarəti həyata keçirən, bu fəaliyyətlə məşğul olan vasitə olmasına baxmayaraq, medianın üzərində də cəmiyyətin ictimai nəzarət funksiyası var. Demokratik cəmiyyətin digər institutları mediada baş vermiş etik prinsip pozuntularına, qeyri-peşəkarlığa qarşı öz mövqelərini bildirir, pozuntuya yol vermiş media orqanını ictimai qınaq obyektinə çevirə bilir.

Ənənəvi mediada etik prinsiplər müəyyənləşib və yazılı media daim buna əməl edir. Ənənəvi mediada formalaşmış etik prinsiplər insanların cəmiyyətdəki ümumi davranış formalarına və qəbul edilmiş ümumi etiket qaydalarına əsasən tətbiq olunur. Bu prinsiplər uzun illərdir ki, mətbuatın formalaşmış ənənələrinə və məktəbinə əsaslanır. Hər bir cəmiyyətdə mətbuatın davranışında etik prinsiplər aşağıdakılardan ibarət olur:

1. Demokratik dəyərləri özündə ifadə etmə;
2. Həqiqətə xidmət, dəqiqlik və obyektivlik prinsipinə əməl etmək;
3. İnformasiya qaynaqlarına hörmətlə yanaşmaq;
4. Şəxsi həyatın toxunulmazlığı prinsipinə əməl etmək;
5. Şərəf və ləyaqətin qorunması prinsipini üstün tutmaq;
6. Tirajlanan məlumatın yaşadığı cəmiyyətin etiket qaydalarını aşmasına imkan verməmək.

Bu prinsiplər bütün cəmiyyətlərdə mətbuatın əməl etdiyi etik qaydalardır. Hər bir ölkədə isə mətbuatın yaratdığı özünütənzimləmə qurumları, mətbuat orqanı subyektləri etik kodeks qəbul edirlər və bunun əsasında fəaliyyət göstərirlər.

Beynəlxalq Jurnalistlər Federasiyası öz təlimatında bildirib: "Jurnalistlər vacib şəxslərə, mühüm hadisələrin şahidlərinə müraciət edib informasiyanı birinci əldən almaq imkanlarına malik olan imtiyazlı mövqedədirlər. Onlar bunu cəmiyyətin adından edirlər. Bu baxımdan adından istifadə etdikləri cəmiyyətin xidmətində durmaq, cəmiyyətin inamını, hörmətini və etibarını qoruyub saxlamaq jurnalistlər üçün həyati vacib məsələdir ".

Dünyanın böyük transmilli media qurumları

özlərinin redaksiyadaxili etik kodeksini hazırlayır və onun əsasında fəaliyyət göstərirlər. Dünyanın Beynəlxalq Jurnalistlər Federasiyası kimi məşhur olan və böyük şəbəkəyə malik media təşkilatları isə beynəlxalq səviyyədə tətbiq edilə bilən etik kodekslər formalaşdırırlar. Mərkəzi ofisi Brüsseldə yerləşən və dünyanın 121 ölkəsində təmsilçisi olan Beynəlxalq Jurnalistlər Federasiyası tərkibində 160 min nəfərdən artıq jurnalisti birləşdirir. BJF ilə əməkdaşlığa başlamanın yolu da onun etik kodeksini qəbul etməkdən keçir (Bax: səh. 65).

Hər bir ölkədə jurnalistlərin özlərinin yaratdıqları jurnalist cəmiyyətləri, özünütənzimləmə qurumları da belə etik kodeksləri ortaya qoyurlar. Məsələn, Britaniya Milli Jurnalistilər Birliyinin tərtib etdiyi və 20 min nəfərdən artıq jurnalistin imzaladığı etik prinsiplər buna misal ola bilər (Bax: səh. 65).

Azərbaycanda isə mətbuatın yerli özünütənzimləmə orqanı olan Mətbuat Şurasının yarandığı ilk qurultayda həm də "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları" adlı sənəd qəbul olunub (Bax: səh. 67).

Beləliklə, jurnalistlərin peşə davranış qaydalarına əməl etmələri və etik kodekslərlə işləmələri bütün dünyada mövcud olan normadır.

Bu etik prinsiplər yeni media üçün də keçərlidir. Əlbəttə, söhbət yalnız online media kimi fəaliyyət göstərən və peşəkar jurnalistlərin əməl etməli olduğu qaydalardan gedir. Əslində bu qaydalar bütün istifadəçilərin əməl etməli olduğu prinsiplərdir. Amma reallıqda belədirmi? Yeni mediada jurnalistlər üçün artıq formalaşmış, fəaliyyət göstərmək üçün əsas istinad mənbəyi olan etik kodeksləri yeni medianın bütün fəaliyyət sahələrinə aid etmək mümkündürmü?

## YENİ MEDİADA ETİK STANDARTLAR VARMI?

*Vətəndaş jurnalistikası və etik standartlar*

Yeni medianın peşəkar jurnalistlərin fəaliyyət göstərdiyi sahəsi, yəni xəbər saytları, informasiya agentlikləri, internet televiziya və radioları üçün ənənəvi mediada mövcud olan etik kodekslər keçərlidir. Bu media institutları ya cəmiyyətlərində mövcud olan özünütənzimlə qurumlarının və jurnalist təşkilatlarının etik kodekslərini qəbul edir, ya da özləri üçün "etik kodekslər" qəbul edirlər.

Bütün hallarda bu etik kodekslər informasiyada:

a) obyektivlik, düzgünlük, qərəzsizlik;

b) insan haqlarına və şəxsi həyatın toxunulmazlığı prinsipinə hörmət;

c) jurnalist peşəsinə və informasiyaya sayğı prinsiplərini özündə əks etdirir.

Bəs peşəkar jurnalistlərin deyil, daha çox vətəndaş jurnalistikasının mövcud olduğu, cəmiyyətin ayrı-ayrı, qeyri-jurnalist fərdlərinin iştirakı ilə yaradılan sosial mediada vəziyyət necədir? Bu mediada da etik prinsiplərə əməl olunurmu?

Araşdırmalar göstərir ki, yeni mediada, xüsusilə onun daha çox kütləvi müzakirə növü olan sosial mediada etik prinsiplərə o qədər də riayət olunmur.

Sosial medianın ən böyük, sürətlə yayılan növü olan sosial şəbəkələrdə etik prinsiplərə əməl olunması hər bir şəxsin özündən asılıdır. Doğrudur, burada kütləvi şikayətlər edilməsi, səhifələrin administariv qapadılması kimi sanksiyalar mövcuddur. Lakin şəxsi yazışmalarda, ötürülən mesajlarda, xüsusilə şəxsi həyatın toxunulmazlığı və insan haqlarına hörmət prinsipi çox vaxt pozulur, məlumatın dəqiqliyi, qərəzsizliyi və obyektivliyi prinsipləri ciddi sual altına düşür. Yuxarıda da qeyd etdiyimiz kimi, sosial şəbəkələr daha çox "virtual küçə" funksiyasını yerinə yetirir. Real cəmiyyətdə insanların davranış qaydalarına polisdən daha çox özləri nəzarət etməli olduqları kimi, "virtual küçə"də də məsuliyyət daha çox şəxsin özünə məxsusdur. Real cəmiyyətdən fərqli olaraq, sosial şəbəkələrdə fərdlərin ikinci, üçüncü, bəzən onuncu "adla" da çıxış etmək, "saxta profillərdən" istifadə etmək imkanları var. Bu "saxta profil" isə fərdə daha çox "bu, onsuz da mən deyil" və ya "bunun mən olduğumu bilən yoxdu" kimi özünəbəraət hissi qazandırır.

Burada qısa arayış verərək bildirək ki, sosial şəbəkə istifadəçilərinin "qondarma adları, saxta profilləri" onları etik məsuliyyətdən zahirən "azad etsə də", bu, hüquqi məsuliyyətdən yayınma anlamına gəlməməlidir. Belə variantlardan faydalananlar bilməlidirlər ki, onlar "saxta profillər" pərdəsinə bürünsələr də, başqalarını təhqir etmək, şəxsi həyata müdaxilə hallarına, böhtana, dəqiqləşdirilməmiş, qərəzli informasiyalar yaymalarına, bilərəkdən və ya bilməyərəkdən işgüzar imicə zərbə vurma hallarına görə hüquqi məsuliyyət daşıyırlar və bu məsuliyyət Azərbaycan Respublikasının həm Mülki Məcəlləsinin, həm də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə tənzimlənir (Bax: Fəsil 5). Xüsusi vurğulanmalıdır ki, bu halda həm müəllif (profil sahibi), həm də domen sahibi- redaktor məsuliyyət daşıyır. Bu qaydalar "az" domeni olanlar üçün çox asan tətbiq edilir. Domeni ölkədən kənar olanlar məsələsində isə, sadəcə profil sahibləri məsuliyyət daşıyırlar. Xaricdə olan domen üçün məhkəmə açıldıqdan sonra həmin ölkə ilə əlaqə saxlanılır, baş verən hadisə həmin ölkədə də hüquqi xəta hesab edilərsə, şəxs müəyyənləşdirilib barəsində məsuliyyət tətbiq edilir. Profil müəllifi anonim olsa belə, domen bəllidir və kimin adına qeyd olunubsa və hansı ölkədə qeydiyyatdan keçibsə, hüquqi məsuliyyət onun üzərinə düşür.

Sosial şəbəkələrdə aparılan monitorinqlərin nəticəsi göstərir ki, şəbəkələrin yarandığı ilk zamanlarda insanlar daha çox istənilən ad altında dostluq və müzakirəyə üstünlük verirdilərsə, zaman keçdikcə bu şəbəkələrdə insanların davranışı, fəaliyyət sahələri və müzakirə mövzuları konkretləşir.

Fərdlər saxta olduğu bilinən profillərlə əməkdaşlığa və ünsiyyətə, maraq dairələrində olmayan müzakirələrə meyl göstərmirlər. Bu isə sosial şəbəkərlədəki xaotikliyi yavaş-yavaş aradan qaldırır.

Şərh bölümləri olan xəbər saytlarında, bloqlarda və forumlarda isə vəziyyət bir az fərqlidir. Bu resurslarda etik prinsiplərə riayət olunması daha çox həmin resursları administrativ idarə edən şəxslərdən asılıdır.

Xəbər saytlarının şərh bölmələrinə və forumlara yazılanlar birbaşa deyil, adminstrativ süzgəcdən sonra görünür. Bloqları isə konkret şəxs yazır. Burada artıq vəziyyət bir neçə formada müşahidə olunur:

1. Şərh bölməsinin fəaliyyət göstərdiyi xəbər saytı online media strukturu kimi ya özünün qəbul etdiyi etik kodekslə çalışır, ya da fəaliyyət göstərdiyi ölkənin və ya üzv olduğu beynəlxalq jurnalist qurumunun qəbul etdiyi etik kodeks əsasında fəaliyyətini qurur. Xəbər saytının şərh bölməsində yazılanlar da bu saytın ümumi strukturuna daxil olduğu üçün, qurumun imzaladığı və ya qəbul etdiyi etik prinsiplər burada da qorunmalıdır.

2. Bloqları isə konkret şəxslər hazırlayırlar. Bu şəxslər daha çox jurnalistika sahəsi üçün qeyri-peşəkarlar olurlar. Lakin həmin şəxslər də fərdi etika normalarına əməl etsələr, o zaman etik prinsiplərin qorunması ilə bağlı hansısa problemlə qarşılaşmayacaqlar. Çünki bizim yuxarıda qeyd etdiyimiz və demək olar ki, dünyadakı bütün media orqanlarının qəbul etdiyi etik prinsiplər həm də insanların həyatlarında əməl etməli olduqları normal davranış qaydalarıdır. Məsələn, şəxsi həyatın toxunulmazlıq prinsipinə nəinki media, hər kəsin əməl etməsi vacibdir. Ya da insanları dininə, irqinə, cinsi orientasiyasına görə ayrı-seçkiliyə məruz qoymamaq hər kəsin əməl etməli olduğu prinsiplərdir.

3. Forumlarda da etik prinsiplərin qorunmasına daha çox adminstrator nəzarət edir. Bir çox hallarda bunu “internet senzura” adlandırsalar da, forum administratorunun qeyri-etik davranış nümayiş etdirən, davamlı olaraq etik prinsipləri pozan “niklər”i uzaqlaşdırmaq, onlara sanksiya tətbiq etmək hüququ və imkanı var. Yeri gəlmişkən, ifadə azadlığı üçün indiki halda ideal model hesab olunan sosial şəbəkələrdə də belə adminstrativ sanksiya tətbiq etmə imkanı var və bu, tamamilə normal hesab edilməlidir. Sadəcə, məsələ ondadır ki, forumda etik prinsiplərin qorunmasına nəzarət etməli olan administrator peşəkar seçilməli və o, etik prinsiplərlə şəxsi və ya şirkət maraqlarını bir-birindən fərqləndirməyi bacarmalıdır.

Beləliklə, aparılan təhlillər nəticəsində belə qənaətə gəlmək olar ki, vətəndaş jurnalistikasının peşəkarlardan daha çox istehsalçı rolunda oynadığı yeni mediada, o cümlədən sosial mediada jurnalistlər üçün qəbul olunmuş etik kodekslərdən daha çox cəmiyyət və bəşəriyyət üçün ümumi halda mövcud olan etik prinsiplərin tətbiqi daha realdır. Əslində, yuxarıda da qeyd etdiyimiz kimi, media fəaliyyət göstərdiyi cəmiyyətin bir parçası olduğu üçün öz fəaliyyətində həmin cəmiyyət üçün əsas olan etik prinsipləri prioritet kimi qəbul edir. Ona görə də cəmiyyətdə mövcud olan etik qayda-qanunlara əməl edilməklə sosial mediada fəaliyyət göstərilməsi, əslində müəyyən mənada həm də medianın etik kodekslərinə əməl etmək olur.

Müasir dövrümüzdə aktual olan digər məsələ isə “netket”dir. Yəni, netin etik prinsiplərinin qəbul olunması. Bu prinsiplər də hər halda real cəmiyyətlərdə mövcud olan dəyər və prinsiplərin netə tətbiqini özündə əks etdirəcək. İndi internet texnologiyaların geniş inkişaf etdiyi ölkələrdə bu qaydaları özündə əks etdirən “Netket”in tətbiqi və yayılması ciddi müzakirə mövzusudur.

Proqnozlara görə, internet cəmiyyəti inkişaf etdikcə, bütün cəmiyyətlədə “netket”in qəbulu və işləməsi daha çox müşahidə olunacaq.



**Gülnarə AXUNDOVA**
*İnternational Media Support -un*
*(Beynəlxalq Media Dəstəyi)*
*Azərbaycan təmsilçisi*

# RƏQƏMSAL MEDİADA ETİK DİLEMMALAR

Rəqəmsal mediada etik prinsiplər barədə danışılarkən, yalnız rəqəmsal xəbər mediasına aid olan problemlər, praktiki qaydalar və normalar təsəvvürə gəlir. Rəqəmsal xəbər mediasına onlayn jurnalistika, bloqqçuluq, rəqəmsal fotojurnalistika, vətəndaş jurnalistikası və sosial media aiddir. Mövzuya, həmçinin, professional jurnalistlərin araşdırma aparmaq və hazırladıqları materialı yaymaq üçün «rəqəmsal media»dan istifadə qaydaları ilə yanaşı «İYM” kimi ifadə edilən (istifadəçinin yaratdığı məzmun), yəni, vətəndaşlar tərəfindən təqdim edilmiş informativ materialların istifadə qaydaları da daxildir.

Burada əsas məsələ mövcud etik media prinsiplərinin sürətli, interaktiv olan, 24/7 saat işləyən və ən vacibi - auditoriya ilə birbaşa təmasda olan müasir xəbər mediasına nə dərəcədə tətbiq edilə bilməsidir.

Bu gün modemi olan hər bir şəxs potensial xəbər istehsalçısı, müxbirdir. Biz rəqəmsal media dövründə- peşəkar jurnalistikanın vətəndaş jurnalistikası ilə birgə mövcud olduğu dövrdə yaşayırıq. Belə durum yeni, qarışıq tipli etik kodeksin tətbiq edilməsi tələbatını yaradır. Bu formatlı etik kodeks peşəkar yaxud həvəskar olmasından, bloqda, tvitterdə qeydlər aparmasından, televiziya və qəzet redaksiyasında işləmələrindən asılı olmayaraq, hamı üçün aid edilən qaydalar olmalıdır.

**Misal -1:** Sosial media fəalı olan "Y" öz smartfonu vasitəsilə müxalifətin yürüşündən video çəkiliş aparırmış. Polis "Y"-ə hücum etmiş və və onun telefonunu sındırmışdır. Media hüquq müdafiəçiləri rəsmi şəxsləri, xüsusən də polisi medianın işinə maneçilik törətməkdə ittiham etməyə başlayanda cavab verildi ki, sosial media fəalı jurnalist deyildir və bu baxımdan "Y"-nin tədbiri işıqlandırmaq cəhdi jurnalistika fəaliyyəti kimi qəbul edilməməlidir.

Azərbaycanda müxtəlif qruplar aşağıdakı suala düzgün cavab tapmaq üçün mübahisələr edirlər: Jurnalist kimdir?

Əvvəllər jurnalistlər hüdudları tam aydın olan bir qrup idilər. Adətən, onlar jurnalistika məktəblərinin məzunu olurdular və əsasən qəzetlərdə, yayım şirkətlərində -televiziya və radio redaksiyalarında işləyirdilər.

Bu gün isə heç bir jurnalistika təhsili olmayan və heç bir məşhur media orqanında işləməyən adi vətəndaşlar da özlərini jurnalist adlandıra bilirlər. Və ya ictimai məsələlər barəsində ictimaiyyət və ya auditoriya üçün davamlı olaraq yazı yazan şəxslər, jurnalistlərə aid ümumi kriteriyalara uyğun bir tərzdə materiallar hazırlayırlar.

Heç də həmişə aydın olmur ki, «jurnalist» termini başlanğıc, yoxsa yekundur. Jurnalist və media işçisi arasında hansısa konkret fərqlər varmı? Onların eyni hüquqları varmı? Bəs, fəaliyyəti jurnalist fəaliyyəti ilə eynilik təşkil edən, tvitterdə və bloqlarda yazan, youtube-də video yerləşdirənlər necə (hansı ki, bu qrupa aid olanlar özlərinə jurnalist deyə müraciət olunmasına etiraz edirlər).

Bu mövzuda yaranan debatlara ən yaxşı cavab Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsidir, orada qeyd edilir: Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək, dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyaları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir.

**Misal -2:** "N" qəzetinin onlayn versiyası ziddiyyətli şərhlərə səbəb olan məqalə yayımlamışdır. Onlardan çoxunun müəllifi anonimdir. Qəzet «nifrətə səbəb olacaq çıxış» yaymaqda təqsirləndirilir.

Əsas xəbər redaksiyalarının anonimliyə qarşı dözümlülüyü sıfır səviyyəsindədir. Bundan başqa, ənənəvi medianın etik kodeksləri jurnalistləri anonim mənbələrdən alınmış məlumatlardan az miqdarda istifadə etməyə təhrik edir; həm də bu zaman bəlli qaydalara əməl olunmalıdır.

Ənənəvi mediadan fərqli olaraq, əksər hallarda, rəqəmsal media xəbər təqdimatçılarından özlərini təqdim etməyi istəmir.

İnternetdə şərh və çat üçün olan sahələr anonimlikdən çıxmağı tələb etmirlər. Onlayn istifadəçilər vebsaytlarda və bloqlarda qeydiyyatdan keçməklə, öz kimliklərini ələ verməyə heç istəkli də deyillər.

Anonimlik ifadə azadlığı ilə assosiasiya olunur. Bəzən bu, səhv addımların ifşa olunmasına kömək edə bilər. Sikkənin başqa bir üzündə isə anonimliyin qərəzli çıxışlara şərait yaratmasıdır. Yazının altında heç bir kimsənin adı yoxdursa, məsuliyyət daşıyan da yoxdur.

**Misal -3:** Tanınmış sosial media fəalı ictimai bir şəxsin qəfil ölümü haqqında tvitterdə qeyd aparır. Əsas media orqanları bu mənbəyə inanmalı və ona istinad etməlidirlərmi?

Çap və elektron mediadan fərqli olaraq, rəqəmsal media sürətlidir. Müəyyən məzmunu rəqəmsal media vasitəsilə (misal üçün, tvitter, youtube, facebook, bloqlar, mobil telefonlar və e-mial) yaymaq cəmi bir neçə dəqiqə vaxt aparır. Rəqəmsal media əsrində əsas xəbər təşkilatları çox zaman şayiələri onlayn vasitə ilə alırlar. Bəzən, onlayn şayiələrin nəşr edilməsinin elə də ciddi təsiri olmur, misal üçün, şou-biznes ulduzu olan "X"-in milyonçu "Y" ilə evlənməsi haqqında saxta xəbər. Amma xəbərin məzmunundan çox iş asılıdır. Media orqanlarının ictimai maraq kəsb edən, amma şayiə olan xəbərləri təkrar-təkrar nəşr etmələri panikaya, insidentə, hətta ürək tutmalarına və sair bu kimi hallara da səbəb ola bilər: misal üçün, Bakı metrosunda terror hadisəsinin olması haqqında şayiənin yayılması.

Onlayn dünyada şayiələr və onların təkzibi məsələsində dəqiqlik, şəffaflıq prinsiplərinin hazırlanması hələ də etik çağırış olaraq qalır.

**Misal -4:** Belə görünür ki, "X" qəzeti sağ qanad siyasətə dəstək verir. Qəzetin aparıcı müxbirlərindən olan xanım "Y" özünün 20 000 üzvlük facebook səhifəsində hökumətin siyasətini kəskin tənqid etmişdir. Xanım "Y" "X" qəzetinin redaksiya siyasətini pozmuşdurmu?

Rəqəmsal media insaların öz fikirlərini onlayn ifadə etmək və onları açıqca bölüşmək üçün platformadır.

Xəbəryayma zamanı tərəfsizlik, qərəzsizlik ənənəvi media orqanlarının siyasətinin təməl daşıdır, amma bu, rəqəmsal media jurnalistikasına aid ediləcək şərait deyildir. Bloqqerlər və digər sosial media fəalları hadisələri tərəfsiz işıqlandırmalı olan əsas media jurnalistləri ilə müqayisədə öz fikirlərini, baxışlarını açıq şəkildə bölüşməkdən çəkinmirlər. Misal üçün, Azərbaycanda çoxlu onlayn jurnalistlər özlərini siyasi hərakat fəalı olaraq görürlər və obyektivlik, tərəfsizlik prinsiplərinə heç də hər zaman əməl etmirlər.

Partizan jurnalistika adlanan məfhumun iki növü vardır: birinci növə fikir jurnalistikasını aid etmək olar

ki, belələri cari hadisələri araşdırmadan onun haqqında fikirlərini bildirirlər. Digər növ isə medianın "siyasi qrupların danışan dili" kimi istifadə olunmasından meydana çıxır.

Sözsüz ki, jurnalistlər haqqında məqalələr yazdıqları qrupların təsirinə düşməməli, azad olmalıdırlar. Jurnalistikada "maraqlar münaqişəsi" deyilən anlayışı bura aid etmək olar; bu zaman jurnalist müəyyən qruplardan maddi asılılıqda olur, yaxud siyasi partiyalara xidmət edir.

**Misal -5:** Müstəqil qəzet olan "Z" repressiv rejim tərəfindən tam nəzarət edilən media mühitində sağ qalmaq uğrunda mübarizə aparır. Qəzet sahibi öz nəşrini donor qurumların pulları hesabına fəaliyyət göstərən qeyri-kommersiya əsaslı xəbər vebsaytına çevrimək qərarına gəlir. Məhdud sayda donorun yardımından asılı olan belə media orqanı nə dərəcədə müstəqil ola bilər?

Mümkün olan yeganə yanaşma bu xəbər vebsaytının maliyyə mənbələri haqqında informasiyanın maksimum dərəcədə şəffaf olmasıdır. Donorların maliyyəsi ilə fəaliyyət göstərən istənilən media qurumunun etik kodeksinin olması və ona əməl etməsi imperativ xarakter daşıyır. Belə media orqanları öz redaksiya mandatına və redaksiya planına əsasən fəaliyyət göstərməlidir.

**Misal -6:** "M" vebsaytı zorakılığın açıq şəkildə əks olunduğu şəkilləri yayımlayıb. Bu şəkillər arasında üzü açıq halda olan cəsəd (bu, bəzi dinlərlə ziddir, misal üçün, islam) şəkli də var.

Rəqəmsallaşma dövründə müxtəlif situasiyaları əks etdirən şəkillər çəkmək və onları yaymaq üçün çoxlu yeni, asan yollar vardır. Həmçinin, bu şəkillərdə əks olunmuş reallığı dəyişdirmək, manipulyasiya etmək üçün də kifayət qədər yeni texnologiyalar mövcuddur.

Yuxarıda göstərilmiş nümunədə əsas məsələ vətəndaşlar və sosial media fəalları tərəfindən xəbər saytlarında yayılmış şəkillərin, videoların nə dərəcədə orijinal, inandırıcı olmasıdır. Şəkli yayanın kim olmasını və bu şəklin həqiqətən də real hadisəni əks etdirməsini necə müəyyən edəcəyimiz sual altındadır?

Başqa bir məsələ jurnalistin və ya vətəndaşın şəkildə dəyişiklik etmək üçün texnologiyadan istifadə edib-etməməsidir: misal üçün, şəklə müəyyən bir obyekt əlavə etmək və ya oradan çıxarmaq.

BBC-nin etik kodeksində oxuyuruq: "Bizim auditoriya, xüsusən də uşaqlar, həm real, həm də uydurma zorakılığın təsvir edilməsindən qorxa, stressə düşə bilərlər. Biz zorakılığa dair material hazırlayıb yayarkən, mühakimələrimizdə son dərəcə ehtiyatlı olmalıyıq. Cəmiyyət getdikcə çoxalan zorakılıq halları və mediada təsvir edilən həm faktiki, həm də uydurma məzmunlu materiallara diqqəti artırır".

Zorakılıq faktı təsvir olunmazdan öncə redaksiyanın mühakiməsinə buraxılmalıdır. Bununla bərabər zorakılıq məzmunu olan hissə ayrıca işarələnməlidir. Gündəlik məişət zorakılığı və ya onun nəticəsi televiziyada göstərilərkən, yaxud, radioda, onlayn mediada yayımlanarkən dəqiqliklə lazımsız stress təhlükəsi arasındakı balans gözlənilməlidir. Çox az hallar mövcuddur ki, ölüm hallarının birbaşa yayımına haqq qazandırılır.

Fotojurnalistlər adətən şəklin "texniki" aspektləri, məsələn, rəngini və ya tonunu dəyişməyin nə qədər məqsədəuyğun olduğu barədə fikirlərini bildirirlər. Lakin şəklin məzmununu və ya mənasını dəyişdirmək, bununla da oxucuları aldatmaq qeyri-etik hesab olunur.

Texniki dəyişikliklərlə məna dəyişiklikləri arasındakı sərhəd bəlli deyil. Şəkli redaktə edən insan onun texniki parametrlərini dəyişməklə elə edə bilər ki, əşyanın və ya hadisənin orijinal şəklinə qətiyyən oxşamasın.

Burada qeyd etmək vacibdir ki, etika ilə bağlı prinsiplərin çətin məsələlərə necə tətbiq edilməsi barədə çoxlu məqamlar vardır.

---

# VƏTƏNDAŞ JURNALİSTİKASI-KEYFİYYƏT PROBLEMİ

**2008-ci ildə BJF tərəfindən nəşr edilmiş "HƏQİQƏTİ ÇATDIRMAQ, Etik Jurnalistika Təşəbbüsləri" kitabından**

2004-cü ilin 24 dekabrında sunami Sumatranın şimalını və Hind Okeanının ətraf ərazilərini yudu, arxasında ölüm və dağıntılar qoydu. Turistlər və yerli əhali tərəfindən telefon kameralarına və əl videokameralarına çəkilmiş çoxlu dəhşətli təsvirlər media yayımı üçün bu vaxta kimi görünməmiş bir material mənbəyinə çevrildi. "Vətəndaş jurnalistikası" termininin geniş istifadəsinə başlanılan bir vaxtda sunami ilə bağlı baş verənlər göstərdi ki, ictimaiyyət və xəbər yayma arasında bağlar uzunmüddətli və ciddidir.

Bu gün ənənəvi media öz oxucularını, izləyicilərini redaksiyaya kömək etməyə həvəsləndirmək üçün hər bir imkandan istifadə edir. Tanınmış media və jurnalistika vebsaytları tərəfindən təqdim olunmuş bloqyazma platformaları interaktiv olub, auditoriyanı şəkillər və ya gündəmin baş xəbərinə çevrilə biləcək hadisələr haqqında gördüklərini onlarla paylaşmağa həvəsləndirir. "Jurnalist" və "Biz mediayıq" kitabının müəllifi Den Gilmor (Dan Gillmore) deyir ki, bir vaxtlar böyük medianın xəbərlərə mühazirə kimi yanaşması gələcəkdə daha çox ikitərəfli söhbətə çevriləcəkdir.

Bu, vətəndaş jurnalistikası haqqında köhnə təsəvvürdən çox-çox uzaqdır. Köhnə təsəvvürlərə

görə, dəyərli bir hadisənin şahidi olan insanlar bunun haqqında yeni, lazımlı informasiya verirdilər. İndi isə xəbər mediası insanları həvəsləndirir ki, onlar şahidi olduqları hadisələr barədə video-foto görüntülər, həmçinin, xəbər və şərhlər hazırlasınlar. Bu, elə bir qorxunc "jurnalistikaya" aparır ki, redaksiyalara çəkilən xərclərin azaldılması yolunu tutan media sahibləri bütünlüklə peşəkar ştatı buraxa və insanların inamlı informasiya mənbəyinə giriş prosesini dayandıra bilərlər.

Ancaq, hadisələri səthi işıqlandırmaqda günahlandırılan mediaya qarşı inamın bərpa edilməsi, xəbərvermənin keyfiyyətinin artırılması məqsədilə redaksiyalar aktiv auditoriyadan xəbər istehsalında necə istifadə edilməsinə diqqət yönəldirlər.

Mövcud media və yerli ictimai qruplar arasında olan birgə səylər "hiperlokal" adlanan yayımın meydana gəlməsini mümkün etmişdir. Bu zaman əsas özək kimi jurnalistlər, əlavə informasiyalar kimi isə onlayn alınan informasiyalar çıxış etmişdir. Misal üçün, bir qəzet öz oxucularından xahiş edir ki, yollara xidmət göstərilməsində yerli şuranın səhvləri ilə əlaqədar hazırlanmış məqaləni daha da genişləndirmək və gücləndirmək üçün yolda olan iri dəliklərin yerlərini onlayn xəritədə nişanlasınlar.

İndi əsas müzakirə mövzularından biri, internetdən və KİV redaksiyalarından kənarda olan insanlarla jurnalistlər arasında münasibətlərin necə tənzimlənməsinə aiddir. Jurnalist-auditoriya, jurnalist-mənbə münasibətlərinin necə dəyişməsi haqqında debatların açar elementi medianın keyfiyyətini artırmaq üçün bu cür yeni əlaqələrin necə qurulması və inkişaf etdirilməsidir.

Tamamilə həvəskarların hazırlayacağı nəşrlərdə həmişə bir nöqsan özünü göstərəcək, çünki keyfiyyət qazanılmış kompetensiyadan, etik prinsiplərin qəbul edilməsi dərəcəsindən asılıdır.

Hər tərəfdə özünə yer tapmış telefon kameraları və e-mail qutusu bizi milyonlarla şəkillər və mesajlarla təmin edir. Bu da medianın xəbər hazırlamanın ənənəvi dəyərlərinə edilmiş əlavələr torunda dolaşmasına şərait yaradır. Amma təkcə oxucuların qısa şərhləri və şəkilləri ilə məhdudlaşmayan şəbəkələşmiş jurnalistikanın inkişafı ilə biz jurnalistlər - oxucular/tamaşaçılar münasibətlərdə uzunmüddətli və əsaslı dəyişikliklər görürük.

NewAssignment.net saytında Ətraflı Xəbərvermə Direktoru Devid Kon (David Cohn) deyir: "Vətəndaş jurnalistikası" termini əlində kamera tutmuş və xoş təsadüf nəticəsində vacib bir hadisəni müşahidə etmiş adi cəmiyyət üzvündən daha artıq bir şey mənasını ifadə edir". Devid Kon ABŞ-da jurnalistlər arasında hazırlanmış məqalənin yerli şəbəkələrdə yayılmasını, internet vasitəsilə ona əlavələr edilməsini, üzərində yenidən işlənilməsini və bu yolla əməkdaşlığın inkişaf etməsini nümunə göstərir. Bunu "kütlələrin müdrikliyi" adlandırır. Amma vətəndaş jurnalistlərin rollarının aydın şəkildə müəyyənləşdirilməsinə hələ çox var. İnformasiyanın axtarılaraq toplanılması, hazırlanması və yayılması fəaliyyəti vətəndaş jurnalistikasının çətrinin altına düşürmü? Məzmuna görə məsuliyyət kimdədir? Etik standartlar necə qorunur?

Belə yeni münasibətlər toplusu hazırda kiberməkanda çox böyük bir hissə zəbt etmiş milyonlarla bloqqerə də aiddir. Bloq yazmaq hal-hazırda kommersiyalaşmışdır və əsas yayım vasitəsinə çevrilmişdir. Vikipediyada qeyd edilir ki, 2007-ci ilin mayında "Technorati" axtarış mühərriki 71 milyondan çox bloqu öz axtarış saytları siyahısına daxil etmişdir.

Bloqlar informasiya inqilabının ikiuclu qılıncıdır. Bir tərəfdən bizim demokratik mübadilə sferasında sərbəst danışmağımızı, bu danışıqlarımızın siyasi və korporativ nəzarət üçün əlçatmaz qalmasını təmin edir. Digər tərəfdən isə, mənasız boş şeylərə, banallığa və ya daha pisi, qərəzə, nifrət dolu ideyalara və təsəvvürlərə qapılar açır.

Bax, problem də elə budur. Yeni informasiya məkanı haqqındakı hər cür fərəhləndirici danışıqlara baxmayaraq, informasiyanın etibarlılığı, etik prinsiplərə uyğunluğu, obyektivliyi bloq yazma entuziastları üçün ciddi problem olaraq qalır.

Bəzi insanlar düşünürlər ki, bizim yeni qanunlara ehtiyacımız var - bu qanunlar qlobal səviyyədə siyasi rejimlər tərəfindən qəbul olunacaq və şəxsi həyatı, ləyaqəti, müəllif hüquqlarını, demokratik standartları qorumaqla yanaşı, bloqqerlərin, jurnalistlərin fəaliyyət göstərmələrini təmin edəcək. Yaxşı bir ideya olsaydı və bu cür prosesdə razılığa gəlmək ümumiyyətlə mümkün olsaydı belə, bunun üçün illər lazım olacaqdı.

Eyni zamanda bloqlar üçün standartlar və özünütənzimləmə haqqında stimullaşdırıcı debatlar gedir. Biz istifadəçilərə, xüsusilə də gənclərə təhsil və təlim verməkdə davam etməliyik ki, onlar internetdə bəzi toksik məzmunlu mənbələr ətrafında fırlandıqları zaman media haqqında qat-qat məlumatlı olsunlar.

Ümumilikdə bir neçə xəbər saytı vardır ki, onlar özlərinəməxsus izlər qoyurlar və ənənəvi medianı daim diqqətli olmağa məcbur edirlər. ABŞ-da yerləşən və 2,000 bloqqerlik yeri olan "The Huffington Post" dünyanın ən çox link göstərilən bloqudur.

2008-ci ilin avqustunda şərh, xəbər linklərilə yanaşı məşhurlar, siyasətçilər, yüksək-profilli təhlilçilər tərəfindən yazılmış bloqlarla birlikdə sayı 5 milyondan artıq olan müxtəlif istifadəçiləri cəlb edə bilmişdir. "The Huffington Post" özünün ən yüksək nöqtəsinə 2008-ci ilin prezident seçkiləri kampaniyası zamanı çatmışdır. "Post" qəzetinin vətəndaş jurnalistlərindən biri jurnalistlər üçün qapalı olan ianə toplama tədbirlərinin birində Barak Obamanın xırda qəsəbələrdə yaşayan amerikalıların "dinə və ya silaha sadiq qalmış" olması ilə bağlı fikirlərini çap etməklə, Barak Obamanın seçki kampaniyasına ən böyük zərbələrdən birini vurmuşdu. Həmçinin, "The Huffington Post" şəbəkədə standartların müəyyənləşdirilməsinin pioneridir və

tələb edir ki, saytdan istifadə edənlər ciddi səhvlərini 24 saat ərzində dərhal düzəltsinlər, yoxsa öz imtiyazlarını itirmiş olacaqlar.

Saytın yaradıcısı Ariana Hafinqton (Arianna Huffington) ənənəvi medianın yeni mediaya keçidini görür. Onun rəhbərlik etdiyi sayt ətraflı məlumat vermə, faktların yoxlanılması və dəqiqliklə bağlı kriteriyalara ciddi əməl etmək kimi ənənəvi media prinsiplərini qəbul etməklə yanaşı, onlayn nəşrlərin təqdim etdiyi üstünlükləri, videolar, bloqlar və sair imkanları özündə birləşdirir. Bununla belə, o, "köhnə" jurnalistikanın balans və obyektivliyə olan ifrat sadiqliklə bağlı metodlarını tənqid edir.

Ariana Hafinqtonun baxışları "Flat Earth News" kitabının müəllifi, "yoxlanılmamış bir faktı başqa bir yoxlanılmamış fakta qarşı qoymaqla, həqiqəti üzə çıxarmaq mənasız bir işə çevrilmişdir" deyən britaniyalı jurnalist Nik Deyvsin baxışları ilə oxşardır. "The Huffington Post"da olan vətəndaş jurnalistləri qrupundan daha dəqiq təsvir tələb edilir. Lakin onlar təlim və təhsil görmüş müxbirlərdən tələb olunan dəqiqlik və inamlılıq dərəcəsini qarşılamağa qadirdirlərmi? "Bloqsfera" barədə mövcud olan etik durum barədə fikirlər belədir ki, orada həddən artıq əsassız qeybətlər, spekulyasiyalar və şayiələr vardır. Bloqqerlər tərəfindən seçilmiş və dəqiq informasiya kimi təqdim olunan məzmundan istifadə edərkən, media ehtiyatlı olmalıdır.

Bloqsferadakı informasiyalar, demək olar ki, faktiki olaraq, bir mənbədən, piar firmadan və ya lobbi qrupundan götürülmüş olur. Deyvs öz sorğusundan olan rəqəmləri göstərdi: 2000 məqalə içərisində yalnız 12%-i faktı yoxladığını sübut etmişdir. "Libre de Bruxelles" Universitetində informasiya texnologiyaları və media mövzusunda araşdırma aparan professor Fransua Heyndrik (Francois Heinderyckx) inanır ki, müasir medianın texnologiyalara həddən artıq arxayın olması fraqmentasiyaya və tələskənliyə gətirib çıxarmışdır. O, çox narahatdır ki, xəbərlər tez-tez, amma hissələrlə gəlirlər - faktları, baxışları və sübutları toplayan, sonra ümumilikdə tam bir analiz kimi oxucularına təqdim edən media yoxa çıxmışdır.

Avropa Parlamenti bloqların statusu barədə açıq müzakirələrin keçirilməsini stimullaşdırır. 2008-ci ilin sentyabrında Avropa parlamentariləri bloqların ifadə azadlığına yeni və vacibi töhfə olması barədə bəyanat qəbul etdilər. Ancaq onlar bloqqerlərin maraqlarına yaxınlaşdırılmış ola biləcək "bloqqer qeydiyyatı"nın yaradılması ideyasından imtina etdilər. Bu ideya parlamentdə bloq müəlliflərinin hüquqi statusu ilə bağlı məsələlərə aydınlıq gətirilməsinə çağıran estoniyalı təmsilçi, keçmiş jurnalist Marianna Mikkonun (Marianne Mikko) rəhbərlik etdiyi komitə tərəfindən dəstəkləndi. Amma sonda çox kəskin reaksiya aldı. Bəyannamənin qəbulundan sonra o, Aİ Müşahidəçi xəbər saytına verdiyi müsahibəsində "Mən bütün Avropa boyu olan bloqqerlər tərəfindən hücuma məruz qaldım" dedi. "Məni Mao Tse Tunq, Lukaşenko, Çauşesku adlandırdılar - bu, xoş deyildi. Mən reaksiyanı başa düşə bilmədim; heç kim internetin tənzimlənməsində maraqlı deyil".

Buna baxmayaraq, bəzi parlamentarilər bloqqerlərin hüquqi durumu və onların mənbələrinin qorunması, məsuliyyətli olmaları məsələləri barədə narahatdırlar. Misal üçün, dəqiq bəllidir ki, difomasiya və bloq yazma çox mürəkkəb bir məsələdir. Əgər bloqqerlər hər yerdə oxunula bilən, böhtan xarakterli materiallar yerləşdirirlərsə, onlar məsuliyyət daşıyırlar, amma onların izlənilib tutulması problemdir.

İnternet hostinq xidmətini təklif edənlər belə məsələlərdə əməkdaşlıq etmək istəmirlər və çox zaman onlar xarici bir ölkədə yerləşirlər ki, bu da ayrı-ayrı bloqqerləri hədəf alacaq məhkəmə qərarlarının təsirini çətinləşdirir. Ən yaxşı halda, onlar ISP servisi tərəfindən izlənilən IP adresi bloklaya bilərlər ki, bu da xaricdə yerləşə bilər və ya gizlilik qanunu ilə əlaqədar olaraq sahibin adını açıqlamaqdan imtina edə bilər. Xəbər saytları bloqqerlərin fəaliyyətindən yararlanmaqda maraqlı olduqları müddətdə Veronika Skot (Veronica Scott) "Walkleys Magazine"-də vacib bir məsələyə əl qoyur. O inanır ki, ictimaiyyət kütləvi yayım vasitələrinin işində daha çox iştiraka dəvət edildikcə, interaktiv auditoriya və xəblərlərin, fikirlərin sərbəst axını, məzmunun yoxlanılmasının, dəqiqləşdirilməsinin əhəmiyyəti, qeyri-qanuni məzmunun çap edilməsi riski arasında balansın olmasına ehtiyac qalacaqdır.

Bloq oxucuları özlərini difomasiya kimi mümkün hüquqi məhdudiyyətlərlə hüdudlanmış hiss etmək istəmirlər. Ona görə də şərtlərin və tələblərin məcburən qəbul etdirilməsi qeyri-effektiv ola bilər. Sonda, redaktorlar media reputasiyasını qorumaq məqsədilə şərhləri yoxlamaq və monitorinq etmək üçün, məktublara tətbiq edilən oxşar bir sistem tətbiq etmək məcburiyyətində qalacaqdır. Onlayn şərhçilər öz əlaqə detallarını təqdim etməyə, təlim görmüş işçilər isə onların şərhlərini yoxlamağa məcbur olacaqlar.

Media oxucuları, tamaşaçıları, dinləyiciləri, ümumiyyətlə hər bir kəsi informativ əlaqədə olmaq üçün internetdən istifadənin üstünlükləri barədə məlumatlandırmağa çalışır. İnternet, mobil rabitə kommunikasiyanın yeni imkanlarını açmışdır. Misal üçün, BBC-nin Avropa üzrə müxbiri Mark Mardellin BBC vebsaytında Avropa siyasi məsələləri haqqında bloq vardır. Ştat işçinin bloquna dair başqa bir misal: fransız jurnalist, "for Liberation"ın əməkdaşı Jan Katrmer (Jean Quatremer) Avropa İttifaqında səhnəarxası gedişlər haqqında bloq qurur.

Jurnalist təşkilatlarını, milli ittifaqları narahat edən məsələ odur ki, "vətəndaş jurnalistikası" ilə professional peşə səhv salınır və bu da mediada keyfiyyətin inkişaf ilə bağlı bütün ambisiyaları darmadağın edir. Çoxlu media orqanları xərcləri azaltmaq üçün peşəkar jurnalistlərlə yanaşı, həvəskar jurnalistlərdən istifadə edirlər və xəbərvermənin

keyfiyyətini aşağı salırlar.

Media İttifaqları yarı-həvəskar jurnalist mənbələrinə istinaddan, redaksiyada işləyənlərin işlərinin keyfiyyətinin getdikcə azalmasından narahatdırlar və bunu jurnalistikanın missiyasına olan sadiqliyin azalması kimi qiymətləndirirlər. Hər il noyabrın 5-də Avropanın və qalan dünyanın jurnalist ittifaqları ”Jurnalistika üçün Qalx” deyərək (“Stand up for Journalism”) öz üzvlərinin hüquqları ilə bağlı səslərini yüksəldirlər. Onlar informasiya ilə davranmada professional dəyərlərin nüvəsinin dağıdılmasına səbəb ola biləcək zərbələr barədə xəbərdarlıqlar da edirlər.

Çörək pullarını jurnalistika peşəsindən qazanan, işinə sadiq, kompetent və yaxşı təlim görmüş jurnalistlər olmadan, insanların onları əhatə edən dünya haqqında informasiya ehtiyaclarını təmin etmək mümkün olmayacaqdır.

İnsanlar ”Facebook əsrində” özlərini ifadə etmək, fikirlərini bölüşmək və şəbəkələr yaratmaqla, babalarının xəyal belə edə bilmədikləri ürəyəyatan texnologiyalardan istifadə etmək imkanlarına sevinirlər. Ancaq icmalar ətraflarındakı siyasi, sosial və iqtisadi qatma-qarışıqlıqdan baş çıxarmaq istəyirlərsə, onların bir şəxs-digəri, bir şəxs- çoxlu şəxs kimi kommunikasiya vasitələrindən daha artığına ehtiyacları vardır. Onların etibarlı informasiya mənbəyinə və bu informasiyaların nə demək olduğu barədə analizə ehtiyacları vardır.

Cəmiyyətin maraqlarına köklənmiş jurnalistlər olmadan, informasiya inqilabı kasıb, marginal azlıqların və texnologiyalarla davranmaq bacarıqları olmayan insanların görünməz ola biləcəyi xaotik bir məkana çevrilə bilər. Dünyada belə bir təhlükə mövcuddur ki, istənilən bir şəxsin faktlar haqqında uydurması, şaiyəsi, faktları daha yaxşı araşdıran və real mənbəyə daha çox istinad edən jurnalistin işini kölgədə qoya bilir, daha çox diqqət toplaya bilir.

Təkcə bu səbəb kifayətdir ki, redaksiyalarda tam-qrafiklə işləyən bir-iki jurnalistdən daha çox professional jurnalist olsun. Biz yeni professionalizm uğrunda və biliklərin daha geniş yayılmasına çalışırıq. Bizim informasiya musiqisi üçün yeni ritmə ehtiyacımız var, internetin ciyiltisinə və mızıldanmasına yox. Media sadəcə ”The Huffington Post” və onun kimi yüzlərlə digər xəbər saytlarının etdiyi kimi, köhnə mediadan yeni mediaya ən yaxşı keçmə yolları haqqında fikirləri müzakirə etməlidir. Onlar, həmçinin, redaktə gündəliyinə keyfiyyət və standartları daxil etmək imkanından istifadə etməlidirlər.

Onlar jurnalistləri həvəsləndirməlidirlər ki, yeni bloq inqilabına qoşulsunlar. Belə olan təqdirdə, onlar müxbirlərinə imkan verməlidirlər ki, ənənəvi xəbər redaksiyası limitlərindən kənarda düşünüb daşına bilsinlər.

# Fəsil 5: PEŞƏ ETİKASI- MEDİA HÜQUQU



**Ələsgər Məmmədli**
*Media araşdırıcısı, Hüquqşünas*

## JURNALİST MƏNBƏLƏRİNİN QORUNMASININ ETİK VƏ HÜQUQİ PRİNSİPLƏRİ

Jurnalistin gizli mənbələrini qorumaq hüququ və dərc edilməmiş məlumatları qorumaq hüququ həm məlumatın sərbəst ötürülməsi, həm də cəmiyyətin bilgi almaq hüququ üçün vacibdir. Öz mənbələrini sərbəst danışmağa ürəkləndirmək üçün jurnalistlər, müsahiblərini kimliklərinin gizli qalacağına inandırmalı və bunu təmin etməlidirlər. Belə olmasa, öz təhlükəsizliyini düşünən mənbə, jurnalist qarşısında səmimi ola bilməz və jurnalist cəmiyyət üçün zəruri olan bir çox informasiyanı ilk həmlədən itirmiş olar. Jurnalistlər, həmçinin xəbər toplamaq üzrə fəaliyyətlərinin nəticələrini, öz redaktə müstəqilliyini saxlamaq üçün hökumət və özəl müəssisələr tərəfindən yoxlanılmasından qoruya bilməlidirlər. Mətbuatın bu üstünlükləri olmasa, o zaman medianın hökumətin işini araşdırmaq və korrupsiyanı üzə çıxarmaq imkanları ciddi təhlükə altına düşəcək.

Bir çox KİV-lərin özlərinin yaratdıqları etik davranış qaydaları jurnalistlərdən mənbələrinin gizliliyini qorumağı tələb edir. Jurnalist üçün bu həm peşə, həm şərəf məsələsi, həm də praqmatik zərurətdir. Konfidensiallıq vədini tuta bilməyən jurnalistə gələcəkdə başqa mənbələr də etibar etməz. Bu səbəbdən, jurnalistlər öz mənbələrini qoruyacaq, hətta bu, məhkəməylə üzləşmək zərurəti yaratsa və məhkəmə önündə durma tələb etsə belə, dəyişməyəcək.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Qudvin Birləşmiş Krallıga qarşı (1996) (Goodwin v. United Kingdom) işində jurnalistlərin bu üstünlüyünü inandırıcı şəkildə izah etmişdir. Bu işdə, jurnalist Vilyam Qudvin bir şirkətin konfidensial maliyyə məlumatlarını əldə etdiyi mənbəni məxfi saxlamağa razılaşmışdır. Şirkət materialların oğurlandığını iddia etmiş və məlumatların dərcinin qadağan edilməsinə, həmçinin, Qudvini öz mənbəyini açıqlamağa məcbur etmək məqsədi ilə, "ədalət naminə" mənbəyə qarşı tədbir görə bilməsi üçün, məhkəmə qərarının çıxarılmasına nail olmuşdur.

Apelyasiya Məhkəməsi və Lordlar Palatası qərarı qüvvədə saxladıqdan sonra, Qudvin AİHM-ə müraciət etmişdir və orada bildirmişdir ki, Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 10-cu maddəsinə əsasən, yalnız xüsusi vəziyyət onun ifadə verməyə məcbur edilməsinə əsas ola bilər. Britaniya hökuməti, öz növbəsində, bildirmişdir ki, bu halda heç bir vadaredici ictimai maraq bu üstünlüyün qəbul edilməsini əsaslandırmır. Xüsusilə qeyd etmişdir ki, mənbə özəl biznes məlumatlarını Qudvinə verməklə çox məsuliyyətsiz hərəkət etmişdir.

Məhkəmə, şirkətin mənbəyi təqib etmək marağının jurnalistlərin mənbələrini gizli saxlamaq hüququnun qorunmasında ictimai marağı üstələməsi iddiasının yetərli olmadığını bildirərək, Qudvinin lehinə qərar qəbul etmişdir:

Jurnalist mənbələrinin qorunması mətbuat azadlığı üçün əsas şərtlərdən biridir. Bu cür müdafiə olmadan, mənbələr mətbuata ictimai marağa səbəb ola bilən məsələlər barədə məlumat yaymaqda yardım etməkdən çəkinə bilər. Nəticədə, mətbuatın vacib ictimai-nəzarətçi rolu pozula bilər və onun dəqiq və etibarlı məlumat vermək bacarığına əks təsir göstərilə bilər. Demokratik cəmiyyətdə mətbuat azadlığı üçün jurnalist mənbəyinin qorunmasının vacibliyinə və mənbəyi açıqlamaq tələbinin bu azadlığın həyata keçirilməsinə potensial olaraq soyuducu təsirinə münasibətdə, bu cür tədbir ictimai maraqda birinci dərəcəli tələblə əsaslandırılmadıqda, Konvensiyanın 10-cu maddəsinə uyğun deyil.

AİHK-ya tərəf olan bütün ölkələr Qudvin işindəki qərara tabedirlər, lakin, hətta Avropa Birliyinin hüdudlarından kənarda da bu qərarın təsiri olmuşdur. Amerikadaxili İnsan Hüquqları Komissiyası və İnsan və Xalqların Hüquqlarına dair Afrika Komissiyası daxil olmaqla, digər beynəlxalq və regional təşkilatlar jurnalistlərin mənbələrini və dərc edilməmiş məlumatları gizli saxlamaq hüququnu tanıyan qətnamələr qəbul ediblər.

Bəzi ölkələrdə jurnalistlərin bu hüququ konstitusiyaya daxil edilmişdir. Məsələn, Palau Konstitusiyası deyir, "heç bir vicdanlı jurnalistdən peşəkar fəaliyyəti nəticəsində əldə etdiyi məlumatları açıqlaması hökumət tərəfindən tələb edilə bilməz və həmin məlumatları açıqlamadığına görə həbs edilə bilməz." İsveç Konstitusiyasının bir hissəsi olan Mətbuat Azadlığı haqqında Qanun jurnalistlərə yal-

nız, mənbənin casusluqda və ya xəyanətdə şübhəli bilindiyi, və ya təqsirləndirilən şəxsin həmin məlumatın onun cinayət işində müdafiəsi üçün vacib olduğunu göstərdiyi hallar kimi, məhdud saylı istisnalarla açıqlanmalı olduğunu bildirir və jurnalist qaynaqlarının gizliliyinə böyük önəm verir. Qanun, həmçinin, göstərir ki, razılıq olmadan mənbəyini açıqlayan jurnalist məsuliyyətə cəlb edilə bilər.

Kütləvi İnformasiya vasitələri haqqında Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində də eyni məsələ tənzimlənmiş və İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən xüsusi hallar göstərilmişdir. Maddədə bildirilmişdir ki, Kütləvi informasiya vasitəsi redaksiyasının və ya jurnalistin:

- şəxsin gizli saxlanmaq şərt ilə verdiyi məlumatı yayılan xəbər və materiallarda açıqlamasına;
- adının bildirilməməsi şərtilə məlumat vermiş şəxsin kimliyini göstərməsinə;- yol verilmir. Lakin buna görə qanunvericilikdə İsveçdən fərqli olaraq məsuliyyət nəzərdə tutulmamışdır.

Digər ölkələrdə məhkəmələr jurnalistlərin üstünlüklərinin konstitusion müddəalara istinad edərək müəyyən edilə bildiyi barədə qərar verirlər. 2006-cı ildə Yaponiyada, məsələn, Ali Məhkəmə qərara gəlmişdir ki, söz azadlığına təminat verən konstitusiyanın 21-ci maddəsi, həmçinin “xəbər toplamaq” və xəbər vermək azadlığını qoruyur. 2008-ci ildə Kanadada, Ontario Apelyasiya Məhkəməsi qeyri-kommersiya xəstəxanası barədə bələdiyyənin məxfi araşdırma hesabatlarını əldə etdiyi mənbəyi açıqlamayan jurnalistə qarşı çıxarılmış qərarları ləğv etmişdir. Məhkəmə bidirmişdir ki, mənbəyi gizli saxlamaq hüququ Kanadanın Hüquq və Azadlıqlar Xartiyası tərəfindən tanınan söz azadlığının vacib hissəsidir. Məhkəmə demişdir, “jurnalistin gizli mənbəyinin açıqlanmasının mümkün effekti digər hər hansı səbəbdən şəxsiyyətlərini gizlətmək istəyən potensial mənbələri çəkindirmək olacaqdır”. Məhkəmə, məlumat toplama prosesində bütün yazışmaların məxfi saxlanmasına tam üstünlük vermədiyinə baxmayaraq, qəbul etmişdir ki, məcburedici tədbirlər yalnız ən son vasitə kimi və digər hüquqlar nəzərə alınaraq məhdud şəkildə tətbiq edilməlidir.

Bəzi başqa dövlətlər qanunlarında jurnalistlərə xüsusi hallarda ifadə verməkdən imtina etmək imkanını verir. Meksika, İndoneziya, Mozambik və Türkiyə daxil olmaqla 20-yə yaxın ölkə jurnalistlərə mənbələrini gizli saxlamağa tam hüquq verir. Müəyyən hallarda məhdudlaşdırıla bilən üstünlüklər verən milli qanunlar daha geniş yayılıb. Ermənistan, məsələn, üstünlüyü verir, lakin tələb olunan məlumatın ağır cinayət işləri ilə birbaşa əlaqəsi olan və açıqlanmasında böyük ictimai maraq olduğu hallar onu məhdudlaşdırır. Almaniya və Birləşmiş Ştatlar daxil olmaqla, bəzi ölkələrdə qanunla təsbit olunmuş müdafiə xüsusi hallara aid edilmişdir. Milli qanunlarda olduğu kimi, bu hüquqlar tam və ya məhdud ola bilər.

Birləşmiş Ştatlarda, 39-a yaxın ştatda və Kolumbiya Dairəsində jurnalistlərin məxfiliyin qorunmasına dair qanunlar qəbul edilmiş, Kongres jurnalistlərin üstünlüyünü tanıyan federal qanun layihəsini müzakirə edib, lakin, qəbul etməmişdir (2010-cu ilin yayına olan məlumata əsasən). Bu, o deməkdir ki, məxfiliyin qorunmasına dair qanunlar bəzi ştatlarda məhkəmə proseslərində tətbiq edilir, lakin, federal məhkəmə sistemində tətbiq edilmir.

Hər cəmiyyətdə məlumatın məcburi açıqlanmasına qarşı jurnalıstlərin üstünlüklərinin dəqiq konturlarını cızdığına baxmayaraq, səmərəli üstünlük aşağıdakı suallara geniş cavablar təqdim edə bilər:

- Bu, kimə tətbiq ediləcək? Geniş üstünlüklər jurnalistika ilə məşğul olan bütün şəxslərə tətbiq ediləcək, yəni ictimaiyyətə yayılması üçün xəbərlərin və ya məlumatların ödənişli və ya ödənişsiz toplanması, yazılması, redaktə və ya dərc edilməsi prosesinə cəlb olunmuş hər kəsə.
- Bu, media platforması ilə məhdudlaşırmı? Səmərəli üstünlüklərin əksər hissəsi yalnız ənənəvi çap və yayım mediası ilə məhdudlaşmayacaq. Bu, həmçinin, kitab müəlliflərinə, bloggerlərə və işlərini İnternetdə yayan digər şəxslərə aid ediləcəkdir.
- Bu, hansı mənbələri qoruyur? Hərtərəfli üstünlük yalnız mənbələrin şəxsiyyətini deyil, həmçinin, dərc edilməmiş məlumatlar, fotoşəkillər, qeydlər, lentlər, layihələr və jurnalist fəaliyyətinin digər dərc edilməmiş məhsulları daxil olmaqla, sənədli materialları əhatə edəcəkdir.

Tam üstünlük olmadıqda, jurnalisti məxfi mənbəyini və məlumatları açıqlamağa məcbur etmək istəyən hər kəsdən əsaslı səbəb göstərmək tələb edilməlidir. Müxtəlif ölkələrdə müxtəlif standartlar tərtib edilir, lakin daha çox rast gəlinən ortaq amillər aşağıdakılardır:

- Bütün alternativ vasitələr tükəndikdən sonra məlumatın hər hansı başqa qeyri-jurnalistika mənbəyindən alınması mümkün deyil;
- Axtarılan məlumat əsaslıdır və ya müzakirə edilən məsələnin məzmunu üçün çox zəruridir (təqsirləndirilən cinayətkara bəraət qazandıra biləcək sübut kimi);
- Hakim mənbənin açıqlanmasına olan ictimai marağın məlumatın sərbəst ötürülməsinə olan ictimai marağı üstələdiyi barədə ciddi qənaətə sahibdir və bu barədə qərar verir.
- Axırıncı, ən problematik amildir. Mənbənin açıqlanmasına olan maraq azad mətbuat hüququnu nə zaman üstələyir? Məsələn, milli təhlükəsizlik məsələlərində, hökumətlər, adətən, ictimai təhlükəsizliyin redaktor müstəqilliyinin qorunmasından üstün olduğunu iddia edir. Birləşmiş Ştatlarda federal hökumət jurnalistlərin məxfiliyin qorunmasına dair qanunu qəbul etmək cəhdlərinin, qismən, terroristlərin öz əlaqələrini hüquq mühafizə orqanlarının yoxlanılmasından qorumaq üçün bu qanundan istifadə edəcəyi qorxusuna görə, illər boyu qarşısını almışdır.

Hərbi jurnalistlər bir çox xüsusi çətinliklərlə üzləşirlər. Bu jurnalistlərin təhlükəsizliyini qorumaq üçün mənbəyin məxfi saxlanılması çox vacibdir. Bəs jurnalist özü cinayətlərin şahidi olub və sonradan hərbi tribunal qarşısında ifadə verməli olduqda nə baş verir?

1993-cü ildə, Vaşinqton Post (Washington Post) qəzetinin jurnalisti Conatan Rendal (Jonathan C. Randal) serbiyalı millətçi Radoslav Brdyanindən (Radoslav Brdjanin) müsahibə almış və etnik təmizləmələr barədə məqaləsində ona istinad etmişdir. Bir neçə il keçdikdən, Rendal jurnalistikadan uzaqlaşandan sonra, Brdyanin soyqırım törətməkdə təqsirləndirilmişdir. Prokurorlar Rendalın məqaləsini BMT-nin Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı (YBCT) qarşısında dəlil kimi təqdim etmək istəyirdilər. Müdafiə tərəfi Rendaldan ifadə almaq istədikdə, keçmiş jurnalist məhkəməyə çağırılmışdır. Rendal, ifadə verməyə məcbur edilməsini onun mənbələr tərəfindən potensial şahid kimi qəbul edilib, hərbi zonalarda məlumat toplamağını və həyatını təhlükə altına qoyacağını bildirərək, ifadə verməkdən imtina etmişdir.

2002-ci ilin dekabr ayında, Apelyasiya Palatası, hətta mənbələrinin məxfi olmadığı və məlumatların artıq dərc edildiyi hallarda belə, hərbi jurnalistlərin məhdud üstünlüyünü tanıdı. O, hərbi jurnalistləri "hər bir zaman münaqişə zonasından münaqişəyə dair məsələləri işıqlandıran (və ya işıqlandırmaq üçün araşdırma aparan) fərdlər" kimi müəyyən etmişdir. Məhkəmə qəbul etmişdir ki, öz işlərini görmək üçün "Hərbi jurnalistlərə məhkəmə işləri üçün potensial şahid kimi deyil, müstəqil müşahidəçi kimi yanaşılmalıdır. Əks halda onlar həyatları və mənbələri üçün daha böyük və ciddi təhlükə ilə üzləşəcəklər." Tribunal qərara almışdır ki, "[tanınan] müdafiənin həcmi onun xəbər toplama funksiyasına verə biləcəyi ziyana düz mütənasibdir." İfadə verməyə məcbur etmək üçün məhkəməyə çağıran tərəf şahidliyin "işdə əsas məsələnin müəyyən edilməsi üçün birbaşa və böyük əhəmiyyəti olduğunu" və bu dəlilin başqa yerdən əldə edilməsinin qeyri-mümkünlüyünü göstərməlidir.

Rendalın işi mübahisəli idi. 30-dan artıq beynəlxalq xəbər agentliyinin onun müraciətini dəstəkləməsinə baxmayaraq, Bosniyada müharibəni işıqlandıran və Milan Kovaçeviçin (Milan Kovacevic) məhkəmə prosesində könüllü ifadə verən Britaniyalı jurnalist Ed Vulliamu, Rendalın yanlış mövqe tutduğunu iddia edirdi. O yazırdı, "Vaşington Post (Washington Post) qəzetinin etirazının kökündə jurnalist peşəsinin əsası olan bitərəflik durur. Mən inanıram ki, tarıxdə belə zamanlar olub ki,... bitərəflik neytral deyil, lakin cinayətlə əlaqəli olmuşdur... Məhkəmə jurnalistlərdən hekayələri ilə öz sözlərini təsdiqləmələrini istəyir".

Buna oxşar digər bir iş, dövlət məmurları tərəfindən KİV-lərin ofislərində axtarış aparmaq səlahiyyəti ilə bağlıdır. Sürxerin Stenford Deyliyə qarşı (1978) (Zurcher v. Stanford Daily) işi ABŞ Ali Məhkəməsində universitet tələbələrinin qəzet redaksiyasına polis zabitlərinin daxıl olmaq və polisin Stenford Universitetinin xəstəxanasını zəbt edən nümayişçilərlə şiddətli qarşıdurmasını əks etdirən dərc edilməmiş şəkilləri müsadirə etmək səlahiyyətlərinə qarşı iş olmuşdur. Tələbə qazetinin Birinci Düzəlişin onların ofislərində hüquq mühafizə orqanları tərəfindən axtarış aparılmasından qoruduğunu iddia etdiyinə baxmayaraq, Hakim Bayron Uayta (Byron White) əsasən, çoxluğun fikrincə, Birinci Düzəliş xəbər agentliklərinə heç bir xüsusi status vermir, lakin Dördüncü Düzəliş onları hər hansı başqa müəssisə kimi "əsassız axtarış və müsadirədən" müdafiə edir.

Ona əks olaraq, Hakim Potter Styuart (Potter Stewart) yazmışdır:

Mənə belə gəlir ki, qəzet redaksiyasında polis tərəfindən axtarışın aparılması mətbuat azadlığını pozur. Dərhal baş verən və aydın görünən pozuntu... qəzetin fiziki olaraq işinin dayandırılmasıdır... Lakin burada polis tərəfindən öncədən xəbər verilmədən qəzet redaksiyasında edilən axtarış başqa daha ciddi pozuntu yaradır: məxfi mənbələrdən alınmış məlumatların və mənbəyin özünün şəxsiyyətinin açıqlanması təhlükəsi yaranır.

Çoxluğun qərarına cavab olaraq, ABŞ Konqresi 1980-ci ildə Şəxsi Həyatın Qorunması haqqında Qanun qəbul etmişdir. Bu qanun, həm federal, həm yerli hüquq mühafizə orqanlarına şəxsin (yəni jurnalistin) ictimaiyyətə yaymaq məqsədi ilə saxladığı sənədlərin, fəaliyyət məhsullarının, materialların müsadirə edilməsini qadağan edir. İstisnalara, ölümə və ya ciddi xəsarət yetirilməsinə gətirib çıxara biləcək materiallar və ya uşaq pornoqrafiyası daxildir. Buna oxşar, 1995-ci ildə Yeni Zelandiyanın Apelyasiya Məhkəməsi jurnalistlərin iş yerlərində axtarışın aparılmasının yalnız müstəsna hallarda, ədalət mühakiməsinin maraqları üçün çox vacib olduqda, mümkünlüyünü qərara almışdır, lakin, bu halda belə bu hərəkətlər xəbərlərin yayılmasına ziyan vurmamalıdır.

Dünyanın digər hissələrində isə redaksiyalarda axtarışlar tez-tez baş verir. Məsələn, 2004-cü ildə Korrupsiyaya Qarşı Müstəqil Komissiya Honq-Konqda qəzet redaksiyaları və jurnalistlərin evlərində axtarış aparmaq üçün 14 order almışdı. Komissiya xəbər agentliklərinə şahidin adını verən şəxsi axtarırdı. Apelyasiya Məhkəməsi bu axtarışları əsaslı hesab etmişdir. Avropa İnsan Hüquqları Məhkəməsinin xəbər redaksiyalarında axtarışların Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin pozuntusu kimi qəbul etməsinə baxmayaraq, bir çox Avropa ölkələri hələ də buna imkan yaradır. Avstriya və Almaniya iki istisnadır ki, Almaniyanın Konstitusiya Məhkəməsi 2007-ci ilin fevral ayında bu cür axtarışların konstitusion söz azadlığının pozuntusu olduğunu bildirmişdir.

2001-ci ildən bəri, ölkələrin çoxunda anti-terrorizm sahəsində qəbul olunmuş qanunlar hüquq mühafizə və kəşfiyyat orqanlarının, kommunika-

sıyaların qarşısını almaq məqsədi ilə dinləmələr və digər bu növ vasitələrdən istifadə etmək səlahiyyətlərini artırmışdır. Bu qanunlar, adətən, jurnalistlərə adi vətəndaşlardan nə az, nə də çox müdafiə təqdim edir. Gürcüstanda, jurnalistlərin peşə sirrlərini öyrənmək üçün onların əlaqələrinin ələ keçirilməsi cinayətdir. Belçikada, Jurnalistlərin Mənbələrinin Qorunmasına dair Qanun məxfi mənbənin açıqlanmasına yönəlmiş cəhd kimi izləməni də məhdudlaşdırır.

Qısaca desək, jurnalistlərin məxfiliyinin qorunmasının onların müstəqilliyinin təminatı üçün vacibliyi geniş qəbul olunmuşdur.

2003-cü ildə yaradılan Azərbaycan Mətbuat Şurasının qurultayında qəbul edilən «Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları»nın 2-ci prinsipi "İnformasiya qaynaqlarına sayğılı yanaşma" başlığı daşıyır və ilk bənddə göstərilir ki:

" Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Lakin bilgi verən şəxs adının gizli saxlanması şərtini irəli sürürsə, jurnalist və informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. İnformasiya qaynağının gizliliyi qorunmalıdır".

## MƏLUMAT AZADLIĞI, SUİ-İSTİFADƏNİN YOLVERİLMƏZLİYİ

Jurnalistlər ictimai əhəmiyyət daşıyan hadisələri və şəxsləri hər zaman izləyir və cəmiyyət üçün əhəmiyyətli gördükləri informasiyaları ictimaiyyətlə paylaşırlar.

Bu prosesdə bəzən jurnalistlər istəməsələr də, müxtəlif pozuntulara yol verir, qanunla qorunan mənafelərin sərhəddini poza bilirlər. Belə pozuntular çox vaxt mübahisələrə səbəb olur. Hüququnun pozulduğunu iddia edən tərəf jurnalistin onun hüququnu qanunsuz olaraq pozduğunu iddia edir, jurnalist isə hər zaman ictimai mənafenin tələblərinə sadiq qaldığını, ictimai əhəmiyyətli hadisələri və şəxsləri işıqlandırdığını, beləliklə, qanunla qorunan sərhədləri keçmədiyini söyləyir.

Bu hüquqların sərhəddi harada başlayır, jurnalistlər bu sərhədləri nə qədər gərə bilər, bu sərhədlərin toxunulmazlığı harada başlayır, hansı şərtlərdə bu dəyişə bilər - bu kimi çoxsaylı suallar jurnalistləri ciddi şəkildə düşündürür və bu suallara cavab tapmaq bəzən uzun illərini bu fəaliyyətə verən, geniş təcrübəsi olan jurnalistlər üçün də asan olmur.

Odur ki, jurnalistlərin informasiyaları əldə etmək, yaymaq, ifadə etmək hüququnun hansı hallarda məhdudlaşdırıldığı, bu məhdudiyyətlərin necə tətbiq edilməli olduğunu göstərməyə çalışaq.

Əlbətdə, bir çox məqam var ki, onu çılpaqlığı ilə ortaya qoymaq üçün qalın-qalın kitablar yazmaq gərəkdir. Lakin, bizim məqsədimiz bu istiqamətdə ümumi bilgilərə toxunmaq və onları sadə bir şəkildə jurnalistlərlə paylaşmaqdır. Qeyd etmək zəruridir ki, məlumat azadlığı geniş mənada ifadə azadlığının tərkib hissəsidir. İfadə azadlığı və ona gətirilən məhdudiyyətlər mahiyyəti etibarı ilə məlumat azadlığının da sərhədləri sayılmaqdadır.

## Beynəlxalq sənədlərdə məlumat azadlığı, ifadə azadlığı hüququnun tanınması və onun məhdudiyyətlərinin əsasları

Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi ifadə azadlığını təminat altına alır. Buna görə, rəsm əsərləri, obrazalar, ideyanı ifadə etmək və ya məlumatı çatdırmaq məqsədi daşıyan hərəkətlər, hətta geyim ifadə azadlığı çərçivəsində qorunmaqdadır. Ayrıca, çap materialları, tele-radio verilişləri, filmlər və digər formada ifadə edilən materiallar ifadə azadlığının qoruması altındadır. Susmaq - danışmamaq azadlığı, öz fikrində qalmaq azadlığı, şərt və şişirdilmiş ifadələr də bu çərçivədə qorunmaqdadır.

Azərbaycanın üzvü olduğu Avropa Şurasının təməl sənədlərindən biri olan və 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilən, 2002-ci il 15 aprel tarixdən etibarən ölkəmizin ərazisində işğal olunan ərazilər istisna olmaqla, hüquqi qüvvəyə malik olan Avropa İnsan Haqları Konvensiyasının 10-cu maddəsində göstərilib ki,

Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya məüssisələrinə lisenziya tələbi qoymasına mane olmur.

10-cu maddənin 2-ci hissəsi isə bu hüququn məhdudlaşdırılacağı halların nə olduğunu və hansı əsaslarla məhdudlaşdırıla biləcəyini göstərir.

Bu azadlıqların həyata keçirilməsi:

· milli təhlükəsizlik;

· ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə;

· iğtişaşın və ya cinayətin qarşısını almaq üçün;

· sağlamlığın, yaxud mənəviyyatın qorunması üçün;

· digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün;

· gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün;

· ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün;

- qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Gördüyümüz kimi, Konvensiyada ifadə azadlığının məhdudlaşdırılması üçün sayılan bu əsasların varlığı zəruri olmaqla bərabər, aşağıdakı şərtlərə də uyğun olması zəruridir:

1). Mülki və siyasi hüquqlara gətirilən məhdudiyyətlər qanunlarda olmalı və dəqiq ifadə edilməlidir;

2). Məhdudiyyət Avropa İnsan Haqları Konvensiyasında göstərilən hüquqların birinə hökmən əsaslanmalıdır;

3). Məhdudiyyət "demokratik cəmiyyətdə zərurilik" testindən keçirilməli, verilən cəza ilə qorunan hüquqi mənafe arasında bir balans olmalıdır;

4). Hüquqların tətbiqində heç bir halda ayrıseçkiliyə yol verilməməlidir.

İfadə azadlığına müdaxilə, azadlığın özünə yox, onun gerçəkləşdirilmə formasına tətbiq oluna bilər. İfadə azadlığının məzmunu isə toxunulmazdır. Məzmuna məhdudiyyət hüququn ləğvi anlamına gəlir.

Müdaxilənin formalarına gəldikdə, bunlar aşağıdakılardan biri ola bilər:

- Cinayət cəzaları : cərimə, azadlıqdan məhrumetmə;
- Mülki ziyanın ödənilməsinə məcbur etmə;
- Hər hansı materialın (təkzibin) nəşri;
- Dərc olunmuş materialın və ya rəyin ifadə edildiyi digər vasitələrin müsadirəsi, (burada xüsusilə qeyd edilməlidir ki, nəşr materiallarına ilkin məhdudiyyətin tətbiqi yolverilməzdir);
- Yayım lisenziyası verilməsindən imtina;
- Jurnalist peşəsi ilə məşğul olmağın qadağan edilməsi;
- Mənbənin açıqlanması və ya mənbənin açıqlanmamasına görə cəza;
- Dövlət başçısının elanı;

Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqi baxımından, İfadə azadlığına qanuni müdaxilə üçün tələblər bunlardır.

1). Müdaxilə qanunda nəzərdə tutulmalıdır;

2). Müdaxilə Konvensiyanın 10.2-ci maddəsində nəzərdə tutulan əsasların müdafiəsinə yönəlməlidir;

3). Müdaxilə demokratik cəmiyyətdə zəruri olmalıdır.

4). Müdaxilənin qanunda nəzərdə tutulması;

Müdaxilənin qanunda nəzərdə tutulması, müdaxiləyə əsas təşkil edən hüquqi sənədin parlament tərəfindən qəbul olunmuş yazılı və dərc olunmuş bir normativ akta- qanuna söykənməsini tələb edir. Parlament səviyyəsində qəbul edilməyən, hər hansı normativ aktla ifadə azadlığına məhdudiyyət gətirilə bilməz. Məsələn, prezidentin fərman və ya sərəncamı, Nazirlər Kabinetinin sərəncam və ya qərarları, Mərkəzi icra hakimiyyəti orqanlarının (nazirliklərin) qərarları, şəhər icra hakimiyyətinin yaxud bələdiyyələrin qərarları ilə müdaxiləyə hüquqi əsas yaratmaq qəbul edilməməkdədir.

5). Müdaxilə Konvensiyanın 10.2-ci maddəsində nəzərdə tutulan əsasların müdafiəsinə yönəlməlidir-dedikdə, hansı legitim əsaslarla müdaxiləyə haqq qazandırmanın mümkünlüyü burada göstərilir. Bunlar aşağıdakı mənafelərdən biri olmalıdır:

a. Milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş; (Observer və Qardian işi buna misal göstərilə bilər);

b. Iğtişaşların və ya cinayətlərin qarşısının alınması; (Sazman Avstriyaya qarşı və Qubi Avstriyaya qarşı işlər buna misal göstərilə bilər);

c. Mənəviyyatın müdafiəsi; (Müller İsveçrəyə qarşı işi və Həndisayd Birləşmuş Krallığa qarşı işi bu baxımdan nümunə ola bilər);

d. Digər şəxslərin nüfuzu və hüquqları; (Lingens Avstriyaya qarşı bu baxımdan nümunəvi işlərdəndir);

e. Ədalət mühakiməsinin nüfuz və qərəzsizliyi; (Sandi Tayms işi bu baxımdan nümunə olan işlərdəndir).

6). Müdaxilənin demokratik cəmiyyətdə zəruri olması dedikdə, ilk növbədə, "Qarşıya qoyulan məqsəd (2-ci bənddə nəzərdə tutulan əsaslar) ona nail olmaq üçün istifadə olunmuş vasitələrə (müdaxilənin özü, forması) mütənasibdirmi"-buna baxılmanı zəruri edir. Ikinci olaraq, müdaxilənin demokratik cəmiyyətdə zəruriliyini sübut etmək üçün məhkəmə məhdudiyyətin qoyulmasını tələb edən təxirəsalınmaz sosial tələbatın mövcudluğuna əmin olmalıdır. Əks halda, bu "təxirəsalınmaz sosial tələbat"dan qaynaqlanmırsa, ifadə azadlığına müdaxilə legitim sayılmayacaq. Üçüncüsü, verilən cəzanın demokratik cəmiyyətdə zəruriliyi, balanslı olub-olmadığı ölçülməlidir. Əgər cəza, həbs cəzası olacaqsa, bu halda, birmənalı olaraq bu, demokratik cəmiyyətdə zərurilik testindən keçməyəcək. Ayrıca, cəza pul cəriməsi şəklində olduqda belə, əgər cərimənin həddi yüksəkdirsə, bu da mütənasiblik baxımından qəbuledilən sayılmayacaq.

Azərbaycan Respublikasının ratifikasiya etdiyi sənədlərdən biri də, BMT-nin qəbul etdiyi Mülki və Siyasi Hüquqlar Haqqında Paktıdır. Bu Paktın, 19-cu maddəsi hər kəsin ifadə azadlığı və informasiya əldə etmək hüququnu təminat altına alıb:

1. Hər bir insan şəxsi fikri olmaq hüququna malikdir.

2. Hər bir insanın öz fikrini sərbəst ifadə etmək hüququ var. Bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq hər cür informasiya və ideyaları axtarmaq, almaq, şifahi, yazılı, mətbuat, yaxud bədii ifadə formaları vasitəsilə, yaxud özü seçdiyi başqa üsullarla yaymaq azadlığı daxildir.

Həmin maddənin 3-cü bəndində isə məhdudiyyətləri doğuran əsaslar və şərtlər sadalanmışdır:

3. Bu maddənin 2-ci bəndində göstərilən hüquqlardan istifadə olunması xüsusi vəzifələr qoyur və məsuliyyət tələb edir. Belə ki, bu, bir sıra məhdudiyyətlərlə bağlı ola bilər. Lakin onlar qanunla müəyyənləşdirilməli və aşağıdakıların təmin edilməsi üçün zəruri olmalıdır:

- a) başqalarının hüquqlarına və adına hörmət edilməsi üçün;
- b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlıq, yaxud mənəviyyatının qorunması üçün;

BMT-nin Mülki və Siyasi Hüquqlar Haqqında Paktında müəyyən edilən haqların məhdudlaşdırılmasının əsasları və şərtlərini belə sıralaya bilərik;

· Mülki və siyasi haqlara gətirilən məhdudiyyətlər hökmən qanunlarla olmalı və dəqiq göstərilməlidir;

- başqalarının hüquqlarına və adına hörmət edilməsi məqsədi ilə olmalıdır (şəxsin özəl həyatına müdaxilə önlənməlidir);
- dövlət təhlükəsizliyinin qorunması məqsədi daşımalıdır;
- ictimai asayişin mənafelərini qorumalıdır;
- əhalinin sağlamlığının qorunmasını hədəf seçməlidir;
- mənəviyyatının qorunması üçün nəzərdə tutulmalıdır.

## Azərbaycanın Milli Qanunvericilik sistemindəki sərhədlər

Azərbaycan Respublikası Konstitusiyasında ifadə azadlığı və məlumat azadlığı qoruma altına alınıb. 47-ci maddədə "Hər kəsin fikir və söz azadlığı"-nın olduğu vurğulanır və "Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz"- deyilir.

50-ci maddədə isə "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı" olduğu qeyd edilir və kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasının qadağan olduğu, kütləvi informasiyanın azadlığına təminat verildiyi bildirilir.

Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olsa da, Konstitusiyanın 24-cü maddəsinə əsasən, "Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir".

Azadlıqların və hüquqların göstərilməsi ilə paralel olaraq, elə həmin maddələrdə müəyyən məhdudiyyətlərin də olduğu göstərilir.

İfadə azadlığının məhdudiyyəti 47-ci maddədə aşağıdakı kimi sıralanır:

· İrqi ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir;

· milli ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir;

· dini ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir;

· sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

Məlumat azadlığına tətbiq edilən məhdudiyyətlər isə, 50-ci maddədə birbaşa göstərilməmiş, sadəcə "hər kəsin hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən, kütləvi informasiya vasitələrində dərc edilən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququnun" təminat altında olduğu bildirilmişdir.

Konstitusiyanın öz mətnində birbaşa göstərilməsə də, Milli Məclis tərəfindən qəbul edilən və Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına uyğunlaşdırmaq məqsədi daşıyan Konstitusiya Qanunu ifadə azadlığının və məlumat azadlığının məhdudlaşdırılmasına əsas təşkil edən digər halları saymışdır. Bunlar aşağıdakılardır:

- dövlət təhlükəsizliyi mənafeləri;
- sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması;
- cinayətin qarşısının alınması;
- iğtişaşların qarşısının alınması;
- ictimai təhlükəsizliyin qorunması;
- dövlətin ərazi bütövlüyünün mənafelərinin təmin edilməsi;
- digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi;
- məxfi qaydada əldə edilmiş məlumatın açıqlanmasının qarşısının alınması;
- məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi;

Konstitusiya Qanununda gəstərilən əsaslardan biri olan "digər şəxslərin hüquq və azadlıqlarının qorunması" məqsədi əslində Konstitusiyanın özündə bir neçə maddədə ifadə edilmişdir.

Konstitusiyanın 32-ci maddəsi Şəxsin şəxsi toxunulmazlıq hüququnu təminat altına alıb. İstənilən məsələyə toxunan jurnalist bu hüquqa hörmətlə yanaşmalıdır. Şəxsi toxunulmazlıq hüququ şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnu əhatə edir və qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilənin yolverilməz olduğunu bildirir. Bu maddədə jurnalistləri ilgiləndirən digər önəmli bir məsələ, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmədiyidir. Qanunla müəyyən edilmiş halların xaricində, şəxs xəbəri olmadan və ya etirazına baxmadan heç kəs tərəfindən izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

Jurnalistlər hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna da hörmətlə yanaşmalı, bu prosesə qanunsuz müdaxilə etməməlidirlər.

Jurnalistlər bilməlidir ki, hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, həmçinin qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır və bu hüquq konstitusion hüquqdur.

Konstitusiyanın 46-cı maddəsində təsbit edilən şərəf və ləyaqətin müdafiəsi hüququ da Konstitusion hüquqlardandır və ifadə azadlığı, habelə məlumat azadlığı və media azadlığının məhdudlaşdırılmasının qırmızı xətlərini təşkil edir. Jurnalistlər bilməlidir ki, "hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır və heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz".

İfadə azadlığı, məlumat azadlığı və media azadlığını birbaşa tənzimləyən müddəalardan əlavə, bu hüquqların insan hüquq və azadlıqları içindəki yeri nəzərə alınmaqla, Konstitusiyada insan hüquq və azadlıqları bir bütün olaraq ələ alınmış və bu hüquqların təminatı, habelə məhdudlaşdırılmasına əsas olan faktorlar 71-ci maddədə bir daha vurğulanmışdır. Maddəyə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Bizə məlumdur ki, sərhədsiz hüquq və azadlıq olmur. Bu, nəzərə alınmış və 71-ci maddədə göstərilmişdir ki, "Hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır". İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Jurnalistlər bilməlidir ki, onların ifadə azadlığının, habelə məlumat azadlığının həyata keçirilməsi, dəgər insan hüquq və azadlıqları ilə yanaşı müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Lakin bu hüquqların həyata keçirilməsinə qoyulacaq məhdudiyyətlərdə əhaliyə qabaqcadan məlumat verilməlidir.

## MƏXFİLİK VƏ JURNALİSTLƏRİN HÜQUQLARI

Hüquq və azadlıqların Konstitusiyada müəyyən edilmiş əsaslarla məhdudlaşdırılması faktorlarının yanında, qanunlarda müəyyən edilmiş əsasları da vardır. Bu əsaslar əslində mənbəyini Konstitusiyanın və Konstitusiya Qanununun özündə göstərilən mənafelərdən alır. Belə qanunlardan biri, "Kütləvi informasiya vasitələri" haqqında Azərbaycan Respublikası Qanunudur. Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyini göstərən KİV haqqında qanunun 10-cu maddəsində deyilir ki:

"Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla çevirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir".

Bu Qanunun 60-cı maddəsində Kütləvi informasiya azadlığından sui-istifadəyə görə yaranan məsuliyyət öz əksini tapıb. Kütləvi informasiya vasitəsinin redaksiyası (məsul redaktoru) və jurnalistlər (müəlliflər) aşağıdakı hallarda Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyət daşıyırlar:

- açıqlanması qanunla qadağan edilən məlumatları açıqladıqda;
- baş redaktor (redaktor) mətbu nəşrdə çap olunan materialların KİV haqqında Qanunun tələblərinə uyğun hazırlanmasına nəzarət etmədikdə;
- KİV haqqında Qanunda göstərilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaydıqda;
- vətəndaşların şəxsi həyatına qəsd etdikdə;
- pornoqrafik materialları dərc etdikdə və ya verdikdə.

İnformasiya əldə etmək haqqında Qanunda da müəyyən sərhədlər göstərilib. Qanuna əsasən açıq informasiyaların yanında, alınması məhdudlaşdırılan informasiyalar (Konfidensial və gizli informasiyalar) var. Bu informasiyaların alınması məhdudlaşdırılır.

- Dövlət sirri
- Kommersiya sirləri
- İstintaq sirri
- Peşə sirləri (həkim, vəkil, notarius sirləri)
- Xidməti istifadə üçün nəzərdə tutulan informasiyalar
- Şəxsi həyat sirləri
- Fərdi məlumatlar

Dövlət sirləri Dövlət sirri haqqında Qanunla, kommersiya sirri kommersiya fəaliyyəti haqqında Qanunla, İstintaq sirri müvafiq olaraq əlaqəli qanunlarla, peşə sirləri bu fəaliyyətləri əhatə edən sahə qanunları ilə tənzimlənir. Xidməti istifadə üçün nəzərdə tutulan informasiyalar, fərdi məlumatlar isə informasiya əldə etmək haqqında Qanunda göstərilibdir. Qanuna əsasən, fərdi məlumat dedikdə aşağıdakılar anlaşılır:

- Şəxslərin siyasi baxışları, dini etiqadları və dünya görüşlərini əks etdirən məlumatlar;
- etnik mənşə və ya irqi mənsubiyyət haqqında məlumatlar;
- cinayət işləri və ya digər hüquq pozuntularına dair işlər üzrə icraatın gedişində toplanmış informasiyalar - açıq məhkəmə iclasınadək və ya hüquq pozuntusuna dair məhkəmə qərarı çıxarılanadək, yaxud insanların mənəviyyatı, şəxsi və ailə həyatının müdafiəsi, yetkinlik yaşına çatmayanın, zərərçəkənin və ya şahidin mənafeyi, yaxud ədalət mühakiməsinin həyata keçirilməsi üçün tələb edilən hallarda;

- sağlamlıq vəziyyəti haqqında məlumatlar;
- şəxslərin özəl xüsusiyyətləri, qabiliyyətləri və xarakterlərinin digər cizgiləri haqqında məlumatlar;
- sosial yardım və sosial xidmətlər göstərilməsinə dair vəsatətlər barəsində məlumatlar;
- ruhi və fiziki əzablara dair məlumatlar;
- vergi ödənişləri üzrə borclar istisna olmaqla, vergitutma ilə əlaqədar məlumatlar.

Ailə həyatına dair məlumatlar da fərdi məlumatlar hesab edilir və qorunur. Bunlar aşağıdakılardır:

- cinsi həyat haqqında məlumatlar;
- vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında məlumatlar;
- ailə həyatının ayrı-ayrı məqamları haqqında məlumatlar;
- övladlığa götürmə ilə bağlı məlumatlar.

## Məhdudiyyətin müddətləri

Dövlət sirri 30 il müddətinə qorunur. Lakin hər 5 ildən bir onun sirr kimi qorunmasının əsaslılığı təkrar nəzərdən keçirilməlidir. Əgər 30 ildən sonda da həmin informasiyaların sirr kimi qorunması aktualdırsa və zəruridirsə o zaman həmin məlumatlar qeyri-müəyyən vaxta qədər sirr kimi qoruna bilər.

Xidməti istifadə üçün nəzərdə tutulan informasiyaların əldə olunmasına qoyulan məhdudiyyət bu məhdudiyyəti doğuran səbəblər aradan qalxdıqda, lakin 5 ildən gec olmayan müddətdə götürülür.

Fərdi məlumatların əldə olunmasına qoyulan məhdudiyyət həmin informasiya alınan və ya sənədləşdirilən gündən 75 il müddətinədək və ya şəxsin vəfatından sonra 30 il müddətinədək və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 110 il müddətinədək qüvvədədir.

## Jurnalistlərin mülki məsuliyyəti

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə Kütləvi informasiya vasitəsinin redaksiyası, məsul redakoru və jurnalistlər, müəlliflər aşağıdakı hallarda mülki məsuliyyət daşıyırlar və bu Mülki Məcəllənin 23-cü maddəsi ilə tənzimlənir:

- Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin.
- Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir.
- Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.
- Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar kütləvi informasiya vasitələrində yayılmışdırsa, həmin kütləvi informasiya vasitələrində də təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.
- Kütləvi informasiya vasitələrində hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş fiziki şəxsin həmin kütləvi informasiya vasitələrində öz cavabının dərc edilməsi hüququ vardır.
- Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.
- Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.
- Mülki Məcəllənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir.

## Jurnalistlərin inzibati məsuliyyəti

Inzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinə əsasən, kütləvi informasiya azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati məsuliyyət müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

· açıqlanması qanunla qadağan edilən məlumatları açmaq;

· mətbu nəşrdə çap olunan materialların qanunvericiliyin tələblərinə uyğun hazırlanmasına nəzarət etməmək;

· qanunvericiliklə müəyyən edilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaymamaq;

· istinad məlumatları göstərilməyən kütləvi informasiya vasitələri məhsullarını istehsal etməyə və yaymağa, yaxud istinad məlumatlarını qəsdən yanlış göstərmək.

İnzibati məsuliyyətin miqdarına gəldikdə, fiziki şəxslər iyirmi manatdan iyirmi beş manatadək miqdarda, vəzifəli şəxslər altmış manatdan səksən manatadək miqdarda, hüquqi şəxslər iki yüz manatdan iki yüz əlli manatadək miqdarda cərimə edilir.

# BÖHTAN VƏ TƏHQİRİN YOLVERİLMƏZLİYİ

## *Böhtan və təhqirə görə jurnalistlərin cinayət məsuliyyəti*

### Böhtan

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147-ci maddəsində Böhtana görə, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yaymaya görə məsuliyyət müəyyən edilmişdir. Belə olan halda, yüz manatdan beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Şəxsi ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma isə ağırlaşdırıcı hal olaraq görülür və iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 15-ci maddəsində cinayət halları 4 yerə bölünüb və maddənin 4-cü bəndində Cinayət Məcəlləsi ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər ağır cinayətlər hesab olunur. Maddənin 5-ci bəndində isə Cinayət Məcəlləsi ilə qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər xüsusilə ağır cinayətlər hesab olunur. Deməli, 147-ci maddənin 2-ci bəndi bu halda tətbiq ediləcəkdir.

Məlumat yayan jurnalistə qarşı Böhtana dair cinayət məsuliyyətinin qaldırılması üçün aşağıda sayılan bütün şərtlərin birlikdə olması zəruridir. Ayrı-ayrılıqda şərtlərdən bəzilərinin olması-digərlərinin olmaması cinayət məsuliyyətini yaratmaz.

İlk növbədə, bu maddənin tətbiqi üçün jurnalistin informasiya yayarkən yaydığı ləkələyici məlumatı qəsdən yayması zəruridir. Əgər səhvən yalan və ləkələyici məlumat yayılmışdırsa, bu zaman cinayət məsuliyyəti yaranmaz. Cinayət məsuliyyətinin yaranması üçün, jurnalistin yaxud məlumatı yayan digər şəxsin yaydığı məlumatın yalan olduğunu bilməsi və bilə-bilə yayması halı olmalıdır.

İkincisi, yayılan məlumat həqiqət olmamalıdır. Əgər məlumat ləkələyicidirsə, lakin yalan deyilsə, fakta söykənirsə, o zaman ümumiyyətlə məsuliyyət yaranmaz.

Üçüncüsü, yayılan məlumat həm yalan həm də şəxsi nüfuzdan salan və ləkələyici xarakterdə olmalıdır. Məlumat yalan olsa belə, ləkələyici yalan deyilsə, yayıldığında şəxsin nüfuzdan düşməsi halı baş verməyibsə, o zaman yenə cinayət məsuliyyətinin yaranması üçün zəruri olan şərtlər reallaşmamışdır.

Dördüncüsü, yalan və ləkələyici məlumat qəsdən kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yayıldığında bu maddənin tətbiqi mümkündür. Bir şəxs digər şəxsə məktubla bir yazı yazıb bu ləkələyici, yalan məlumatları göndərdiyində cinayət məsuliyyəti yaranmaz. Cinayət məsuliyyətinin yaranması üçün şəxs bunu kütləvi çıxışda səsləndirməlidir. Kütləvi çıxış adından da göründüyü kimi kütləyə xitab edilən mənasını daşıyır. Deməli, mitinq, nümayiş və bənzəri kütləvi tədbirlərdə deyilərsə bu məsuliyyət yarana bilər. Ayrıca, yayılma “Kütləvi nümayiş etdirilən əsərdə” olarsa bu zaman məsuliyyət yaranar. “Kütləvi nümayiş etdirilən əsər” anlayışı hər şeydən öncə bir əsərin olması anlamına gəlir. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanunun 5-ci maddəsinə görə müəlliflik hüququ yaradıcılıq fəaliyyətinin nəticəsi olan elmi, ədəbi və bədii əsərlərə şamil edilir. Qanunda əsərin anlayışı verilməyib, lakin əsəri elmi, bədii və ədəbi əsər olaraq sıralayıb. Əsər - əqli fəaliyyətin nəticəsi olduğundan qeyri-maddidir. Əsər obyektiv həqiqətin konkret əməyin nəticəsində öz əksini tapan orijinal, təkrar olunmaz ideyalar, obrazlar kompleksidir. Əsərə misal kimi şer, roman, rəsm əsərini, teart, kino və s. göstərmək olar. Digər bir yayılma halı isə “kütləvi informasiya vasitəsində” baş verdikdə məsuliyyət yaranır. “Kütləvi informasiya vasitəsi” anlayışını qanunvericilikdə nəzərdə tutulan halı ilə izah etsək, Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Resbublikası Qanununda diqqəti çəkən məqamlardan biri 3-cü maddədə verilən “Əsas anlayışlar”dır. Burada kütləvi informasiya vasitələrinin formaları göstərilib. Bunlar aşağıdakılardır:

1. Dövri mətbu nəşrlər (çap prosesinin və ya hər hansı surətçıxaran texnikanın vasitəsilə hazırlanmış, birdəfəlik tirajı 100 nüsxədən çox, daimi adı və cari nömrəsi olan, ildə azı 12 dəfə çıxan qəzetlər və ildə azı 2 dəfə çap olunan jurnal, toplu, bülleten və başqa dövri nəşrlər);
2. Teleradio proqramları (televiziya və radiolar teleradio fəaliyyətinin tənzimlənməsini həyata keçirən qanunvericilik çərçivəsində anlaşılmalıdır);
3. İnformasiya agentlikləri;
4. İnternet;
5. Kinoxronika proqramları və digər yayım formaları.

Deməli, yayılmanın “Kütləvi informasiya vasitəsi”ndə olması halı bu beş bənddə sayılan vasitələrdən birində baş verdikdə gerçəkləşmiş olacaq və cinayət məsuliyyəti yaranacaq. Bütün bu yuxarıda sayılan dörd hal birlikdə olduqda böhtana görə cinayət məsuliyyəti yarana bilər. Lakin unutmaq olmaz ki, bu maddə xüsusi ittiham qaydasında işlədilə bilər. Yəni, bu maddəni jurnalistə qarşı prokurorluq orqanı və ya digər hüquq mühafizə orqanı

tətbiq edə bilməz. Bu maddədə göstərilən cinayət məsuliyyətinin qaldırılması üçün birbaşa zərər çəkən şəxs və ya onun qanuni təmsilçisi ərizə ilə müvafiq məhkəməyə müraciət etməli və yalan, ləkələyici məlumat hesab etdiyi məlumatı yayan şəxsə qarşı xüsusi ittiham qaydasında cinayət işinin başlamasını tələb etməlidir.

## Təhqir

Cinayət Məcəlləsinin 148-ci maddəsində Təhqirə görə, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltmaya görə üç yüz manatdan min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Təhqirə dair cinayət məsuliyyətinin yaranması üçün, eynilə böhtanda izah edilən məqamlar burada da təkrar olunur. Sadəcə bir fərq var, o da "şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada" qəsdən alçaltma olmalıdır. Alçaltma "nalayiq" formada olmalıdır. Bu ifadəni açmaq əslində asan deyil. Çünki, "nalayiq" ifadəsi layiq olmayan deməkdir. Layiq olmayan- ona uyğun olmayan, onu olduğundan fərqli göstərən alçaldıcı ifadələri əhatə edir. Bu zaman əslində cəmiyyətdə "söyüş" kimi qəbul etdiyimiz jargon, vulqar ifadələrlə şəxsin ləyaqətinin alçaldılması halı anlaşılır. Bunun müəyyən edilməsi çox asan deyil. Xüsusilə məhkəmələrdə hakimlər bu ifadələrin ləkələyici olub-olmamasını müəyyən etmək üçün diqqətli olmalıdırlar. Bəzən, praktikada sadəcə hər hansı bir rəsmi qurumdan ekspertiza rəyi tələb edərək, işlədilən ifadənin "təhqir" olmasına dair qərar verirlər. kütləvi yayılan ifadədə bəzən tək bir sözün qiymətləndirilməsi jurnalistin cəmiyyətə çatdırmaq istədiyi ümumi məlumatların öz çərçivəsindən çıxarılmasına və yanlış qiymətləndirilməsinə səbəb ola bilir. Jurnalistlər, ictimai əhəmiyyətli məsələlərdə toplunum diqqətini həmin məsələnin mahiyyətinə çəkmək üçün jarqon yaxud vulqar ifadələr işlədə bilərlər. Bunun bariz mümunəsini, Avropa İnsan Hüquqları Məhkəməsinin "Torgeyrson İslandiyaya qarşı işində (1992) aydın görürük. Bu işdə jurnalist gündəlik qəzetdə polisin qəddarlığı barədə ədliyyə nazirinə ünvanlanmış məktubu çap etdirmiş, məktubda, jurnalist naziri polisin qəddarlığı barədə artan şaiyələri araşdırmaq üçün komissiya yaratmağa çağırmışdı. Jurnalist polisin qəddarlığının qurbanı olduğunu düşündüyü bir şəxsi misal göstərmişdi. Polis əməkdaşlarını və onların davranışını təsvir edərkən jurnalist "şəhərin gecə həyatının cəngəlliklərində sakitcə və ya səs-küylə dolaşan uniformalı vəhşi heyvanlar", habelə "insanları ehmallı və diqqətlə yaxalamaq əvəzinə polislərə və yekəpərlərə daim bunu qəddarlıqla etməyin öyrədilməsi və bundan amansız özbaşınalıqla istifadə edilməsi nəticəsində əqli səviyyələri yeni doğulmuş uşağın səviyyəsinə enmiş şəxslər" və "öz iyrənc cəhətlərini göstərərək qəddar və sadist hərəkətlərə yol verən adamlar" ifadələrini işlətmişdi. İslandiya məhkəməsi, jurnalistə polis işçilərini nüfuzdan salmaya görə cərimə cəzası vermişdir. Hökumət isə Avropa Məhkəməsində iddia edirdi ki: ərizəçi polislərin "nüfuzunun" qorunması üçün məhkum olunub və polisə qarşı yol verilən tənqidin hüdudları yalnız siyasi nitqlər zamanı geniş ola bilər. Avropa İnsan Hüquqları Məhkəməsi isə işə baxarkən bildirdi ki:

"Məhkəmənin siyasi müzakirə ilə toplumun marağında olan məsələlərin müzakirəsi arasında fərq qoyulduğunu deməyə əsas verən hər hansı presedenti yoxdur".

Məhkəmə dövlət qulluqçularının da tənqidə siyasi şəxslər kimi dözümlü yanaşmalı olduğunu bildirdi və qeyd etdi ki: "10-cu maddənin 2-ci bəndi nəzərə alınmaqla, ifadə azadlığı təkcə xoş qarşılanan, ziyansız sayılan "bilgi və ideyalara" deyil, həm də dövləti və ya əhalinin hər hansı bir bölümünü incidən, şoka salan və ya narahat edən "bilgi və ideyalara" da tətbiq edilir. Plüralizmin (çoxsəsliliyin), dözümlülüyün və geniş düşüncəliliyin tələbləri belədir. Bunsuz "demokratik toplum" yoxdur".

Avropa Məhkəməsinin 1999-cu ildə qəbul etdiyi Dalban V. Romaniaya qarşı işində də kütləvi informasiya vasitələrində gedən yazıların müəyyən ölçüdə təxribata yer verə biləcəyini qəbul edib: "Məhkəmə demokratik cəmiyyətdə mətbuatın yerinə yetirdiyi mühüm funksiyanı xüsusi olaraq qeyd edir. Baxmayaraq ki, mətbuat üçün də müəyyən sərhədlər vardır. Xüsusilə, başqalarının reputasiyası və hüquqlarına münasibətdə, mətbuat həmin sərhədləri aşmamalıdır. Mətbuatın vəzifəsi hər bir halda ictimai maraq kəsb edən bütün məlumatları özünün hüquq və vəzifələri ilə bir araya sığan tərzdə ötürməkdir. Jurnalist azadlığı həmçinin şişirtmə və ya təxribatın da müəyyən həddə mümkünlüyünü əhatə edir. (bax, Dalban v. Romania [GC], no. 28114/95, § 49, ECHR 1999-VI).

## Azərbaycan Respublikası Prezidentinin şərəf və layaqətinin qorunması

Cinayət məsuliyyəti yaradan digər bir hal, Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin şərəf və layaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində ləkələmə və ya alçaltma halıdır. Cinayət Məcəlləsinin 323-cü maddəsinə əsasən bu halda beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə törədildikdə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu maddənin mahiyyəti ilk baxışdan Cinayət

Məcəlləsinin 147-ci və 148-ci maddələrində göstərilən böhtan və təhqirin eynisi olduğu və bir maddədə birləşdirildiyi görüntüsü yaratsa da, əslində bəzi fərqliliklər var və bunlar ciddi fərqlərdir. Böhtan və təhqirə görə cinayət məsuliyyətini tənzimləyən maddələrdə yuxarıda saydığımız 4 şərtin bir arada olması zəruridir. Lakin Cinayət Məcəlləsinin 323-cü maddəsinə diqqətlə baxdıqda, bu dörd şərtdən ən önəmlisi olan "qəsd" ünsurunun bu maddədə tələb olunmadığını görürük. 147 və 148-ci maddələrin tətbiqində qəsd olmadıqda, cinayət məsuliyyəti yaranmadığı halda, 323-cü maddədə qəsd olmadan cinayət məsuliyyətinin yarandığını görürük.

İkinci fərq, yayılmanın qəsd olmadan baş verməsinə baxmayaraq, nəzərdə tutulan cəzaların daha ağır olmasıdır. 147-ci maddədə ən ağır cəza kimi 3 ilədək həbs nəzərdə tutulmuşdur. Halbuki, 323-cü maddədə bu cəzanın müddəti 5 ilədək nəzərdə tutulmuşdur.

Üçüncü fərq, 147 və 148-ci maddələrin tətbiqi üçün xüsusi ittiham qaydasında məhkəməyə müraciət etmək zəruri olduğu halda, 323-cü maddənin tətbiqi üçün xüsusi ittiham qaydası tələb edilməməkdədir.

## JURNALİSTİKA İRQÇİLİK VƏ DÖZÜMSÜZLÜYƏ QARŞI: DİN VƏ MEDİA

### *Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması*

İfadə azadlığının məhdudlaşdırılmasının əsas səbəblərindən biri olan milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə, milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə Cinayət Məcəlləsinin 283-cü maddəsinə əsasən cinayət məsuliyyəti yaranır. Buna yol verən şəxs min manatdan iki min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, mütəşəkkil dəstə tərəfindən törədildikdə bu məsuliyyətin miqdarı artır və üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Avropa Məhkəməsi təcrübəsində zorakılığa, irqçılık və dözümsüzlüyə yanaşma böhtan və tənqidə yanaşmadan xeyli fərqlənir.

İnsanları bilərəkdən birbaşa zorakılığa təhrik edən ifadələr zorakılığın baş vermə ehtimalının gerçəyə çox yaxın olduğu hallarda işlədilirsə, belə ifadələr zorakılığa təhrik etmə sayılacaq və 10-cu maddənin təmin etdiyi müdafiənin hüdudlarından kənarda qalacaq.

Sürekin işində jurnalist Türkiyənin cənub-şərqində separatçı dəstələrin çıxışlarını "küdrlərin milli-azadlıq mübarizəsi", "Türkiyə Respublikasının silahlı qüvvələrinə qarşı müharibə" kimi qələmə verir və iddia edirdi ki, "biz tam azadlıq mübarizəsi aparırıq". Məhkəmənin fikrincə:

"etiraz doğuran məqalədə PKK-nın fikirləri əks olunmuş və "Kürdüstan"ın milli müstəqilliyinə nail olmaq üçün silahlı dəstələrdən istifadəyə çağırış ifadə edilmişdi".

Məhkəmə daha sonra qeyd etdi ki, məqalə təhlükəsizlik qüvvələri ilə PKK üzvləri arasında ciddi iğtişaşların baş verdiyi, çoxlu sayda insan itkilərinin olduğu və Türkiyənin cənub-şərqinin böyük bir hissəsində fövqəladə vəziyyətin tətbiq edildiyi bir şəraitdə dərc olunub. Belə şərairdə:

"məqalənin məzmunu regionda insanları əlavə zorakılığa təhrik edən məzmun hesab edilməlidir. Oxucuya çatdırılan bu mesaj həqiqətən təcavüzkarın qarşısında zəruri və haqlı özünümüdafiə tədbiri qismində zorakılığa əl atmağa çağırış idi"

Bu qiymətləndirmədən sonra məhkəmə belə qənaətə gəldi ki, ərizəçinin məhkum edilməsi 10-cu maddəyə zidd olmayıb.

Nasist ideologiyasını təşviq edən, holokostu inkar edən və insanları nifrətə və irqi ayrı-seçkiliyə təhrik edən çağırışlar 10-cu maddənin təmin etdiyi müdafiənin hüdudlarından kənarda qalır. Kühnenin işində Avropa İnsan Haqları Komissiyası əcnəbilərin sıxışdırılmasına, milli və irqi ayrı-seçkiliyə çağırışlar edən ifadələri müdafiə etmədi. Komissiya Konvensiyanın 17-ci maddəsinə istinad edib şikayəti qəbulolunmayan elan etdi. Həmin maddə "Konvensiyada... təsbit olunan hüquq və azadlıqların ləğvinə yönəlmiş" hər hansı fəaliyyəti qadağan edir. Komissiya dedi ki, ifadə azadlığı Konvensiyada təsbit olunan hüquq və azadlıqları ləğv etmək üçün istifadə oluna bilməz.

Azərbaycan məhkəmə tarixində dini nifrət və ayrıseçkiliyin önlənməsi baxımından diqqər çəkən işlərdən biri "Avropa və biz" adlı yazının çapına görə Rafiq Tağı və Samir Sədaqətoğluna qarşı baş verən məhkəmə işi və buna görə məhkumiyyət qərarının verilməsidir. Rafiq Tağı və Samir Sədaqətoğluna qarşı işdə hər iki jurnalist "Sənət" qəzetində dərc olunmuş "Avropa və biz" adlı yazının dini ayrıseçkilik salması ittihamı ilə mühakimə olundular və azadlıqdan məhrum edildilər. Yazıda Avropa millətləri ilə Azərbaycan və müsəlman dininin hakim olduğu qonşu ölkələr müqayisə olunurdu. Jurnalist ikincilərdə demokratiyanın, firavanlığın və insan haqlarının vəziyyətinin Avropaya nisbətən geridə qalmasını dini fərqlərlə izah edir, bu zaman müsəlman dindarları üçün çox həssas olan və etik olmayan ifadələr işlədirdi. O deyirdi: "Isa Peyğəmbərə tapınan kəs heç vaxt Məhəmməd Peyğəmbərə burun silməz. İsa Peyğəmbərlə müqayisədə

müharibə fətvalarının atası Məhəmməd Peyğəmbər, sadəcə, qorxunc bir məxluqdur". Müəllifin yazıda provokativ ve etik olmayan ifadələrdən, epatajdan istifadə etməsi bir sıra dindarların etirazı ilə nəticələnmişdi. Məhkəmələr bu ifadələri ifadə azadlığı çətiri altında qiymətləndirməyərək jurnalisti uzun müddətli həbslə cəzalandırma qərarı verdilər. Beləliklə, jurnalistin dini ayrıseçkilik yaradan ifadələrini ifadə azadlığı kimi qiymətləndirmədilər. Təəssüf ki, Rafiq Tağı 2011-ci ilin noyabr ayında naməlum şəraitdə vuruldu və sonra həyatını itirdi. Bu hadisə göstərir ki, jurnalistlər təhlükəli peşə ilə məşğul olur və bəzən bu fəaliyyət onların həyatı hesabına başa gəlir.

Avropa Məhkəməsi təcrübəsinə nəzər saldıqda, dini nifrət oyadan və ayrıseçkilik yaradan ifadələrin də ifadə azadlığı baxımından qorunmadığının şahidi olmaq mümkündür. 22 aprel 2010-cu ildə qəbul edilən Fətullayev Azərbaycana qarşı işində 103-cü paraqrafda məhkəmə "Hazırkı işdə ərizəçi iki il 6 ay həbs cəzasına məhkum edilib. Bu cəza şübhəsiz ki, çox ağır olub. Çünki, ərizəçiyə qarşı artıq eyni məlumatlara görə mülki iddia qaldırılmışdı. Nəticədə o, xeyli kompensasiya ödəyib. Məhkəmə qeyd edir ki, cəza vermək prinsip etibarı ilə ölkədaxili məhkəmələrin işidir. Jurnalistlərə azadlıqdan məhrumetmə cəzasının tətbiq edilməsi ancaq istisna hallarda - digər əsas hüquqların ciddi şəkildə pozulduğu, məsələn, dini, irqi ayrıseçkiliyə, zorakılığa çağırış olduğu halda 10-cu maddəyə uyğun olar.

## MEDİADA TERRORİZM HADİSƏLƏRİNİN İŞIQLANDIRILMASININ HÜQUQİ VƏ ETİK ASPEKTLƏRİ

### Terror - media əlaqəsi və cəmiyyətdə terrorun əkssədası

Terror; ictimai rəyi nəzarətə götürməyi hədəfləyən, cəmiyyəti istədiyi istiqamətə doğru yönəltməyə çalışan, eyni zamanda cəmiyyətdə etibarsızlıq və xaos mühiti yaratmağı təməl məqsəd olaraq seçən bir anlayış olaraq ortaya çıxmaqdadır. Geridə qalan 20-ci əsrdə terroizm müxtəlif cəmiyyətlərin hafizəsində qalan və müəyyən iz buraxan hadisələrlə xatırlanmaqda, hətta müəyyən mənada məqsədinə çatmaqdadır.

Terror hərəkətlərinin ən əhəmiyyətli məqsədi hadisənin baş verdiyi cəmiyyəti silkələyərək diqqəti çəkməkdir. Bunu hansı yolla bacara bilər? Cəmiyyəti silkələyən, onu yerindən oynadan təsiri təmin etmək üçün hansı vasitədən istifadə ediləcək? Bu məqamda terrorizmin köməyinə media yetişir və terrorun əksik qalan və bəlkə də təkbaşına heç bir vaxt tamamlaya bilməyəcəyi parçasını tamamlayır. Terror hərəkətlərinin nə qədər çox adamı öldürdüyü deyil nə qədər çox insan üzərində təsir yaratdığı effektini düşündükdə, bu effektin yaranmasında medianın nümayiş etdirdiyi görüntülər ən önəmli nöqtəni təşkil edir.

Mediada nümayiş etdirilən hər bir görüntü müasir kommunikasiya texnologiyasının da inkişafı ilə birlikdə milyonlarla insana eyni vaxtda çatmaqdadır. Bununla birlikdə terror hadisələrinin baş verdiyi anda ortaya çıxan xəbərlər və görüntülər, onu izləyənlərin zehinlərində əhəmiyyətli izlər buraxmaqdadır. Bir hadisənin mediada davamlı olaraq yer alması halında isə zehinlərdəki tablo "Hər an ölə bilərəm" düşüncəsinə çevrilməkdə və insanları, hətta cəmiyyəti nəzarətdə saxlaya bilməkdədir. Ayrıca, terror hadisəsinin canlı göstərilməsi və hücum anının insanlarda yaratdığı şok təsiri bərabərində qorxu və təhlükəsizliyi də gətirməkdədir. Qorxu və təhlükəsizlik ictimai mühitə yayılmaqda və terror hadisələrindən yararlanan qruplara divident qazandırmaqdadır.

Əslində Terror- media əlaqəsi bir məcburiyyətdən doğur. Terror hərəkətləri daha çox insanı təsir altına almağı hədəfləyərkən, eyni zamanda kommersiya fəaliyyəti hesab olunan və gəlirini, yəni reytinqini düşünən media da izlənilmə nisbətlərinin yüksəlməsini hədəf seçməkdədir. Terror hadisəsini törədənlər bunun media vasitəsi ilə yayılacağını və cəmiyyət tərəfindən izlənəcəyini məqsəd olaraq seçməkdədirlər və yanılmırlar. Media isə öz növbəsində bu görüntülərin, xəbərlərin daha çox insan tərəfindən izləndiyi üçün yüksək reytinq əldə etməkdədir. Medianın terror hadisələrinə dair görüntü və xəbərləri davamlı olaraq təkrarlaması cəmiyyətdə ciddi ajiotaja səbəb olarkən, terrorizmin ən əhəmiyyətli məqsədlərindən biri olan cəmiyyətin diqqətini hadisələrə çəkmək və qorxu yaratmaq məqsədi gerçəkləşmiş olur. Bu təsirləri nəzərə alan media, terrorun məqsədinə alət olmaqdan yayınmalı, terror hadisəsini şişirdərək təqdim etdikdə ona gələcək dividentlərdən, gəlirlərdən, reytinqdən imtina etməyi bacarmalıdır. Çünki, diqqətlə məsələnin mahiyyətinə yanaşdıqda, bir anlığa medianın bu məlumatları yaymada "faydası" olduğunu qəbul etsək belə, uzaq hədəflərdə bunun bütünlüklə cəmiyyətin faydasına olmadığını görə bilərik. Cəmiyyətin faydasına olmayan heç bir hal, medianın faydasına ola bilməz. Uzun hədəfdə, bu terror hadisələrinin yaratdığı qorxu- inamsızlıq, hərc-mərclik nəticə etibarı ilə sabitliyə, əmin-amanlığa, demokratik düzənin zədələnməsinə yönələcək və medianın davamlılığını da zərbə altına alacaqdır. Odur ki, media terror hadisələrinə yanaşmada, xəbərin çatdırılmasını məsləki zərurət olaraq görməklə bərabər, terrorun məqsədinə xidmət etməməli, onu qorxuducu şəkildə acizlik nümuməsi kimi təqdim etməməli, bunun sivil bir metod olmadığını, terrorun heç bir zaman hədəfə çatmayacağını, insanların qorxduğunu deyil, buna qarşı nifrətlə silahlandığını önə çəkməli, terrorun hədəfini dağıtmaqda topluma və dövlətə kömək etməlidir. Çünki, dövlət toplum tərəfindən qurulmuş və topluma məxsus olan bir mexanizmdir və toplu-

mun mənafelərinin müdafiəsi üçün vardır.

Azərbaycan Mətbuat Şurasının əsas sənədlərindən olan «Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları»nın 3.11-ci bəndinə əsasən, "Jurnalist cinayət əməlləri, zorakılıq, qəddarlıq və intihar halları barədə reportajlarda belə əməllərin təşviqi və ya əsassız olaraq sensasiyalı formada təqdim olunmasından çəkinməlidir. Jurnalist zorakılığı təşviq edən, təhrik etməyə səy göstərən və ya belə hallara əl atan şəxslər tərəfindən vasitə kimi istifadə olunmamalı, əksinə, öz reportajlarında belə şəxslərin fəaliyyəti barədə müvafiq məhdudiyyətləri tətbiq etməli və yalnız müvafiq informasiyanın ictimai əhəmiyyət kəsb etməsi şübhə doğurmadıqda bu barədə reportajlar hazırlamalıdır". Həmin Qaydaların 3-12-ci bəndində isə birbaşa terror hadisələrinə dair davranış öz əksini tapıb. "Jurnalist və redaksiya terror hadisəsini şişirdən, terrorçuların məqsədinə xidmət edən qorxu effekti yaradan, terroru öyən və terror hərəkətinə bəraət qazandıran reportajlar verməməlidir". Göründüyü kimi, etik davranış qaydaları da terror hadisələrinin məqsədinə xidmət etməməyi əsas görürməkdədir.

### Terrora görə hüquqi məsuliyyət

Hüquqi baxımdan yaranan məsuliyyətə gəldikdə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.1-ci maddəsində terrorçuluğu və terrorçuluqla hədələməni cinayət əməli kimi qəbul edir və cəzalandırma nəzərdə tutur:

214.1. Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə- əmlakı müsadirə olunmaqla səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Jurnalist Eynulla Fətullayev 30 mart 2007-ci ildə "Realnıy Azerbaydjan" qəzetində "Əliyevlər müharibəyə gedir" başlığı altında "Rövşən Bağırov" qondarma imzalı məqalə dərc etdirib. Bu məqaləyə görə ona 214.1-ci maddəyə əsasən 31 may 2007-ci ildə cinayət işi açılıb. Baş Prokuror cinayət işi açılmasını belə əsaslandırıb: "Saytda mühüm dövlət obyektlərinin adı və ünvanları qeyd edilib. Deyilənlərə görə, onlar İran İslam Respublikası tərəfindən bombalanacaq. Bu məlumat terror hədəsi cinayətinin tərkibini yaradır". Buna görə də MTN tərəfindən Cinayət Məcəlləsinin 214.1-ci maddəsi ilə cinayət işi başlanıb və o 30 oktyabr 2007-ci ildə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə bütün ittihamlarda təqsirli bilinib. Hökmlərin məcmusu qaydasında o 8 il 4 ay müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə qərarında gəldiyi nəticəyə görə, bu cür məqalənin nəşri cəmiyyətdə çaxnaşma yaratmaq olub. Daha sonra məhkəmə müəyyən edib ki, məqalədə ərizəçi Hökuməti dövlət mülkiyyətini məhv etməklə, insnaların həyatına təhlükə yaratmaqla hədələyib. Məqsəd isə hökuməti milli maraqlar naminə qəbul edilən qərarlardan çəkindirmək olub.

Yerli məhkəmələrin qərarını Avropa Məhkəməsinə götürüblər. Avropa Məhkəməsi bu Jurnalistə qarşı verilən həbsi Konvensiyanın bir çox müddəalarına zidd hesab edib və qeyd edib: "İşin xüsusi hallarını nəzərə alaraq 10-cu maddənin pozuntusuna dərhal son qoymaq üçün Məhkəmə hesab edir ki, cavabdeh dövlət Konvensiyanın 46-cı maddəsində nəzərdə tutulan öhdəliyini yerinə yetirmə üsullarından biri kimi Ərizəçini dərhal həbsdən azad etməlidir". Bu qəradan sonra Azərbaycan hökuməti jurnalisti azadlığa buraxmaq qərarı verdi və jurnalist üzərində olan digər ittihamlar da ləğv edildi.

Bu işdə terror hədəsinə dair məhkəmə işi hüquqi baxımdan qüsurlu idi və jurnalist əslində fikirlərini təhdid şəklində yox, ehtimallar şəklində sıralamışdı. Bu jurnalistin azadığı çərçivəsinə daxil olan məsələdir və belə olan halda onu buna görə suçlamaq və həbs etmək mövcud hüququ yanlış tətbiq etmək idi.

Avropa Məhkəməsinin terror hadisələrini təbliğ edən, onu öyən yazıları ifadə azadlığı çərçivəsində qorumur. Yuxarıda qeyd etdiyimiz Sürekin Türkiyəyə qarşı işində bunu aydın şəkildə gördük. Jurnalist Türkiyənin cənub-şərqində separatçı dəstələrin çıxışlarını "küdrlərin milli-azadlıq mübarizəsi", "Türkiyə Respublikasının silahlı qüvvələrinə qarşı müharibə" kimi qələmə verir və iddia edirdi ki, "biz tam azadlıq mübarizəsi aparırıq". Avropa Məhkəməsinin fikrincə:

"etiraz doğuran məqalədə PKK-nın fikirləri əks olunmuş və "Kürdüstan"ın milli müstəqilliyinə nail olmaq üçün silahlı dəstələrdən istifadəyə çağırış ifadə edilmişdi".

Məhkəmə daha sonra qeyd etmişdi ki, məqalə təhlükəsizlik qüvvələri ilə PKK üzvləri arasında ciddi iğtişaşların baş verdiyi, çoxlu sayda insan itkilərinin olduğu və Türkiyənin cənub-şərqinin böyük bir hissəsində fövqəladə vəziyyətin tətbiq edildiyi bir şəraitdə dərc olunub. Belə şəraitdə:

"məqalənin məzmunu regionda insanları əlavə zorakılığa təhrik edən məzmun hesab edilməlidir. Oxucuya çatdırılan bu mesaj həqiqətən təcavüzkarın qarşısında zəruri və haqlı özünümüdafiə tədbiri qismində zorakılığa əl atmağa çağırış idi". Beləliklə, 10-cu maddə Türkiyə hökuməti tərəfindən pozulmayıb və alınan tədbir demokratik cəmiyyətdə zəruri tədbir xarakteri daşıyır.

# MEDİADA MÜHARİBƏ TƏSVİRİ: JURNALİSTİN DAVRANIŞ QAYDALARI

Media-müharibə əlaqələri tarixdə mətbuatın mövcud olmasından sonra başlasa da, ən ciddi əlaqələr elektron medianın inkişafı, xüsusilə televiziyaların yayılması və geniş kütlələr tərəfindən baxılması ilə yeni mərhələyə qədəm qoymuşdur. 1968-ci ildə Amerika Birləşmiş Ştatlarında əhalinin 86%-nin televiziyaya baxma imkanı vardı və Vyetnam müharibəsi bu baxımdan dönüm nöqtəsi olmuşdur. Təsadüfi deyil ki, Vyetnam müharibəsinə evin salonu müharibəsi deməyə başlamışdırlar. Milyonlarla tamaşaçı oturduğu yerdən müharibənin gedişini izləmə imkanı qazanmışdı. Vyetnam müharibəsi jurnalistlərin media azadlığını maksimum istifadə edə bildikləri bir müharibə olmuşdur. Onlar istənilən yerdən, istənilən formada sərbəst yayımlar həyata keçirmiş, beləliklə, jurnalistlər özlərini hərbçilərin salnaməçiləri olaraq görməkdən xilas olmuşdurlar. Jurnalistlərin hər yerdən azad şəkildə yayımlarla çıxış etməsi Vyetnamdan çıxmaq məcburiyyətində qalan Amerika hökumətinin və hərbçilərinin qiymətləndirmələrinə görə, məğlubiyyəti hazırlayan əsas səbəblərdən olmuşdur. Medianın hərb meydanından azad şəkildə istədiyi yerdən yayım hazırlaması hərbi idarə edən tərəf baxımından ciddi problemlər yaradırdı. Çünki, hərbçilər məlumatları gizləmək istərkən, jurnalistlər daha geniş kütləni bilgiləndirməyi məqsəd olaraq qarşılarına qoyurdular. Beləliklə, burada mənafelərin toqquşması baş verirdi. Bu səbəbdəndir ki, 1983-cü ildə ABŞ Prezidenti Ronald Reygan Grenada adasında baş verən marksist çevrilişə Amerika vətəndaşlarını qoruma bəhanəsi ilə "Təcili şiddət müdaxiləsi" əmri verərkən, medianı tam 48 saat, yəni əməliyyatı başa çatdirana qədər adaya buraxmamış, hadisəni KİV-dən gizləmişdi. Beləliklə, Grenadada baş verənlərdən birinci mənbədən xəbər almaq şansı olmadı. Sadəcə daha sonra hovuz sistemi tətbiq edildi. Grenadadan sonra həyata keçirilən Panama müdaxiləsində də bu sistem tətbiq edildi və jurnalistlərin ilk mənbədən məlumat toplamaq imkanları əllərindən alındı. Beləliklə, bütün xəbərlər nəzarət altında tutuldu, hovuza daxil olmayan jurnalistlərin bölgəyə girişinə icazə vermədi. Halbuki, Vyetnam muharibəsi muharibə jurnalistlərinin sərbəst fəaliyyət göstərməsi baxımından akreditasiya sisteminin tətbiq edildiyi ilk hal olmuş və jurnalistlər azad şəkildə xəbər toplaya və yaya bilmişdilər.

1991-ci ildə birinci Körfəz müharibəsi muharibə jurnalistikası baxımından yeni bir mərhələ olmuşdur. Burada da əsasən hovuz sistemi tətbiq edilməklə bərabər, jurnalistlərə sərbəst xəbər toplamaq imkanı da tanınmışdır. 1400-dən çox jurnalistdən yalnız çox az bir hissəsi bu imkandan istifadə etmiş, digər çoxluq hovuz sisteminin imkanları ilə kifayətlənmişdir. Hovuz sisteminə daxil olan jurnalistlər rahat və təhlükəsiz şəkildə hərbi əməliyyatların aparıldığı yerə çatdırılırkən, sərbəst qalan jurnalistlərin hərbi əməliyyatların getdiyi yerə girişlərinə senzura tətbiq edilmişdir. Beləliklə, bu prosesə hadisə yerinə çatmaya senzura adı da verilmişdir.

Körfəz müharibəsində ortaya çıxan digər bir imkan, CNN televiziyasının müxbiri Peter Arnettin istifadə etdiyi metoddur. O, hovuz sisteminə daxil olan və sadəcə İraqın cənubundan yayınlar edən mediadan fərqli olaraq, İraqın rəsmi dairələrində akreditasiya olunaraq, birbaşa bombalanan Bağdaddan canlı yayımlarla çıxış edə bilmiş, beləliklə İraq müharibəsində dünyada məşhurluq qazanmışdir. CNN televiziyası da bu imkanlarla dünyada marka halına gəlmə şansı əldə etmişdir.

## Muharibə meydanlarında əsgər-jurnalist münasibətləri

Müharibələrdə əsgər-media münasibətləri ən gərgin və ən mürəkkəb münasibətlərdəndir. Bir tərəfdə hər şeyi gizli tutaraq, qarşı tərəfə üstünlük qazanmaq istəyən əsgərlər, digər tərəfdə bütün prosesi şəffaflığı ilə toplumun önünə sərgiləmək istəyən media durmaqdadır. Amma, bunların bir- birinə olan ehtiyacı bir arada fəaliyyət göstərmələrini zəruri edən amillərdəndir. Bu ehtiyacı doğuran nədir? Əsgərlər bilgiləri gizli tutmaq istəsələr də, özlərinin uğur hekayələrinin cəmiyyət tərəfindən bilinməsini istərlər. Qazandıqları uğurları, qələbələri geniş kütlələrə çatdırmaq həvəsi bu münasibətləri ziddiyyətli olsa belə, sürdürəcək hala gətirir. Jurnalistlər üçün də bu bir imkandır. Bir tərəfdə öz uğurlarını, qələbələrini toplumla paylaşmaq istəyən əsgərlər varkən, media bu ortamda digər zəruri bildiyi və ictimai əhəmiyyətli informasiyaları sürətli bir şəkildə paylaşma şansı qazanmaqdadır. Beləliklə, bu münasibətlər bir-birinin ziddinə olsa da, davamlı olaraq sürməkdədir. Qarşılıqlı olaraq birbirilərinə tərəflərin ehtiyacı var. Jurnalistlər təhlükəsiz bir şəkildə birbaşa birinci mənbədən informasiyalar əldə etmək və sürətli bir formada cəmiyyətə çatdırmaq istərkən, əsgərlər də jurnalistlərlə etibarlı bir əməkdaşlıq edərək, onları öz məqsədləri istiqamətində istifadə etmənin yollarını axtarmaqdadırlar.

## Müharibədə jurnalist təhlükəsizliyi

Müharibə meydanları hər zaman silahsız jurnalistlər üçün bir təhlükə mənbəyidir. Sadəcə "silahları" foto və ya video kameralardan ibarət olan jurnalistlər ən yaxşı xəbərləri əldə etmək, ən yaxşı fotoları, ən yaxşı görüntüləri cəmiyyətin diqqətinə çatdırmaq məqsədi ilə öz həyatlarını cidddi təhlükə qarşısında qoyaraq, iki atəş arasına atılırlar. Bu zaman ciddi risklər alır, zaman-zaman ən yaxşını əldə edim deyərkən, həyatlarını itirirlər. Təsadüfi deyil ki, Beynəlxalq Jurnalistləri Müdafiə Komitəsinin

məlumatlarına əsasən, 2-ci dünya müharibəsi zamanı 68 jurnalist həyatını itirmişdirsə, Koreya müharibəsində 17, Vyetnam müharibəsində 66, ikinci İraq müharibəsində isə mart 2003- aprel 2007-ci illəri arasında 100 jurnalist həyatını itirmişdir. Cenevrə Konvensiyasına əsasən, jurnalistlər qorunmalı olan sivillər olmasına baxmayaraq, savaş meydanlarında onlar müharibə hüququnun qaydalarına əhəmiyyət verilməyərək öldürülürlər.

Müharibədə iştirak edən jurnalistərin tanıdıcı kartları onların qorunmasını zəruri edir. Bu kartlar onların vətəndaşı olduğu ölkənin səlahiyyətli qurumları tərəfindən və ya müharibə aparan tərəflər tərəfindən verilmiş ola bilər. Jurnalist savaş meydanında tərəf olmamalı, heç bir tərəfdən çıxış etəməmlidir. Öz tərəfsizliyini və sivilliyini qorumalıdır. Beynəlxalq müharibə hüququ bu sənədlərdə jurnalistləri qorusa da, savaş meydanları yenə də jurnalistlərin həyatı üçün ciddi təhlükə olaraq qalmaqdadır. Bu səbəbdən bir çox beynəlxalq qurumların müxtəlif rəhbər prinsipləri və davranış qaydaları mövcuddur. Beynəlxalq Jurnalistlər Federasiyasının iki fərqli sənədi mövcuddur. Bunlardan biri "Jurnalistlər üçün həyatda qala bilmə rəhbəri", digəri isə, "Təhlükəli durumlarda xərəbçilik rəhbəri"dir. Müharibə zamanı təhlükəli əməliyyatların aparıldığı zonalarda fəaliyyət göstərən jurnalistlər üçün nəzərdə tutulan bu rəhbərlərdə, bubi tələsindən tutmuş, ilk yardıma, bronjiletlərdən tutmuş, ayrı-ayrı silahların xarakterlərinə qədər ehtiyac ola biləcək geniş bilgilər mövcuddur.

Bu rəhbərlərdən çıxan nəticə birmənalı olaraq budur ki, jurnalistlər də əsgərlər qədər savaş meydanı haqqında, savaş qaydaları haqqında geniş bilgi sahibi olmalı, ekstrimal vəziyyətdə çıxış yolu tapa bilməlidir. Çünki, onlar da əsgərlərlə eyni dərəcədə risk altındadırlar və ekstrimal vəziyyətlə qarşılaşma ehtimalları var.

## UŞAQLARLA MÜSAHİBƏ GÖTÜRMƏK ÜÇÜN 10 ƏSAS ŞƏRT

1. Öncədən xüsusi icazə alın.
2. Tələsdirməyin - danışmaq istəyirlərsə, qərara almaları üçün uşaqlara vaxt verin.
3. Uşaqların özlərini rahat hiss edə biləcəkləri məkandan istiafadə edin.
4. Onların ədəbi səviyyələrinə uyğun hərəkət edin.
5. Onlara nə üçün danışmaq istədiyinizi və əldə edəcəyiniz məlumatdan necə istifadə edəcəyinizi izah edin.
6. Sual verməlari üçün imkan yaradın və onların suallarını hər zaman səmimi cavablandırın.
7. Müsahibə götürərkən istifadə etdiyiniz alətlərlə necə işlədiyinizi izah edin- onlara baxmaq, toxunmaq və istifadə etmələrinə izn verməklə diqqətlərini cəlb edin.
8. Hazırlamaq`üçün uşaqları pulla ələ almayın.
9. Sonradan sizinlə necə əlaqə yarada biləcəklərini bildirin.
10. Əgər mümkündürsə əmin edin ki, sizin təqdim etdiyiniz materialları görə və eşidə biləcəklər.

# ETİK KODEKSLƏRƏ DAİR NÜMUNƏLƏR

## Əlavə 1

## BJF-nin Jurnalistlərin Davranış Prinsipləri Bəyannaməsi

(Bəyannamə, Beynəlxalq Jurnalistlər Federasiyasının 1954-cü ildə keçirilən Dünya Konqresi tərəfindən qəbul edilmişdir. 1986-cı ildə keçirilən Dünya Konqresi zamanı Bəyannaməyə dəyişikliklər edilmişdir)

Bu Bəyannamə, məlumat və xəbərlərin toplanması, ötürülməsi, yayılması, şərh olunması işi ilə məşğul olan jurnalistlərin peşəkar davranışlarının beynəlxalq standartı kimi qəbul edilir.

1. İctimaiyyətin həqiqəti bilmək hüququna hörmətlə yanaşmaq jurnalistin ilk vəzifəsidir.

2. Bu vəzifəni yerinə yetirərkən, jurnalist xəbərlərin obyektiv toplanması və nəşri, eləcə də tənqid və şərh zamanı ədalətli olmağı ilk prinsip kimi öndə tutmalıdır.

3. Jurnalist yalnız mənbəyini bildiyi faktlara uyğun məlumat verməlidir. Jurnalist mühüm məlumatı gizlətməməli və ya əldə etdiyi informasiyanı saxtalaşdırmamalıdır.

4. Xəbərlər, şəkillər, sənədlər əldə etmək üçün jurnalist yalnız vicdanlı metodlardan istifadə etməlidir.

5. Qeyri-dəqiq və ya yanlış informasiya yaymışsa, jurnalist bunu müəyyən etdiyi andan onu düzəltmək üçün əlindən gələni etməlidir.

6. Gizli əldə olunan məlumatın mənbəyinin məxfiliyini qorumaq jurnalistin peşə borcudur.

7. Jurnalist irqi, cinsi, qeyri-ənənəvi oriyentasiya, dil, din, siyasi və digər fikirlər, milli və sosial mənşəyə görə ayrı-seçkilik hallarının qarşısını almaq üçün səy göstərməlidir.

8. Aşağıdaklar jurnalist üçün ciddi peşə xətaları hesab olunur: plagiatlıq; böhtan; şər; iftira; əsassız ittihamlar; qərəzli, yanlış şərh; əldə edilmiş informasiyanı nəşr etməmək qarşılığında pul almaq.

9. Jurnalist adına layiq olanlar yuxarıda qeyd olunan prinsiplərə hörmətlə riayət etməyi özlərinin vəzifəsi hesab etməlidirlər. Hər bir ölkənin ümumi qanunu çərçivəsində, yalnız hökümətlər və ya başqaları tərəfindən müdaxilə istisna olmaqla, professional məsələlərdə həmkarlarının mühakimə hüquqlarını tanıyacaqlar.

---

## Əlavə 2

## Almaniya jurnalistlərinin kodeksi

1. Mətbuatın ən yüksək qanunu həqiqətə hörmət, insan ləyaqətini müdafiə etmək və cəmiyyəti düzgün informasiya ilə təmin etməkdir.

2. Dərc edilən materiallar dəqiq yoxlanmalı, onların saxtalaşdırılmasına yol verilməməlidir. Şayiələrə, dedi-qodulara söykənmək olmaz.

3. Dərc edilən informasiya səhv olduqda dərhal təkzib verilməli, səhv düzəldilməlidir.

4. İnformasiya toplamaq prosesində qəbul olunmayan metodlar tətbiq edilə bilməz.

5. Konfedensiallığa riayət edilməlidir.

6. Hər bir mətbuat işçisi nəşrin nüfuzunu qorumalıdır.

7. Mətbuatın cəmiyyət qarşısında məsuliyyəti tələb edir ki, redaksiya materialları heç kimin təsiri altında ola bilməz.

8. Mətbuat insanların şəxsi və intim həyatına hörmət edir. Şəxsi davranış yalnız ictimai maraqlara toxunanda onu müzakirə etmək olar.

9. Mətbuat təhqirə yol vermir.

10. Mətbuatda gedən mətn, yaxud illüstrasiya öz məzmunu, yaxud forması ilə hər hansı bir qrup insanın dini, milli adətlərini təhqir etməməlidir.

11. Mətbuat özünü doğrultmayan gücü və kobudluğu qəbul eləmir.

12. Cinsi, etnik, dini, sosial, milli fərqlərlə bağlı heç kəsin heysiyyatına toxunmaq olmaz.

13. Məhkəmə hökm çıxarmayınca "cinayətkar" sözünü işlətmirik. Məhkəmənin gedişinə mane olan prosesləri işıqlandırmırıq.

14. Tibbi mövzuda yazılarda özünü doğrultmayan qorxu və ya təsəlli barədə söz demirik.

15. İnformasiya ilə bağlı kənar öhdəlik götürən, onun çapına, ya gizlədilməsinə görə rüşvət alan jurnalist vicdansızdır.

---

## Əlavə 3

## Britaniya Milli Jurnalistlər Birliyinin hazırladığı kodeks

1. Jurnalist söz və ifadə azadlığını, ictimaiyyətin məlumat almaq hüququnu hər zaman dəstəkləyir və müdafiə edir.

2. Jurnalist yaydığı informasiyanın vicdanla, dəqiq və ədalətli ötürülməsinə zəmanət verir.

3. Jurnalist yol verdiyi səhvləri düzəltmək üçün mümkün olan hər şeyi edir.

4. Jurnalist faktla şərh arasında olan fərqi bilir.

5. Materialı düzgünlük, açıq fikirlilik və ictimai maraq kəsb etməsi prinsipi ilə əldə edir.

6. Kiminsə şəxsi həyatına ictimai maraq kəsb etsə belə, zorla müdaxilə etmir.

7. İnformasiyada adının açıqlanmasını istəməyən mənbənin anonimliyini qoruyur.

8. Hədə-qorxu ilə informasiyanın gizlədilməsi hallarına etiraz edir.

9. Əldə etdiyi informasiyanın ədalətsiz olduğunu bildiyi halda onu tirajlamır.

10. Hər hansı bir şəxsin yaşı, cinsi, irqi, hüquqi və ailə statusu və cinsi orientasiyası barədə nifrətə və ya ayrı-seçkiliyə gətirib çıxaran heç bir material yayılmamalıdır.

11. Yaydığı informasiyada kommersiya marağının və reklamın əks olunmasına yol vermir.

12. Plagiatlığa yol vermir.

## Əlavə 4

## "WASHINGTON POST" QƏZETİNİN PRİNSİPLƏRİ

"Washington post" qəzeti hər hansı baxışları əks etdirməkdən çəkinməyərək, heç kəsə və heç nəyə üstünlük verməyərək həqiqətin təsdiqinə fəal, məsuliyyətli və ədalətli yanaşma siyasətini əsas tutur.

Reportyorlar və redaktorlar bütün tapşırıqlara vicdanlı, açıq və təmənnasız münasibət bəsləməlidirlər. Həmişə əks nöqteyi-nəzəri axtarmaq lazımdır. Qəzetin səhifəsində ünvanına iradlar deyilən şəxslərə bu iradlara cavab vermək imkanı yaratmalıyıq. Bizə öz nöqteyi-nəzərini təlqin edən şəxslərin motivləri öyrənilməlidir. Nəzərə almaq lazımdır ki, bu motivlər xeyirxah, alçaq və dolaşıq ola bilər.

Biz özümüzə belə bir hesabat verməliyik ki, azad dünyanın paytaxtının əsas səhər qəzeti olaraq əldə etdiyimiz səlahiyyət üzərimizə aşağıdakı öhdəlikləri qoyur:

"Danışmayan çoxluğun" sözünü eşitmək;

Təkəbbürlülüyün bütün təzahürlərindən uzaq olmaq;

İctimaiyyətə hörmət və vicdanla yanaşmaq.

## Maraqların toqquşması

Bizim qəzetimiz bütün hallarda maraqlar toqquşmasının nəinki özündən, hətta onun görüntülərindən də qaçmaq siyasəti yeridir. Biz məsələyə belə siyasət praktikası qəbul edərək özümüzə hesabat veririk ki, bizim məhdudiyyətlər özəl sektorda olan qaydalardan daha sərtdir.

Biz həmişə özümüzü dəyərləndiririk:

Biz informasiya mənbəyindən hədiyyə qəbul etmirik. Biz özgələrin hesabına ezamiyyətə getmirik. Biz heç vaxt qəzetimizə təklif oluna biləcək imkanlardan istifadə etmirik. Daimi və qeyri-müntəzəm, xüsusi məqsəd güdməyən restoran dəvətləri bu qaydalarda istisna ola bilər.

Rəhbərliyin razılığı olmadan biz başqa təşkilata xidmət göstərmirik. Əsas işdən kənar hər hansı fəaliyyət və ya iş müstəqil qəzetdəki fəaliyyətlə bir araya sığa bilməz. Hakimiyyətlə əlaqələr xüsusilə yolverilməzdir. İşgüzar və maliyyə məsələlərinin işıqlandırılmasında maraqların toqquşmasına yol verməmək naminə maliyyə və biznes şöbəsinin bütün əməkdaşları öz maliyyə işləri və kapital qoyuluşları haqqında şöbəyə cavabdeh redaktor müavininə informasiya təqdim etməlidir. Ziddiyyətlərin yaranması ehtimalı təkcə maliyyə və biznes şöbəsinin əməkdaşları ilə məhdudlaşmır. Bütün jurnalistlər və redaktorlar iş yerindən asılı olmayaraq şöbə müdirlərinə əsas vəzifə borcunu yerinə yetirərkən maraqlar toqquşması təsəvvürü yarada biləcək maliyyə əməliyyatları barədə məlumat verməlidirlər. Şöbə müdirləri də öz maliyyə əməliyyatları barədə yuxarı rəhbərliyi xəbərdar etməlidirlər.

Şöbə müdirinin icazəsi olmadan biz şifahi çıxışlar etmirik. Başqa təşkilat üçün material hazırlanmasına o halda yol verilir ki, "Washington post" bu materialda maraqlı olmasın və bu material bizimlə rəqabətdə olan başqa qəzetdə dərc edilməsin. Əsas odur ki, başqa qəzetdə işə görə verilən qonorar gizli rüşvət kimi qiymətləndirilməsin.

Biz yeni informasiya mənbəyindən və kiminsə maraqlarından asılı olmamaq üçün mümkün olan hər şeyi etməliyik. Biz ictimai vəziyyətinə görə jurnalistin maraq dairəsinə düşəcək adamlarla ehtiyatlı olmalıyıq. Bizim şəxsi və peşə davranışımız qəzeti və peşəmizi şübhə altına almamalıdır.

Bizim qərəzsizlik və ədalətlilik imici qazanmış qəzetimizin nüfuzuna xələl gətirə biləcək siyasi aksiyalarda, ictimai hərəkatlarda, nümayişlərdə və digər işlərdə fəal iştirak etməkdən çəkinirik. Bu qaydalar əməkdaşların qohumlarına şamil edilmir, ancaq etiraf etmək lazımdır ki, onların xidməti vəziyyəti və ictimai işlərdə iştirakı ən azı bizim nüfuzumuza xələl gətirə bilər. Əməkdaşın qohumları və ailənin digər üzvləri ilə işgüzar və peşə əlaqələri şöbə müdirlərindən gizli olmamalıdır.

Jurnalist və onun işi

Jurnalist auditoriyanın bir hissəsi olmaq üçündür. Səhnə ulduzu olmaq üçün deyil, səhnənin fəhləsi olmaq üçündür, hadisəni yaratmaq üçün deyil, onun barəsində informasiya vermək üçün mümkün olan hər şeyi etmək üçündür...

Yeniliklər barədə xəbər toplayan jurnalistlərin özlərini başqa şəxslər kimi qələmə verməyə hüququ yoxdur. Onlar özlərini polis, həkim və s. kimi təqdim edə bilməzlər.

***Səhvlər***

Bizim qəzetmiz səhvləri minimuma endirməyə və buraxılan səhvləri tez düzəltməyə cəhd göstərir.

Dəqiqlik-bizim vəzifəmizdir. Vicdanlılıq-bizim müdafiəmizdir. Bizim səhvlərimizi göstərən adamları hörmətlə dinləməyi bacarmalıyıq.

İnformasiya mənbələri

"Washington post" mümkün olan bütün hallarda informasiyanın mənbəyini açmaq qaydalarına əməl edir. Mənbənin açıqlanmaması barədə razılıq əldə edilibsə, bu barədə informasiya heç vaxt redaksiyadan kənara çıxmayacaqdır.

Anonim informasiya mənbəyindən istifadə edərkən jurnalist bu mənbəyi leqallaşdırmağa cəhd göstərməlidir. Bu cəhd baş tutmadıqda informasiyanı başqa mənbədə axtarmaq lazımdır. Bu da baş tutmasa jurnalist mənbəyi niyə göstərmədiyinin səbəbini öz yazısında bildirməlidir.

Bununla belə, təxmini olsa da, informasiyanın mənbəyini göstərmək həmişə mümkündür. Ləqəbdən istifadə etməyə icazə verilmir. Bütün hallarda "Washington post", xüsusi vəziyyət istisna olmaqla, qəzet rəhbərliyinin icazəsi olmadan Amerika kəşfiyyat xidməti agentlərinin adını heç vaxt açıqlamayacaq.

***Plagiat və mənbəyi göstərmək***

Başqa qəzet və kütləvi informasiya vasitələrindən götürülüb dərc edilən materialların yeri mütləq göstərilməlidir. Plagiatlıq jurnalistikanın ən ağır gü-

nahıdır. "Washington post" çap etdiyi materialın hansı nəşrdən götürüldüyünü həmişə göstərir.

***Qərəzsizlik***

"Washington post" qəzetinin jurnalistləri və redaktorları qərəzsizlik prinsipini əsas götürürlər. Obyektivlik barədə mübahisələr sonsuza qədər davam edə bilər, lakin qərəzsizlik konsepsiyasını jurnalistlər və redaktorlar həmişə anlaya və qəzetin səhifələrində həyata keçirə bilərlər. Qərəzsizliyə aşağıdakı sadə qaydalara əməl etməklə nail olmaq mümkündür:

Əsas faktların buraxıldığı heç bir materialı qərəzsiz hesab etmək olmaz. Qərəzsizlik və tamlıq bir-birindən ayrılmazdır.

Əsas faktların əvəzinə işə dəxli olmayan informasiyanın daxil olduğu material qərəzsiz hesab edilə bilməz. Qərəzsizlik vicdanlılıq deməkdir.

Əgər müəllif öz mövqeyini, yaxud emosiyasını "imtina edilmişdir", "buna baxmayaraq", "etiraf etmək", "kütləvi" tipli cəlbedici terminlərdən istifadə ilə ifadə edirsə, material qərəzsiz hesab edilə bilməz. Qərəzsizlik - cəlbedicilik və bağıran ifadələr deyil, birbaşalılıqdır.

***Materialların müəyyənləşdirilməsi***

Bizim qəzetimizdə xəbərlər sütununu redaksiya materialları və "rəylər"dən qəti surətdə ayırmaq praktikası vardır. Bu, yeniliklər haqqında informasiya almaq və baş verənlərə redaksiya materialları və "rəylər" sütunundakı mövqeyi bilmək hüququ olan oxucunun mənafeyi naminə edilir. Bununla belə həmin praktikanın informasiyadan həqiqətlərin çıxarılması, hadisələrin dərindən işıqlandırılması və ya onların təhlili və şərhi ilə heç bir əlaqəsi yoxdur.

***Ümummilli və yerli maraqlar***

"Washington post"qəzetinə milli maraqlar kimi yerli maraqlar da doğmadır. Biz inanırıq ki, məsələyə belə yanaşma informasiyanın daha yaxşı yayımına xidmət edir. Federal hakimiyyətin milli maraqlar üzərində monopoliyası milli maraqlarla avtomatik olaraq eyniləşdirilmir. Eləcə də yerli hakimiyyətin yerli maraqlar üzərində monopoliyası yerli maraqlarla avtomatik olaraq eyniləşdirilmir.

***Zövq məsələləri***

"Washington post" yaxşı zövqə və abır normalarına hörmət edir və bununla belə bu anlayışların cəmiyyətdə müntəzəm dəyişdiyini də anlayır. Keçmiş nəsil üçün təhqiramiz olan bir sıra ifadə çox vaxt indiki nəsil üçün adi sayılır. Bununla belə biz kontekstə, məzmuna xidmət etməyən abırsız söz və ifadələrdən qaçırıq. Bütün hallarda belə sözlərdən istifadəyə redaktor müavininin razılığı olmalıdır.

***"Washington post"un əsas prinsipləri***

"Washington post" qəzeti 1933-cü ildən onu satın almış Yucin Meyerin ailəsinin mülkiyyətidir. Qəzeti alandan dərhal sonra Y.Meyer bu "Prinsiplər"i dərc etmişdir;

Qəzetin birinci dərəcəli missiyası - mümkün olan qədər həqiqəti axtarmaq və xəbər verməkdir.

Qəzet Amerikaya və dünyaya aid onda olan bütün həqiqəti işıqlandırmalıdır.

Yeniliklər barədə xəbər verən qəzet nəcib cəmiyyətin qəbul etdiyi abıra söykənməlidir.

Qəzetdə dərc edilən materiallar gənclərin də, yaşlı nəslin də oxumasına sərfəli olmalıdır.

Qəzet sahibinə deyil, öz oxucularına və cəmiyyətə xidmət etməlidir.

Həqiqəti müdafiə edən qəzet, yeri gələndə, ictimai maraqlar naminə maddi maraqları qurban verməyə hazır olmalıdır. Qəzet kiminsə tərəfində dayana bilməz, yaxud xüsusi maraqları müdafiə edə bilməz. İctimai həyatı işıqlandırmaqda o, ədalətli olmalıdır.

---

## Əlavə 5

## Azərbaycan Jurnalstlərinin Peşə Davranışı Qaydaları

(Sənəd 2003-cü il martın 15-də Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilib. ATƏT və Mətbuat Şurasının birgə layihəsi əsasında 2011-ci ildə təkmilləşdirilib)

PRİNSİP 1: Həqiqətə xidmət, dəqiqlik və obyektivlik

1.1. Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşəkarlıq meyarıdır.

1.2. Jurnalist hazırladığı yazıda tənqid obyektinin mövqeyini öyrənib bildirməlidir. Bu, mümkün olmadıqda, tənqid obyekti tələb edərsə, öz fikirlərini çatdırmağa çox qısa vaxtda ona şərait yaradılmalıdır. Plüralizm prinsipinə əməl edilməlidir.

1.3. Yazıda şərhlər elə şəkildə ifadə edilməlidir ki, oxucu onu xəbərdən, faktdan ayıra bilsin, bunun məhz jurnalistin mövqeyi olduğunu anlasın.

PRİNSİP 2: İnformasiya qaynaqlarına sayğılı yanaşma

2.1. Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Lakin bilgi verən şəxs adının gizli saxlanması şərtini irəli sürürsə, jurnalist və informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. İnformasiya qaynağının gizliliyi qorunmalıdır.

2.2. Qeyri-rəsmi mənbələrin məlumatları onların həqiqətə uyğunluğu və informasiya dəyəri yoxlanılmadan yayılmamalıdır. İnformasiya çapa hazırlanarkən onun mənası təhrif olunmamalıdır. Başqa mətndən və ya çıxışdan sitat gətirərkən jurnalist həmin sitatın harada başlandığını və bitdiyini dəqiq bildirməlidir. Foto-simvolların (illüstrasiya, fotomontaj və sair) dərci zamanı şəklin sənədli xarakter daşımadığı qeyd olunmalıdır. Yazıların sərlövhələri onun məzmununa uyğun gəlməlidir.

2.3. Jurnalist çalışmalıdır ki, götürdüyü müsahibəni onu verən adamın özü, yaxud da vəkil etdiyi şəxs imzalasın. Bu, mümkün olmadıqda, müsahibənin hansı şəkildə çap ediləcəyi, hətta jurnalistin özünün

verdiyi sualların belə sonradan dəyişdirilib-dəyişdirilməyəcəyi müsahibə öncədən bildirilməlidir.

2.4. Jurnalistin müstəsna hal kimi digər imkanları mövcud olmadıqda, ictimai əhəmiyyət kəsb edən informasiyanın əldə edilməsi üçün xüsusi avadanlıqlardan (gizli kameralar, gizli mikrofonlar və sair gizli vasitələrdən) və ya üsullardan ("qurama" kimlik və s.) istifadə edə bilər.

2.5. Jurnalist məlumatların və ya təsvirlərin əldə edilməsi məqsədi ilə hədələməyə, güc tətbiqinə və ya təhdidə yol verməməlidir.

PRİNSİP 3: Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı

3.1. Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli, onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır.

3.2. Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.

3.3. Jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz.

3.4. Jurnalist və kütləvi informasiya vasitəsi buraxdığı səhvi, həmin səhvi kimin müəyyən etməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırmalıdır. Düzəliş zamanı aydın olmalıdır ki, əvvəl verilən məlumat tam, yoxsa konkret hansı hissədə səhvdir.

3.5. Şəxsi xarakter daşıyan məktublar dərc edilərkən onların müəllifindən, göndərildiyi şəxsdən və ya həmin şəxsin varislərindən icazə alınmalıdır.

3.6. Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərərçəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai fiqur olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar (18 yaşı tamam olmamış şəxslər) törədibsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır.

3.7. Jurnalist, cinayətdə şübhəli bilinən şəxsin təqsirsizlik prizumpsiyası hüququna hörmətlə yanaşmalı, onu təqdim edərkən onun cinayətkar kimi yox, şübhəli şəxs qismində saxlanılan şəxs kimi təqdim etməlidir.

3.8. Kütləvi informasiya vasitəsi hər hansı vətəndaşın şübhəli şəxs kimi həbs olunması, yaxud istintaqa cəlb edilməsi barədə məlumat yaymışsa və sonradan onun təqsirsizliyi sübuta yetmişsə, həmin informasiya orqanı bu barədə mütləq xəbər verməlidir.

3.9. Jurnalist uşaqların məsumluğu və inamından sui-istifadə etməməli, onların hüquqlarına hörmətlə yanaşmalı və onların fikirlərinin çatdırılması ilə bağlı xüsusi məsuliyyət nümayiş etdirməli, valideyinlərinin və ya qanuni himayəçilərinin icazəsi olmadan uşaqlardan müsahibə götürməməyə səy göstərməlidir. Daha vacib ictimai əhəmiyyət kəsb edən maraqların mövcud olduğu hallar istisna olmaqla, jurnalist uşaqların şəxsi həyatı barədə məlumatları və ya fotoşəkilləri dərc etməməlidir. Jurnalist faciə və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə hadisələrə cəlb edilmiş uşaqların kimliyini mütləq qorumalıdır.

3.10. Cinayət əməli törətməsi ilə bağlı şəxsə qarşı ittiham irəli sürülmüşsə, bu mövzuda məhkəmənin obyektivliyinə təsir göstərəcək reportajlar hazırlanmamalı, hazırlanan reportajlarda isə bütün tərəflərin fikirləri əks olunmalıdır. Cinayət əməllərinin qurbanları öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır. Seksual təcavüzlə bağlı hallarda bu qaydaya xüsusi əhəmiyyət verilməlidir. Şahidlər öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist, ictimai əhəmiyyət daşımırsa belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır.

3.11. Jurnalist cinayət əməlləri, zorakılıq, qəddarlıq və intihar halları barədə reportajlarda belə əməllərin təşviqi və ya əsassız olaraq sensasiyalı formada təqdim olunmasından çəkinməlidir. Jurnalist zorakılığı təşviq edən, təhrik etməyə səy göstərən və ya belə hallara əl atan şəxslər tərəfindən vasitə kimi istifadə olunmamalı, əksinə, öz reportajlarında belə şəxslərin fəaliyyəti barədə müvafiq məhdudiyyətləri tətbiq etməli və yalnız müvafiq informasiyanın ictimai əhəmiyyət kəsb etməsi şübhə doğurmadıqda bu barədə reportajlar hazırlamalıdır.

3.12. Jurnalist və redaksiya terror hadisəsini şişirdən, terrorçuların məqsədinə xidmət edə biləcək qorxu effekti yaradan, terroru təblig edən və terror hərəkətinə bəraət qazandıran reportajlar verməməlidir.

PRİNSİP 4: Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması

4.1. Jurnalist cəmiyyəti dəqiq informasiya ilə təmin etmək qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı şəxsi, siyasi və ya maliyyə xarakterli həvəsləndirmələr qəbul etməməli, qiymətli hədiyyə almamalı, yaxud özünə pulsuz xidmət göstərilməsinə şərait yaratmamalıdır. Jurnalist redaksiya sənədindən və informasiyaya çıxış imkanlarından, habelə, biznes fəaliyyəti və maliyyə bazarları barədə məlumatlardan şəxsi mənfəət əldə etmək məqsədi ilə istifadə etməməlidir. Jurnalist birbaşa şəxsi marağının olduğu məsələlər barədə reportajlar hazırlamaqdan çəkinməli və belə maraqları olduqda həmin maraqları öz müvafiq reportajında bildirməlidir.

4.2. Jurnalist redaksiyanın verdiyi qərarlarla media qurumunun kommersiya siyasətini bir-birindən fərqləndirməli və bu barədə dəqiq təsəvvürlərə malik olmalıdır. Jurnalist redaksiyada çalışdığı vaxtda onun və ya işlədiyi informasiya orqanının reputasiyasına kölgə salan, obyektivliyinə inamı azaldan hər hansı başqa işlə məşğul olmaqdan, siyasi təşkilatlara üzvlükdən çəkinməli, siyasi və ya kommersiya xarakterli təzyiqlərə məruz qalmamalı və müstəqil olmalıdır.

4.3. Jurnalist redaksiya mətnləri, marketinq, reklamlar və ya sponsorluq vasitəsi ilə dərc olunan materialları bir-birindən dəqiqliklə fərqləndirə bilməlidir. Redaksiya tapşırığı qanunlara və peşə əxlaqına zidd olduqda, jurnalistin həmin tapşırıqdan imtina etmək hüququ var. Redaktə zamanı jurnalistin fikirləri təhrif olunubsa, o, həmin materialın öz imzası ilə verilmə-

sindən imtina edə bilər.

4.4. Redaksiya sirri Azərbaycan Respublikasının qanunlarının və Peşə Davranışı Qaydalarının pozulması ilə bağlı deyilsə, jurnalist həmin sirri qorumağa borcludur.

4.5. Jurnalist hazırladığı materialı işlədiyi kütləvi informasiya vasitəsinin rəhbərliyi ilə razılaşdırmadan başqalarına təklif edə bilməz.

4.6. Plagiat yolverilməz hərəkətdir. Bütün hallarda ədəbi oğurluğun hər hansı forması qəbuledilməzdir. Jurnalist müəlliflik hüquqlarına və müəlliflik hüquqlarına dair müqavilələrin şərtlərinə hörmətlə yanaşmalıdır. Jurnalist media vasitələrindən götürməklə istifadə etdiyi bütöv materiallar və ya qısa çıxarışların mənbələrini hər bir halda göstərməlidir. Jurnalist digər media vasitələrində dərc olunmuş bütöv materiallardan və ya geniş həcmli çıxarışlardan təkrarən istifadə etdikdə, mütləq müvafiq müəllif və media vasitələrini xəbərdar etməli və həmin mənbələri göstərməlidir.

4.7. Jurnalist yazılarında vulqar ifadələrin, jarqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır.

4.8. Jurnalist zərurət olmadıqca informasiya mənbələrinə pul ödəməməlidir. Lakin ictimaiyyətin əldə etmək hüququnun olduğu informasiyanı toplayarkən ödənişlərə zərurət duyulduğu hallarda belə ödənişlərin həyata keçirilməsi müvafiq reportajda göstərilməlidir.

4.9. Müxtəlif media vasitələri və media sahəsindəki peşəkarlar arasındakı münasibətlər medianın dürüstlüyünü qoruyub saxlamaq baxımından qarşılıqlı hörmət və vicdanlı rəqabətlə şərtlənməlidir.

4.10. İctimaiyyətin media vasitələrinin sahibləri və belə vasitələrə nəzarət edənlər barədə məlumatlandırılmaq hüququ vardır.

4.11. Jurnalist hücuma və ya qərəzli olaraq tənqidə məruz qalan həmkarlarını dəstəkləməlidir. Bununla yanaşı, peşəkar həmrəylikdən informasiyanın gizlədilməsi və ya təhrif edilməsi üçün bəhanə kimi istifadə edilməməlidir.

Bu qaydaların pozuntusu yalnız o halda əsaslandırıla bilər ki, nəşr olunmuş müvafiq material ictimaiyyətin maraqlarına xidmət etsin.

Bu qaydaların ifadə etdiyi maraqlar nəzərə alınmaqla, “ictimai əhəmiyyət” anlayışı “ictimaiyyət üçün maraqlı” olan informasiya ilə qarışdırılmamalıdır.

Nəşr olunmuş materiallar ictimai əhəmiyyət kriteriyasına yalnız aşağıdakı hallarda cavab verir:

- sağlamlıq və təhlükəsizliyin qorunması;
- ictimaiyyətin ağır cinayətlərdən və vəzifədən sui-istifadə hallarından müdafiə olunması;
- ictimaiyyətin əhəmiyyətli dərəcədə yanlış istiqamətləndirilməsi təhlükəsinin aradan qaldırılması.

---

## Əlavə 6

# BEYNƏLXALQ JURNALİSTLƏR FEDERASİYASI

## *MEDİA ƏMƏKDAŞLARI üçün Uşaqlarla bağlı məlumat bələdçisi*

Bütün jurnalistlər, media peşəkarları peşə standartlarını, etik peinsipləri qorumaq, işlərində tətbiq etmək öhdəliyi daşıyırlar. Xəbər yayımı prosesində Uşaq Hüquqlari üzrə Beynəlxalq Konvensiyanın tələblərinə əməl edilməsi də bu sıradandır.

Media təşkilatları uşaq hüquqlarının pozulması, uşaqların təhlükəsizliyi, qorunması, təhsili, sağlamlığı və sosial rifahı, bütün formalarda istismarı ilə bağlı problemləri qiymətləndirməlidirlər. Uşaqların özləri barədə informasiyanın konfidinseallığına tam hüquqları var, yeganə istisnalar bu bələdçidə aşkar ifadə edilir. Uşaqların həyatını və rifahını mövzu seçən jurnalistin fəaliyyəti, həmişə uşaqların həssas vəziyyətinin qiymətləndirilməsi ilə müşaiyət edilməlidir.

Jurnalistlər və media qurumları uşaq qayğıları ilə bağlı məlumat verilməsində ən yüksək etik standartları saxlamalıdırlar. Xüsusən də:

Uşaqlarla bağlı problemlər barədə məlumat verərkən həssaslıq , dəqiqlik baxımından yüksək standartlara riayət etməli;

uşaqlara zərər yetirəcək məlumatların, təsvirlərin nəşrindən boyun qaçırmalı;

uşaqları cəlb edən jurnalist materiallarının yayılması üçün sensasıyalı təqdimatların istifadəsindən boyun qaçırmalı;

uşaqlarla əlaqəli istənilən informasiyanın nəşr olunması nəticəsində yaranacaq durumu diqqətlə təhlil etməli, uşaqlar üçün ziyanı azaltmalı;

ictimai maraq tələb etməyincə, uşaqların vizual görüntülənməsindən və tanıdılmasından yayınmalı;

öz fikirlərini ifadə etmək üçün uşaqlara mediadan istifadə hüququ verməli;

uşaqlar tərəfindən çatdırılan məlumatın müstəqil yoxlanılmasına zəmanət verilməli, yoxlanılmanın uşağa təhlükə olmadan yerinə yetirilməsini təmin etmək üçün xüsusi qayğı göstərməli;

uşaqların qeyri-ənənəvi təsvirlərinin istifadəsindən boyun qaçırmalı;

təsvirlərin əldə edilməsi üçün ədalətli, açıq və düzgün metodlardan istifadə etməli, onları uşaqların və ya məsul böyük şəxsin, himayəçi və ya baxıcısının razılığı ilə əldə etməli;

Uşaqların maraqlarını təmsil etməyə niyyətli olan istənilən təşkilatın etimadnaməsini yoxlamalı;

uşağın marağı tələb etməyincə, uşaqlara, valideynlərə və ya himayəçilərə uşaqların rifahını əhatə edən informasiya üçün ödəniş etməməli.

Jurnalistlər fəaliyyət göstərdikləri ölkələrdə hökümətləri tərəfindən BMT-nin Uşaq Hüquqları ilə bağlı Konvensiyasının yerinə yetirilməsi səviyyəsini araşdırmaq üçün tədqiqat aparmalıdırlar.

Media uşaqların vəziyyəti barədə yalnız hadisələr baş verəndə məlumat verməməli, bu hadisələrin yaranmasına gətirən prosesləri davamlı olaraq diqqətdə saxlamalı və məlumat verməlidir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


· Bagdikian B.H. (2004), The new media monopoly, Beacon Press, Boston, Massachusetts, US.
· Bruneau W. and Turk J.L. (Eds) (2004), Disciplining dissent - The curbing of free expression in academia and the media, James Lorimer & Company Ltd., Toronto, Ontario, Canada.
· Davies N. (2008), Flat Earth News, Chatto & Windus, London, UK.
· Franklin B. (Ed.), Journalism Studies, Vol. 8, No. 6, December 2007, Taylor & Francis Inc., Philadelphia, Pennsylvania, US.
· Gillmor D. (2004), We the media - Grassroots journalism by the people, for the people, O'Reilly Media Inc., Sebastopol, California, US.
· Gopsill T. and Neale G. (2007), Journalists - 100 Years of the NUJ, Profile Books Ltd., London, UK.
· Gutman R. and Rieff D. (1999), Crimes of War - What the public should know, W.W. Norton & Company Ltd., London, UK.
· Harcup T. (2007), The Ethical Journalist, SAGE Publications Ltd., London, UK. Hargreaves I. (2005), Journalism - A Very Short Introduction, Oxford University Press,
· Oxford, UK. Hight J. and Smyth F. (2003), Tragedies and Journalists - a guide for more effective coverage, Dart Center for Journalism & Trauma, Washington University, Seattle, US.
· Hobsbawm J. (Ed.) (2006), Where the truth lies - Trust and morality in PR and journalism, Atlantic Books, London, UK. Husband, C. (Ed.) (1994), A Richer Vision - The Development of Ethnic Minority Media in
· Western Democracies, UNESCO Publishing, Paris, France.
· Keeble, R. (2001), Ethics for journalists, Routledge, London, UK.
· Knightley, P. (1975), The First Casualty - The War Correspondent as Hero, Propagandist and Myth Maker from the Crimea to Vietnam, Andre? Deutsch Limited, London, UK.
· Kovach B. and Rosenstiel T. (2001), The Elements of Journalism - What Newspeople Should Know and the Public Should Expect, Three Rivers Press, New York, US.
· Lambeth, E. (1986) Committed Journalism: An Ethic for the Profession (Midland Books: No. 364)
· Lee, P. (1995), The democratization of communication, University of Wales Press, Cardiff, Wales.
· Mansfield F.J. (1943), Gentlemen, the Press! - chronicles of a crusade - The Official History of the National Union of Journalists, Turner & Dunnett Ltd., Liverpool, UK.
· Nordenstreng (Ed.) (1995), Reports on media ethics in Europe, Tampere University, Finland. O'Neill O. (2004), Rethinking freedom of the press, Royal Irish Academy, Dublin, Ireland.
· Rosen J. (1999), What are journalists for?, Yale University Press, New Haven and London.
· Roy O. (2007), Secularism confronts Islam (translated from French into English), Columbia University Press, West Sussex, US.
· Schnellinger L. and Khatib M. (2006), Fighting Words - How Arab and American journalists can break through to better coverage, International Center for Journalists, Washington DC, US.
· Siroka J, (2005), Ethics and Journalism in the South Eastern Europe, Media Center, Belgrade, Serbia.
· Williams F. (1957), Dangerous Estate - The Anatomy of Newspapers, Longmans, Green and Co., London, UK.
· "Vlastğ, zerkalo ili slujanka?" (M., 1998),
· "Spravoçnik dlə jurnalistov stran Üentralğnoy i Vostoçnoy Evropı" (M., 1998),
· "Professionalğnaə gtika jurnalistov" (M., 1999),
· "Analitiçeskaə jurnalistika: poznovatelğno-psixoloqiçeskiy podxod" (A.A.Tertıçnıy. M., 1998)
· Taskın Takış. "Etika". Ankara, Batı Yayınları, 2004,
· Oktay: "Kitle İletişimAraçılarının Uluslararası Sorumluluğu ve İletişim Ahlak Kuralları". Ankara, 2010
· Avraamov D.S. Professionalğnaə gtika jurnalista. M., 1999,
· Australian Journalists' Association Section (1997), Ethics in journalism - Report of the Ethics Review Committee, Media Entertainment and Arts Alliance, Melbourne University Press, Australia.
· Center for Independent Journalism (2005), Media: The Business of Ethics, the Ethics of Business, Center for Independent Journalism, Bucharest, Romania.
· Council of Europe Publishing (1998), Media and democracy, Council of Europe Publishing, Strasbourg.
· Council of Europe (1995), Comparative Study on Codes of Ethics - Dealing with Media and Intolerance, a draft report for the Council of Europe by Tampere University's Department of Journalism and Mass Communication.
· European Institute of the Mediterranean (2007), Mass Media and Mutual Perceptions, Barcelona, Spain.
· European Journalism Centre (2005), Media Literacy - Connecting Citzens II - Innovative practices, Maastricht, The Netherlands.
· European Journalism Centre (1998), Reporting ethnic minorities and ethnic conflict - beyond good or evil, Bromley M. and Sonnenberg U. (Eds), Maastricht, The Netherlands.
· International Council on Human Rights Policy (2002), Journalism,media and the challenge of human rights reporting, Versoix, Switzerland.
· International Federation of Journalists (1999), Reporting Ethnic Conflict in Nigeria, Rotimi Sankore (Ed.).
· International Federation of Journalists (1997), Rapport sur la diversite? ethnique en Afrique, Peter McIntyre (Ed.).
· International Federation of Journalists (1999), Rapport sur les Droits de l'Homme en Afrique, Peter McIntyre (Ed.).
· International Federation of Journalists (2000), L'Olped, pionnier de l'autore?gulation des me?dias en Afrique, Zio Moussa (Ed.).
· Organisation for Security and Co-operation in Europe (OSCE) (2008), The Media Self- Regulation Guidebook, OSCE, Vienna, Austria.